Türk dünyasının böyük oğlu,
Azərbaycan xalqının xilaskarı,
müstəqilliyimizin banisi,
görkəmli dövlət xadimi,
ümummilli liderimiz
Heydər Əlirza oğlu Əliyevin
əziz xatirəsinə ithaf edirəm

*«Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir»*

**HEYDƏR ƏLİYEV**

**Abuzər Xələfov**

# HEYDƏR ƏLİYEV
## və
## Azərbaycanda Kitabxana işi

**AZƏRNƏŞR**
**BAKI 2006**

**UOT: 021 (09)**
**KBT: 78-33**

Elmi məsləhətçi:
**S.Y.Məmmədəliyeva**, fəlsəfə elmləri doktoru, professor,
AMEA-nın müxbir üzvü

Elmi redaktor:
**T.X.Musayeva**, Azərbaycan Respublikasının
Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor

Redaktorlar:
**K.İ.Aslan,** pedaqoji elmlər namizədi, dosent
**L.A.Məmmədova**, tarix elmləri namizədi

Rəyçilər:
**X.İ.İsmayılov,** tarix elmləri doktoru, professor
**N.İ.İsmayılov**, pedaqoji elmlər namizədi, dosent

**Xələfov Abuzər Alı oğlu**
**X-49 Heydər Əliyev və Azərbaycanda kitabxana işi**. - Bakı. Azərnəşr, 2006.- 312 s.

Kitabda ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsindəki misilsiz xidmətləri ümumiləşdirilib elmi nəticələr çıxarılır. Burada kitabxanaların xalqımızın mədəni-mənəvi tərəqqisində və cəmiyyətdəki rolu haqqında Heydər Əliyevin fikirləri şərh olunmuş, həmçinin onun XX əsrin II yarısında respublikada kitabxana şəbəkələrinin inkişafı, kitabxanaların mərkəzləşdirilməsi, kitabxana fondlarının inkişafı, əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması, kitabxanaların maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətindəki fəaliyyəti konkret faktlar əsasında təhlil edilmişdir. Kitabda müstəqillik dövründə kitabxanaların qorunub saxlanılması, kitabxana işinin inkişaf istiqamətləri və dövlətin kitabxana siyasətinin formalaşmasında Heydər Əliyev ideyalarının şərhinə geniş yer verilmişdir.

Kitabxana işçiləri, habelə mədəniyyət tarixi və ulu öndərin həyat və fəaliyyəti ilə məşğul olan tədqiqatçılar, eləcə də mədəniyyət və kitabxanaçılıq təhsili müəssisələrinin tələbələri və professor-müəllim heyəti üçün nəzərdə tutulmuşdur.

$$\frac{0503020907}{M-615(07)2006}$$

**© Azərnəşr, 2006**

# ÖN SÖZ

Digər əsrlər kimi, XX əsr də Azərbaycan xalqına çox böyük tarixi şəxsiyyətlər bəxş etmişdir. Bu şəxsiyyətlərdən biri də, ümummilli liderimiz, görkəmli dövlət, siyasət, elm və mədəniyyət xadimi Heydər Əlirza oğlu Əliyevdir.

XX əsrin II yarısında hakimiyyətə gələn, 34 il ardıcıl olaraq dövlət sükanı arxasında məharətlə dayanan, Azərbaycanın tərəqqisi və inkişafı üçün cahanşümul tarixi əhəmiyyətə malik işlər görən bu böyük insan Azərbaycan xalqının sevimli rəhbəri imicini qazanmaqla yanaşı, dünya şöhrətli bir şəxsiyyət səviyyəsinə qalxmış, dünyanın görkəmli siyasətçilərinin etiraf etdiyi kimi, Şərqin ulduzuna çevrilmişdir.

Heydər Əliyev çox maraqlı, mürəkkəb, zəngin, keşməkeşli bir ömür yolu keçmiş, həyatın bütün çətinliklərindən qalib çıxmış, öz zəhməti, zəkası, fitri qabiliyyəti ilə ən yüksək zirvəyə yüksəlmişdir. Bu uca zirvənin yolları daşlı-kəsəkli olsa da, polad iradəsi, dönməz xarakteri, şəxsiyyət bütövlüyü bu zirvəni fəth etməkdə ona kömək etmişdir.

Bütün dünyanın etiraf etdiyi böyük dövlət xadimi, görkəmli siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı, zəmanəmizin nadir şəxsiyyətlərindən biri Heydər Əliyev çox zəngin irs qoyub getmişdir. Xalqımızın mənəvi sərvəti olan bu zəngin irsi araşdırdıqca respublikamızın son 50 illik həyatında bu nəhəng şəxsiyyətin öz xalqına qırılmaz tellərlə bağlı olduğu, onu ürəkdən sevdiyi, Azərbaycanın inkişafı və tərəqqisi naminə böyük işlər gördüyü, bütün varlığını, həyatını Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə həsr etdiyi göz önünə gəlir. Heydər Əliyev bu quruculuğun əsasını 1970-ci illərdən qoymağa başlamışdı.

1950-ci ildə Sankt-Peterburq (Leninqrad) milli təhlükəsizlik orqanları məktəbini əla qiymətlərlə, 1957-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirən və böyük həyat təcrübəsinə malik olan Heydər Əliyev artıq gənc yaşlarından rəhbər işə irəli çəkilmiş,

1964-cü ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, 1967-ci ildə isə komitə sədri vəzifəsini tutmuşdur. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyevə qədər Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində digər millətlərdən olan şəxslər işləmişlər. Heydər Əliyev bu böyük vəzifəni tutan ilk azərbaycanlı olmuşdur. Heydər Əliyevin dövlətçilik məharətinə, təşkilatçılıq qabiliyyətinə hakimiyyətin yuxarı dairələrinin marağı gündən-günə artmış, o, böyük şəxsiyyət imici qazanmışdır.

Məhz buna görədir ki, 1969-cu ilin iyul ayında Heydər Əliyev Sov.İKP MK-nın tövsiyəsi ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. O bu vəzifəyə seçilərkən respublika rəhbərliyinin yuxarı eşalonunda böyük hərc-mərclik, dedi-qodu, anarxiya, qeyri-sabitlik hökm sürürdü. 60-cı illərdə respublikamız ittifaq respublikaları içərisində iqtisadi və sosial inkişaf baxımından SSRİ-nin geridə qalmış respublikalarından biri hesab edilirdi.

Respublikamız kənd təsərrüfatı, sənayenin inkişafı sahəsində Sovet İttifaqı respublikaları içərisində sonuncu yeri tuturdu. Dövlət planlarının heç biri yerinə yetirilmirdi.

Həmçinin həmin illərdə respublikamızda iqtisadi, siyasi sahədə olduğu kimi mədəniyyət sahəsində də böyük geriləmə prosesi baş vermişdi. Bu proses özünü mədəniyyətimizin mühüm sahəsi olan kitabxana işində də göstərmişdi. 1960-cı ildə vəsait çatışmazlığı əsas götürülərək 500-dən artıq müstəqil kütləvi kitabxana bağlanmışdı. Kəndlərimizin əksəriyyəti kitabxana xidmətindən məhrum olmuşdu. Kitabxana işi bilavasitə qalıq prinsipi əsasında maliyyələş-dirildiyindən kitabxanaların maddi-texniki bazası olduqca zəif idi. Xeyli vaxt idi ki, respublikada yeni kitabxana binaları tikilmirdi. Mövcud kitabxana binalarının əksəriyyətinin, xüsusilə kənd yerlərindəki binaların təmirə ehtiyacı var idi. Kənd rayonlarındakı xeyli yaşayış məntəqələrində kitabxanalar yox idi. Əlbəttə, bütün bunlar ölkədə əhaliyə kitabxana xidmətinin təşkilinə mənfi təsir göstərirdi.

Belə ağır bir şəraitdə hakimiyyətə gələn Heydər Əliyev öz təşkilatçılıq qabiliyyəti, möhkəm iradəsi sayəsində qısa müddətdə böyük müvəffəqiyyətlər əldə etdi, xalqın məhəbbətini qazandı, Azərbaycan xalqının sevimli, ədalətli rəhbərinə çevrildi.

Respublikanın zəhmətkeşləri, ziyalıları tərəfindən ardıcıl dəstəklənməyə başlandı.

Tarixçi alimlərimiz çox haqlı olaraq 1969-1983-cü illəri əhatə edən bu dövrü Azərbaycanın inkişafında dönüş dövrü kimi xarakterizə edirlər.

Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının birinci katibi seçildikdən sonra ölkənin inkişafında dönüş mərhələsi başlanmış, xalq təsərrüfatının bütün sahələrinin inkişafında, elm və mədəniyyətin, təhsil sisteminin tərəqqisində böyük nailiyyətlər əldə edilmişdir. Bu dövrdə xalqımızda milli qürur, milli mənlik şüuru oyanmış, xalq öz tarixini, soy-kökünü dərindən dərk etməyə, milli ideologiyanın formalaşması sayəsində ilk addımlar atmağa başlamışdır.

Məhz 1969-1985-ci illərdə respublikamızda mədəni quruculuq sahəsində həyata keçirilən böyük tədbirlər kitabxana işinin inkişafına da müsbət təsir göstərmiş, əvvəllər ləğv edilmiş kənd kitabxanaları planauyğun qaydada ardıcıl olaraq bərpa olunmuş, kənd rayonlarının yaşayış məntəqələrində kitabxanalar təşkil edilmiş, kitabxanaların maddi-texniki bazası möhkəmləndirilmiş, kitabxana işinin maliyyələşdirilməsinə diqqət artırılmışdır. Məhz bu illərdə həm kənd yerlərində, həm də şəhərlərdə yeni kitabxana binalarının tikilməsinə, mövcud binaların bərpa və təmiri işlərinə vəsait ayrılmağa başlanılmışdı.

Kitabxanaların mərkəzləşdirilməsi məsələsi respublikamızda da müvəffəqiyyətlə başa çatdırılmış, mühüm elmi-təcrübi nəticələr əldə edilmişdir.

Respublikada kütləvi kitabxana şəbəkəsi ilə yanaşı, ayrı-ayrı idarə və müəssisələrin, nazirliklərin və ictimai təşkilatların kitabxana şəbəkələri də böyük tərəqqi əldə etmişdilər.

Bu dövrdə xüsusilə Azərbaycan Təhsil Nazirliyinin (o zaman Maarif, Ali və Orta İxtisas Təhsili nazirlikləri), Səhiyyə Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Milli Elmlər Akademiyasının kitabxana şəbəkələri əsaslı surətdə yenidən qurulmaqla oxuculara kitabxana xidmətinin təşkilini xeyli yaxşılaşdırmağa müvəffəq olmuşdular. Kitabxanalar təhsil və elm sahəsinin əsas atributlarından biri kimi təhsilin və elmin inkişafına, kitabxana-informasiya xidmətinin təşkilinə layiqli

töhfələr vermişdir. Birinci mərhələyə yekun vurarkən böyük iftixar hissi ilə demək olar ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi (1969-1982-ci illər) qısa zaman kəsiyində respublikamız Sovet İttifaqının iqtisadi, siyasi və mədəni cəhətdən ən inkişaf etmiş, xalq təsərrüfatı, elm, mədəniyyət, təhsil sahələrində ən çox nailiyyətləri olan respublikalardan birinə çevrilmişdir. Azərbaycanın böyük iqtisadi inkişaf yoluna düşməsinin əsası qoyulmuşdur.

Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatına uğurlu yeniliklər, dəyişikliklər gətirdi. Məhz Heydər Əliyevin qayğısı nəticəsində həmin dövrdə Azərbaycan sosial-iqtisadi və mədəni cəhətdən yüksək səviyyədə inkişaf edərək Sovetlər Birliyinin ən böyük mükafatlarına layiq görülmüş, xalqımızın adı həmişə hörmət və iftixarla çəkilmişdir. Heydər Əliyevin qazandığı bu müvəffəqiyyətlər qısa zaman içərisində onun bir partiya və dövlət xadimi kimi nüfuzunun təkcə Azərbaycanda deyil, bütün SSRİ məkanında artmasına, böyük şöhrət qazanmasına səbəb oldu. Məhz buna görədir ki, o, 1979-cu ildə Sov. İKP MK Siya-

si Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə isə üzv seçildi. 1982-ci

ildə isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. SSRİ hökumətində ikinci şəxsiyyət olan Heydər Əliyev tezliklə Sovet İttifaqı məkanında, həmçinin xarici ölkələrdə müdrik dövlət xadimi kimi yüksək nüfuz qazandı. Bu da Sovetlər Birliyi dövründə beynəlxalq aləmdə öz fəaliyyəti ilə böyük şöhrət və hörmət qazanmış Azərbaycan oğlunun dünya siyasətində tutduğu yüksək yerdən xəbər verirdi.

O, Moskvada yaşayıb-işlədiyi müddətdə də Azərbaycanla əlaqəsini kəsməmiş, həmişə doğma respublikamızın qeydinə qalmış, onun inkişafı üçün əlindən gələni əsirgəməmişdir.

Doğrudur, Azərbaycan xalqının dahi oğlunun belə nüfuzlu bir vəzifəyə təyin edilməsi bütün Azərbaycan xalqının, həmçinin Türk dünyasının böyük fəxri idi. Xalqımız bu təyinatı fərəh hissi ilə qəbul etdi. Həmin günlərdə Azərbaycanda bayram əhval-ruhiyyəsi yaşanırdı.

Ancaq tezliklə respublikada Heydər Əliyevin yeri görünməyə başladı. Onun böyük çətinliklə əldə etmiş olduğu iqtisadi inkişaf

sürəti tədricən aşağı düşməyə, respublikada ətalət hökm sürməyə, idarəçilikdə nöqsanlar baş qaldırmağa başladı.

Heydər Əliyevdən sonra respublika rəhbərliyi baxımından Azərbaycanın bəxti gətirmədi. 1983-1993-cü illərdə respublikamıza çox səriştəsiz, siyasi cəhətdən savadsız, uzağı görə bilməyən insanlar başçılıq etmişlər.

80-ci illərin ikinci yarısından başlayaraq SSRİ dövləti tərəfindən müdafiə edilən qondarma Dağlıq Qarabağ problemi qızışdırılmağa başladı. Azərbaycana böyük təzyiqlər göstərildi. Yerevanda və Xankəndində Qarabağı Azərbaycandan qoparmaq üçün separatçı xarakterli mitinqlər başladı. 1988-ci ildə Ermənistanda yaşayan 230 mindən çox azərbaycanlı öz dədə-baba yurdlarından qovuldu. Hər tərəfdən böyük təzyiqlərə, öz dövləti tərəfindən ədalətsizliklərə məruz qalan xalqımız Azərbaycanı parçalamaq cəhdlərinə, Dağlıq Qarabağın Ermənistana verilməsi tələblərinə qarşı mübarizəyə qalxdı. 1988-ci il fevralın 19-da Bakı şəhərində ilk etiraz mitinqi keçirildi. Getdikcə etiraz dalğası kütləvi hal almaqla bütün respublikanı bürüdü. Belə bir şəraitin yaranması Moskva üçün gözlənilməz oldu. Moskva bu etiraz dalğasının qarşısını ala bilməyən, yaxud almaq istəməyən, olduqca iradəsiz və qətiyyətsiz Kamran Bağırovu 1988-ci il mayın 21-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsindən götürdü və onun yerinə Əbdürrəhman Vəzirovu gətirdi. Milli ruhdan, azərbaycançılıqdan çox-çox uzaq olan, öz ana dilini belə bilməyən Ə. Vəzirov xalqın milli mənafelərinə zidd siyasəti ilə Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında Sov.İKP-nin baş katibi Mixail Qorbaçovun rəhbərliyi ilə hazırlanmış məkrli planın həyata keçirilməsinə xidmət göstərməklə gözdən düşdü. Bütün bu hadisələr 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə gətirib çıxardı. Bu faciənin təşkilatçılarından və günahkarlarından biri olan Ə.Vəzirov Moskvaya - öz ağalarının yanına qaçmalı oldu. Ə.Vəzirovdan sonra hakimiyyətə gələn, xalqımızın müstəqilliyini istəməyən, suveren Azərbaycan Respublikasının yaranmaması üçün ciddi-cəhdlə çalışan, Azərbaycan torpaqlarının işğalına Şərait yaradan, Xocalı faciəsinin səbəbkarı olan Ayaz Mütəllibovun aqibəti də öz məsləkdaşı Ə.Vəzirovun aqibəti kimi

oldu. O da Moskvaya - öz ağalarının yanına qaçmağı doğma xalqa xidmətdən üstün tutdu.

Nəhayət, 1992-93-cü illərdə respublika prezidenti olan Əbülfəz Elçibəy də öz səriştəsizliyi üzündən dövləti idarə edə bilməyərək, ölkədə anarxiya, xaos yarandığı üçün Naxçıvana - Kələki kəndinə qaçıb getdi.

1991-ci ildə SSRİ dağıldıqdan sonra Azərbaycan müstəqillik əldə etdi. Azərbaycan xalqı illərdən bəri ürəyində bəslədiyi arzusuna çatdı. Ancaq bu müstəqillik Azərbaycan xalqına çox baha başa gəldi. 1988-ci ildə erməni daşnak millətçiləri tərəfindən qızışdırılan Dağlıq Qarabağ erməniləri Ermənistan Respublikasına və SSRİ dövlətinə arxalanaraq Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi niyyətlərini həyata keçirmək üçün açıq-aşkar separatçılıq və təxribatçılıq fəaliyyətinə başladılar.

Bu məsələnin həllində o zamankı Azərbaycan rəhbərliyinin tam biganəlik göstərməsi, Moskvanın tapşırıqlarını can-başla yerinə yetirməsi torpaqlarımızın bir hissəsinin ermənilər tərəfindən işğal olunmasına gətirib çıxardı. Müstəqillik əldə etdikdən sonra hakimiyyət başına gəlmiş Azərbaycan Xalq Cəbhəsi və Müsavat cütlüyü hakimiyyətinin səriştəsizliyi üzündən Dağlıq Qarabağ və ona bitişik olan rayonlarımızın əraziləri erməni faşistləri tərəfindən işğal edildi. Ölkədə siyasi hakimiyyət böhranı baş verdi.

Acınacaqlı haldır ki, 1993-cü ilin əvvəllərində Azərbaycanın bir neçə "müstəqil" bölgəyə parçalanması prosesi gedirdi. Respublikamızda ayrı-ayrı "xanlıqlar" yaradılması həvəsi ilə yaşayan, xalq tərəfindən tanınmayan və qətiyyətlə rədd edilən bəzi üzdəniraq liderlər üçün hakimiyyət ehtirası Vətən, xalq, torpaq kimi müqəddəs anlayışlardan çox-çox yüksəkliklərdə dururdu. Məhz belə bir dövrdə, ölkəmizin real vətəndaş müharibəsi ilə üz-üzə dayandığı bir zamanda xalqın çoxdan bəri arzuladığı şəxsiyyətin - Heydər Əlirza oğlu Əliyevin Azərbaycan rəhbərliyinə qayıtması ölkəni parçalanma bəlasından xilas etdi, milli dövlətçiliyimizin qorunub saxlanılmasına əlverişli şərait yaratdı.

Heydər Əliyevin 1993-cü ildən başlayaraq respublikamızda yaranmış çətinlikləri məhz xalqla məsləhətləşərək, xalqa arxalanaraq aradan

qaldırması ona bəslənilən ümidi və inamı durmadan artırdı. Onun milli dövlətçiliyimiz, milli ideologiyamız və müstəqilliyimiz istiqamətində apardığı işlər əvəzsizdir, misilsizdir. Bunu zaman bir daha sübut edir.

1993-2003-cü illəri əhatə edən ikinci mərhələ Azərbaycan xalqının hətında baş verən taleyüklü dövrü - müstəqillik dövrünü əhatə edir.

90-cı illərin əvvəllərində Azərbaycan xalqının xarici və daxili düşmənləri, müstəqil dövlətçiliyimizi gözü götürməyən xainlər və satqınlar hər vəchlə Azərbaycanı parçalamağa çalışır, Qarabağı Azərbaycandan qoparmaq niyyətinə düşən erməni faşistlərinin dəyirmanına su tökürdülər.

Nəhayət, 1993-cü ilin may-iyun aylarında baş verən dövlət böhranı, hakimiyyətsizlik, xaos, anarxiya o dərəcəyə gəlib çatmışdı ki, ölkə vətəndaş müharibəsi və müstəqilliyini itirmək təhlükəsi qarşısında qalmışdı. Məhz belə bir vəziyyətdə xalq ayağa qalxıb Heydər Əliyevi hakimiyyətə gətirdi.

Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıtdığı gün - 1993-cü ilin 15 iyunu Milli Qurtuluş günü elan olundu.

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra böyük cəsarətlə həyata keçirdiyi siyasət nəticəsində ölkəmizdə tam sabitlik yarandı, beynəlxalq aləmdə Azərbaycanın nüfuzu xeyli artdı. Belə ki, milli müstəqillik xətti məqsədyönlü şəkildə həyata keçirilmiş, ölkəmiz vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas olmuş, Azərbaycan Milli Ordusu yaradılmış, aparıcı dünya dövlətlərinin və beynəlxalq qurumların köməyi ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması üçün atəşkəs elan edilmiş, respublikamızda səmərəli iqtisadi islahatların aparılmasına başlanılmış, "Əsrin müqaviləsi" adlandırılan beynəlxalq neft kontraktı imzalanmış, bir sözlə, hüquqi və demokratik dövlət quruculuğunda böyük müvəffəqiyyətlər əldə edilmişdir. Bu illərdə ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycanın parlamenti - Milli Məclisi seçilmiş, dövlətimizin başçısı Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk müstəqil Azərbaycan Konstitusiyası ümumxalq referendumu yolu ilə qəbul olunmuşdur. Milli dövlətçilik ideyaları real həyatda öz parlaq ifadəsini tapmağa başlamışdır.

Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycan iqtisadiyyatı böyük dəyişikliklər və islahatlar mərhələsi keçmiş, bazar iqtisadiyyatına keçid və dünya iqtisadi sisteminə inteqrasiya prosesi baş vermişdir. 80-ci illərin sonu-90-cı illərin əvvəllərindəki iqtisadi tənəzzül dayandırılmış, demək olar ki, istehsalın əksər sahələrində ciddi inkişaf başlamışdır.

Bu dövrdə ölkəmizdə iqtisadi, siyasi və sosial sahədə olduğu kimi, mədəniyyət, təhsil və elm sahəsində də mühüm tədbirlər görülməyə, islahatlar aparılmağa, keçmiş totalitar rejimdən miras qalan neqativ hallardan yaxa qurtarılmağa başlandı. Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi dövlətçiliyimizlə yanaşı, Azərbaycan elmini, mədəniyyətini, təhsilini də dağılmaqdan və məhv olmaqdan xilas etdi. Xalq Cəbhəsi-Müsavat hakimiyyəti dövründə bir çox elm, təhsil və mədəniyyət müəssisələri bağlanmaq təhlükəsi qarşısında qalmış, binaları əllərindən alınmış, onlara ayrılan vəsait ya dayandırılmış, ya da miqdarı olduqca azaldılmışdı. Hakimiyyətdə olan "bəylər" Azərbaycan elminin baş qərargahı olan Milli Elmlər Akademiyasını bağlamaq haqqında təkliflər irəli sürür, Azərbaycan sovet ədəbiyyatının görkəmli nümayəndələri Səməd Vurğunun, Süleyman Rəhimovun, Süleyman Rüstəmin, Rəsul Rzanın, Əli Vəliyevin, Mehdi Hüseynin, Mirzə İbrahimovun və başqalarının sovet dövrü yaradıcılığını şübhə altına alırdılar. Bir çox görkəmli dövlət xadimlərini, görkəmli alimləri rus imperiyasına xidmət etməkdə təqsirləndirir, onları xain adlandırırdılar. Böyük vətənpərvər, ictimai-siyasi xadim, yazıçı və publisist Nəriman Nərimanovu xalq düşməni kimi qələmə verməyə çalışırdılar. Azərbaycan elminin, mədəniyyətinin və təhsilinin inkişafında böyük xidmətləri olan Heydər Əliyev tezliklə bu cür xalqa zidd hərəkətlərin qarşısını almaqla elm, təhsil və mədəniyyət sahəsində böyük islahatlar keçirdi, bu sahələrə ayrılan maliyyə vəsaitinin həcmini artırdı, onların inkişafı üçün geniş şərait yaratdı. Heydər Əliyev Azərbaycan dilinin dövlət dili statusunu öz fərmanı ilə daha da möhkəmləndirdi, onun hərtərəfli inkişafı, həyatın bütün sahələrində istifadəsi üçün geniş imkanlar açdı. Latın qrafikasına keçid kimi çox çətin və mürəkkəb proses Heydər Əliyevin böyük uzaqgörənliyi ilə çox müvəffəqiyyətlə başa çatdırıldı.

Mədəniyyətimizin mühüm sahələrindən biri olan kitabxana işi sahəsində çox mürəkkəb dövr olan son 10 ildə olduqca ciddi tədbirlər həyata keçirildi. Hər şeydən əvvəl kəskin maliyyə çətinliyinə baxmayaraq kitabxana şəbəkələri qorunub saxlandı. Bu gün fəxrlə demək olar ki, Azərbaycan MDB ölkələri içərisində dövlət kitabxana şəbəkəsini qoruyub saxlayan, kitabxana müəssisələrinin özəlləşdirilməsini qadağan edən yeganə respublikadır.

Bu dövrdə böyük öndər Heydər Əliyev bir neçə dəfə M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasına (əvvəllər Azərbaycan Dövlət Kitabxanası) getmiş, şəxsi kitabxanasından həmin kitabxanaya xeyli kitab bağışlamış, kitabxana, kitabxana işi və kitabxanaçı haqqında parlaq nitqlər söyləmiş, kitabxananı "xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyi" adlandırmışdır. Fərəhləndirici haldır ki, son 13 ildə kitabxana işi haqqında bir çox sərəncamlar və dövlət qərarları verilmiş, 1999-cu ildə Milli Məclis tərəfindən "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin qanunun böyük öndərimiz tərəfindən imzalanması mədəniyyətimizin bu mühüm sahəsinə böyük dövlət qayğısının təzahürüdür.

Beləliklə, xalqımızın böyük oğlu, dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı, ümummilli liderimiz Heydər Əliyevin respublikamıza 34 illik rəhbərliyi dövründə mədəniyyətimizin çox mühüm sahəsi olan kitabxana işi dövlət qayğısı ilə əhatə edilmiş, bu sahə həmişə böyük öndərin diqqət mərkəzində olmuşdur. Məhz buna görədir ki, həmin illər respublikamızda kitabxana işinin tarixinə inkişaf və tərəqqi dövrü kimi daxil olmuşdur.

Müasir Azərbaycan tarixinin yeni, parlaq səhifələrinin yazılmasında böyük rolu olan bu dahi şəxsiyyətin ümummilli liderimiz olması bizi sevindirir.

İllər, əsrlər keçəcək, ancaq Azərbaycan tarixinin Heydər Əliyev dövrü tariximizin ən parlaq səhifələrindən biri kimi qalacaq.

Azərbaycanda kitabxana işinin tarixinə dönüş dövrü kimi daxil olan bu illərdə kitabxana quruculuğu sahəsində əldə olunan nailiyyətlərin, baş

verən proseslərin, əhaliyə kitabxana xidmətinin təşkili sahəsində meydana gələn yeni iş forma və üsullarının təhlil edilib öynərilməsinə və ümumiləşdirilməsinə böyük ehtiyac duyulmaqdadır. Hazırda oxuculara təqdim olunan "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı bu kitab məhz kitabxana tariximizdə olan boşluğu doldurmaq, kitabxana quruculuğu sahəsində ulu öndərin titanik fəaliyyətini, böyük qayğı və məhəbbətini, kitabxana işi haqqında ölməz ideyalarını, nəzəri irsini gələcək nəsillərə çatdırmaq məqsədini öz qarşısına qoymuşdur.

Kitab ön söz, 2 fəsil, son söz əvəzi və əlavələrdən ibarətdir.

I fəsil "Azərbaycanda kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi (XX əsrin 70-80-ci illəri)" adlanır. Burada əsasən Heydər Əliyevin fəaliyyətinin sovet dövrü mərhələsi öz əksini tapır.

II fəsil "Heydər Əliyev və müstəqillik illərində Azərbaycanda kitabxana işi" mövzusunda yazılmışdır. Burada 1993-2003-cü illərdə kitabxana işi sahəsində respublikamızda aparılan dövlət siyasəti, xüsusilə bu siyasətin həyata keçirilməsində Heydər Əliyevin böyük rolu və qayğısı öz əksini tapmışdır.

Əlavələrdə kitabxana işçilərinə kömək məqsədi ilə Heydər Əliyev haqqında qısa bioqrafik məlumat verilmiş, ulu öndərin təltifləri öz əksini tapmışdır.

"Heydər Əliyevin kəlamları" adlanan bölmədə müdrik kəlamlar və aforizmlər müxtəlif mövzularda kütləvi tədbirlər təşkil edən kitabxana işçilərinin zəruri tələbatlarını ödəmək məqsədinə xidmət göstərir. Bu seçmələr eyni zamanda bütün ziyalılarımız və kitabxanaların oxucuları üçün çox faydalı ola bilər.

Əlavələrdə həmçinin "Dünyanın görkəmli siyasətçiləri, elm və mədəniyyət xadimləri Heydər Əliyev haqqında" adlı bölmə verilmişdir ki, burada da dünyanın görkəmli dövlət xadimlərinin, siyasətçilərinin, elm və mədəniyyət xadimlərinin Heydər Əliyev haqqında söylədikləri fikirlərdən seçmələr verilmişdir.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü bir daha təsdiq edən həmin fikirlər kitabxanalarda təşkil edilən fərdi, kütləvi tədbirlərdə və oxucular

arasında Heydər Əliyev irsinin təbliğində istifadə etmək, onları oxucuların diqqətinə çatdırmaq üçün verilmişdir.

Əlavələr Heydər Əliyevin kitabxana işinə dair çıxışları, həmçinin imzaladığı qanunlar, fərmanlar və sərəncamlarla tamamlanır. Bu bölmənin monoqrafiyaya əlavə edilməsi çoxsaylı kitabxana işçilərinin bu mühüm dövlət sənədlərinə olan böyük ehtiyacını ödəmək məqsədi daşıyır.

Uzun illərdən bəri kitabxanaçılıq təhsili sahəsində fəaliyyət göstərən, bütün ömrünü kitabxana işinə həsr edən, Azərbaycan Kitabxanaçılıq Cəmiyyətinə başçılıq edən müəllif bu monoqrafiyanı məhz həmişə təmasda olduğu respublikamızın çoxsaylı kitabxanaçılar ordusunun arzu və istəklərini və belə bir vəsaitə böyük tələbat hiss etdiklərini nəzərə alaraq milli öndərimizə dərin məhəbbətlə qələmə almışdır.

Müəllif kitab haqqında öz fikrini bildirəcək bütün oxuculara qabaqcadan öz təşəkkürünü bildirir.

## I fəsil

# AZƏRBAYCANDA KİTABXANA İŞİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ (XX ƏSRİN 70-80-ci illəri)

XX əsirin 60-cı illəri keçmiş SSRİ məkanında inkişaf etmiş sosializm illəri adlanmasına baxmayaraq, Azərbaycan o dövrdə iqtisadi inkişaf cəhətdən geridə qalmış respublikalardan biri hesab edilirdi. Həqiqətən 60-cı illərdə bir sıra obyektiv və subyektiv səbəblər üzündən Azərbaycan iqtisadiyyatının bir çox sahələrində həm sənayedə, həm kənd təsərrüfatında çox ciddi gerilik hökm sürürdü. Azərbaycan iqtisadiyyatı bütövlükdə böhran mərhələsini yaşayırdı. O dövrün statistikasına görə, Azərbaycan sənayenin, kənd təsərrüfatının inkişaf səviyyəsinə, əmək məhsuldarlığının artım sürətinə, milli gəlirin həcminə görə ittifaq səviyyəsindən çox geri qalırdı. Ölkənin iqtisadiyyatında baş verən bu böhran həyatın digər sahələrinə, elmin, mədəniyyətin inkişafında öz mənfi təsirini göstərməyə bilməzdi. Respublika ardı-arası kəsilməyən siyasi çəkişmələr, dedi-qodu meydanına çevrilmişdi. Məhz buna görədir ki, Sov. İKP MK baş verən bu geriliyi aradan qaldırmaq üçün respublika rəhbərliyini dəyiş-dirmək haqqında qərar qəbul etmişdi. Respublikaya rəhbərlik üçün kadr seçmək işinə xüsusi əhəmiyyət verən Siyasi Büro uzun axtarışdan sonra Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə o zaman Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində işləyən Heydər Əlirza oğlu Əliyevin seçilməsini məsləhət bilmişdi. Bu zaman H.Əliyev böyük dövlətçilik təcrübəsinə, siyasi hazırlığa, rəhbərlik qabiliyyətinə, yüksək intellektə, böyük iradəyə və əsl insani keyfiyyətlərə malik ən yetkin bir şəxsiyyət idi.

1969-cu ilin 14 iyulunda keçirilən Azərbaycan KP Mərkəzi Komitəsinin plenumu Heydər Əlirza oğlu Əliyevi Azərbaycan KP MK-nın birinci katibi seçdi. 1969-cu ildə Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə Azərbaycan özünün həqiqi inkişafını tapdı. Ən geridə qalan respublikalardan hesab edilən Azərbaycanın inkişaf və tərəqqisinin əsası

məhz bu tarixdən qoyulmuşdur. Bu plenum Azərbaycanın tarixində çox mühüm, taleyüklü bir hadisə oldu, respublikamızın gələcək inkişafında çox əhəmiyyətli rol oynadı. Bununla da Azərbaycan xalqının tarixində Heydər Əliyev dövrü - böyük dönüş mərhələsi başlandı. Bu dövrdən bəhs edən H.Əliyev yazırdı: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".[1]

Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevin təşəbbüsü ilə həmin ilin avqustunda respublikanın həyatında kök salmış nöqsanları, dövlət və partiya rəhbərliyində hökm sürən hərc-mərcliyi aradan qaldırmaqda çox mühüm rolu olan plenum keçirildi. Bu plenum Azərbaycanın tarixində dönüş nöqtəsinin başlanğıcı oldu. Plenumda H.Əliyevin söylədiyi olduqca məzmunlu məruzədə respublikanın müasir vəziyyəti ətraflı təhlil edilir, ölkənin iqtisadi, siyasi və ideoloji həyatında mövcud olan nöqsanlar cəsarətlə aşkarlanır və onların aradan qaldırılmasının yolları göstərilirdi. Plenum ölkədə əmək intizamını möhkəmləndirmək, respublikanın mənəvi-psixoloji iqlimini saflaşdırmaq üçün də ciddi tədbirlər hazırladı. Plenumda H.Əliyevin məruzəsi və bu məruzədən irəli gələn vəzifələr respublikamızın gələcək inkişafı üçün dəyərli proqram sənədi kimi olduqca böyük perspektiv əhəmiyyət kəsb edirdi.

H.Əliyevin apardığı siyasət nəticəsində az bir müddət içərisində respublikada böyük iqtisadi, siyasi və ideoloji nailiyyətlər əldə edildi. Azərbaycan xalqı H.Əliyevin həyata keçirdiyi tədbirləri böyük rəğbətlə qarşıladı. 70-ci illərin əvvəllərindən ölkədə baş verən canlanma, yüksək əhval-ruhiyyə xalqda gələcəyə böyük inam yaratdı. Xalq öz dahi oğluna hörmət və ehtiram göstərməyə başladı, onu sevdi. H.Əliyev kiçik bir zaman kəsiyində xalqın məhəbbətini, sevgisini, etimadını həyata keçirdiyi

---

[1] Heydər Əliyev. Minilliklərin qovşağında.-B., 2001.- S.18.

nəhəng proqramları, cəsarətli və ədalətli tədbirləri ilə əldə etmişdi. 1970-ci illərdə aparılan nəhəng quruculuq işləri nəinki respublikamızda, həmçinin SSRİ məkanında görkəmli vətən oğluna böyük şöhrət gətirdi. Ölkəmiz inkişaf edib müttəfiq respublikalar içərisində qabaqcıl yerlərdən birini tutdu. Nəticədə 1970-1985-ci illər Azərbaycanın inkişaf salnaməsinə ən parlaq quruculuq illəri kimi daxil olmuş, sənayenin, kənd təsərrüfatının, mədəniyyətin bütün sahələrində tərəqqi baş vermişdir.

14 ildə respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı 2 dəfə, xalq istehlakı malları istehsalı 3 dəfə, kənd təsərrüfatı məhsulları 2,5 dəfə artmışdır. Respublika başdan-başa tikinti meydanını xatırladırdı. 14 il müddətində 250-dən çox fabrik, zavod, istehsal obyektləri tikilmiş, iki milyondan çox adamın mənzil şəraiti yaxşılaşmış, Bakıda və respublikamızın digər şəhərlərində böyük mikrorayonlar salınmışdı.

70-80-ci illər Azərbaycan kəndinin həyatında böyük tərəqqi və yenidənqurma illəri olmuşdur. Bu dövrdə onsuz da bərbad vəziyyətdə olan SSRİ kənd təsərrüfatı iqtisadiyyatında olan gerilik Azərbaycan kəndinin həyatında daha bariz şəkildə özünü göstərirdi. Azərbaycan kəndi həm iqtisadi, sosial, həm də mədəni cəhətdən demək olar ki, SSRİ respublikaları içərisində axırıncı yerlərdən birini tuturdu. Kənd təsərrüfatı iqtisadiyyatı tənəzzülə uğramışdı və böhran keçirirdi. Kənd rayonlarında aparılan tikinti-abadlıq işlərinin həcmi, kənd əhalisinə göstərilən maddi-məişət xidmətlərinin təşkili olduqca aşağı səviyyədə idi. Məhz buna görədir ki, kənd əhalisi yaxşı dolanışıq dalınca şəhərlərə və böyük yaşayış məntəqələrinə üz tuturdu. Kəndlərdən şəhərlərə axın başlamışdı.

1969-cu ildə hakimiyyətə gələn H.Əliyev Azərbaycan kəndində hökm sürən bu prosesi yaxşı bilirdi. Məhz buna görədir ki, hakimiyyətə gəldiyi ilk günlərdən kənd təsərrüfatını bu böhran şəraitindən çıxarmaq üçün mühüm tədbirlər görməyə başladı və həmin tədbirlər nəticəsiz qalmadı. Respublikamızda kənd təsərrüfatının aparıcı sahələri olan pambıqçılıq, üzümçülük, heyvandarlıq, taxılçılıq və tərəvəzçilik böyük inkişaf yolu keçdi. Azərbaycanın tarixində görünməyən məhsuldarlıq əldə edildi. Kəndin həyatında böyük canlanma baş verdi. Kənd yenidən tikilməyə

başladı, köhnə daxmaların yerində kütləvi surətdə işıqlı kənd evləri meydana gəldi.

Kəndin həyatında baş verən bu inkişaf, böyük sosial dəyişikliklər kəndlilərin maddi vəziyyətinin yaxşılaşmasına səbəb oldu. Kəndlilərin maddi imkanlarının əsaslı surətdə yaxşılaşması kənddə tikinti, quruculuq işlərinin aparılması köhnə kəndli daxmalarının yerində kütləvi surətdə yaraşıqlı kənd evlərinin tikilməsi üçün şərait yaratdı.

Ölkədə baş verən iqtisadi tərəqqi əhalinin maddi rifah halının yüksəldilməsinə olduqca müsbət təsir göstərmiş, 70-ci illərdə fəhlə və qulluqçuların əmək haqqı 1,4 dəfə, 80-ci illərdə isə 1,3 dəfə artmışdı.

Kolxozçuların orta əmək haqqı 1970-ci ildə iki, 1980-ci ildə 1,5 dəfə artmışdı. Həmçinin 70-80-ci illərdə əhaliyə verilən təqaüdlərin həcmi 4,4 dəfə, müavinətlərin həcmi isə 3,3 dəfə çoxalmışdı.

70-80-ci illərdə Azərbaycanda iqtisadiyyat, sənaye, kənd təsərrüfatı ilə yanaşı, milli mədəniyyət, incəsənət, elm və təhsil sahələri də xeyli inkişaf etmişdi. Məhz bu illərdə xalqımız öz milli mədəniyyətini, tarixi keçmişini dərindən dərk etmək, milli adət-ənənələrə qayıtmaq, milli varislik imkanlarından istifadə etmək, milli ədəbiyyatımızı dərindən öyrənmək, indiyə qədər deyilməsinə qadağa qoyulmuş bəzi fikirləri və ideyaları aşkarlamaq imkanı qazanmışdı. Sanki sükut buzu sınmışdı. Azərbaycanın görkəmli ziyalıları, şairləri, yazıçıları, alimləri tarixi keçmişimiz, milli mədəniyyətimiz, dilimiz, ədəbiyyatımız, milli ideologiyamız haqqında obyektiv, bəzən də böyük siyasətə uyğun gəlməyən cəsarətli fikirlər söyləməyə başlamışdılar. Mən bu milli oyanışın səbəbini fikirləşərkən xeyli zaman keçdikdən sonra dərk etdim ki, bu prosesin başlanmasının əsas səbəbkarı xalqımızın böyük oğlu H.Əliyev olmuşdur. Azərbaycan ziyalıları məhz ona arxalanaraq, onun çıxışlarına söykənərək öz cəsarətli fikirlərini söyləyir, araşdırmalar aparır, elmi nəticələr çıxarırdılar. Məhz bu dövrdə Azərbaycanın tarixinə, mədəniyyətinə dair fundamental araşdırmalar aparılmağa başlanmış, milli tariximizə, ədəbiyyatımıza, mədəniyyətimizə, görkəmli şəxsiyyətlərimizə dair çoxcildli sanballı əsərlər meydana gəlmiş, Sovetlər İttifaqında ilk dəfə görkəmli ictimai və

dövlət xadimlərinin heykəlləri qoyulmuşdur. Xalqımızın tarixində ilk dəfə olaraq monumental əsər olan on cildlik Azərbaycan Ensiklopediyası nəşr edilmişdir. Tarixçilərimiz bu dövrü çox haqlı olaraq Azərbaycanın inkişaf mərhələsində dönüş dövrü kimi xarakterizə edirlər. Mən cəsarət edib demək istəyirəm ki, bu dövr, həmçinin milli oyanış dövrü kimi də xarakterizə oluna bilər. H.Əliyevin milli oyanış siyasəti sahəsində ölkədə mədəniyyətin bütün sahələri: təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənət böyük tərəqqiyə nail oldu, milli ideologiyamız xeyli zənginləşdi.

70-80-ci illərdə H.Əliyevin rəhbərliyi ilə Azərbaycan hökuməti ölkənin inkişaf planını hazırlayarkən çox dərindən düşünülmüş, tarazlaşdırılmış siyasət aparılırdı. Xalq təsərrüfatının bütün sahələrinin inkişaf etdirilməsi ilə yanaşı olaraq ölkədə elm, təhsil və mədəniyyətin bütün sahələrinin inkişafına xüsusi dövlət qayğısı göstərilirdi. Həmin dövrdə təhsil sistemində çox böyük islahatlar, bu sistemin bütün pillələrində isə yenidənqurma işləri aparıldı. Təhsilə ayrılan vəsait əhəmiyyətli dərəcədə artırıldı, təhsil müəssisələrinin maddi-texniki bazası əsaslı surətdə möhkəmləndirilməklə, onların şəbəkəsi də genişləndirildi, yeni-yeni orta və ali məktəblər yaradıldı. Təkcə bunu qeyd etmək kifayətdir ki, 70-80-ci illərdə respublikamızda 703 min yerlik 1058 ümumtəhsil məktəb binası, həmçinin 660 yerlik 3 internat məktəbi tikilib istifadəyə verilmişdi. Bu dövrdə respublikada fəaliyyət göstərən tədris müəssisələrindən 47-nə peşə liseyi, 69-na isə peşə məktəbi statusu verilmişdi. Eyni zamanda 101 məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verilmişdi. Ardıcıl olaraq davam etdirilən quruculuq işləri nəticəsində 80-ci illərin axırında respublikamızın şəhər və kəndlərində 4356 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Ümumtəhsil məktəblərində hər il orta hesabla 1,4 milyon şagird təhsil alırdı ki, bu da 70-ci illərdə olduğundan xeyli çox idi. Respublikada müəllim kadrlarının hazırlanmasına və seçilib yetişdirilməsinə də böyük qayğı göstərilirdi. Məhz buna görədir ki, müəllimlərin sayı 1970-ci illərdəki 73 min nəfərdən 80-ci illərdə 132 min nəfərə çatdırılmışdı. 70-80-ci illərdə təhsil sahəsində aparılan yenidənqurma nəticəsində məktəbdənkənar uşaq müəssisələrinin sayı 2185-ə çatmışdı. Bu müəssisələrin içərisində uşaq və

məktəb kitabxanaları xüsusi yer tuturdu. Demək olar ki, bütün ümumtəhsil məktəblərinin yanında məktəb kitabxanaları fəaliyyət göstərirdi. Həmçinin uşaqlara bilavasitə kitabla xidmət edən müstəqil uşaq kitabxanaları şəbəkəsi xeyli zənginləşmiş, onların sayı 80-ci illərdə 118-ə çatmışdı.[1]

Bu dövrdə respublika təhsil sistemində aparılan təhsil islahatları ilə əlaqədar ümumtəhsil məktəblərinin və ali məktəblərin kitabxana şəbəkələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ön plana çəkilmiş, təhsil kitabxanaları təhsil sisteminin əsas tərkib hissələrindən birinə, atributuna çevrilmiş, onlara diqqət və qayğı çoxalmış, təhsil kitabxanalarının qarşısında təhsil prosesinin təşkilində yaxından iştirak etmək, şagirdlər arasında sinifdənkənar oxunu təşkil etmək, onların mütaliəsinin istiqamətləndirilməsinə, mütaliə mədəniyyətinin yüksəldilməsinə xidmət etmək vəzifəsi qoyulmuşdu.

Mən təhsil sahəsində ulu öndərin həyata keçirdiyi üç mühüm məsələyə diqqət yetirmək istəyirəm. Həmin dövrdə ilk dəfə respublikamızda ali və orta ixtisas hərbi məktəblərinin yaradılmasına başlandı. Öz uzaqgörənliyi ilə fərqlənən bu böyük insan sanki Azərbaycan xalqının başına gələcək faciələri əvvəlcədən görürdü. Ona görə də xalqın hərbə hazır olmasını, hərbi sahədə təhsilli hərbçilərimizin olmasını zəruri hesab edirdi. Bütün bunları qabaqcadan görən ulu öndər H.Əliyev 1971-ci ildə C.Naxçıvanski adına respublika ixtisaslaşdırılmış orta internat hərbi məktəbini yaratdı.

Heydər Əliyev respublikamızda hazırlanması mümkün olmayan nadir ixtisasların siyahısını müəyyənləşdirmiş və bu ixtisasların keçmiş SSRİ-nin digər müttəfiq respublikalarında, ilk növbədə RSFSR-in böyük elm və sənaye mərkəzlərində hazırlanmasını zəruri hesab etmişdi. Bu məqsədlə respublikamızda ilk dəfə olaraq SSRİ-nin başqa şəhərlərinin ali məktəblərində oxumaq üçün qəbul həyata keçirilməyə başlanmışdı. Heydər Əliyevin tələbi və məktubu əsasında SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi ölkənin elm və sənaye mərkəzlərində yerləşən

---

[1] Azərbaycan tarixi: 7 cilddə. VII cild.-B., 2003.- S. 228.

ali məktəblərində azərbaycanlı tələbələrin təhsil alması üçün yerlər ayırdı. Bu tədbiri həyata keçirmək üçün respublikada xüsusi təşkilati işlər aparılmış, başqa şəhərlərin ali məktəblərində təhsil almaq haqqında qəbul qaydaları təsdiq edilmişdi. Bu qaydalara görə, belə ali məktəblərə ancaq Azərbaycan Respublikasının vətəndaşı, ilk növbədə isə azərbaycanlılar göndərilməli idi. Başqa şəhərlərin ali məktəblərinə seçilib göndərilmək üçün müvafiq ixtisaslar üzrə ayrı-ayrı ali məktəblərə yerlər ayrılır, ali məktəblərin qəbul haqqında elanlarında bu yerlər ayrıca göstərilirdi. Bu yerlərin doldurulmasına ciddi nəzarət var idi. Ali məktəblər ilk növbədə başqa şəhərlərdə oxumaq üçün ayrılmış yerləri doldurmalı idilər. Bir qayda olaraq başqa şəhərlərdə oxumağa göndərilmək üçün ən istedadlı gənclər seçilirdi. 70-ci illərin əvvəllərində bu məqsədlə cəmisi 100 nəfərə yaxın qəbul var idisə, onların sayı 70-ci illərin sonlarında 800 nəfərə çatmışdı. Başqa sözlə, Azərbaycan sanki başqa şəhərlərdə bir ali məktəb açmışdı. 1970-1985-ci illərdə SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərilmişdi. Hər il Azərbaycandan ittifaqın ali məktəblərinə 800 nəfər gənc göndərilirdi. Son dövrlərin statistikası göstərir ki, başqa şəhərlərdə təhsil almış şəxslər yüksək ixtisasçı kimi vətənə döndükdən sonra vətən elminin, mədəniyyətinin və texnikasının inkişafında böyük nailiyyətlər əldə etmişlər.

70-ci illərdə təhsil sahəsində Heydər Əliyev tərəfindən həyata keçirilən, Azərbaycanın regionları üçün misilsiz əhəmiyyətə malik olan tədbirlərdən biri də müsabiqədənkənar qəbul olmuşdur. Bu cür qəbul aparmaq H.Əliyev tərəfindən təklif edilmişdi. O dövr üçün, mən deyərdim ki, xalqımızın əksəriyyətinin yaşadığı kənd rayonlarının elmi və təhsil potensialının yüksəldilməsi, sənayenin və kənd təsərrüfatının ayrı-ayrı sahələrinin yüksəkixtisaslı kadrlarla təmin edilməsi üçün bu, çox vaxtında düşünülmüş müdrik bir tədbir idi.

Bu tədbirə uyğun olaraq Azərbaycan Dövlət Plan Komitəsi və ayrı-ayrı müvafiq dövlət orqanları araşdırmalar aparır, hansı rayonda hansı kadrlara tələbat olduğunu müəyyənləşdirir və həmin rayona qəbul zamanı müsabiqədənkənar qəbul üçün yer ayrılırdı. Ayrılan limitə müvafiq ayrı-ayrı rayonlar üzrə abituriyentlər seçilir, xüsusi sənədlə ali məktəblərə

göndərilirdi. Göndərişlə gələn abituriyentlər müsabiqədənkənar, yəni qəbul imtahanı zamanı kəsilməsələr topladıqları balın miqdarından asılı olmayaraq göndərilən fakültəyə qəbul edilirdilər. Müsabiqədənkənar qəbul, həmçinin Azərbaycan ərazisində yaşayan az-saylı xalqlara da (məsələn, ingiloy və s.) aid edilirdi. Bu xalqların nümayəndələri də müsabiqədənkənar qəbul edilirdilər.

Kitabxana işinin qocaman mütəxəssislərindən, yüksəkixtisaslı kitabxanaçı kadrlar hazırlayan ali təhsil işçilərindən biri kimi böyük iftixar və minnətdarlıq hissi ilə demək istəyirəm ki, ölkəmizdə yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanmasında H.Əliyevin xidmətləri əvəzedilməzdir. O, respublikada rəhbərliyə gəldikdən sonra 60-cı illərdə ləğv edilmiş kitabxanaları bərpa etmək, yeni kitabxanalar açmaqla yanaşı, yüksəkixtisaslı kitabxanaçı kadrların yetişdirilməsi işinə də xüsusi diqqət yetirməyə başladı. Azərbaycanın kənd rayonlarında yüksək ixtisaslı kadrların olmamasını nəzərə alan H.Əliyev qısa bir zaman içərisində Bakı Dövlət Universitetində fəaliyyət göstərən Kitabxanaçılıq fakültəsinin genişləndirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, qəbulun artırılması üçün xüsusi göstəriş vermişdi. Həmçinin H.Əliyevin göstərişi ilə Kitabxanaçılıq fakültəsinə 50 ildən çox müsabiqədənkənar qəbul planı verilmişdi. Bu planda ayrı-ayrı rayonlarla bərabər azsaylı xalqların nümayəndələrinin qəbulu da nəzərdə tutulurdu. Bu tədbir 70-ci illərdə davam etdiyindən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi Azərbaycanın kənd rayonları üçün xeyli miqdarda kadr hazırlamağa müvəffəq oldu. Bütün rayon kitabxanalarını, həmçinin böyük kənd kitabxanalarını ali təhsilli kitabxanaçı kadrlarla təmin etmək mümkün oldu. Bir qayda olaraq müsabiqədənkənar təhsil alan tələbələr universiteti bitirdikdən sonra istisnasız olaraq öz rayonlarına, kəndlərinə göndərilirdilər. Bütün bunlar kitabxana işinə H.Əliyev qayğısının böyük nəticəsi idi.

70-80-ci illərdə ümumtəhsil məktəbləri ilə yanaşı, respublikamızın xüsusiyyətləri nəzərə almaraq texniki-peşə məktəblərinin inkişafına, ölkədə sürətlə inkişaf edən sənaye sahələrinin peşəkar kadrlarla təmin

edilməsinə böyük diqqət yetirilirdi. Bu illərdə 100-dən artıq yeni texniki-peşə məktəbi təşkil edilmişdi.

Həmçinin bu dövrdə xalq təsərrüfatının və mədəniyyətin müxtəlif sahələri üçün kadr hazırlayan 78 orta ixtisas məktəbi fəaliyyət göstərirdi ki, bu məktəblərdə 60-70 min tələbə təhsil alırdı.

Heydər Əliyevin dövlətçilik fəaliyyətində yüksəkixtisaslı kadrların hazırlanmasına qayğı mühüm yer tutmuşdur. Məhz buna görədir ki, 70-80-ci illərdə onun bilavasitə təşəbbüsü ilə Azərbaycanda 6 yeni ali məktəb: Azərbaycan Dövlət Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu (1973), Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu (1973), Naxçıvan Dövlət Pedaqoji İnstitutu (1972), Xankəndi (Stepanakert) Dövlət Pedaqoji İnstitutu (1973), Azərbaycan İnşaat Mühəndisləri İnstitutu (1975), Azərbaycan Texnologiya İnstitutu (1982) və 12 orta ixtisas məktəbi yaradılmışdı. 1970-80-ci illərdə ali məktəblərdə 100-dən artıq yeni kafedra, 40-dan çox yeni fakültə açılmış, 100-ə qədər yeni ixtisas üzrə kadr hazırlanmağa başlanmışdı. Azərbaycanda ali təhsil müəssisələrinin sayı 17-yə çatdırılmışdı. 80-ci illərdə respublikamızın ali məktəblərində 100 mindən artıq tələbə təhsil alırdı. Ali məktəblərdə 8,5 min nəfər müəllim dərs deyirdi. Bunların 581-i elmlər doktoru, 3021-i isə elmlər namizədi, dosent idi.

Təhsil sahəsində əldə edilmiş böyük nailiyyətlərdən biri də təhsilin keyfiyyətində həlledici rol oynayan təhsil kitabxana şəbəkəsinin yüksək vüsət alması, respublikada böyük təhsil kitabxana şəbəkəsinin yaranması olmuşdur.

Heydər Əliyev respublikada təhsil islahatlarının aparılmasına, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsinə, bilavasitə təhsilin keyfiyyətinin yüksəlməsinə təsir göstərən köməkçi təhsil müəssisələrinin inkişafına diqqət yetirilməsini, təhsilin dərsliklər, dərs vəsaitləri, kitablar və kitabxanalarla təmin edilməsini zəruri hesab edirdi. O, məhsul toplanışı zamam Azərbaycanın kənd rayonlarına gedərkən respublikamızın görkəmli ziyalılarını, elm və mədəniyyət xadimlərini özü ilə aparır, məhsul toplanışı ilə tanış olmaqla yanaşı, rayonların təhsil və mədəniyyət müəssisələrinə də baş çəkirdi. Onun baş çəkdiyi

müəssisələr içərisində rayon kitabxanaları və məktəb kitabxanaları da mühüm yer tuturdu.

Məhz buna görədir ki, 1969-1982-ci illərdə təhsil kitabxanalarının inkişafı sahəsində böyük işlər görülmüş, demək olar ki, bütün orta təhsil müəssisələrində kitabxanalar yaradılmış və onların kitab fondu tədris ədəbiyyatı, dərsliklər, dərs vəsaitləri, ədəbi-bədii və elmi ədəbiyyatla zənginləşdirilmişdi. Əgər 1970-ci ildə 7,9 milyon nüsxə kitab fonduna malik olan 3749 məktəb kitabxanası var idisə, 1981-ci ildə onların sayı 4238-ə, kitab fondu isə 25,2 milyon nüsxəyə çatmışdı.

Ali və orta ixtisas məktəbi kitabxanalarının inkişafı sahəsində xeyli iş görülmüşdü. 1969-1982-ci illərdə 6 yeni ali məktəb kitabxanası yaranmış, onlara bina ayrılmış və zəngin kitabxana fondları yeni yaradılmış ali məktəb tələbələrinin istifadəsinə verilmişdi.

70-80-ci illərdə böyük öndər H.Əliyevin bilavasitə rəhbərliyi və qayğısı sayəsində Azərbaycan elmi böyük nailiyyətlər qazandı. H.Əliyevin şəxsi təşəbbüsü ilə elmə ayrılan maliyyə vəsaiti və SSRİ Elmlər Akademiyası tərəfindən ayrılan digər ayırmalar xeyli çoxalmışdı. Azərbaycan hökumətinin qarşısında yeni elm mərkəzlərinin yaranması, AMEA-nın maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi vəzifəsi qoyulmuşdu. Bu vəzifələrin yerinə yetirilməsinə bilavasitə H.Əliyev özü nəzarət edirdi. Görülən tədbirlər nəticəsiz qalmadı, 70-80-ci illər Azərbaycan elminin tarixində yeni mərhələ kimi səciyyələndi. Bu dövrdə elmi müəssisələrin sayı (ali məktəblər daxil olmaqla) 142-dən 151-ə, o cümlədən elmi-tədqiqat institutları və onların filiallarının sayı 73-dən 85-ə çatmışdı. [1]

Elm sahələrində çalışan elmi işçilərin sayı 17 min nəfərdən 32,3 min nəfərə, elmlər doktorlarının sayı 1,8 dəfə artaraq 1186 nəfərə, elmlər namizədlərinin sayı isə 1,7 dəfə artaraq 8905 nəfərə çatmışdı.

Bu illərdə AMEA xüsusilə çiçəklənmə dövrünü yaşamış, respublika elminə başçılıq etməyə başlamışdı. Akademiyanın bu dövrdə apardığı fundamental elmi-tədqiqat işləri SSRİ miqyasında yüksək

---

[1] Azərbaycan tarixi: 7 cilddə. VII cild.-B., 2003.- S. 237.

qiymətləndirilmiş, bir çox elmi-tədqiqat işləri isə beynəlxalq arenaya çıxmağa müvəffəq olmuşdu. Bunu demək kifayət-dir ki, 1970-ci ildə Azərbaycan Elmlər Akademiyasında 30 elmi müəssisə, o cümlədən 22 elmi-tədqiqat institutu, 3,3 min elmi işçi, o cümlədən 209 elmlər doktoru, 1311 elmlər namizədi fəaliyyət göstərirdi. Akademiyanın 54 həqiqi və 41 müxbir üzvü var idi.

70-80-ci illərdə AMEA-nın fəaliyyətində baş verən böyük dəyişikliklər, maddi-texniki bazasının əsaslı surətdə yaxşılaşdırılması onun inkişafına böyük təsir göstərmiş, akademiyanın bütün strukturlarının işində böyük irəliləyiş baş vermişdi.

Göstərilən illərdə akademiyanın çox mühüm elmi bazası olan elmi kitabxananın işində də böyük canlanma baş vermiş, elmi kitabxana nəinki respublikanın, həmçinin SSRİ-nin ən böyük elmi kitabxanaları səviyyəsinə yüksəlmişdi. Məhz bu dövrdə akademiyanın kitabxanası yeni binaya köçürülmüş, çox qiymətli və müasir avadanlıqla təmin edilmiş, yeni kitabxana texnikası ilə təchiz edilmişdi. Öz fəaliyyətində müasir dövr kitabxana işi sahəsində baş verən yenilikləri dönmədən öz işinə tətbiq edən, yeni kitabxana texnologiyası ilə zənginləşən, kitabxana xidmətinin müasir problemlərindən bacarıqla istifadə edən kitabxana tamamilə yeni tipli elmi-informasiya müəssisəsinə çevrilmiş, yüksəkixtisaslı akademiya oxucularının ən çox sevdiyi, istifadə etdiyi bir elm xəzinəsinə çevrilmişdi. Belə bir faktı qeyd etmək yerinə düşər ki, AMEA-nın kitabxanası həm respublikamızda, həm də SSRİ miqyasında ilk dəfə olaraq akademiya kitabxana şəbəkəsini mərkəzləşdirməyə nail olmuşdu. O dövrdə SSRİ miqyasında kitabxanaların, əlbəttə, ilk növbədə kütləvi kitabxanaların mərkəzləşdirilməsi ideyası irəli sürülmüş, bu işi həyata keçirmək üçün Rusiyanın bir neçə rayonunda eksperiment qoyulmuşdu. SSRİ miqyasında, o cümlədən respublikamızda mərkəzləşdirmə işinə 1974-cü ildən başlandı. Kitabxana işində tamamilə yeni və olduqca mürəkkəb bir proses olan mərkəzləşdirməni həyata keçirmək böyük təşkilatçılıq və ciddi elmi-metodik hazırlıq işi tələb edirdi. Böyük razılıq hissi ilə demək olar ki, AMEA-nm kitabxanası bu mürəkkəb prosesin həyata keçirilməsinə hazır olduğunu nümayiş etdirdi. AMEA-nın Mərkəzi Elmi Kitabxanası bu işi həyata keçirərkən bir sıra

çətinliklərlə üzləşdi. Bir tərəfdən akademiyanın ayrı-ayrı institutları, laboratoriyaları və digər qurumları kitabxanaların mərkəzləşməsinin əleyhinə çıxırdılar, digər tərəfdən, mərkəzləşməni aparmaq üçün mühüm elmi-metodik məsələləri həll etmək çətinlik törədirdi. Həmçinin az da olsa vəsaitin çatışmazlığı da işin sürətli təşkilinə mane olurdu. Bütün bu çətinliklərə baxmayaraq, mərkəzləşmə işinə ciddi hazırlıq görmüş Mərkəzi Elmi Kitabxana qısa bir müddət ərzində bu işin öhdəsindən müvəffəqiyyətlə gəldi. Mərkəzləşmə 1972-ci ildə başlandı və 1976-cı ildə başa çatdırıldı. Bir-birindən ayrılıqda fəaliyyət göstərən kitabxana şəbəkəsinin bazası əsasında vahid kitab fonduna, kadr potensialına, ştata, yeniləşdirilmiş və möhkəmləndirilmiş maddi-texniki bazaya malik olan, oxuculara xidməti yüksək səviyyədə təşkil etməyə qadir vahid kitabxana kompleksi meydana gəldi. Bu sistemə akademiyanın 24 elmi-tədqiqat institutunun və digər qurumlarının kitabxanaları daxil edildi. Mərkəzləşmiş vahid kitabxananın fondunda üç milyon nüsxəyə qədər kitab var idi. Kitabxana fondunun sistemdaxili mərkəzləşdirilmiş qaydada komplektləşdirilməsi fondun gələcək inkişafı üçün böyük perspektivlər açmışdı. Kitabxana fondunun idarə edilməsinə vahid sistemli prinsipin tətbiqi onun məqsədyönlü komplektləşdirilməsi üçün əlverişli şərait yaratmışdı. Fondun tərkibinin keyfiyyətcə təkmilləşməsi, dünya elmi-texniki fikrinin son nailiyyətlərini əks etdirən əsərlərlə və dövri mətbuatla tamamlanması oxuculara kitabxana-informasiya xidmətinin yeni əsaslarla qurulmasını təmin edirdi. Kitabxanaların yanında təşkil edilmiş komplektləşdirmə şuraları mərkəzləşmiş kitabxana şəbəkələrinin komplektləşdirilməsi üçün plan tərtib edirdi. Komplektləşdirmə planında hər bir kitabxananın profili, oxucuların sorğu və tələbatı, elmin müasir inkişaf istiqamətləri nəzərə alınırdı. Cari və retrospektiv komplektləşdirməni ardıcıl olaraq aparmaq məqsədi ilə Mərkəzi Elmi Kitabxananın yanında komplektləşdirmə şurası yaradılmışdı. Bu şura ilk dəfə olaraq bütün akademiya kitabxana şəbəkələrinin komplektləşdirilməsini həyata keçirirdi. Yarandığı ilk günlərdən şuranın işinin səmərəliliyi və effektivliliyi aydın oldu. Akademiya kitabxanalarının komplektləşdirmə işi keyfiyyət və kəmiyyət baxımından

xeyli yaxşılaşdı və təkmilləşdi. Təkcə 1984-cü ildə AMEA-nın kitabxana sisteminə 96 min 141 nüsxə yeni ədəbiyyat daxil olmuşdu. Bunlardan 58.918 nüsxəsi Mərkəzi Elmi Kitabxananın, 37.223 nüsxəsi isə filialların fondlarına verilmişdi. Mərkəzləşmə nəticəsində Mərkəzi Kitabxananın maliyyə vəziyyətinin sabitləşməsi kitabxana fonduna xarici dillərdə ədəbiyyat alınmasını xeyli yaxşılaşdırmışdı. Hər il kitabxanaya daxil olan ədəbiyyatın 10-12 faizini xarici dillərdə kitablar təşkil edirdi. Bu isə öz növbəsində alimlərə dünya elminin və texnikasının son nailiyyətləri ilə tanış olmaq imkam verirdi. 1970-80-ci illərdə kitabxananın fəaliyyətində baş verən müsbət keyfiyyətlərdən biri də beynəlxalq kitab mübadiləsinin təşkili olmuşdur. Kitabxana zəngin və məzmunlu mübadilə fondu yaratmağa müvəffəq olmuşdu ki, bu da respublikamızın kitab sərvətini dünyanın ən böyük kitabxanalarına göndərməyə imkanlar yaratmışdı. Belə ki, 70-ci illərin axırlarında kitabxana dünyanın 50 ölkəsinin 570 müəssisəsi ilə kitab mübadiləsi edirdi. Bunların arasında 28 elmlər akademiyası, 120 universitet və institut, 29 milli kitabxana, 209 kitab ticarəti müəssisəsi, 23 nəşriyyat və firma, 27 muzey və başqa müəssisələr var idi. 1984-cü ildə Mərkəzi Elmi Kitabxanaya 10.615 nüsxə xarici nəşr daxil olmuşdu. Kitabxana respublikamızda ən çox dövri nəşrlər, xüsusilə elmi, elmi-texniki jurnallar alan müəssisə idi. Təkcə 1984-cü ildə kitabxana 1246 adda xarici jurnal almışdı. Kitabxananın dövri mətbuat və jurnal fondu respublikanın alimlərinə dünya elminin son nailiyyətləri ilə tanış olmaq imkanı verirdi ki, bu da ölkəmizin elmi ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilirdi. Kitabxananın xarici ədəbiyyat fondunun ardıcıl olaraq komplektləşdirilməsi nəticəsində bu fond respublikanın kitabxanaları içərisində ən böyük fonda çevrilmişdi. 1986-cı ildə bu fonda 1 milyon nüsxədən artıq ədəbiyyat toplanmışdı.

Respublika Milli Elmlər Akademiyasının kitabxana şəbəkəsinin mərkəzləşməsi, qısa müddət içərisində oxuculara xidmət işinin yenidən qurulmasında, keyfiyyətcə yaxşılaşmasında və səmərəliliyinin artırılmasında özünü göstərdi. Oxucuların sayı əsaslı şəkildə artdı. Əgər mərkəzləşmədən əvvəl - 1974-cü ildə kitabxananın 18 min oxucusu var

idisə, 1984-cü ildə onların sayı 38 min 800 nəfərə çatmışdı. Oxuculara kitabxana xidməti sahəsində həyata keçirilən yeni qabaqcıl iş üsulları oxucuların kitabxanaya gəlişinə müsbət təsir göstərmiş, elmi-tədqiqat institutlarının elmi işçilərinin əksəriyyəti kitabxanadan istifadə etməyə başlamışdılar. Elmi-tədqiqat institutlarının 23 min 601 nəfər elmi işçisi Mərkəzi Elmi Kitabxananın oxucularına çevrilmiş, kitab fondundan istifadə etməyə başlamışdılar. Görülən işlər nəticəsiz qalmamışdı, kitabxanada kitab verilişi, kitabların dövriyyəsi xeyli çoxalmışdı. 1984-cü ildə Mərkəzi Elmi Kitabxanada və onun filiallarında oxuculara 3 milyon 184 min 868 nüsxə kitab verilmişdi. Bunların 1 milyon 768 min nüsxəsi Mərkəzi Kitabxananın payına düşürdü. Kitabxana, həmçinin oxucuların sorğularını ödəmək və öz fondlarında olmayan kitabları əldə etmək üçün kitabxanalararası abonementdən geniş surətdə istifadə edirdi. 1984-cü ildə SSRİ-nin 1870, xarici ölkələrin 27 kitabxanası ilə əlaqə yaradılmış, onlardan 13.050 nüsxə ədəbiyyat alıb oxuculara verilmişdi.

Mərkəzləşmə illərində akademiya kitabxanasında meydana gəlib formalaşan və demək olar ki, oxuculara kitabxana xidmətinin təşkilində mühüm mərhələ hesab edilən elmi-texniki informasiya xidmətinin yaradılması olmuşdur. Uzun illərdən bəri elmi-texniki informasiya xidmətini həyata keçirməyə çalışan kitabxana bu işin formalaşmasına 60-cı illərin axırlarından başlamış, ardıcıl olaraq iş aparmış, təcrübə qoymuş, nəhayət, 1973-cü ildə oxuculara informasiya xidməti işini müvəffəqiyyətlə həyata keçirən elmi-texniki informasiya xidmətini yatarmağa müvəffəq olmuşdur. Mərkəzi Elmi Kitabxana 1976-cı ildən isə respublikada ilk dəfə olaraq bu sistemi qismən də olsa avtomatlaşdırmağa başladı. 1980-1984-cü illərdə akademiya kitabxanası bu sistem vasitəsilə 300 elmi problem üzrə 289 elmi-tədqiqat laboratoriyasının 3000-ə qədər elmi işçisini müntəzəm olaraq cari informasiya ilə təmin etmişdir. Bu dövrdə kitabxana respublikamızda elmi kitabların təbliğində xüsusi mövqeyə malik ol-muş, elmi ədəbiyyatı təbliğ etmək üçün kitabxananın tarixində ilk sərgi salonu təşkil edilmişdi. Bu salon oxuculara xidmət etmək üçün vaxtaşırı olaraq daimi yeni kitablar sərgisi və müxtəlif

elm və bilik sahələrinə aid tematik sərgilər təşkil edirdi. Təkcə 1984-cü ildə bu salonda 25 tematik sərgi, yeni ədəbiyyat haqqında 65 informasiya sərgisi təşkil edilmişdi. Bir il müddətində bu sərgilərdə 7717 nüsxə ədəbiyyat nümayiş etdirilmişdi. Mərkəzi Kitabxana, həmçinin ayrı-ayrı elmi müəssisələrdə də sərgilər təşkil etməyə başlamışdı. 1980-84-cü illərdə elmi müəssisələrdə 92 tematik sərgi təşkil edilmişdi. Müəssisələrdə təşkil edilən tematik sərgilər kitabxana oxucularının sayının çoxalmasına və kitab verilişinə olduqca müsbət təsir göstərirdi.

Göstərilən illərdə Azərbaycan Elmlər Akademiyasının həyatında baş verən böyük inkişaf və tərəqqi kitabxananın işinə də müsbət təsir etmiş, kitabxananın maddi-texniki bazası möhkəmlənmiş, yeni bina və avadanlıqla təchiz edilmişdi. Bu dövrü kitabxananın həyatında yeni inkişaf mərhələsi hesab etmək olar. Kitabxana məhz bu illərdə yeni ədəbiyyatla fasiləsiz və mükəmməl təmin olunmaqla, müasir avadanlıqdan istifadə edərək kitab fondlarını yenidən qurmuş, onları işlək vəziyyətə gətirmişdir. Minlərlə kitablar qapalı otaqlardan çıxarılaraq kitabxana rəflərində işlək hala gətirilmişdi. Kitabxananın məlumat-biblioqrafiya aparatı, kataloq və kartotekaları yenidən təşkil və redaktə edilərək müasir tələbatlara cavab verə bilən operativ vasitəyə çevrilmişdi. Akademiyanın kitabxana sistemində elmi işçilərə və mütəxəssislərə xidmət etmək üçün 27 növ yardımçı kataloq və kartoteka yaradılmışdı.

Həmçinin 1974-cü ildə kitabxananın tarixində ilk dəfə olaraq Kitabxanaşünaslıq və biblioqrafiya elmi-tədqiqat şöbəsi yaradılmış, kitabxanaya aspirant hazırlamağa icazə verilmişdi. Kitabxanada fəaliyyət göstərən bu şöbə kitabxanaşünaslığın və biblioqrafiyanın müasir problemlərinə dair tədqiqatlar aparmış, elmi məcmuələr nəşr etmiş, biblioqrafik göstəricilərin "Elm və mədəniyyət xadimləri" seriyasını yaratmışdı. Bu seriyadan akademiklərdən Y.Məmmədəliyevin, M.Qaşqayın, M.Nağıyevin, Ə.Quliyevin, M. Arifin və başqalarının. biblioqrafiyaları buraxılmışdı.

MKS-in nəşriyyat fəaliyyətinin genişlənməsi respublikamızda kitabxanaşünaslığın, biblioqrafiyaşünaslığın, kitabşünaslığın və informasiyanın inkişafına müsbət təsir göstərirdi. Elmi-tədqiqat və

biblioqrafiya şöbəsi ildə 20-30 çap vərəqi həcmində elmi əsərlər və biblioqrafik göstəricilər nəşr edirdi.

Bütün bu göstərdiklərimiz bir daha təsdiq edir ki, 70-80-ci illərdə AMEA-nın Mərkəzləşmiş Kitabxana Sistemi kitabxana fondunun təşkili, komplektləşdirilməsi, qorunub saxlanması, xidmət işinin səmərəliliyinin yaxşılaşdırılması, kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-tədqiqat və metodik işin inkişaf etdirilməsi sahəsində çox böyük uğurlar əldə etmişdir.

Bu dövrdə kitabxana işi sahəsində uğurların əldə edilməsi bi-lavasitə görkəmli dövlət xadimi H.Əliyev tərəfindən istiqamət-ləndirilən dövlət siyasətinin nəticəsi idi.

70-80-ci illər Azərbaycan ədəbiyyatının inkişafında böyük inkişaf və tərəqqi mərhələsi, zəngin yaradıcılıq dövrü kimi xarakterizə edilir. Ölkənin inkişafında baş verən iqtisadi, mədəni yüksəliş, yeni yaranmış mənəvi ab-hava, milli ideologiyanın yaranıb formalaşması sahəsində baş verən proseslər ədəbiyyatımızda böyük canlanmaya səbəb olmuş, görkəmli yazıçılarımızın yaradıcılığına olduqca müsbət təsir göstərmiş, yeni-yeni qiymətli monumental əsərlər meydana gəlmişdir. Süleyman Rəhimovun “Ana abidəsi” (1980), “Qafqaz qartalı” (1971-75), İlyas Əfəndiyevin “Sarıköynəklə Valehin nağılı” (1978), İsa Hüseynovun “Nəsimi”, Əzizə Cəfərzadənin “Aləmdə səsim var mənim”, Ələviyyə Babayevanın “Adamlar və talelər” və s. nəsr əsərləri, şairlərdən Rəsul Rzanın “Dünən, bu gün, sabah” (1973), Nəbi Xəzrinin “Dərələr” (1970), “Ulduz karvanı” (1979), Mirvarid Dil-bazinin “Bənövşələr üşüyəndə” (1970), “Ana qanadı” (1972), Nigar Rəfibəylinin “Günəşdən gənclik istədim”, “Bizə bahar yaraşır”, Bəxtiyar Vahabzadənin “Muğam”, “Atılmışlar”, Qabilin “Nəsimi” kimi əsərləri bu dövrün məhsuludur.

70-80-ci illər müasir ədəbiyyatımızın sütunları olan gənc yazıçı və şairlərin yetişməsində böyük rolu olmuşdur. Anarın “Ağ liman” (1977), “Macal” (1978), Elçinin “Gümüşü, narıncı” (1973), “Bu dünyada qatarlar gedir” (1974), “Mahmud və Məryəm”, Əkrəm Əylislinin “Mənim nəğməkar bibim”, “Tənha narın nağılı” və s. əsərləri məhz bu illərdə nəşr edilib oxuculara çatdırılmışdır.

Bu dövrdə Azərbaycan musiqi mədəniyyəti yüksək inkişaf səviyyəsinə qalxmaqla, dünya şöhrəti qazanmağa müvəffəq ol-muşdur. Dünya şöhrətli bəstəkarlardan Qara Qarayevin, Fikrət Əmirovun, Süleyman Ələsgərovun əsərləri dünyanın böyük konsert salonlarından səslənməyə başlamışdır.

70-80-ci illər dramaturgiyada, kino sənətində, memarlıqda, rəssamlıqda, heykəltəraşlıqda, ifaçılıq sənətində də böyük izlər qoymuş, dahi sənətkarlar yetişdirmişdir.

H.Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə onun şəxsi təşəbbüsü və qayğısı sayəsində ədəbiyyatımıza və incəsənətimizə diqqət və qayğı böyük vüsət almış, "Xalq yazıçısı", "Xalq rəssamı" fəxri adları təsis edilmiş, yeni ədəbi-bədii jurnallar nəşrə başlamış, yaradıcı ziyalıların sosial vəziyyətini yaxşılaşdırmaq, ictimai nüfuzunu artırmaq üçün ciddi dövlət tədbirləri görülmüşdü.

1970-80-ci illərdə respublikamızın elm və mədəniyyət xadim-lərindən 10 nəfərdən çoxu ən yüksək fəxri ada - Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Süleyman Rəhimov, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Fikrət Əmirov, Qara Qarayev, Niyazi, Rəşid Behbudov, Mustafa Topçubaşov, Mikayıl Hüseynov kimi böyük sənətkarların Sosialist Əməyi Qəhrəmanı adını alması H.Əliyevin tarixi xidməti idi. Qeyd etmək yerinə düşər ki, o vaxta qədər Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülən Azərbaycan yazıçısı olmamışdı.

Dahi dövlət xadimi H.Əliyev Azərbaycan mədəniyyətinin görkəmli xadimlərinin adlarını əbədiləşdirmək məqsədilə uzaqgörən, cəsarətli addımlar atdı. Vətənin bütün guşələrində Azərbaycanın böyük şəxsiyyətlərinin: yazıçıların, şairlərin, incəsənət xadimlərinin, o cümlədən Nizami Gəncəvinin, Üzeyir Hacıbəyovun, Nəriman Nərimanovun, Məhəmməd Füzulinin, M.F.Axundovun, H.Cavidin və başqalarının heykəlləri ucaldıldı. Şuşada Molla Pənah Vaqifin məqbərəsi tikildi. 60-cı illərin sonuna qədər ittifaqda olduqca az tanınan Azərbaycan Respublikası və Azərbaycan xalqı öz layiqli adının və nüfuzunun sahibi oldu. Azərbaycan böyük Sovetlər İttifaqının iqtisadi və mədəni inkişafı ilə fərqlənən ən qabaqcıl respublikalarından birinə çevrildi.

Repressiya qurbanları olan bir çox yazıçılar, şairlər, alimlər, dövlət xadimləri, görkəmli ziyalılar bəraət aldı, onların əsərləri xalqa qaytarıldı, əsərləri çap edilib yayılmağa başladı.

Bütün bunlar öz soy-kökünə qayıtmaq, repressiya qurbanlarını, görkəmli şəxsiyyətləri üzə çıxarmaq, təbliğ etmək, onların adını əbədiləşdirmək böyük siyasətə uyğun gəlmədiyindən birmənalı qarşılanmırdı, ciddi ideoloji mübarizə şəraitində həyata keçirilirdi. Azərbaycan xalqının düşmənləri ayıq idi. Xalqımızın milli ənənələri, milli dirçəlişi ilə bağlı həyata keçirilən hər bir tədbir əks hücumlara məruz qalırdı. Erməni millətçiləri öz havadarları olan Moskvaya Azərbaycan xalqına qara yaxan minlərlə məktub yazır, rus şovinistləri isə bu məktublara müvafiq tədbirlər görürdülər.

1970-ci ildə görkəmli dövlət xadimi Nəriman Nərimanovun 100 illik yubileyi münasibətilə Bakı şəhərində heykəli qoyulmalı idi. Bu işdən xəbər tutan erməni daşnakları və onların havadarları olan rus şovinistləri bu tədbirin qarşısını almaq üçün N.Nərimanova əvvəlki illərdə verilmiş "millətçi" damğasını yenidən gündəmə gətirməyə çalışdılar. Yubileyin keçirilməsi müvəqqəti olaraq dayandırılsa da, Heydər Əliyevin böyük səyi və mübarizəsi nəticəsində bu təhlükənin qarşısı alındı. H.Əliyevin bu qələbəsi xalqın qələbəsi idi. Azərbaycan milli mənliyinin, milli ideologiyasının qələbəsi idi. Məhz bu dövrdən ermənilərin Azərbaycan həqiqətlərinə, Azərbaycan milli mədəniyyətinə, milli adət-ənənələrinə qarşı çıxmalarının, bir qayda olaraq hər dəfə müvəffəqiyyət qazanmalarının qarşısı alındı, necə deyərlər, daş qayaya rast gəldi, qaya qarşısında parçalandı. Mikoyanlar, şaumyanlar və başqa məkrli qüvvələr yerində oturduldu. Xalqımızın dahi oğlu N.Nərimanova Azərbaycan xalqının düşmənləri olan daşnaklar və onların havadarları tərəfindən ədalətsizcəsinə vurulmuş "millətçi"lik damğası xalqımızın digər dahi oğlu H.Əliyev tərəfindən ləğv edildi. Ədalət zəfər çaldı. Respublikamızda Nəriman Nərimanovun 100 illiyi böyük tən-tənə ilə qeyd edildi, Bakı şəhərində onun əzəmətli heykəli ucaldıldı. Zaman keçəcək, nəsillər bir-birini əvəz edəcək, ancaq qədirbilən Azərbaycan xalqı böyük öndər H.Əliyevin bu xidmətini heç zaman unutmayacaq.

XX əsrin 70-80-ci illərində respublikamızda baş verən ümumi milli yüksəliş xalqımızın tarixi keçmişinə marağı artırmış, milli mənəvi həyatda dircəlişə səbəb olmuşdu. Kitab nəşri və milli mətbuatın inkişafı sahəsində mühüm işlər görülmüş, kütləvi informasiya vasitələri şəbəkəsi genişlənmiş, xalqın milli dirçəlişində, ideya-siyasi tərbiyəsində onun rolu artmışdı. 1970-ci ildə respublikada 234 qəzet, jurnal və məcmuə nəşr edilirdi. “Qobustan”, “Sovet Türkologiyası”, “Azərbaycan təbiəti” kimi jurnalların nəşrə başlaması respublika mətbuatına yeni ab-hava gətirmiş milli əhval-ruhiyyənin başlandığından xəbər verirdi.

Dövrün mühüm hadisələrindən biri də kitab nəşri sahəsində baş verən yeni proseslər olmuşdur. Bu illərdə yeni nəşriyyatlar fəaliyyətə başlamış, cəmiyyətdə kitaba olan tələbatın artması ilə əlaqədar onların tirajı çoxalmış, kitab çapı texnologiyası xeyli təkmilləşmişdi. Xalqımızın tarixinə, milli mədəniyyətinə, təhsilinə və elminə dair kitablar çoxluq təşkil edirdi. Senzuranın fəaliyyət göstərməsinə baxmayaraq respublikada H.Əliyev tərəfindən yaradılmış münbit ab-hava bu orqana da öz təsirini göstərmişdi. O vaxta qədər deyilməsinə və yazılmasına qadağa qoyulan bir çox milli problemlərə baxış təzələnmiş və liberallaşmışdı.

Respublikamızda hər il 10-12 min nüsxə tirajla 1200-1300 adda kitab nəşr edilirdi. 70-80-ci illərdə 20 cildlik “Azərbaycan Ədəbiyyatı Kitabxanası”, 50 cildlik “Dünya Uşaq Ədəbiyyatı Kitabxanası”, 100 cildlik “Dünya Ədəbiyyta Kitabxanası” nəşr edilmişdi. Nəşriyyat işi sahəsində ən mühüm hadisə xalqımızın tarixində ilk dəfə Azərbaycan Sovet Ensiklopediyasının çapdan çıxması olmuşdur. Sovet dövründə bu nəşrin çapına dörd dəfə -1934, 1938, 1959 və 1965-ci illərdə təşəbbüs göstərilmiş, lakin hər dəfə müvəffəqiyyətsizliyə uğramışdı. Məhz ulu öndər H.Əliyevin böyük zəhməti sayəsində bu iş baş tutmuş, 1976-1988-ci illərdə on cildlik Azərbaycan Sovet Ensiklopediyasının çapı başa çatdırılmışdır. Xalq şairi Rəsul Rzanın başçılıq etdiyi ensiklopediya kollektivi və baş redaksiya respublikamızda yeni ab-havanın yaranmasında, xalqımızın öz soykökünə qayıtmasında, tarixi hadisələrə düzgün qiymət verilməsində mühüm işlər gördü. Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə İçərişəhərdə Azərbaycan Sovet Ensiklopediyası üçün müvafiq bir bina tikilmiş, onun maddi-texniki

bazası möhkəmləndirilmiş, hər bir cildin tirajı isə nəzərdə tutulmuş 50 mindən 80 minə qaldırılmışdı.

70-80-ci illərdə respublikamızda təhsil və xalq maarifi sahəsində dönüş yarandığı kimi, mədəni-maarif müəssisələrinin inkişafında da mühüm nailiyyətlər əldə edilmiş, böyük mədəni-maarif hərəkatı, xalqın mədəni yüksəlişində, mənəvi tərbiyə sahəsində yeni mərhələ başlanmışdı. Tərbiyə prosesində kütləvi informasiya vasitələri, o cümlədən dövri mətbuat, radio və televiziya ilə yanaşı olaraq mədəni-maarif müəssisələri: mədəniyyət sarayları, mədəniyyət evləri, klublar, xalq universitetləri və s. yaxından iştirak edirdi. Dövlət mədəni-maarif müəssisələri şəbəkəsinin genişlənməsinə, maddi-texniki bazasının möhkəmlənməsinə xüsusi diqqət yetirməyə başlamışdı. Doğrudur, 70-ci illərə qədər respublikamızda mədəni-maarif müəssisələrinin təşkili və onların işini yaxşılaşdırmaq sahəsində xeyli iş görülmüşdü. Ancaq görülən işləri qənaətbəxş hesab etmək olmazdı. Xüsusilə kənd yerlərində onların şəbəkəsi çox zəif inkişaf etmişdi. Maddi təminat müasir dövrün tələblərinə cavab vermirdi. Məhz buna görədir ki, 70-80-ci illərdə H.Əliyevin bilavasitə rəhbərliyi ilə bu mühüm işə xüsusi qayğı göstərilməyə başlandı. İlk növbədə respublika klub və mədəniyyət evlərinin vəziyyəti öyrənilib təhlil edildikdən sonra yeni beşillikdə bu sahəyə ayrılan vəsaitin miqdarı xeyli çoxaldıldı. Xüsusilə kənd yerlərində mədəniyyət evi və klub tikintisinə diqqət artırıldı. Belə bir faktı göstərmək kifayətdir ki, 70-80-ci illərdə 220 min yerlik 1066 mədəniyyət evi və klub müəssisəsi, 50 min yerlik 111 kinoteatr tikilib istifadəyə verilmişdir. Bir qayda olaraq məhsul toplanışı zamanı Azərbaycanın kənd rayonlarına baş çəkən H.Əliyev rayon mərkəzlərində və kəndlərdə təsərrüfat işləri ilə maraqlanmaqla yanaşı, kənd mədəniyyəti ocaqlarının fəaliyyəti ilə də tanış olur, onların işinin yaxşılaşdırılması və yeni mədəni-maarif müəssisələrinin yaradılması haqqında göstərişlər verir, növbəti səfər zamanı öz gös-tərişlərinin nəticəsini yoxlayırdı. Ona görə də yerli rəhbər işçilər Heydər Əliyevin göstərişlərini sözsüz yerinə yetirməyə məcbur idilər.

70-80-ci ilbrdə mədəniyyətimizin mühüm sahəsi olan kitabxana işinin yenidən qurulması və inkişafı sahəsində də çox böyük işlər görülmüşdü. Əhaliyə xidmət etmək üçün böyük elmi, elmi-texniki, xüsusi, təhsil və kütləvi kitabxanalar şəbəkəsi yaranmışdı. Respublikada 1969-cu ildə 60 milyon nüsxəyə qədər kitab fondu olan 8.184 kitabxana fəaliyyət göstərirdi. Ancaq bu rəqəm heç də ölkədə kitabxana işinin yüksək səviyyəsindən xəbər vermirdi. Respublikamız əhaliyə kitabxana xidmətinin təşkili sahəsində SSRİ-nin bir çox respublikalarından geri qalırdı. Xüsusilə kənd rayonlarında əhaliyə kitabxana xidmətinin təşkili ürəkaçan səviyyədə deyildi və dövrün tələblərindən geri qalırdı. İllərdən bəri davam etməkdə olan bir sıra nöqsanlar hələ də qalmaqda idi. Bu nöqsanlar kitabxana şəbəkələrinin düzgün yerləşdirilməməsində, kitabxanaların maddi-texniki bazasının zəifliyində, kitabxana fondlarının lazımi səviyyədə formalaşmamasında, kitab fondunun komplekt-ləşdirilməsinin təşkilati prinsiplərində və maliyyələşdirilməsində, əhalinin kitabxana xidməti ilə tam əhatə edilməməsində, müxtəlif tipli kitabxanaların işinin əlaqələndirilməməsində, metodik təminat işinin təşkilində və s. özünü göstərirdi. Kitabxanaların planauyğun yerləşdirilməsində də ciddi nöqsanlar var idi. Belə ki, kənd sovetlərinin və kolxoz idarələrinin yerləşdiyi kəndlərdə bir neçə kitabxana - dövlət kənd kitabxanası, həmkarlar ittifaqı kitabxanası, kolxoz kitabxanası olduğu halda, bir çox kəndlərdə bircə kitabxana da yox idi. Şəhərlərdə də vəziyyət eyni ilə belə idi. Məsələn, Bakının mərkəzində müxtəlif təşkilatların bir-birinə yaxın məsafədə onlarla kitabxanası olduğu halda, yeni yaşayış massivlərində kitabxanalar az idi. Belə hallar oxucularm kitabxanaya getməsi üçün saatlarla vaxt itirməsinə səbəb olurdu. Ən ciddi nöqsanlardan biri bu dövrdə respublikamızda olan yaşayış məntəqələrindən 18 faizində kitabxanaların olmaması idi. 1960-cı il statistikasına görə, respublikamızın kənd rayonlarında 4610 yaşayış məntəqəsindən ancaq 1896-da kütləvi kitabxana fəaliyyət göstərirdi. Bütün bunlar azmış kimi, 60-cı illərdə respublikamızın mədəni həyatında mühüm yer tutan kitabxana işinə ağır bir zərbə vurulmuşdu. Bu zərbənin özümüzün

başabəla partiya və dövlət rəhbərlərimiz tərəfindən vurulması olduqca böyük təəssüf hissi doğururdu.

Mədəniyyətimizə çox böyük zərbə olan belə bir hadisəni yada salmaq yerinə düşər.

O dövrdə Sov.İKP MK-nın katibi işləyən Şepilov 1960-cı ildə Respublika Kommunist Partiyası Mərkəzi Komitələrinə, Nazirlər Sovetlərinə və Mədəniyyət Nazirliklərinə məktubla müraciət edərək tələb etmişdi ki, ölkənin büdcəsində ciddi çətinliklər olması, büdcənin dolmaması və büdcə xərclərinin artması ilə əlaqədar mədəniyyət sahəsində ixtisarlar aparılmalı, əldə edilən vəsait ittifaq büdcəsinə yönəldilməlidir. Bəs görək bu məsələni respublikamızın rəhbərləri necə həll etdilər? Milli təəssübkeşlikdən və milli qürurdan uzaq düşmüş səriştəsiz məmurlar belə qərara gəldilər ki, Azərbaycan kəndlərində əsl mədəniyyət ocağı kimi fəaliyyət göstərən kənd kitabxanalarını ictimai əsaslara kesirməklə ləğv etsinlər, əldə edilən vəsaiti SSRİ büdcəsinə keçirsinlər. Belə də etdilər. O zamankı Azərbaycan mədəniyyət naziri A.Bayramov əmr verib 500 kənd kitabxanasını ləğv etdi. A.Bayramov ixtisasca geoloq idi. Əvvəllər Azərbaycan KP MK-nın ideoloji işlər üzrə katibi işləmiş, oradan çıxarıldıqdan sonra mədəniyyət naziri vəzifəsinə göndərilmişdi. O, mədəniyyət sahəsində az səriştəsi olan bir adam idi.

Mən sonralar bu hadisəni şərh edərkən yazmışdım: Gərək 500 kitabxananı ləğv edilməsi ilə bağlı əmrə qol çəkərkən nazirin əmrə imza atan əlləri quruyaydı.

Ancaq nazirin əlləri qurumadı, 500 kitabxana ləğv edildi. Onların uzun illər boyu yığıb saxladıqları fondları dağıdıldı, avadanlaqları talan edildi. Bir çox kəndlərdə bu kitabxanaların binaları alınıb başqa müəssisələrə verildi.

Sonralar məlum oldu ki, bu problemi qonşu müttəfiq respublikalar başqa cür həll etmişlər. Onlar böyük müəssisələrin hər birindən bir-iki nəfər ixtisara salmaqla məsələni həll etmiş, bir kitabxananı da ləğv etməmişdilər.

H.Əliyev hakimiyyətə gəldikdən sonra bu məsələ ilə maraqlanmış, onun ciddi səhv olduğunu bildirmiş və bu səhvi düzəltmək üçün göstərişlər vermişdi. H.Əliyevin bu göstərişindən sonra Azərbaycan

Respublikası Dövlət Plan Komitəsi hər il orta hesabla 100 kənd kitabxanasının bərpa edilməsi haqqında plan hazırladı.

H.Əliyevin ciddi cəhdi sayəsində ləğv edilmiş kitabxanaları təxminən 4-5 ilə bərpa etmək mümkün oldu. Təkcə bu fakt H.Əliyevin Azərbaycan üçün əvəzsiz rəhbər olduğunu, Azərbaycan mədəniyyətinin xilaskarı olduğunu aşkara çıxarır.

70-80-ci illər respublikamızda kitabxana işinin inkişafı, yenidən qurulması və kitabxana işi sahəsində böyük islahatlar dövrü olmuşdur. Məhz bu illərdə bütün SSRİ miqyasında kitabxana işi sahəsində sovet hakimiyyəti illərində ilk dəfə olaraq ölkədə əhaliyə kitabxana xidmətinin forma və məzmununda, təşkilati prinsiplərində, kitabxana işinə rəhbərliyin təşkilati forması və maliyyələşdirilməsi sahəsində dərin islahatlar aparılmış, kitabxana işinin mərkəzləşdirilməsi həyata keçirilmişdir. Həmçinin 60-70-ci illərdə respublikamızın mənəvi həyatında xalqımızın öz soykökünə, milli adət-ənənələrinə qayıtması prosesi geniş vüsət almış, bütün xalq kütləsini əhatə etmişdi. Milli özünüdərk, milli mənlik şüurunun yeniləşməsi, milli ideologiyanın formalaşması kitabxana işinə də öz təsirini göstərmiş, kitabxana işinin məzmununda yeni dünyagörüşü, xalqın tarixini, dil və ədəbiyyatını, incəsənətini, adət və ənənələrini, vətən məhəbbəti və vətənpərvərlik ideyalarını təbliğ etmək prosesi başlanmışdı. Bu proses kitabxana işinin bütün formalarının - kitab fondunun komplektləşdirilməsi, oxuculara xidmət, kütləvi işlər və s. sahələri əhatə etmişdi. Bütün bunlar ölkəmizdə sovet senzurasının hökm sürdüyü, milli ideologiyaya düşmən ideologiyası kimi baxıldığı, milləti sevməyin millətçilik kimi qiymətləndirildiyi böyük rus şovinizminin hökmranlıq etdiyi bir dövrdə baş verirdi.

70-80-ci illərdə kitabxana işi sahəsində baş verən bütün de-mokratik prosesləri o dövrün ictimai, siyasi və ideoloji həyatı fonunda araşdırıb təhlil etdikdə belə bir həqiqət aşkara çıxır ki, bütün bu işlərin baş tutması H.Əliyevin həyata keçirdiyi siyasət sayəsində mümkün olmuşdu. H.Əliyevin rəhbərliyi ilə reallaşan bütün ideoloji və siyasi tədbirlərin məzmununda milli ideologiya, milli şüur, xalqımızın mədəniyyətinin təbliği məsələləri qırmızı xətlə keçirdi. Görülən işlər isə nəticəsiz qalmamışdı.

Kitabxanaların bu dövrdəki fəaliyyətinin təhlili göstərir ki, oxucuların milli mədəniyyətimizə, ədəbiyyatımıza, Azərbaycan tarixinə, milli ideologiyaya dair nəşrlərə marağı olduqca çoxalmışdı. Çox fərəhləndirici haldır ki, Azərbaycan dilində olan kitablara da sorğu əvvəlki illərə nisbətən qat-qat artmışdı.

Sov.İKP MK 1974-cü ildə "Zəhmətkeşlərin kommunist tər-biyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" qərar qəbul etdi. Bu qərarda müasir mərhələdə kitabxanaların ideoloji, mədəni-maarif və məlumat funksiyaları müəyyənləşdirilmiş, kitabxanaların mərkəzləşdirilməsi məsələsi irəli sürülmüşdü. Bu qərarın qəbulundan dərhal sonra Azərbaycan KP MK onu həyata keçirmək üçün "Kitabxana işi haqqında" xüsusi qərar qəbul etdi. Bu qərarda kitabxana işinin mərkəzləşdirilməsinə hərtərəfli kömək etmək rayon partiya komitələrinə bir vəzifə olaraq tapşırılmış, rayon xalq deputatları sovetləri icraiyyə komitələrinə kitabxana işinin yenidən qurulması üçün onların maddi-texniki bazalarının möhkəmləndirilməsinə kömək etmək, bina və kadrla təmin etmək həvalə edilmişdi. Bu qərarın yerinə yetirilməsinə Azərbaycan KPMK-nın birinci katibi Heydər Əliyev bilavasitə nəzarət edirdi. Mərkəzi Komitənin qərarını yerinə yetirmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Soveti də respublikada kitabxana işi haqqında qərar qəbul etdi. Kitabxana işinə bilavasitə rəhbərlik edən Azərbaycan Mədəniyyət Nazirliyi respublikada kitabxana işinin mərkəzləşdirilməsinə həsr edilmiş geniş kollegiya iclası keçirdi. Kollegiya respublikada kitabxana işinin mərkəzləşdirilməsinin proqramını, mərkəzləşdirmə planını və müddətini müəyyənləşdirən qərar qəbul etdi.

Respublikada kitabxana işinin mərkəzləşdirilməsi bu plana müvafiq həyata keçirilməyə başladı. Bu planın həyata keçirilməsinə respublikanın bütün kitabxana ictimaiyyəti cəlb edilmiş, peşəkar kitabxana işçiləri yerlərdə mərkəzləşdirməyə hazırlıq işləri aparmaq üçün kənd rayonlarına ezam edilmişdilər. M.F. Axundov adına Respublika Kitabxanasının mütəxəssisləri mərkəzləşmənin metodik təminatında yaxından iştirak etməklə onun təşkilati işinə də əhəmiyyətli köməklik göstərirdilər. Kənd rayonlarında mərkəzləşmənin aparılmasında böyük çətinliklər qarşıya

çıxırdı. Bu çətinliklər kitabxanaların maddi-texniki bazasının zəifliyində, müasir şəraitə cavab verəcək kitabxana binalarının az olmasında, kitabxana kataloqlarının, uçot və hesabat işlərinin qaydasında olmamasında, mütəxəssis kitabxanaçı kadrların düzgün seçilib yerbşdirilməməsində özünü göstərirdi. Mərkəzləşdirməni müvəffəqiyyətlə aparmaq üçün göstərilən nöqsanlar sürətlə aradan qaldırılmağa başladı. Bu işdə rayonun bütün ictimaiyyətinin iştirakı mühüm nailiyyətlər əldə etməyə, mərkəzləşmə işində dönüş yaratmağa böyük kömək etdi.

Sovet hakimiyyəti illərində kitabxana işində aparılan ən böyük islahat olan mərkəzləşmə işi müvəffəqiyyətlə başa çatdırıldı. Mərkəzləşmə nəticəsində respublikada 3174 filialı olan 69 mərkəzləşmiş rayon kitabxana sistemi yaradıldı. Kənd kitabxa-nalarında rayon kitabxanaları mərkəzi kitabxana kimi, rayon uşaq kitabxanaları və müstəqil kənd kitabxanaları isə onların filialı kimi formalaşdı. Respublikamızın 8 şəhərində 111 filialı olan mərkəzləşdirilmiş sistem yaradılmışdı. Rayon kitabxanalarının mərkəzləşməsinin müvəffəqiyyətlə başa çatmasına baxmayaraq, şəhər kitabxanalarının, xüsusilə Bakı şəhər kütləvi kitabxanalarının mərkəzləşməsi prosesini müəyyən obyektiv və subyektiv çətinliklər üzündən tam başa çatdırmaq mümkün olmamışdı. Şəhər kitabxanalarında mərkəzləşmənin aparılması 80-ci illərin əvvəllərinə qədər davam etdi.

Respublikamızda kitabxana işinin inkişafında 1970-85-ci illər yeni mərhələ kimi xarakterizə olunur. Məhz bu mərhələdə kitabxana işi sahəsində baş verən çox dərin dəyişikliklər, kitabxana işinin əsaslı şəkildə yenidən qurulması bilavasitə ölkənin kitaba və məlumata olan tələbatının obyektiv şəkildə artması ilə əlaqədar idi. Bütün bu dəyişikliklər kitabxana işinin yenidən qurulması sahəsində indiyə qədər həll edilməsi mümkün olmayan bir çox keyfiyyətcə yeni, mürəkkəb problemlərin həll edilməsinə imkan verdi. Bu problemlər içərisində: mərkəzləşdirmənin həyata keçirilməsi ilə əlaqədar kütləvi kitabxana şəbəkəsinin və digər kitabxanaların köklü şəkildə yenidən təşkili; kitabxanaların məlumat fəaliyyətinin inkişafı ilə əlaqədar olaraq onların funksiyalarının əhəmiyyətli dərəcədə genişlənməsi; kütləvi kitabxana fondlarının formalaşmasına yanaşmanın əsaslı şəkildə dəyişməsi; depozitar kitabxana

fondlarının yaranması; kitabxanalara dövlət rəhbərliyinin təkmilləşdirilməsi, kitabxanaşünaslıq və biblioqrafiyanın ən mühüm sahələrinə dair elmi-tədqiqat işlərinin genişlənməsi; elmi-metodik fəaliyyətin əlaqələndirilməsinin daha da möhkəmləndirilməsi və s. daha çox diqqəti cəlb edir.

Sov. İKP MK-nın 1974-cü ildə qəbul etdiyi "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" qərarı ölkədə kitabxanaların ideoloji, mədəni-maarif və məlumat funksiyalarını müəyyənləşdirdi, kitabxana işini müasir şəraitdə dövlətimizin həyata keçirtdiyi mürəkkəb iqtisadi, siyasi və sosial vəzifələrin həllinə yönəltdi. Azərbaycan KP MK bu mühüm partiya sənədinin respublikamızda həyata keçirilməsi üçün xüsusi qərar qəbul etdi. Ümummilli lider H.Əliyevin bilavasitə rəhbərliyi ilə yaxın müddətdə qərarın əsas müddəalarının həyata keçirilməsi sahəsində ciddi işlər görüldü.

Qərarın əsas müddəalarından biri sovet kitabxana sisteminin strategiyası kimi qiymətləndirilən kitabxanaların mərkəzləşdirilməsi idi. Kitabxana işinin inkişafında keyfiyyətcə yeni mərhələ olan mərkəzləşmə nəticəsində hər bir şəhərdə və rayonda filial sisteminə malik olan, əvvəllər müstəqil fəaliyyət göstərmiş kitabxanalardan müqayisəedilməz dərəcədə böyük üstünlüklərə və imkanlara malik olan vahid və böyük kitabxana müəssisələri yaradılmışdı. Mərkəzləşmiş kitabxanalar əvvəlki kimi bir-birindən ayrılıqda deyil, şəhər və rayonlarda bir-birilə əlaqədar, bir-birini tamamlayan vahid sistem kimi fəaliyyət göstərirdi. Vahid kitabxana sisteminin yaranması şəhər və rayonlarda keçmişdə onları xırda kitab fondlarının yerinə kəmiyyət və keyfiyyətcə böyük və güclü, universal kitab fondlarının yaradılmasına səbəb olmuşdu. Mərkəzləşmə, həmçinin kitabxanalara məlumat-biblioqrafiya və informasiya işini daha operativ və key-fiyyətli təşkil etmək, əhaliyə məlumat-biblioqrafiya və informasiya xidmətini daha geniş miqyasda həyata keçirmək imkanı vermişdi. Zəngin və böyük fonda, güclü məlumat-biblioqrafiya və informasiya işi təşkil etmək imkanına malik olan, mərkəzləşmiş sistemlər əhaliyə kitabxana xidməti prosesini keyfiyyətcə

yeni mərhələyə qaldırmaq üçün şərait yaratdı. Oxuculara xidmət işinin ideya-siyasi səviyyəsi, keyfiyyəti və effektivliyi müqayisəedilməz dərəcədə yüksəldi. Mərkəzləşmə kitabxana işinin idarə olunmasına, kitabxanalarda əməyin düzgün təşkilinə, işçilər arasında ixtisaslaşmalar aparılmasına, metodik işin yaxşılaşdırılmasına əlverişli şərait yaratdı.

Azərbaycanda dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi kimi olduqca məsuliyyətli və mürəkkəb prosesin həyata keçirilməsi respublika Mədəniyyət Nazirliyinin gərgin işi sahəsində müvəffəqiyyətlə başa çatdırılmışdır.

Mərkəzi Komitənin qərarını həyata keçirmək üçün respublika Mədəniyyət Nazirliyi böyük tədbirlər planı hazırladı. Bir neçə il müddətində yerlərdə hazırlıq işi aparıldıqdan sonra, 1975-1980-ci illər ərzində mərkəzləşmə əsasən həyata keçirildi. Doğrudur, bəzi ra-yonların mərkəzi kitabxanalarında kitabxana işinin lazımi səviyyədə olmaması, kataloqların yoxluğu bu işin həyata keçirilməsini ləngidirdi. Belə hallarda M.F.Axundov adına Respublika Kitabxanasının, ümumiyyətlə, respublika ictimaiyyətinin köməyi ilə mövcud çətinliklər tədricən aradan qaldırıldı. Mərkəzi Komitənin qərarının yerinə yetirilməsinə yerli partiya və dövlət təşkilatları yaxından rəhbərlik edir, kitabxanaların mərkəzləşməsinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük qayğı göstərirdilər.

Qeyd etmək lazımdır ki, respublikamızda kütləvi kitabxana şəbəkələrinin mərkəzləşdirilməsinin başa çatdırılması əhaliyə kitabxana xidmətini kökündən dəyişmiş, xüsusilə kənd əhalisinə kitabxana xidməti əsaslı surətdə yaxşılaşdırılmışdır.

Mərkəzləşmiş kitabxana sistemlərində kitab fondlarının yeni tələbata uyğun olaraq formalaşması universal fondlar kimi onların əhəmiyyətini artırmış, rayon mərkəzində yaşayan bütün ziyalılara, mütəxəssislərə xidmət etmək imkanı vermişdir. Mərkəzi kitabxana fondlarından filialların istənilən vaxt öz oxucuları üçün kitab almaq imkanlarının olması kənd kitabxanalarına oxucuların tələbatını ödəmək imkanı vermişdir. Mərkəzləşmiş kitabxana sistemlərində maliyyə vəsaitlərinin düzgün xərclənməsi kitabxanalara daha çox adda kitab almaq, vəsaiti məqsədəuyğun xərcləmək şəraiti yaratmışdır. Mərkəzləşmiş sistemlər-

də kitabxana kataloqlarının yenidən qurulması, kartotekaların yaradılması, məlumat fondlarının təşkili onların funksiyalarını xeyli artırmış, bu kitabxanaları elmi məlumat mərkəzinə çevirmişdir. Mərkəzləşmiş sistemlərdə metodik işin təşkili filialları köməklik göstərmək, kənd əhalisinə kitabxana xidmətinin forma və metodlarını yaxşılaşdırmaq üçün şərait yaratmışdır. Mərkəzləşdirilmiş kitabxana sistemlərinin ştat vahidinin artması, yeni şöbələrin yaranması bu sistemlərin ətrafında yüksəkixtisaslı mütəxəssis kadrların toplanmasına səbəb olmuşdur ki, bu da oxuculara xidmət işini yaxşılaşdırmış, oxuculara fərqli xidmət etmək üçün şərait yaratmışdır.

Yeni sistemin yaranması kitabxanaların potensial imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmiş, daha zəngin ədəbiyyat fondu, təkmilləşmiş məlumat aparatı olan kitabxana müəssisələrinin meydana gəlməsinə səbəb olmuşdur. Mərkəzləşmə zamanı kütləvi kitabxanaların kitab fondu 5 milyon nüsxə, kitab verilişi 9 milyon nüsxə, oxucuların sayı 513 min nəfər artmış, 332 yeni kitabxana açılmışdır. İctimai-siyasi ədəbiyyat fondu 1 milyon 700 min, həmin ədəbiyyatın verilişi isə 2 milyon 650 min nüsxə artmışdır.

Kitabxanaların daxili imkanlarının artması əhaliyə kitabxana xidmətinin daha da təkmilləşdirilməsinə, kitab təbliğinin yeni forma və üsullarından istifadə edilməsinə şərait yaratmışdır. Sumqayıt, Gəncə, Bakının Xətai və Nizami rayon mərkəzləşmiş kitabxana sistemlərində elm və texnikanın son nailiyyətləri, qabaqcıl təcrübəni əks etdirən ədəbiyyat xüsusi təbliğat formaları: “Bülletenlər” buraxılışı, “Mütəxəssis günləri”, “İnformasiya günləri” keçirilməsi, mühazirələr, yeni kitabların müzakirəsi və s. vasitələrlə geniş təbliğ olunurdu.

Respublikamızın kənd rayonlarında MKS-lərin yaradılması kənd əhalisinə kitabxana xidmətini kökündən yaxşılaşdırmışdır. Belə bir faktı qeyd etmək sevindiricidir ki, bütün kütləvi kitabxanalarda il ərzində verilən ədəbiyyatın təxminən yarısı məhz kənd oxucularının payma düşürdü. Bu kitabxanalardan istifadə edən oxucuların 60 faizi isə kənd sakinləri idi. Bir oxucuya ilboyu verilən kitabların sayına görə respublikamızın kənd kitabxanaları ümumittifaq miqyasında əvvəlinci

yerlərdən birini tuturdu. Kitabxanalardan istifadə edən 2 milyon 682 min oxucunun 1 milyon 437 min nəfəri kənd oxucuları idi.

Respublikamızda MKS-lərin ştat vahidləri ilə təmin edilməsi, kadr məsələsinin həlli sahəsində də əhəmiyyətli işlər görülmüşdür. SSRİ Mədəniyyət Nazirliyinin "Mərkəzləşmiş kitabxana sistemlərinin müvəqqəti nümunəvi ştat cədvəli" normativinin respublikamızda qüsursuz yerinə yetirilməsi buna misaldır. 1980-1984-cü illərdə kitabxana işçilərinin sayı 1498 nəfər, o cümlədən 145 nəfər ali, 331 nəfər ali ixtisas təhsilli, 680 nəfər orta ixtisas təhsilli kitabxanaçının hesabına çoxalmışdı. Mərkəzləşmə nəticəsində kənd kitabxanalarmm miqdarı, kitab fondu və oxucuların sayı əhəmiyyətli dərəcədə artmışdı. Bunu qabaqcıl kitabxana sistemlərinin fəaliyyətini əks etdirən cədvəldən görmək olar. Bu cədvəldə 10 MKS-in fəaliyyəti əks etdirilmişdir.

| Rayonun adı | Kitab fondu | | Oxucuların sayı | | Kitab verilişi | |
|---|---|---|---|---|---|---|
| | 1.1.1980 | 1.1.1984 | 1.1.1980 | 1.1.1984 | 1.1.1980 | 1.1.1984 |
| Qazax | 577.800 | 711.600 | 50.800 | 63.800 | 1.51.100 | 1333.500 |
| Yevlax | 254.500 | 345.800 | 33.900 | 64.000 | 623.300 | 748.400 |
| Astara | 210.500 | 254.300 | 27.300 | 31.000 | 501.100 | 579.800 |
| Tovuz | 361.500 | 421.900 | 44.700 | 47.000 | 867.900 | 931.000 |
| Lənkəran | 516.400 | 636.100 | 87.600 | 99.600 | 1.894.600 | 2056.700 |
| Salyan | 1326.7 | 407.900 | 36.50 | 63.000 | 995.000 | 1207.900 |
| Ağdam | 472.400 | 505.700 | 53.80 | 64.600 | 1070.200 | 1265.900 |
| Şamaxı | 454.700 | 505.300 | 28.300 | 44.900 | 995.800 | 1040.400 |
| Sumqayıt | 4699.000 | 595.500 | 34.400 | 45.40 | 785.000 | 945.300 |
| Mingəçevir | 210.400 | 755.100 | 18.800 | 31.200 | 585.600 | 2024.100 |

Cədvəldən göründüyü kimi, fəaliyyəti təhlil olunan 10 MKS-də kitab fondu 1.587.833 nüsxə, oxucuların sayı 176.810 nəfər, kitab verilişi isə 663.100 nüsxə artmışdır.

Azərbaycan SSR Mədəniyyət Nazirliyi kitabxana şəbəkəsinin 1981-1983-cü illərdəki əsas göstəricilərini nəzərdən keçirək.

**Azərbaycan SSR Mədəniyyət Nazirliyi nəzdində olan kitabxanaların 1981-1983-cü illər üzrə əsas göstəriciləri**

| İllər | | 1981 | | | | 1982 | | | | 1983 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kitabların sayı | | 3533 | | | | 3614 | | | | 3697 | | |
| Kitab fondu | | 290086.3 | | | | 30499.8 | | | | 31901.0 | | |
| Kitab verilişi | | 56326.4 | | | | 58235.1 | | | | 58841.3 | | |
| Oxucuların sayı | | 2517.4 | | | | 2616.5 | | | | 2671.6 | | |
| İşçilərin sayı | Cəmi: | Ali | Ali ixtisas | Orta ixtisas | Cəmi: | Ali | Ali ixtisas | Orta ixtisas | Cəmi | Ali | Ali ixtisas | Orta ixtisas |
| | 6161 | 1043 | 680 | 2506 | 6367 | 1111 5 | 746 | 2584 | 620 | 196 | 84 | 2528 |

Kitabxanalara ayrılan maliyyə vəsaitinin ilbəil artırılması kitabxana fondlarının tərkibinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına, çevik və dinamik olmasına səbəb olmuşdur. Respublika Mədəniyyət Nazirliyi kitabxanalarına kitab almaq üçün 1983-cü ildə 1.267.179 manat vəsait ayrılmışdısa, 1984-cü ildə bu məbləğ 1.284.130 manata çatdırılmışdır. Təkcə kitabxana kollektoru 1983-cü ildə Mədəniyyət Nazirliyinin kitabxanalarına 2.114.249 nüsxə ədəbiyyat göndərmişdi.

Son 15 ildə respublikada yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanması sahəsində də mühüm işlər görülmüşdür. Respublika ali məktəblərinin bayraqdarı olan Bakı Dövlət Universiteti 1.441 nəfər yüksək-ixtisaslı mütəxəssis kadr hazırlamış, kadr hazırlığının keyfiyyətini xeyli yaxşılaşdırmışdır. Universitetin Kitabxanaçılıq fakültəsi kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığa dair elmi-tədqiqat işinin təşkilində, beləliklə də bu sahədə elmi-nəzəri fikrin inkişafında mühüm işlər görmüşdür. Fakültədə bu dövrdə 1 doktorluq və 5 namizədlik dissertasiyası müdafiə edilmiş, kitabxana işinin tarixi və metodikasına dair sanballı monoqrafiyalar, əsərlər yaradılmış, fakültənin nəşr et-

dirdiyi əsərlərdə qiymətli elmi-tədqiqat və təcrübi əhəmiyyətə malik olan 400-ə qədər məqalə nəşr edilmişdir.

Bu dövrdə əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsi kitabxanalarda elmi-metodik işin kökündən yaxşılaşdırılmasını, mərkəzləşmənin qarşıda qoyduğu vəzifələrin hərtərəfli təhlil edilib ümumiləşdirilməsini, yeni iş forma və metodlarının aşkara çıxarılmasını tələb edirdi. Mövcud dövlət sənədlərinə müvafiq olaraq bu iş M.F.Axundov adına Respublika Kitabxanası tərəfindən həyata keçirilirdi. Respublika Kitabxanasının qarşısında mərkəzləşmiş kitabxana sistemlərinə metodik rəhbərlik etmək, onların işini istiqamətləndirmək, mühüm sənədlərin tərtibində kitabxana işi və biblioqrafiyanın perspektiv planlarının hazırlanmasında, metodik və biblioqrafik işin əlaqələndirilməsində, qabaqcıl iş təcrübəsinin öyrənilib, ümumiləşdirilib yayılmasında, kitabxanaçı kadrların ixtisasının artırılmasında yaxından iştirak etmək vəzifəsi qoyulmuşdu.

Həmin mərhələdə kitabxana xidmətinin təkmilləşdirilməsi problemlərindən biri, heç şübhəsiz ki, yüksəkixtisaslı kadrların seçilib yerləşdirilməsi idi. Bu illərdə respublikamızda yüksəkixtisaslı kadrların hazırlanması sahəsində böyük nailiyyətlər əldə edilmişdi. BDU-nun Kitabxanaçılıq fakültəsinin maddi-texniki bazası möhkəmlənmiş, yüksəkixtisaslı elmi-pedaqoji kadrlarla təkmilləşmişdir. Fakültədə ixtisas fənlərindən dərs deyən müəl-limlərdən 1 nəfəri elmlər doktoru, 13 nəfəri isə elmlər namizədi idi. 1984-cü ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi BDU-nun Kitabxanaçılıq fakültəsi üçün 5 illik fərdi tədris planı təsdiq etmişdi ki, bu da yüksəkixtisaslı mütəxəssis kadrlar hazırlamaq üçün böyük şərait yaradırdı. Fakültənin qəbul plam ilbəil artırılırdı. 1984-85-ci dərs ilində fakültənin əyani, axşam və qiyabi şöbələrinə 225 nəfər tələbə qəbul edilmişdi. Müsabiqədənkənar qəbul və ümumi qəbul zamam kənd yerlərindən gələnlərə üstünlük verilməsi kənd yerlərində daimi yaşayanların tələbələr sırasında sayını xeyli çoxaltmışdı ki, bu da kənd kitabxanalarının kitabxanaçı kadrlarla təmin edilməsinə müsbət təsir göstərirdi.

Bütün bu vəzifələrin həyata keçirilməsində respublikamızda kitabxana işinin mərkəzləşdirilməsi olduqca böyük rol oynadı.

Ölkəmizdə mərkəzləşdirmənin müvəffəqiyyətlə həyata keçirilməsi və onların işinin ilkin yekunlarının elmi təhlili bu mühüm dövlət tədbirinin böyük üstünlüklərə malik olmasını, kitabxana xidmətinin təşkilində ciddi keyfiyyət dəyişikliklərinin baş verməsini, kitabxana işinin perspektiv inkişafı üçün əhəmiyyətli nəticələr əldə edilməsini aşkara çıxardı. Əldə edilmiş nəticələri belə ümumiləşdirmək olar:

1. Mərkəzləşdirilmiş kitabxana sistemləri maliyyə vəsaitlərinin mərkəzləşdirilməsinə, büdcənin bir əldə toplanmasına, səmərəli istifadə edilməsinə şərait yaratdı. Qənaət edilmiş vəsait yeni alınan kitabların çeşidinin artırılmasına, kitab fondunun oxucu tələbatına uyğun komplektləşdirilməsinə, dinamik, işlək oxucu sorğularına cavab verən kitab fondlarının yaradılmasına səbəb oldu;

2. Kitabxana sistemlərinin təsir dairəsi xeyli genişlənmiş, xidmət prosesində baş verən dəyişikliklər kitabxanalara yeni oxucuların gəlməsinə səbəb olmuş, oxucuların sayı müntəzəm olaraq çoxalmağa başlamışdı;

3. Kitabxana sistemlərində məlumat-biblioqrafiya və infor-masiya bazalarının genişlənməsi kataloqların, kartotekaların, məlumat-sorğu aparatının yenidən qurulması, bu mühüm işə informasiya texnikasının tətbiqi məlumat-biblioqrafiya xidmətinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırmışdı;

4. Mərkəzləşdirilmiş sistemlərdə kitab sərvətindən istifadə strukturunun dəyişməsi kitabxana fondlarının profilə uyğun komplektləşməsinə, elmi-texniki və peşə ədəbiyyatının toplanmasına üstünlük verilməsi oxucuların artmasına səbəb olmuş, mütaliənin müasir funksiyalarının daha çox təkmilləşməsi hiss edilməyə başlamışdı. Kitab təbliğində kütləvi informasiya vasitələrindən ardıcıl olaraq istifadə edilməsi kitabxana xidmətinin keyfiyyətcə yaxşılaşmasına əhəmiyyətli təsir göstərmişdi.

Həmçinin mərkəzləşdirmə əsas kitabxana prosesinin birləşməsi ilə yanaşı, kitabxana ehtiyatlarının məqsədyönlü, daha effektli formalaşmasına və istifadə edilməsinə, kitabxanaların prinsipial maddi və təşkilati məsələlərinin həllinə şərait yaratmışdı. Mərkəzləşdirilmiş şəkildə kitabxana işinin çox mühüm funksiyaları: kitabxana sistemlərinin əsas

istiqamətlərinin və inkişaf perspektivlərinin təyin edilməsi; kitabxana ehtiyatlarının formalaşdırılması, yerləşdirilməsi; siqnal biblioqrafik informa-siyaların, yeni daxil edilmiş ədəbiyyat haqqında məlumatların, kitabxanalararası abonementin təşkili, az istifadə olunan ədəbiyyatın saxlanılması, kitabxana işində kompüterlərdən istifadə edilməsi haqqında vahid siyasətin aparılması və s. filial kitabxanalarını müstəqil həll edə bilmədikləri bir çox məsələlərdən azad edir, onlara mərkəzi kitabxanadan istədiyi köməyi almaq imkanı yaradırdı.

Mərkəzi kitabxananın ayrı-ayrı şöbələrinin filial kitabxanalarının işinin təşkilində yaxından iştirak etməsi onların işini dövrün tələbləri səviyyəsində qurmaq üçün şərait yaradırdı. Bir sıra kitabxanaşünaslar mərkəzləşdirmənin filial kitabxanalarının müstəqilliyinə xələl gətirməsi haqqında fikirlər söyləsələr də, mərkəzləşdirmənin böyük üstünlükləri bu fikrin kölgədə qalmasına gətirib çıxartdı. Mərkəzləşdirmə zamanı əldə edilmiş təcrübə bu fikirlərin yanlış olduğunu göstərdi.

Nəhayət, mərkəzləşdirmə sovet kitabxana sistemində uzun il-lərdən bəri formalaşan və həmin dövrdə meydana çıxan qüsurların və çatışmazlıqların aradan qaldırılmasına şərait yaratmaqla yanaşı, bu sistemi təzələdi, müasirləşdirdi, durğunluğu aradan qaldırıb işlək bir sistemə çevirdi. Mərkəzləşdirilmədən keçən vaxt ərzində qazanılmış təcrübənin təhlili dediklərimizi təsdiq etməklə yanaşı, mərkəzləşdirilmiş sistemlərin işinin məqsədəmüvafiqliyini zəruri etdi.

Doğrudur, 1990-cı illərdə rus mətbuatında mərkəzləşdirilmiş kitabxana sistemlərinin (MKS) nöqsanları, onların müasir dövrün tələblərinə cavab vermədiyi haqqında fikirlər səslənirdi. Lakin Rusiyanın kitabxana ictimaiyyəti bu fikirləri qəbul etmədi. Azərbaycanda isə belə fikirlər olmadığından əhaliyə kitabxana xidmətində mərkəzləşdirilmiş kitabxana sistemlərinin rolu yüksək qiymətləndirildi, onların işinin daha da təkmilləşdirilməsi haqqında tədbirlər görülməyə başlandı.

Təsadüfi deyil ki, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda mərkəzləşdirilmiş kitabxana sistemləri (MKS) Azərbaycan kitabxana sistemlərinin əsas tiplərindən biri kimi göstərilmişdir.

Beləliklə, XX əsrin 70-ci illərindən ölkəmizin kitabxana sis-temlərinin təkmilləşməsi üçün böyük strateji əhəmiyyətə malik olan bir konsepsiya kimi qəbul edilmiş mərkəzləşdirmə infor-masiyalaşdırma əsri olan XXI əsrin kitabxanaların qarşısında qoyduğu tələblərə cavab verir, onun inkişaf etdirilməsi və təkmilləşdirilməsi zəruriliyini irəli sürür.

Bu dövrdə respublikamızın iqtisadiyyat, elm və mədəniyyətin inkişafı sahəsində əldə etdiyi nailiyyətlər kitabxana işinin inkişafına böyük təkan vermiş, əhaliyə kitabxana xidmətinin təşkili sahəsində mühüm uğurlar qazanılmasına imkan vermişdir.

Kitabxanaların maddi-texniki bazası möhkəmlənmiş, kitabxana işinə ayrılan maliyyə vəsaiti artmış, yeni kitabxana binaları tikilmiş, mövcud binalar əsaslı təmir edilmiş, kitabxanaların avadanlıqla, inventarla təchiz edilməsi işi xeyli yaxşılaşmış, kitabxana fondları durmadan zənginləşmiş, yeni kitabxanalar açılmış, bu kitabxanalar kadrlarla möhkəmləndirilmiş, kütləvi kitabxanaların mərkəzləşdirilməsi başa çatdırılmışdır. Son 15 il ərzində kitabxanalara 52 milyon manatdan artıq vəsait ayrılmış, xüsusi tipli 17 yeni kitabxana binası tikilmiş, kitabxanalara 32.214.750 manatlıq avadanlıq göndərilmişdir. Bu dövrdə kitabxanalara 19.296.450 milyon manatlıq 19.234.185 nüsxə kitab alınmış, kitabxana oxucularının sayı 1.149.222 nəfər artmışdır.

1970-1985-ci illərdə Azərbaycan kəndində həyata keçirilən mədəni quruculuq tədbirləri daha intensiv olmuşdur. Kənd təsərrüfatının inkişafı sahəsində əldə edilmiş böyük nailiyyətlər kəndin mədəni simasının kökündən dəyişməsinə səbəb olmuş, mədəniyyət ocaqlarının maddi-texniki bazası möhkəmlənmiş, onların şəbəkəsi qaydaya salınmış, əhaliyə mədəni xidmət işinin keyfiyyəti xeyli yaxşılaşmışdır. Bu dövrdə kənd mədəniyyətinin mühüm sahəsi olan kitabxana işi sahəsində əldə edilmiş nailiyyətlər daha sevindirici olmuşdur.

1970-1985-ci illərdə kitabxana işi bilavasitə ölkə mədəniyyətinin tərkib hissələrindən biri kimi dövlət qayğısı ilə əhatə edilmiş, ilk dəfə olaraq respublikanın bütün yaşayış məntəqələrində kitabxanalar yaradılmasına təşəbbüs göstərilmiş, 60-cı illərdə ləğv edilmiş kənd kitabxana şəbəkəsinin bərpası başa çatdırılmış, kitabxana işi haqqında dövlət qərarları qəbul edilmiş, respublika kütləvi kitabxana şəbəkəsi

mərkəzləşdirilmiş, kitabxanaların maddi-texniki bazası möhkəmləndirilmiş və kitabxana şəbəkəsi kəmiyyətcə artmış, həmçinin əhaliyə kitabxana xidmətinin təşkilində və məzmununda yeni keyfiyyət dəyişikliyi baş vermişdi. Göstərilən dövrdə respublikamızda nəşriyyat işinin yenidən qurulması, yeni nəşriyyatların yaranması, kitab nəşri repertuarında milli ədəbiyyatın geniş yer tutması kitabxana fondlarının milli ədəbiyyatımıza, milli ideologiyamıza aid əsərlərlə zənginləşməsinə, onların oxucu sorğularının ödənilməsində yaxından iştirakına gətirib çıxarmışdı.

15 il ərzində respublikamızda 1.200 yeni kitabxana açılmışdı ki, bunların da 1.100 kitabxana kənd yerlərində idi.

Biz respublikamızda kitabxana işinin inkişafı sahəsində Heydər Əliyev dövrünü xarakterizə etmək üçün onun hakimiyyətə başladığı 1969-cu ildən 1985-ci ilə qədərki 15 illik dövrü mövcud statistik külliyyatlara əsaslanaraq təhlil etməyi məqsədəmüvafiq hesab etdik. Əgər 1970-ci ildə Azərbaycanda 25 milyon 400 min nüsxə kitab fonduna malik 2923 kütləvi kitabxana var idisə, 1985-ci ildə 38 milyon 800 min kitab fondu olan 4245 kütləvi kitabxana fəaliyyət göstərmişdir. Son 15 ildə kitabxanaların sayı 1322 ədəd, kitab fondu isə 13 milyon 400 min nüsxə artmışdır. Əgər 1970-ci ildə kütləvi kitabxanalarda orta hesabla hər 100 oxucuya 90 kitab düşürdüsə, kitabların miqdarı 1985-ci ildə 578-ə çatmışdı. Yəni son 15 ildə hər 100 nəfərə düşən kitabların miqdarı 488 nüsxə artmışdı. Bu dövrün ən böyük nailiyyəti onda idi ki, açılan yeni kitabxanaların əksəriyyəti o vaxta qədər kitabxanaları olmayan yaşayış məntəqələrində açılmışdı. Bu da əhalini kitabxana xidməti ilə təmin etməyə imkan verir, kitab mədəniyyətinin, informasiyanın geniş yayılmasını təmin edirdi.

Bu dövrdə kitabxana quruculuğunun xarakterik xüsusiyyətlərindən biri uzun illər idi ki, dövlət orqanları tərəfindən unudulmuş kənd kitabxanalarının təşkilinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərilən diqqət idi. Heydər Əliyev hakimiyyəti dövründə kənd yerlərində 1192 yeni kitabxana açılmış, onların fonduna 7 milyon 800 min nüsxə yeni kitab daxil olmuşdu. 1970-85-ci illərdə

kitabxana işi sahəsində baş verən ən böyük hadisə kitabxanaların oxuculara xidmət işində əldə etdiyi keyfiyyət göstəricisi idi. Bu göstərici özünü həm oxucuların sayının ilbəil çoxalmasında, həm də oxuculara kitab verilişinin dövriyyəsinin artmasında özünü göstərirdi. Rəqəmlərə diqqət yetirək. Əgər 1980-ci ildə bütün kütləvi kitabxanalarda 2,7 milyon oxucu olmuş və onlara 61,3 milyon kitab və jurnal verilmişdisə, müvafiq olaraq oxucular 1985-ci ildə 3,2 milyon, kitab və jurnal verilişi isə 68 milyon nüsxə olmuşdur. İl ərzində hər bir oxucuya verilən kitab və jurnalların sayı da əhəmiyyətli şəkildə çoxalmışdı. Orta hesabla hər bir oxucuya 23 kitab düşürdü. Respublikamızda bu dövrdə kütləvi kitabxanalarla yanaşı, ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin, ictimai təşkilatların kitabxana şəbəkələrinin inkişafında mühüm inkişaf və tərəqqi baş vermişdi. Təhsil kitabxanaları böyük inkişaf yolu keçmiş, geniş ali məktəb kitabxanaları, orta ixtisas təhsil müəssisələri kitabxanaları, texniki peşə məktəbi kitabxanaları, orta ümumtəhsil müəssisələri kitabxana şəbəkələri formalaşmışdı. Demək olar ki, respublikanın bütün orta məktəblərində müstəqil məktəb kitabxanaları yaradılmışdı. Təhsil kitabxanaları kütləvi kitabxanalardan sonra ən böyük şəbəkəyə çevrilmiş, respublikada sayca ikinci şəbəkə olmuşdu. 1982-ci ildə bu şəbəkədə 4 minə yaxın kitabxana fəaliyyət göstərirdi. Həmçinin Azərbaycan Səhiyyə Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Neft Sənayesi Nazirliyinin və s. nazirliklərin, idarə və müəssisələrin, Azərbaycan Milli Elmlər Akademiyasının, partiya və həmkarlar təşkilatlarının kitabxanaları da respublikada elmin, mədəniyyətin inkişafı ilə əlaqədar olaraq inkişaf edib təkmilləşmişdi. Respublikamız kitabxana şəbəkəbrinin sıx yerləşdiyi böyük kitab sərvəti ölkəsinə çevrilmişdi. Əgər 1970-ci ildə respublikada 25,4 milyon nüsxə kitab fonduna ma-lik 2923 kütləvi kitabxana var idisə, 1985-ci ildə 38,8 milyon nüsxə kitab fonduna malik 4245 kütləvi kitabxana fəaliyyət göstərirdi. 15 il müddətində kütləvi kitabxanaların sayı 1322 ədəd artmış, kitab fondu isə 13,4 milyon nüsxə çoxalmışdı. 1981-ci ildə respublikamızda bütün növdən (kütləvi, elmi, təhsil, texniki və s.) olan kitabxanaların sayı 8905 ədəd, kitab fondu isə 29,8 milyon nüsxə olmuşdur. Bütün bu rəqəmlər respublikamızda

Sovet hakimiyyəti illərində əldə edilmiş ən yüksək göstəricilər idi. Respublikamız bu göstəricilərə görə də SSRİ respublikaları içərisində əvvəlinci yerlərdən birinə yüksəlmişdi. Bu göstəricilərin arxasında böyük yaradıcı əmək, iqtisadi-mədəni inkişaf, ciddi təşkilatçılıq işi, Azərbaycan mədəniyyətinə, kitab və kitabxana işinə xalq qayğısı, xalqın böyük oğlu H.Əliyevin iradəsi dayanmışdı. Kitabxana işi sahəsində əldə edilmiş ciddi nailiyyətlərin, böyük kəmiyyət və keyfiyyət göstəricilərinin, əhaliyə kitabxana xidmətinin təşkilində baş verən proseslərin və qazanılmış nailiyyətlərin elmi təhlili məhz bu dövrün (1970-1985) respublikamızda kitabxana işinin tarixində yeni mərhələ - Heydər Əliyev mərhələsi olduğunu söyləməyə imkan verir.

70-ci illərdə xalq təsərrüfatı, həmçinin elm, təhsil, mədəniyyət sahələrində əldə etdiyi nailiyyətlərə görə Azərbaycanın Sovetlər İttifaqının ən qabaqcıl respublikalarından birinə çevrilməsi Heydər Əliyevin görkəmli bir dövlət xadimi kimi tanınmasına səbəb olmuş, ona böyük şöhrət gətirmişdi. Məhz buna görədir ki, 1976-cı ildə Sov.İKP-nın plenumu onu həmin dövrün ən ali rəhbərlik orqanı sayılan Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçdi. Belə bir yüksək vəzifəyə irəli çəkilməsi H.Əliyevin ölkə miqyasında qazandığı böyük nüfuzla əlaqədar idi. Heydər Əliyevin Siyasi Büro üzvlüyünə namizəd kimi fəaliyyət göstərdiyi illərdə Azərbaycan xalq təsərrüfatı, iqtisadiyyatı və mədəniyyəti böyük nailiyyətlər əldə etməklə respublikanın ittifaq miqyasında nüfuzu, çəkisi yüksəlmiş, əhalinin maddi rifah halı qat-qat yaxşılaşmışdı. İllərdən bəri ən ağır şəraitdə yaşayan, mədəni cəhətdən geridə qalan Azərbaycan kəndinin həy-atında böyük dirçəliş baş vermiş, kəndlərimiz kütləvi halda yaşadığı palçıq daxmalardan çıxmış, özlərinə müasir yaşayış binaları inşa etmişdilə; Bu dövrdə kəndlərimiz böyük tikinti meydançasını xatırladdı.

Heydər Əliyev Siyasi Büronun üzvlüyünə namizəd seçilməsi onun böyük Sovetlər İttifaqının ali rəhbərliyinə daxil olması, Azərbaycan üçün, Azərbaycan xalqı üçün isə yeni-yeni iqtisadi, siyasi və mədəni inkişaf üfüqlərinin açılması demək idi. Məhz buna görədir ki, H.Əliyevin Siyasi Büronun üzvlüyünə namizəd seçilməsi onun doğma xalqı tərəfindən

böyük bayram kimi qəbul edildi. Bu hadisə xalq təntənəsinə çevrildi. Heydər Əliyevin Siyasi Büronun üzvlüyünə namizəd kimi 1976-cı ildən 1982-ci ilə qədər Azərbaycandakı fəaliyyəti olduqca uğurlu olmuş, o öz nüfuzundan və imkanlarından müvəffəqiyyətlə istifadə edərək Azərbaycan iqtisadiyyatına milyard manatlarla əlavə vəsaitin cəlb edilməsinə nail olmuş, ölkədə yüzlərlə yeni müəssisələrin tikilməsinə şərait yaratmışdı.

1982-ci ildə H.Əliyev Siyasi Büronun üzvü seçildi və SSRİ Nazirlər Sovetinin birinci müavini təyin edildi. Onun Moskvaya getməsi ilə əlaqədar həyatının və fəaliyyətinin Azərbaycan mərhələsi başa çatdı. Bu mərhələ Heydər Əliyevin həyatında çox şərəfli bir dövr olduğu kimi, Azərbaycamn həyatmda da uğurlu bir mərhələ kimi tarixin səhifələrinə həkk olunmuşdur. H.Əliyev Moskvaya gedəndən sonra da Azərbaycam həmişə öz nəzər-diqqətində saxlamaqla doğma respublika üçün əlindən gələni edir, ona daimi qayğı və yardım göstərirdi.

Heydər Əliyevin Moskvadan göstərdiyi ciddi köməyə baxmayaraq tezliklə respublikada onun yeri görünməyə başladı. İqtisadiyyatın inkişafında yavaş da olsa tənəzzül baş verməyə, ideoloji və siyasi nöqsanlar baş qaldırmağa, idarəçilikdə və kadr siyasətində ciddi nöqsanlar ortaya çıxmağa başladı. Respublikanın həyatında baş vermiş tənəzzül cəmiyyətin bütün sahələ-rində özünü göstərirdi.

SSRİ-də başlanan yenidənqurma siyasəti, həyata keçirilən əsaslandırılmamış dəyişikliklər, bir-birinə zidd qəbul edilən qərarlar, milli siyasətdə buraxılan olduqca ciddi nöqsanlar, rus şovinizminin baş qaldırması ölkədə faciəli şərait yaratmışdı. Mərkəzi hökumət imperiya siyasətinə əsaslanaraq müttəfiq respublikaların, xırda xalqların hüquqlarını tapdalayır, ölkədə diktatura möhkəmlənirdi. Məhz bütün bunlar SSRİ-nin dağılmasına yönəlmiş yolun başlanğıcı idi. M.S.Qorbaçov tərəfindən həyata keçirilən bu mənfur siyasətə qarşı çıxış edən Heydər Əliyev ədalətsizcəsinə Siyasi Büronun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırıldı. Bu, ermənilər tərəfindən satın alınmış M.S.Qorbaçovun Azərbaycan xalqının başına gətiriləcək böyük bəlalarını həyata keçirilməsinə

hazırlığın ilk mərhələsi idi. 1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ probleminin mahiyyəti əslində Moskva tərəfindən dəstəklənən erməni daşnaklarının Qarabağı Azərbaycandan qoparmaq planının tərkib hissəsi idi. SSRİ hökuməti 1988-ci ilin martında Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında qərar qəbul etdi. Bu qərarın əsas mahiyyəti Dağlıq Qarabağın ayrıca subyekt kimi inkişafını əsaslandırmaqla, vilayətin bir çox sosial-iqtisadi məsələlərinin həllini birbaşa ittifaq nazirliklərinə həvalə etməklə onun Azərbaycanın tərkibindən çıxmasının əsasını qoydu. Növbəti addım isə 1989-cu il yanvarın 12-də atıldı. SSRİ Ali Soveti Rəyasət Heyətinin Muxtar Vilayətdə xüsusi idarəetmə forması yaratmaq haqqında fərmanı dərc edildi. SSRİ kütləvi informasiya vasitələrində dövlətin bu antikonstitusion fəaliyyəti təbliğ edilir, mənfi azərbaycanlı obrazı formalaşdırılırdı. SSRİ dövlətinin bu antikonstitusion və milli ehtirasları qarışdıran fəaliyyəti 1988-ci ildə həm Ermənistandan, həm də Dağlıq Qarabağdan kütləvi etnik təmizləmə əməliyyatlarının - azərbaycanlıların kütləvi surətdə rus ordusunun təzyiqi altında qovulması, insan hüquqlarının kütləvi surətdə pozulması üçün şərait yaratdı. SSRİ hökuməti bilavasitə erməni millətçilərinin havadarı olan M.S. Qorbaçovun rəhbərliyi və göstərişi ilə bu ədalətsizliklərə qarşı öz haqq səsini ucaldan Azərbaycan xalqına divan tutmaq yoluna qədəm qoydu.

1990-ci il yanvarın 20-də öz hüquqlarını, milli suverenliyini, Azərbaycan Respublikasının ərazi bütövlüyünü qorumaq uğrunda mübarizə aparan, öz etiraz səsini ucaldan xalqa qarşı fövqəladə vəziyyət elan etmədən, heç bir xəbərdarlıq etmədən Sovet ordusunun xüsusi təyinatlı dəstələri və daxili qoşunların iri kontingenti Bakı şəhərini işğal etdi. Dünyada tayı-bərabəri olmayan 20 Yanvar faciəsi baş verdi. Xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilən bu əməliyyatda Rusiyanın müxtəlif regionlarından toplanmış ermənilərin iştirak etməsi silahsız dinc xalqın kütləvi surətdə qırılmasına gətirib çıxardı. Sovet dövləti tərəfindən həyata keçirilən bu qəddar əməliyyat dünya tarixində dövlətin öz vətəndaşlarına qarşı törətdiyi ən qanlı cinayətlərdən biri hesab edilir.

Bu dövrdə Azərbaycana başçılıq edən millət düşmənləri Ə.Vəzirov və A.Mütəllibov nəinki bu qanlı hadisənin qarşısını almadılar, əksinə, cinayətkarlara kömək etdilər. XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı cinayətlərdən hesab edilən 20 Yanvar faciəsinin səbəbkarlarının öz cəzalarını indi də almaması böyük təəssüf doğurur. Xalqımız 20 Yanvar faciəsi zamanı böyük itkilər versə də, təcavüzə məruz qalsa da Vətənin azadlığı və müstəqilliyi uğrunda öz qəhrəmanlıq əzmini bütün dünyaya nümayiş etdirdi.

Xalqımız öz milli mənliyini qorumaq uğrunda şəhidlik zirvəsinə yüksələn Vətən övladları ilə çox haqlı olaraq fəxr edir. Azərbaycan xalqının bu qanlı faciəsinin ağrı-acılarını, bütövlükdə böyük bir xalqın təcavüzə məruz qalmasını dərindən duyan, onu şəxsi faciəsi kimi qarşılayan, hamının susduğu, respublikamızın informasiya blokadasına salındığı bir zamanda ilk etiraz səsini ucaldan ulu öndər Heydər Əliyev oldu.

H.Əliyev ağır xəstə olduğuna baxmayaraq, övladları ilə birlikdə 1991-ci il yanvar ayının 21-də Azərbaycanın cəlladlarına qarşı qəzəb və hiddətini bildirmək üçün Azərbaycan Respublikasının Moskvadakı daimi nümayəndəliyinə gəldi. Heydər Əliyev öz dərin məzmunlu çıxışında bu qanlı hadisəni lənətlədi və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verdi. O, Bakıya qoşun yeridib dinc əhaliyə divan tutan SSRİ-nin və Azərbaycan SSR-in rəhbərlərinin xalqa zidd mənfur hərəkətlərini kəskin tənqid etdi, onlara cəza verilməsini tələb etdi.

Heydər Əliyevin bu çıxışı bütün beynəlxalq aləmdə böyük əks-səda doğurdu. Dünya ictimaiyyəti bu işin təşkilatçılarını lənətləməyə başladı. Məhz Qorbaçovun bilavasitə göstərişi və rəhbərliyi ilə həyata keçirilən bu qanlı faciə parçalanmağa başlayan SSRİ-nin dağılmasını daha da tezləşdirdi.

Heydər Əliyevin bu dəhşətli faciəyə etiraz əlaməti kimi cinayətkar Kommunist Partiyasının sıralarını tərk etməsi xalqını ürəkdən sevən böyük Vətən oğlunun çox ciddi addımı idi.

## II fəsil

## HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA KİTABXANA İŞİ

*Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.*

**Heydər Əliyev**

1990-cı ilin əvvəllərindən SSRİ dağılmağa, müttəfiq respublikalar bir-birinin ardınca öz müstəqilliyini elan etməyə başladı. Azərbaycan rəhbərliyinin SSRİ-ni saxlamaq üçün həyata keçirməyə çalışdığı cəhdlərə baxmayaraq, xalqın təzyiqi altında Azərbaycan Ali Soveti-nin sessiyası 1991-ci il avqustun 30-da “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” bəyannamə qəbul etdi. İmperiyanın güc toplayıb, təşəbbüsü ələ alacağına, SSRİ-nin yenidən möhkəmlənəcəyinə ümid bəsləyən respublika rəhbəri Ayaz Mütəllibov və onun əlaltılan Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında qanunun qəbul olunmasını xeyli yubatmağa müvəffəq oldular. Nəhayət, 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında “Azərbaycan Respublikası-nın Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı” yekdilliklə qəbul edildi. 1991-ci il dekabrın 29-da böyük çətinliklə də olsa Azərbaycanda Konstitusiya aktına münasibəti bildirmək üçün Ümumxalq referendumu keçirildi. Referendumda iştirak edən əhalinin 95 faizi müstəqillik aktının lehinə səs verməklə öz iradəsini bildirdi. Tarix XX əsrdə Azərbaycan xalqına ikinci dəfə dövlət müstəqilliyi elan etmək, müstəqil, unitar və dünyəvi dövlət yaratmaq imkanı verdi. Lakin xalqımız əsrlər boyu arzusunda olduğu dövlət müstəqilliyini qurmaq, inkişaf etdirmək, möhkəmləndirmək, müdafiə edib saxlamaq üçün böyük çətinliklər, daxili və xarici

düşmənlərə qarşı ağır mübarizələr və dağıdıcı müharibə ilə üzləşdi. Bu dövrdə Azərbaycan rəhbərliyində gedən daxili çəkişmələr, hökumətin müstəqil daxili və xarici siyasət konsepsiyasının olmaması, Dağlıq Qarabağ problemini həll etmək üçün ardıcıl siyasət yeridə bilməməsi, ordunu vaxtında təşkil etməməsi, təslimçi siyasət yeritməsi Azərbaycan dövlətinin varlığını təhlükə qarşısında qoymuşdu.

Məhz buna görədir ki, 1991-1992-ci illərdə Dağlıq Qarabağda vəziyyət daha da gərginləşdi, dəhşətli Xocalı faciəsi baş verdi. Azğınlaşmış düşmən heç bir tutarlı cavab almadığından ruhlanaraq torpaqlarımızı işğal etməyə başladı. Bütün bunlar A.Mütəllibovun vəzifədən getməsi üçün şərait yaratdı və o, Moskvaya öz havadarlarının yanına qaçdı. 1992-ci ildə Xalq Cəbhəsi-Müsavat birliyi hakimiyyəti ələ aldı. Səriştəsiz insanlardan ibarət olan bu dövlət ölkə daxilində gedən prosesləri tənzimləyə bilmədi, xaos, anarxiya, hərc-mərclik hökm sürməyə, ən qorxulusu isə ölkə iqtisadiyyatı dağıdılmağa, milli sərvətlərimiz talan edilməyə başlandı. Ordu quruculuğunda da heç bir müvəffəqiyyət qazanılmadığından, ölkə torpaqlarının işğalı üçün əlverişli şərait yarandı. Əliyalın xalq erməni təcavüzü qarşısında köməksiz qalmışdı.

1993-cü ildə Xalq Cəbhəsinin silahlı dəstələri arasında qanlı toqquşmalar başlandı. Gəncə qiyamı baş verdi. Ölkədə gündən-günə dərinləşən siyasi-iqtisadi, sosial və ordu quruculuğunda baş verən böhran hökuməti iflic vəziyyətinə saldı. Baş nazir, Milli Məclisin sədri, bütün güc nazirliklərinin rəhbərləri istefaya getdi. Bütün bunlar artıq 1993-cü ilin iyun ayında hökumət böhranını daha da dərinləşdirdi. Ölkədə hakimiyyətsizlik hökm sürməyə başlamışdı. Müdrik Azərbaycan xalqı böyük fəlakətin yaxınlaşdığını, müstəqilliyin ciddi təhlükə qarşısında qaldığım hiss edirdi.

1993-cü ilin ortalarında Azərbaycanın bir neçə "müstəqil" bölgəyə parçalanması prosesi gedirdi və respublikamızda "xanlıqlar" deyilən qurumların yaradılması havası ilə yaşayan, lakin xalq tərəfindən tanınmayan bəzi üzdəniraq liderlər üçün hakimiyyət ehtirası Vətən, xalq, torpaq kimi müqəddəs anlayışlardan çox-çox yüksəkdə dururdu. Rusiya

tərəfindən qızışdırılan bu üzdəniraq "liderlər" "Talış Muğan Respublikası", "Ləzgistan dövləti" və "Bakı quberniyası" yaratmaqla ölkəni parçalamaq istəyirdilər.

Məhz belə bir dövrdə, ölkəmizin real vətəndaş müharibəsi ilə üz-üzə dayandığı bir zamanda xalqın çoxdan bəri arzuladığı şəxsiyyətin hakimiyyətə qaytarılması uğrunda qurtuluş hərəkatı başlandı. Qurtuluş hərəkatının başçıları sanki Allah təalanın Azərbaycan xalqının bu dar günü üçün qoruyub saxladığı, o dövrdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri işləyən Heydər Əliyevin ölkə rəhbərliyinə gəlməsini tələb edirdilər. Müasir tariximizdə dönüş nöqtəsi sayılan bu tarixi zaman kəsiyində xalqımız onu ağır bəlalardan qurtaracaq bir xilaskar, gələcəyin yolunu göstərən əfsanəvi bir qəhrəman hesab edir, bütün ümidini ona bağlayırdı. O zaman Naxçıvan blokada şəraitində idi. Gedib-gəlmək çətin olsa da Azərbaycanın ayrı-ayrı rayonlarından insanlar dəstə-dəstə oraya gedir, Bakıya böyük siyasətə qayıtmasını Heydər Əliyevdən xahiş və tələb edirdilər.

1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Azərbaycanın 91 nəfər tanınmış ziyalısı "Azərbaycan sizin sözünüzü gözləyir" deyə Heydər Əliyevə müraciət etmişdi. İş o yerə gəlib çatmışdı ki, Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəy vəziyyətin olduqca ağır və çıxılmaz olduğunu hiss edərək dəfələrlə kömək üçün Heydər Əliyevin Bakıya gəlməsini xahiş etmişdi. Xalqın təkidli müraciətini nəzərə alaraq H.Əliyev 1993-cü il iyun ayının 9-da hökumətin onun ardınca göndərdiyi təyyarə ilə Bakıya gəldi. İndi "H.Əliyevi hakimiyyətə mən gətirmişəm", "biz gətirmişik" deyənlərin sayı çoxdur. Ancaq o dövrdə baş verən hadisələrin analitik təhlili göstərir ki, H.Əliyevi hakimiyyətə bütövlükdə Azərbaycan xalqı gətirmişdir. Ayrı-ayrı insanlar, qurumlar, partiyalar isə xalqın tərkib hissəsidir.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. İyunun 24-dən etibarən isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başladı. H.Əliyevin Ali Sovetin sədri vəzifəsinə seçildiyi gün Azərbaycanın müasir dövr tarixinə "Qurtuluş günü" kimi daxil oldu.

Hadisələrin sonrakı inkişafı bu fikrin nə qədər düzgün olduğunu sübut etdi. Sözün həqiqi mənasında 15 iyun 1993-cü il Azərbaycan Respublikasının həyatında yeni dövrün başlanğıcı oldu. Müstəqil, suveren Azərbaycan dövlətçiliyinin həyatında yeni mərhələ - H.Əliyev mərhələsi başlandı. Bu mərhələnin proqram sənədi kimi Milli Məclisə sədr seçildikdən sonra H.Əliyevin ilk çıxışına diqqət yetirək. Deputatların etimadına görə minnətdarlıq etdikdən sonra o dedi:

"Mən bu gün burada uzun nitq söyləmək istəmirəm. Ancaq bir neçə söz var ki, mən onları deməyə borcluyam. İlk növbədə Milli Məclisin sədri kimi mən Azərbaycan Respublikasının tarixi nailiyyəti olan müstəqilliyi qorumağı, möhkəmləndirməyi özümün əsas vəzifələrimdən hesab edirəm. Azərbaycan Respublikasının müstəqilliyi 1918-ci ildə yaranmış ilk demokratik Azərbaycan Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır.

Bu sahədə nə lazımdırsa edəcəyəm və heç kəsin şübhəsi olmasın ki, mən ömrümün bundan sonra qalan hissəsini harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, Azərbaycan Respublikası bundan sonra heç vaxt müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq və heç bir başqa dövlətin əsarəti altına düşməyəcək".

Ulu öndərin proqram xarakterli bu çıxışı dövlətimizin və xalqımızın gələcək vəzifələrini müəyyənləşdirdi və o, bütün sonrakı fəaliyyəti boyu bu proqramın həyata keçirilməsini ön plana çəkdi.

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi alternativ əsasla, böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi. Heydər Əliyev çox çətin bir dövrdə hakimiyyətə gəlmişdi. O, tezliklə ölkəni gözləyən fəlakətdən, alovlanmaqda olan vətəndaş müharibəsindən, Azərbaycanın parçalanmasından, torpaqlarının işğal edilməsindən xilas etməli, müstəqil Azərbaycan dövlətçiliyini qoruyub saxlamalı idi. Böyük dövlətçilik ənənəsinə və siyasi təcrübəyə yiyələnmiş H.Əliyev ilk növbədə dövlət idarələrinin möhkəmləndirilməsini

təmin etməklə, bölgələrdə baş qaldırmış separatçı qüvvələri xalqın köməyinə arxalanaraq aradan qaldırdı. Ayrı-ayrı dəstələrin və siyasi qurumların təşkil etdiyi silahlı dəstələri ləğv etməklə Azərbaycanın nizami silahlı qüvvələrini - Milli Ordunu formalaşdırdı. 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu. Bütün bunlar tez bir zaman içərisində Azərbaycanda daxili vəziyyətin nizamlanmasına, sabitliyin möhkəmləndirilməsinə, hər şeydən əvvəl isə Azərbaycanın genefondunun qorunub saxlanmasına səbəb oldu. Müharibə getdiyi dövrdə hər gün onlarla cavan igidlərimizin məhv olmasının qarşısı alındı. Analarımızın göz yaşları qurudu. Atəşkəs əldə edilməsi ölkə iqtisadiyyatının dağılmasının qarşısını almaqla onun gələcək inkişaf təməlinin qoyulmasına səbəb oldu.

Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti sayəsində ölkənin beynəlxalq nüfuzu artdı. Dünyanın böyük dövlətləri Azərbaycana qarşı öz qeyri-müəyyən siyasətlərini dəyişdilər.

1994-cü ilin sentyabrında respublikamızın iqtisadi inkişafı ta-rixində böyük əhəmiyyət kəsb edən dünya dövlətlərinin, böyük şirkətlərin diqqətini cəlb edən "Əsrin müqaviləsi" adlandırılan ilk neft kontraktlarının imzalanması Azərbaycanı regionda ən mühüm strateji əhəmiyyət kəsb edən bir dövlətə çevirdi.

1994-1995-ci illərdə prezident H.Əliyev çox böyük məharətlə daxili və xarici düşmənlər tərəfindən hazırlanmış bir neçə dövlət çevrilişi cəhdlərinin qarşısını aldı. Bütün bunlar xalqımızın öz dövlətçiliyinə və prezidentinə inamını daha da artırdı. Beləliklə də Azərbaycan özünün qanunçuluğu ardıcıllıqla müdafiə edən hüquqi dövlət olduğunu, vətəndaşların təhlükəsizliyini hər şeydən yüksək tutduğunu sübuta yetirməklə beynəlxalq nüfuz qazandı.

Ölkədə sabitlik yarandıqdan sonra Azərbaycan dövləti daha böyük demokratik islahatlar həyata keçirməyə, ölkənin ali qanunu olan Konstitusiya layihəsinin müzakirəsinə və qəbuluna başladı. Geniş demokratik əsaslarla ümumxalq müzakirəsindən keçən müstəqil Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995-ci ildə referendumla qəbul edildi. Azərbaycan dövlətçiliyinin həyatında çox mühüm ali sənəd, dünyada ən demokratik konstitusiyalardan biri olan Azərbaycan Respublikasının

Konstitusiyasının memarı ulu öndər H.Əliyev olmuşdur. Konstitusiyanın qəbulu ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun uğurla həyata keçirilməsinə əlverişli şərait yaratdı.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikası parlamentinə mojaritar və proporsional sistemlə ilk seçkilər keçirildi. Azərbaycan parlamenti geniş qanunvericilik fəaliyyətinə başladı. 2002-ci ilin noyabrında isə yeni parlament seçkiləri keçirildi. Parlamentdə elm, təhsil, mədəniyyət, iqtisadiyyat, hüquq, ekologiya, sosial siyasət, insan hüquqları və s. sahələr üzrə daimi komissiyalar təşkil olundu. Milli Məclis öz fəaliyyəti dövründə 1260-dan artıq qanun qəbul etmiş, Azərbaycan Respublikasının qanunvericilik bazasının möhkəmləndirilməsində, respublikamızda demokratikləşmə prosesinin sürətləndirilməsində, hüquqi dünyəvi dövlətin formalaşmasında böyük rol oynamışdır. Parlamentin qəbul etdiyi qanunlar əsasında Azərbaycanda ardıcıl olaraq siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirildi. Bu islahatlar ölkəmizin beynəlxalq nüfuzunu artırmaqla, onun dünyanın sivil dövlətləri sırasına çıxmasına imkan yaradırdı.

Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanılmasında, möhkəmləndirilməsində əsas vasitələrdən biri dövlətin xarici siyasət konsepsiyasının hazırlanması idi. Müstəqilliyin ilk illərində bu sahədə heç bir dövlət konsepsiyası hazırlanmamış, düşünülməmiş addımlar atılmış, bəzi dövlət rəhbərlərinin beynəlxalq və dövlətlərarası münasibətlərlə bağlı məsuliyyətsiz çıxışları respublikanın beynəlxalq nüfuzuna və ümumiyyətlə, dövlətçiliyimizə mənfi təsir göstərmişdi.

Beynəlxalq siyasətin mahir bilicilərindən biri kimi tanınan bu sahədə çox böyük siyasi təcrübəsi olan Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkənin beynəlxalq münasibətləri sahəsində ciddi addımlar atılmağa, dövlət konsepsiyası hazırlanmağa başlandı.

Dövlətin xaricisiyasətindən danışarkən Heydər Əliyev deyirdi: “Azərbaycanın xarici siyasəti isə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu surətdə faydalı əlaqələr qurmaq, inkişaf etdirmək, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beyəlxalq mövqelərini

möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədini daşıyır. Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir”.[1] Bax bu mütərəqqi ideyalar Heydər Əliyevin xarici siyasət konsepsiyasının əsasını təşkil edirdi.

Beləliklə, Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan diplomatiyasının uğurlu illəri başladı. Azərbaycan həm qonşuları ilə, həm də Avropa dövlətləri ilə öz münasibətlərini qaydaya saldı. Xalqımızın ən ağrılı problemi olan Qarabağ probleminin həllində əhəmiyyətli uğurlar əldə edildi. Ermənistanın işğalçılıq siyasəti, Azərbaycana qarşı təcavüzü, Azərbaycan torpaqlarının 20 faizinin işğal edilməsi beynəlxalq təşkilatlar tərəfindən tanındı. Ümummilli lider Heydər Əliyevin apardığı ardıcıl xarici siyasət öz nəticələrini verdi. Artıq 2001-ci ildə Azərbaycan 137 ölkə ilə diplomatik əlaqələr qurmuş, Vyana Konvensiyasının iştirakçısı olan bütün ölkələrlə konsulluq münasibətləri yaratmışdı. Azərbaycanda 63 xarici dövlətin səfirlikləri, Azərbaycanın isə 23 xarici ölkədə səfirliyi fəaliyyət göstərirdi. H.Əliyevin qayğısı sayəsində Azərbaycanın Xarici İşlər Nazirliyi dövlətimizin ən mühüm nazirliklərindən biri kimi formalaşmış, çox münasib bina ilə və maddi-texniki vasitələrlə təmin edilmiş, kadr potensialı möhkəmlənmişdir. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması ölkənin iqtisadi inkişafında öz bəh-rəsini verməyə başladı. Bazar iqtisadiyyatına keçidlə əlaqədar islahatların aparılması nəticəsində istehsalda 80-ci illərin axırından başlayan böhranın qarşısı alındı. 1996-cı ildən ümumdaxili məhsul artmağa başladı. Bu

---

[1] Heydər Əliyev. Minilliklərin qovşağında.- B., 2001.- S. 42-43.

artım 1996-cı ildə 1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-ci ildə 10 faiz, 1999-cu ildə 7,4 faiz, 2000-ci ildə 11,3 faiz olmuşdur.

Hökumətin həyata keçirdiyi islahatlar sosial yönümlü olduğundan əhalinin maddi vəziyyətinin yaxşılaşmasına, əmək haqlarının artırılmasına yönəldilmişdi. 1994-1999-cu illərdə orta aylıq əmək haqqı 12 dəfə artmışdır. Dövlətin həyata keçirdiyi siyasət nəticəsində əhalinin pensiya təminatı və müavinətlərin artırılmasına xüsusi qayğı göstərilmişdir.

Heydər Əliyevin iqtisadi siyasətində əsas halqalardan biri də kənd təsərrüfatının inkişaf etdirilməsi, aqrar islahatı olmuşdur. Bütün MDB ölkələrində ilk dəfə torpağın təmənnasız olaraq kəndliyə verilməsi, torpaq üzərində xüsusi mülkiyyətin yaradılması, kənddə sahibkarlığın gələcək inkişafı regionların sosial-mədəni həyatı üçün olduqca böyük imkanlar açdı. Kolxoz və sovxozların ləğv edilməsi nəticəsində artıq 1995-ci ildə onların bazasında 35 minə yaxın kəndli-fermer təsərrüfatı yaradılmışdı. Ölkəmizdə aqrar islahatların müvəffəqiyyətli gedişi tezliklə bu sahədə dönüş yaradılmasına səbəb oldu. Artıq kənd təsərrüfatında 1998-ci ildə 4 faiz, 1999-cu ildə 7,1 faiz artım olmuşdu.[1]

Heydər Əliyev tərəfindən Azərbaycan kəndində aqrar islahatı həyata keçirmək üçün imzalanmış qanunlar və fərmanlar aqrar islahatın əsasını təşkil etmiş, Dövlət proqramının hazırlanması və qəbulunu əsaslandırmışdır. 1999-cu ildə prezident xüsusi fərmanla "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı"nı təsdiq etdi. Bu proqram kənddə özəlləşdirmənin həyata keçirilməsinə böyük təkan verdi. Belə ki, 2002-ci ildə özəl sektorun payı 71 faizə qalxmışdı.

Azərbaycan iqtisadiyyatının dirçəlişində və iqtisadiyyatında baş verən dərin böhranın aradan qaldırılmasında ulu öndər tərəfindən həyata keçirilən neft strategiyası mühüm əhəmiyyət kəsb etdi. İqtisadi və siyasi çətinliyə, böyük dövlətlərin təzyiqinə, Azərbaycan xalqının daxili və xarici düşmənlərinin hər cür ciddi-cəhdinə, hədə-qorxusuna baxma-

---

[1] Heydər Əliyev. Minilliklərin qovşağında. -B., 2001.- S. 49.

yaraq dəmir iradəyə, böyük uzaqgörənliyə malik olan Heydər Əliyev Azərbaycanın dövlət neft strategiyasını hazırlayıb uğurla həyata keçirməyə müvəffəq oldu. Böyük milli və beynəlxalq əhəmiyyət kəsb edən, Azərbaycan dövlətçiliyi tarixində mühüm rol oynayan bu strategiya milli neft sənayesində yeni eranın başlanğıcı oldu. Məhz bu strategiya ABŞ və Avropa ölkələri ilə iqtisadi və siyasi münasibətlərin yaranmasında böyük strateji əhəmiyyət kəsb etməklə, Azərbaycanın beynəlxalq əlaqələrinin möhkəmlənməsinə şərait yaratdı.

1994-cü ilin sentyabrında dünyanın böyük ölkələrinin iri neft şirkətlərinin qatıldığı "Əsrin müqaviləsi" adı ilə məşhurlaşan neft müqaviləsinin bağlanması Azərbaycan iqtisadiyyatının əsaslı dirçəlişinə səbəb oldu.

Azərbaycan iqtisadiyyatının dirçəldilməsində və inkişafında Avropa Birliyi TRASECA proqramı üzrə Avropa-Qafqaz-Asiya nəqliyyat kommunikasiyasının - Yeni İpək Yolunun işə düşməsi də mühüm əhəmiyyət kəsb etdi. Böyük İpək Yolu layihəsinin həyata keçirilməsi Azərbaycanı nəqliyyat blokadasına almaqdan xilas etməklə, ona təzyiq göstərmək cəhdlərini də boşa çıxardı. Bu proqramın müəllifi və təşkilatçısı da Heydər Əliyev olmuşdur.

Görülən tədbirlər mühüm nəticələr verdi. Tezliklə respublikada iqtisadi böhranın qarşısı alındı, iqtisadiyyatda dirçəliş dövrü başlandı. Əgər 1991-1994-cü illərdə ümumi daxili məhsul ildə orta hesabla 20-25 faiz azalırdısa, 1996-2000-ci illərdə 39 faiz artmışdı. 2002-ci ildə ölkədə 29, 6 trilyon manatlıq ümumi daxili məhsul istehsal edilmişdi.[1]

Ölkədə iqtisadi böhranın aradan qaldırılması, iqtisadi dirçəliş baş verməsi əhalinin sosial vəziyyətinin yaxşılaşmasına, əmək haqqının artırılmasına, yoxsulluğun aradan qaldırılmasına şərait yaratdı. Respublikada əmək haqqının qaldırılması, aztəminatlı ailələrə və qaçqınlara müavinətlər verilməsi, təqaüdləri artırmaq üçün "Pensiya islahatı haqqında" Qanunun qəbul edilməsi, müəllimlərin, müharibə veteranlarının, müharibə əlillərinin məişət şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülməsi, yeni iş yerlərinin açılması əhalinin maddi

---

[1] Azərbaycan tarixi. VII cild.-B., 2003.-S.421.



**Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev professor Abuzər Xələfova "Şöhrət" ordeni təqdim edərkən. 2000.**

vəziyyətinin yaxşılaşdırılmasına əhəmiyyətli təsir göstərdi. Bu məsələlərdən bəhs edərkən Heydər Əliyev yazırdı: "Qeyd etmək lazımdır ki, aparılan islahatların sosial yönümü və əhalinin sosial müdafiəsi tədbirləri dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur və bu sahədə müntəzəm olaraq məqsədyönlü iş aparılır. Son illər əmək haqqının artırılması barədə dövlət tədbirlərinin həyata keçirilməsi nəticəsində işçilərin orta aylıq nominal əmək haqqı xeyli artmışdır. Son 5 ildə (1994-1999-cu illər) orta aylıq əmək haqqı 12 dəfə artaraq 184,4 min manat təşkil etmişdir. 2000-ci ilin yeddi ayı ərzində bu göstərici artmaqda davam etmiş və hazırda bir işçinin aylıq orta əmək haqqı 204,2 min manata bərabərdir".[1]

Beləliklə, Azərbaycan xalqı böyük öndərin müdrik daxili və xarici siyasəti sayəsində müstəqillik illərinin dərin iqtisadi, siyasi və sosial böhranından, tənəzzüldən, hər cür iqtisadi çətinliklərindən qurtardı. Ölkə möhkəm sabitliyə, iqtisadi qüdrətə, müasir ordu quruculuğuna, yüksək

---

[1] Heydər Əliyev. Minilliklərin qovşağında.- B., 2001.- S. 52.



**Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev M.F.Axundov adına Azərbaycan dövlət Kitabxanasında. 1996.**

inkişaf etmiş mədəniyyətə malik bir ölkə kimi beynəlxalq miqyasda tanındı.

Müstəqillik illərində Azərbaycan dövləti iqtisadiyyatla yanaşı, mədəni quruculuq sahəsində də əsaslı islahatlar aparmış, təhsil, elm, mədəniyyət və incəsənətin yenidən qurulması və inkişafı üçün olduqca böyük tədbirlər həyata keçirilmişdir.

Təhsil haqqında yeni qanun qəbul edilmiş və bu qanuna görə, rus təhsil sistemindən imtina edilərək, Avropa təhsil sisteminə, çoxpilləli təhsilə keçilmişdir. Azərbaycan ali məktəblərində ilk dəfə olaraq bakalavrlar və magistrlər hazırlanmağa başlanmışdır.

Respublikamızın təhsil tarixində ilk dəfə olaraq özəl təhsil müəssisələri meydana gəlmiş, belə müəssisələr müstəqilliyin ilk illərində xeyli genişlənmişdir. Özəl təhsil müəssisələrinin yaranması cəmiyyət tərəfindən birmənalı qarşılanmasa da getdikcə onların sayı artmış, orta ixtisas və ali özəl təhsil sistemi yaranmışdır.

Həmçinin 90-cı illərin ikinci yarısından başlayaraq dövlət təhsil müəssisələri ödənişli əsaslarla qəbul aparmağa başlamışdır. Dövlətimiz tərəfindən müəyyənləşdirilən təhsilin bu yeni forması keçid dövründə ali təhsil müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirmək və professor-müəllim heyətinin sosial vəziyyətini yaxşılaşdırmaq, ali məktəbləri dünya təhsil standartlarına uyğun inkişaf etdirmək imkanı vermişdir. Bakı Dövlət Universitetinin timsalında dövlət təhsil müəssisələrində tətbiq edilən bu yeni formanın üstünlüklərini əyani surətdə görmək mümkündür. Əlavə vəsaitin əldə edilməsi universitetə öz işlərini dünya standartları səviyyəsində qurmağa imkan vermiş, universitetin maddi-texniki bazası möhkəmlənmiş, tədris korpusları yenidən qurulmuş, dünya standartlarına cavab verən idman kompleksi, üzgüçülük hovuzu inşa edilmiş, elmi-tədqiqat laboratoriyaları və böyük nəşriyyat yaradılmışdır. Universitetdə müvəffəqiyyətlə aparılan təhsil islahatları nəticəsində tədrisin keyfiyyəti yüksəlmiş, elmi-tədqiqat işlərində respublika miqyaslı nəticələr əldə edilmişdir. Sovetlər dövrü ilə müqayisədə son 10 ildə Bakı Universiteti Nəşriyyatında 70 ilə bərabər dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar nəşr edilmişdir.

Müstəqillik dövründə milli təhsil konsepsiyasının həyata keçirilməsində 1999-cu ildə Heydər Əliyev tərəfindən təsdiq edilmiş "Təhsil islahatı proqramı" olduqca mühüm rol oynadı. Dünya Bankı bu proqramı həyata keçirmək üçün 5 milyon dollar həcmində kredit ayırdı.

Ölkədə özəl təhsil müəssisələrinin yaradılması, ayrı-ayrı idarə və müəssisələrin, nazirliklərin, təhsil ocaqlarının sayca çoxalması təhsil müəssisələrinə elmi-metodik rəhbərliyin vahid mərkəzdən həyata keçirilməsi, təhsil sisteminin daha da təkmilləşdirilməsi zərurətini irəli sürürdü. Bu məqsədlə möhtərəm prezidentimiz Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Bu fərmana müvafiq tabeçiliyindən asılı olmayaraq respublikanın bütün təhsil müəssisələrinə elmi-metodik rəhbərlik Təhsil Nazirliyinə həvalə edildi. Bu fərmanla Təhsil Nazirliyinin statusu artırılmaqla təhsilin təkmilləşdirilməsində onun öncül mövqeyi müəyyənləşdirildi.

Müstəqillik illərində ali məktəblərə tələbə qəbulunun təşkilində test üsulundan istifadə edilməsi qəbulun aparılmasında obyektivliyin artmasına, neqativ halların aradan qalxmasına kömək etməklə qəbul sisteminin təkmilləşməsinə müsbət təsir göstərmişdi. Müstəqillik illərində əldə edilən ən böyük nailiyyətlərdən biri orta ümumtəhsil və ali məktəblər üçün dərsliklərin hazırlanması və çap edilməsi sahəsində

həyata keçirilən tədbirlərdir. Orta məktəblər üçün hazırlanan orijinal dərsliklər, dərs vəsaitləri və proqramlarda azərbaycançılıq, öz soykökünə qayıtmaq, tarixi hadisələrin milli ideologiya ruhunda işıqlandırılması ön plana çəkilmişdir. Buna misal olaraq "Azərbaycan tarixi", "Ədəbiyyat", "Azərbaycan dili", "Coğrafiya" və s. dərslikləri misal göstərmək olar. Dərsliklər, dərs vəsaitləri və proqramlar hazırlanarkən Avropanın qabaqcıl iş təcrübəsindən istifadə onların keyfiyyətinə müsbət təsir göstərir.

Keçid dövrünün çətinliklərinə baxmayaraq dövlət təhsil sisteminə ayrılan vəsaiti ilbəil artırırdı. Azərbaycanın bütün rayonlarında məktəbyaşlı uşaqları təhsilə cəlb etmək üçün lazım olan miqdarda məktəblər açıldı, məktəb şəbəkələrinin təkmilləşdirilməsi üçün hər cür şərait yaradıldı. Fikrimizi təsdiq etmək üçün rəqəmlərə diqqət yetirək. Əgər 1990-cı ildə Azərbaycanda 1 milyon 349 min şagirdi olan 4268 dövlət ümumtəhsil məktəbi var idisə, 2000-2001-ci illərdə respublikada 1 milyon 654 min şagirdi olan 4548 dövlət ümumtəhsil məktəbi fəaliyyət göstərmişdir.

Müstəqillik illərində ali məktəblərə diqqət daha da artırılmış, onların miqdarı əsaslı surətdə çoxalmış, yeni dövlət və özəl ali məktəblər yaradılmışdır. 2000-2001-ci illərdə respublikamızda 119,7 mindən çox tələbə təhsil alan 43 ali məktəb fəaliyyət göstərirdi. Bu ali məktəblərdən 25-i dövlət təhsil müəssisəsi, 28-i isə özəl ali məktəblər olmuşdur. Dövlət ali məktəblərində 91 mindən çox, özəl ali məktəblərdə isə 28,7 mindən çox tələbə təhsil alırdı. Dövlət ali məktəblərində 22135 nəfər, özəl ali məktəblərində isə 5 mindən çox professor-müəllim işləyirdi.

Müstəqillik illərində təhsil sahəsində əldə etdiyimiz nailiyyətləri xalqımız zaman-zaman duyacaq, Heydər Əliyevin böyük xidmətlərini və uzaqgörənliyini bir daha dərk edəcək.

Müstəqillik illərində ölkədə baş verən iqtisadi böhran respub-likada elmin inkişafına olduqca mənfi təsir göstərmişdi. Sovetlər dövründə dünya şöhrəti qazanmış Azərbaycan elmi böhran keçirməyə başlamışdı. Elmə ayrılan dövlət vəsaitinin kəskin şəkildə azalması, elmin maddi-texniki bazasının ciddi surətdə zəifləməsi, elmi işçilərin maaşının olduqca az olması bu böhranı daha da dərinləşdirdi. Bütün bunlar azmış kimi hakimiyyətdə olan səriştəsiz bəylər Azərbaycan Elmlər Akademiyasının gərəksiz olması, onun bağlanması haqqında fikirlər irəli sürməyə

başlamışdı. 1993-cü ilin iyulunda ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi elmi bu böhrandan xilas etdi. Heydər Əliyev Naxçıvandan Bakıya qayıdışının ikinci günü Elmlər Akademiyasına gəldi. Azərbaycanın görkəmli alimləri ilə görüşdü, respublikada olan vəziyyət haqqında onlara məlumat verdi, məsləhət-ləşdi. Həmçinin Elmlər Akademiyasının Azərbaycanın elmi, mədəni, mənəvi inkişafında böyük əhəmiyyətə malik olduğunu bəyan etdi. Alimləri öz gücünü Azərbaycan elminin inkişafına böyük töhfələr verməyə səslədi.

Heydər Əliyev prezident seçildikdən sonra akademiyanın maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün ciddi tədbirlər gördü. Elmin maddi-texniki bazasını möhkəmlətmək üçün dövlət vəsaiti ilbəil artırılmağa başlanıldı.

1997-ci ildə akademiklərin və akademiyanın müxbir üzvlərinin elmi rütbə maaşları on dəfə artırıldı və sosial vəziyyətləri yaxşılaşdırıldı. 1997-ci ildə Azərbaycan Elmlər Akademiyası əməkdaşlarının maaşlarının 50 faiz, 2002-ci ildə isə 2 dəfə artırılması akademiyanın kadr potensialının möhkəmlənməsinə olduqca müsbət təsir göstərməklə elmi-tədqiqatların geniş miqyas alması üçün əlverişli şərait yaratdı.

Prezidentin 15 may 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verildi. 2001-ci ildə akademiyaya yeni seçkilər keçirildi. Onun həqiqi və müxbir üzvlərinin tərkibi xeyli yeniləşdi və görkəmli alimlərlə möhkəmləndirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 4 yanvar 2003-cü ildə "Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" fərman imzaladı. Bu fərmanda ilk dəfə olaraq akademiyaya dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilat statusu verildi. Fərmanda göstərilirdi: "Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycan Respublikasındakı bütün elmi müəssisələrin və ali məktəblərin elmi-tədqiqat fəaliyyətlərini əlaqələndirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatıdır".

Keçid dövrünün çətinliklərinə baxmayaraq ölkədə ulu öndərin rəhbərliyi və qayğısı sahəsində akademiyanın respublikamızda elm, mədəniyyət və təhsilin, yüksəkixtisaslı elmi kadrların hazırlanmasındakı rolu yüksəlməyə başladı. Akademiya sistemində yeni elmi-tədqiqat institutları: Arxeologiya və Etnoqrafiya İnstitutu, Milli Münasibətlər

İnstitutu, Əlyazmalar İnstitutu, İnsan Hüquqları İnstitutu və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi yaradıldı.

Azərbaycan Elmlər Akademiyası ilə yanaşı, respublikanın digər nazirliklərində, idarə və müəssisələrində də elmin inkişafına böyük diqqət yetirilməyə başlanmışdı. Artıq 2000-ci ildə respublikada 137 elmi-tədqiqat müəssisəsi fəaliyyət göstərirdi. Bunlardan 95-i elmi-tədqiqat institutu idi. Bu elmi müəssisələrdə 26,4 minə qədər elmi işçi çalışırdı ki, bunlardan 1512 nəfəri elmlər doktoru, 8380 nəfəri elmlər namizədi idi. Həmçinin ali məktəblərdə 834 nəfər elmlər doktoru və 5,4 min elmlər namizədi bilavasitə elmi-tədqiqat işi ilə məşğul olurdu.

Müstəqillik illərində elmin nailiyyətləri heç şübhəsiz ki, respublikamızın iqtisadi, siyasi, mədəni inkişafına, bütünlükdə mənəvi həyatın zənginləşməsinə, azad cəmiyyət yaradılmasına, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə müsbət təsir göstərir, respublikanın inkişafını sürətləndirirdi.

Müstəqillik illərində böyük öndər Heydər Əliyev tərəfindən ardıcıllıqla həyata keçirilən Azərbaycanın inkişaf strategiyasının tərkib hissələrindən biri milli mədəniyyətimizə, ədəbiyyat və incəsənətimizə göstərilən böyük dövlət qayğısı olmuşdur. Milli mənəvi dəyərlərə söykənən bu strategiyanın aparıcı ideyaları milli ideologiya, azərbaycançılıq, demokratiya, dövlətçilik, xalqçılıq, vətənpərvərlik, iqtisadi inkişaf və tərəqqi olmuşdur.

Müstəqillik illərində Heydər Əliyev milli mənəvi dəyərlərimizin, milli ideologiyamızın məhək daşı olan Azərbaycan dilinin və ədəbiyyatının inkişafına xüsusi önəm vermiş, onların inkişafına qayğı dövlət səviyyəsinə yüksəlmişdir. Milli mədəniyyətimizin, ədəbiyyat və incəsənətimizin dərin bilicisi olan Heydər Əliyev klassik ədəbiyyata, müasir ədəbi prosesə, sənət və mədəniyyətin bütün sahələrinə xüsusi qayğı göstərir, onun inkişafı üçün əlindən gələni edirdi. Heydər Əliyev milli mədəniyyətimizi, ədəbiyyat və incəsənətimizi xalqımızın əsrlərin dərinliklərindən süzülüb gələn, daim zənginləşən milli sərvəti və intellektual mülkiyyəti kimi qiymətləndirir, hər bir azərbaycanlıya bu zəngin xəzinədən istifadə etməyi zəruri hesab edirdi. Bu sərvəti yaradanları yüksək qiymətləndirir, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərini, yaradıcı ziyalılarımızı xalqın yetirdiyi dahi insanlar kimi xarakterizə edirdi.

Heydər Əliyev ədəbiyyat və mədəniyyəti xalqın milli sərvəti, intellektual mülkiyyəti kimi qiymətləndirərək yazırdı: “Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda, Azərbaycan ədəbiyyatıdır, mədəniyyətidir... Bizim mənəvi potensialımız - ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar bizim xalqın dahi insanlarıdır”.[1]

Heydər Əliyev bütün ömrü boyu, Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycan ədəbiyyatına, onun görkəmli nümayəndələrinə, yazıçılarına, şairlərinə və bütün yaradıcı ziyalılarına xüsusi diqqətlə yanaşmış, onlara qayğı göstərmiş, onların əsərlərinin çap edilib yayılmasına və təbliğ edilməsinə böyük əhəmiyyət vermişdir.

Keçid dövründə, olduqca çətin bir şəraitdə Məhəmməd Füzulinin 500 illik yubileyinin keçirilməsi və bu yubileyə bir çox xarici ölkələrdən, o cümlədən YUNESKO-dan nümayəndələrin dəvət edilməsi tədbirin böyük poeziya bayramına, ədəbiyyatımızın dünya miqyasında təbliğinə çevrilməsinə bariz bir misaldır

2000-ci ilin fevralında respublikamızda türk respublikaları dövlət başçıların, bir sıra digər xarici ölkə nümayəndələrinin və YUNESKO-nun Baş direktorunun iştirakı ilə Azərbaycan xalqının ölməz dastanı olan “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin keçirilməsi müstəqil Azərbaycanın böyük xalq, dövlət bayramına çevrildi. Min illərdən bəri vətəndən didərgin düşmüş möhtəşəm qəhrəmanlıq abidəmiz, ulu ana kitabımız birdəfəlik əbədi olaraq doğma vətənə qayıtdı, dilimizin qədimliyini sübut etdi.

“Kitabi-Dədə Qorqud” dastanını Azərbaycan xalqının fəxri kitabı hesab edən Heydər Əliyev deyir: “Biz öz tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır. Həqiqətən də “Kitabi-Dədə Qorqud” dastanı kimi böyük elm, mədəniyyət, ədəbiyyat

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcü və amalı.- B., 1999. -S. 420.

abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilən”.[1]

Müstəqillik illərində Heydər Əliyev Azərbaycan dili və ədəbiyyatının inkişafı, xalqımızın görkəmli yazıçılarının, şairlərinin və yaradıcı ziyalılarının maddi vəziyyətinin yaxşılaşdırılması, yazıçıların əsərlərinin nəşri və yayılması, görkəmli ədəbiyyat xadimlərinin cəmiyyətdə tutduğu mövqenin yaxşılaşdırılması, yaradıcı ziyalıların şəxsiyyətinin yüksəldilməsi üçün böyük tarixi əhəmiyyətə malik tədbirlər həyata keçirdi. Belə tədbirlər içərisində 1996-cı ildə M. Füzuli adına Beynəlxalq mükafatın təsis edilməsini, 1997-ci ildə “Azərbaycan yazıçılarına dövlət qayğısını artırmaq haqqında” prezident fərmanının imzalanmasını, “Azərbaycan”, “Qobustan”, “Ulduz”, “Литературный Азербайджан” jurnallarının və “Ədəbiyyat” qəzetinin nəşrinin dövlət hesabına həyata keçirilməsi haqqında sərəncam verilməsini, qocaman ədəbiyyat və incəsənət xadimləri, gənc istedadlı yazıçı və şairlər üçün fərdi təqaüdlərin təyin edilməsini, həmçinin elm, mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə xidmətləri olmuş 150 nəfərə prezident təqaüdünün təsis edilməsini göstərə bilərik.

Müstəqillik illərində xalqımızın dövlət quruculuğu və mədəni quruculuq sahəsində əldə etdiyi ən böyük uğurlardan biri də Azərbaycan dilinin dövlət dili statusu qazanması, onun bütün dövlət idarələrində və müəssisələrində məcburi qaydada işləməyə başlanmasıdır. Azərbaycan dilinin dövlət dili kimi formalaşmasında, inkişafında və qorunmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Heydər Əliyev Azərbaycan dilini çox sevir, bu dildə danışmaqla fəxr edirdi. Səlis Azərbaycan dilində danışan adamlara böyük hörmət edən Heydər Əliyev deyirdi: “Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini bilməlidir, Azər-baycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndin”.[2]

Müstəqilliyimizin son bir neçə ilində Heydər Əliyevin Azərbaycan dili və əlifbası haqqında imzaladığı “Azərbaycan Respublikasında Dövlət dili haqqında” Qanunu (30 sentyabr 2002-ci il), “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” (18 iyun 2001-ci il), “Azərbaycan Respublikası Dövlət dili Komissiyasının təşkilinin təsdiq edilməsi haqqında” (9 avqust 2001-ci il) fərmanlar və sərəncamlar ulu öndərin

---

[1] Kitabi-Dədə Qorqud ensiklopediyası.-B., 2000, cild 1.- S.12.
[2] Əliyev V. Heydər Əliyevin dil siyasəti.- B., 2003.-S.3.

doğma Azərbaycan dilinə böyük qayğısınm təzahürü olmaqla müstəqillik illərində Azərbaycan dilinin inkişafı üçün böyük imkanlar açdı, dil haqqında dövlət siyasətinin ardıcıllıqla həyata keçirilməsi üçün qanuni baza yaratdı.

Müstəqillik illərində dövlətimizin həyata keçirdiyi mədəni quruculuq siyasətinin tərkib hissələrindən biri də respublikada nəşriyyat işinin yenidən qurulması olmuşdur.

Məlum həqiqətdir ki, müstəqil, suveren Azərbaycanda mədəniyyətin, elmin, təhsilin, ədəbiyyat və incəsənətin, ümumiyyətlə, müasir maddi və mənəvi mədəniyyətin yaranması, inkişafı və qorunması, cəmiyyətin inkişafına xidmət edən informasiyanın maddiləşdirilməsi və tətbiqi sahəsində nəşriyyat işinin rolu böyükdür. Müasir informasiya cəmiyyətində kitabsız heç bir inkişafdan danışmaq olmaz.

Ulu öndər Heydər Əliyev M.F.Axundov adına Milli Kitabxanada nəşriyyat işinin əhəmiyyətindən danışarkən demişdir:

“Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti bunu əsas vəzifələrimdən sayıram.

Doğrudur, indiki ağır sosial-iqtisadi böhran dövründə, respublikamızın iqtisadiyyatında yaranmış çətinliklərlə əlaqədar və başqa ölkələrlə əlaqələrimizin məhdudlaşdığı bir vaxtda nəşriyyat işi də çox çətinliklərlə qarşılaşır. Bu, təbiidir. Ancaq biz bu çətinliklərin qarşısını almalıyıq, bunun üçün yeni-yeni yollar axtarmalıyıq.

Həyatımız dəyişir, hər bir şey dəyişir. Biz bu dəyişikliklər prosesinin içindəyik. Keçmişdə nəşriyyat işi dövlətin əlində idi, onun tərəfindən maliyyələşdirilirdi və bunun sayəsində Azərbaycanda həmin sahə çox genişlənmişdi. İndi dövlətin imkanlarının məhdudlaşdığı, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getdiyimiz bir vaxtda özəl bölməyə geniş imkanlar yaratmağa çalışdığımız və Azərbaycanda kiçik

də olsa özəl bölmənin meydana çıxdığı bir vaxtda biz onun bütün imkanlarını nəşriyyat işinin canlandırılmasına, inkişaf etdirilməsinə, xüsusən kitab nəşrinin genişləndirilməsinə cəlb etməli, yönəltməliyik”.[1]

Heydər Əliyevin böyük proqram əhəmiyyətinə malik olan bu çıxışı müstəqillik dövründə nəşriyyatların qorunub saxlanılmasına imkan verdi. Hakimiyyət böyük çətinliklə olsa da dövlət nəşriyyatlarına müəyyən qədər olsa vəsait ayırır, özəl nəşriyyatların yaranmasına şərait yaradırdı. Dövlətin həyata keçirdiyi bu siyasət özünü doğrultdu, ölkədə özəl nəşriyyatların böyük şəbəkəsi yarandı. Ölkədə senzuranın ləğvi kitab çapı işində hər cür ideoloji maneəni aradan qaldırdı. 90-cı illərin əvvəllərində kitab çapı sahəsində baş verən böhran tədricən aradan qalxdı. Milli Məclisin müxtəlif vaxtlarda qəbul etdiyi “Kütləvi informasiya vasitələri haqqında”, “Sahibkarlıq fəaliyyəti haqqında”, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”[2] qanunları və prezidentin “Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısınm təsdiq edilməsi haqqında” 4 oktyabr 1997-ci il tarixli fərmanı, Nazirlər Kabinetinin “Radio və televiziya verilişləri, nəşriyyat-poliqrafiya fəaliyyəti üzrə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təsdiq edilməsi haqqında” 16 aprel 1998-ci il tarixli 84 saylı qərarı[3] ölkədə nəşriyyat işinin hüquqi bazasının yaradılmasına, tənzimlənməsinə və inkişafına böyük təkan verdi. Artıq 90-cı illərin ortalarından dövlət nəşriyyatlarının fəaliyyəti xeyli yaxşılaşdı, həmçinin respublikada onlarla yeni özəl nəşriyyat yarandı.

90-cı illərin əvvəllərindən fəaliyyətə başlayan özəl nəşriyyatların bir çoxu hər cür çətinliyə baxmayaraq öz maddi-texniki bazasını möhkəmləndirərək, kitab çapı işində öncül mövqeyə çıxmaqla dövlət nəşriyyatlarını üstələyirlər. Müstəqillik dövründə respublikamızda kitab nəşriyyatı sahəsində əldə edilən ən böyük nailiyyətlərdən biri Azərbaycan dilində kitab çapına xüsusi qayğı və diqqət yetirilməsidir. Təxmini hesablamalara görə, çap edilən kitabların 85-90 faizi Azərbaycan dilindədir. Bunun da Azərbaycan kitabxana fondlarının milli kitablarla zənginləşdirməsində böyük əhəmiyyəti vardır.

Müstəqillik illərində Azərbaycanda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ictimai-siyasi və mədəniyyət sahəsində həyata keçirilən

---

[1] Müstəqillik yollarında.-B., 1997.-S.399-400.
[2] Nəşriyyat işi.-B., 2000.-S.44.
[3] Ələkbərova N. Mədəniyyət və siyasət.-B., 2000.-S.44.

islahatlar sözsüz ki, kütləvi informasiya vasitələrindən, Azərbaycan mətbuatından da yan keçmədi. Milli mətbuatın inkişaf etdirilməsinə böyük qayğı göstərən Heydər Əliyev müstəqil, suveren Azərbaycanın inkişaf etmiş, azad mətbuatının ya-radılmasını müstəqilliyimizin əsas vasitəsi hesab edirdi. Söz və mətbuat azadlığından danışarkən Heydər Əliyev yazırdı: "Bütün ümumi məqsədimiz mətbuata daha çox azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir... Bu mənim siyasətimin bir hissəsidir".[1]

Doğrudan da ulu öndərin mətbuat haqqında fikirləri müstəqil Azərbaycanda ardıcıl olaraq həyata keçirildi. Azad mətbuata buxov olan senzura aradan götürüldü, ölkəmizin tarixində ilk dəfə olaraq, azad, müstəqil, demokratik mətbuat orqanları, müxtəlif siyasi partiyaların qəzet və jurnalları nəşr edilməyə başladı.

1998-ci ilin 6 avqustunda Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ölkədə müstəqil, azad mətbuatın yaranıb inkişaf etməsi üçün geniş imkanlar açdı. 90-cı illərin sonlarında respublikamızda 8 dildə 300-dən artıq qəzet, 72 jurnal nəşr olunurdu. Bu qəzetlərdən kiçik bir hissəsi iqtidara, qalanları isə müxalifət partiyalara, ictimai təşkilatlara, qeyri-dövlət təşkilatlarına, kollektivlərə, idarə və müəssisələrə, ayrı-ayrı şəxslərə mənsub idi. Mətbuat orqanlarının böyük əksəriyyəti dövlətçiliyimizin, milli ideologiyamızın təbliğində yaxından iştirak edir, xalqımızın tarixi keçmişinin, milli adət-ənənələrimizin yeni təfəkkür tərzi baxımından işıqlandırılmasında mühüm ideoloji iş görürlər. Mətbuatın mövcud reallığı ən müxtəlif mövqelərdən işıqlandırması, mətbuatda plüralizmin, demokratiyanın inkişafına, insanların hadisələri müstəqil qiymətləndirməsinə şərait yaradırdı.

Müstəqillik dövründə Azərbaycan mətbuatında aparılan mütərəqqi islahatlarda, demokratik meyillərin inkişafında ulu öndər Heydər Əliyevin böyük xidmətləri göz önündədir. Məhz buna görədir ki, 2001-ci

[1] Yeni Azərbaycanın qurucusu.-B., 2002.-S.417.

ildə "Ruh" Jurnalisləri Müdafiə Komitəsinin keçirdiyi sorğuya görə, Heydər Əliyev 2001-ci il üçün jurnalistlərin dostu elan edildi.[1]

Müstəqillik illərində kütləvi informasiya vasitələrinin mühüm sahəsi olan radio və televiziya da böyük inkişaf yolu keçərək, ən böyük şəbəkəyə çevrilmişdir. Əgər Sovet Azərbaycanında ancaq dövlət radio və televiziyası var idisə, müstəqillik illərində özəl radiolar və televiziya kanalları meydana gəldi. 2002-ci ildə 30-dan artıq radio və televiziyanın fəaliyyət göstərməsi bu sahənin inkişafını göstərən amillərdən biridir. Xalqımız Dövlət televiziyasının I və II kanalları ilə yanaşı, "ANS", "Space", "Lider", "Azad Azərbaycan" kimi daimi fəaliyyət göstərən kanallara baxmaq imkanı əldə etmişdir. Ölkədə radio və televiziya verilişlərini qaydaya salmaq, onların işini daha da təkmilləşdirmək məqsədi ilə 2002-ci il oktyabrın 5-də prezident fərmanı ilə yaradılmış "Milli Televiziya və Radio Şurası" mühüm rol oynadı.[2]

Beləliklə, müstəqillik illərində respublikamızda hüquqi bazaya əsaslanan azad mətbuat meydana gəlib formalaşmış, söz azadlığı bərqərar olmuşdur. Bu da müstəqilliyimizin ən qiymətli bəhrəsidir.

1993-cü ildə görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycan xalqının gələcək taleyində, dövlətçiliyimizin möhkəmləndirilməsində mühüm tarixi hadisəyə evrildiyi kimi mədəniyyətimizin mühüm tərkib hissəsi olan kitabxana işinin yenidən qurulmasında və inkişafında da yeni mərhələnin başlanğıcı oldu.

Keçmiş sosializm cəmiyyətindən müstəqil Azərbaycan dövlətinə kitabxana işi sahəsində o qədər də ürəkaçan irs qalmamışdı. Doğrudur, Sovet hakimiyyəti illərində, xüsusilə 70-ci illərdə və 80-ci illərin əvvəllərində kitabxana quruculuğu sahəsində xeyli iş görülmüş, geniş kitabxanalar şəbəkəsi yaradılmış, əhaliyə kitabxana xidmətinin təşkili istiqamətində mühüm addımlar atılmışdı. Belə ki, 1990-cı ilin əvvəllərində respublikada 120 milyondan artıq kitab fondu olan 10.000-ə yaxın kitabxana fəaliyyət göstərirdi. Bu kitabxanalar 4 milyon oxucuya xidmət edirdi. Bütün bunlara baxmayaraq əhaliyə kitabxana xidmətinin

---

[1] "Xəlq qəzeti".- 2002.- 23 mart.

[2] "Azərbaycan" qəzeti.- 2002.-10 oktyabr

təşkili dövrün tələblərinə cavab vermirdi. Kitabxanalar “qalıq” prinsipi əsasında maliyyələşdirildiyindən yeni kitabxanalar açmaq, onların maddi-texniki bazasını möhkəmləndirmək, kitab fondlarını yeni ədəbiyyatla komplektləşdirmək böyük çətinliklər doğururdu. Kitabxana işinin idarə edilməsində, sosializm cəmiyyətinin təbiətindən doğan, illərdən bəri dərin kök salmış ciddi ideoloji, siyasi, antidemokratik prinsiplər hökm sürməkdə idi. Sosializmin əsas prinsipi olan sinfilik və partiyalıhq prinsipi kitabxana işinin və kitabxanaçılıq nəzəriyyəsinin canına hopmuşdu və kitabxana təcrübəsində geniş surətdə, məcburi qaydada tətbiq edilirdi. Kitabxanalar iki mühüm orqanın - partiya və dövlət or qanlarının nəzarəti altında fəaliyyət göstərirdi, təbliğat-təşviqat işində partiya təşkilatlarının dayaq bazaları hesab edildiklərindən yerlərdə onlara partiya təşkilatları rəhbərlik edirdi. Kitabxana işinə dövlət nəzarəti senzura - Baş Siyasi Mətbuat İdarəsi tərəfindən həyata keçirilirdi.

Partiyalılıq prinsipinə əsaslanan totalitar senzura kitabxana fondlarının komplektləşdirilməsinə, onlardan istifadə edilməsinə, qorunub saxlanılmasına ciddi maneçilik törədirdi. Kitabxanalardan istifadə işinə nəzarət qoyulması, fonddakı kitabların ancaq icazəsi olan oxuculara verilməsi qaydaları kitabxanalarda dünya təcrübəsində bənzəri olmayan yeni fondlar – “xüsusi fondler” yaradılmasına səbəb olmuşdu. “Xüsusi fondler”da oxunmasına senzuranın icazə vermədiyi kitablar saxlanılırdı və onlardan ancaq icazə ala bilən oxucular istifadə edə bilərdilər. “Xüsusi fondler”ın formalaşması yüksək vəzifəli məmurlar tərəfindən həyata keçirilirdi. Belə məmurların mütəxəssis olmaması, kitab repertuarından baş çıxarmaması bəzən ən qiymətli, böyük elmi və mədəni əhəmiyyətə malik olan kitabların xüsusi fondlara düşməsinə, geniş oxucu kütləsinin istifadəsindən kənarda qalmasına səbəb olurdu. Bu antidemokratik, antihumanist iş üsulu ancaq yuxarıların göstərişi ilə həyata keçirildiyindən yüzlərlə elmi, bədii, tarixi, nadir əsərlər ya məhv edilir, ya da ictimai istifadədən çıxarılırdı. Bu iş 30-cu illərdə, şəxsiyyətə pərəstişin şiddətləndiyi dövrdə daha kütləvi xarakter almış, “xalq düşməni” adı ilə həbs edilən görkəmli yazıçıların, şairlərin, alimlərin əsərləri kitabxanalardan çıxarılıb məhv edilmişdi.

Sovet kitabxanalarında tətbiq edilən antidemokratik iş formalarından biri də kataloqların tərtibi sahəsində tətbiq edilən qaydalar idi. Bu

qaydalara görə, böyük kitabxanalarda iki kataloq: xidmət kataloqu və oxucu kataloqu tərtib edilirdi. Kitabxananın fondunda olan bütün kitabları əhatə edən xidmət kata-loqu kitabxanaçıların istifadəsi üçün nəzərdə tutulurdu. Oxunmasına qadağa qoyulmayan kitabları əhatə edən "oxucu kataloqu" isə oxucuların istifadəsi üçün tərtib edilirdi. Bu cür kataloq sisteminin yaradılmasında əsas məqsəd istifadəsinə icazə verilməyən kitabları oxuculardan gizlətmək idi. Öz mahiyyəti ilə antidemokratik, antihumanist olan bu qaydalar böyük kitabxanaların fondunda saxlanılan çox qiymətli kitabların geniş oxucu kütləsi tərəfindən istifadəsinə ciddi maneçilik törətməklə, kitabxana fondlarının dövriyyəsini aşağı salırdı. Halbuki o dövrdə dünyanın böyük kitabxanaları kitabxana xidmətinin əsas məqsəd və vəzifəsini kitabxana fondlarından maksimum istifadə etmək işinin təşkilində görürdü.

Həmçinin SSRİ dövründə kitabxana işi və kitabxanaçılıq nəzəriyyəsi dünya təcrübəsindən aralı düşmüş, kitabxanaların beynəlxalq əlaqələrinin təşkili faktiki olaraq nəzarət altına alınmışdı. Beynəlxalq əlaqələri ancaq icazə verilən kitabxanalar apara bilərdilər. Öz mahiyyəti etibarilə bəşəri elm olan kitabxanaşünaslıq dünya kitabxanaşünaslığından ayrılmış, sovet kitab-xanaşünaslığı adlandırılmışdı. Dünya kitabxanaşünaslığının elmi-nəzəri müddəalarından istifadə etməmək sovet kitabxanaşünaslığını beynəlxalq təcrübədən təcrid olunmuş vəziyyətə salmışdı. Milli kitabxanaşünaslığın inkişafı üçün isə olduqca az iş görülürdü.

80-ci illərin ikinci yarısından başlayaraq Sovetlər İttifaqında aparılan yenidənqurma işlərinin iflasa uğraması, ölkədə baş verən iqtisadi böhran öz təsirini Azərbaycana da göstərmişdi. Respublikada bütün sahələrdə olduğu kimi kitabxana işi sahəsində də ciddi problemlər yaranmışdı. Kitabxana işinə ayrılan maliyyə vəsaiti xeyli azalmışdı və ayrılan vəsait öz təyinatı üzrə xərclənmirdi. 1988-ci ildən başlayaraq respublikada iqtisadi və siyasi böhran daha da kəskinləşdi. İdarəetmədə ciddi hərc-mərclik, xaos baş alıb getməyə başladı. 1988-ci ilin axırlarından alovlanmağa başlayan qondarma Dağlıq Qarabağ problemi bu böhram daha da dərinləşdirdi. Ölkədə mədəniyyət müəssisələrinin, o cümlədən kitabxana işinin vəziyyəti olduqca pisləşdi. 1993-cü ilə qədər davam etmiş bu proses kitabxana işinə olduqca böyük zərbə vurmuş, torpaqlarımızın erməni vandalları tərəfindən işğalı zamanı 4 milyon

nüsxə kitabı olan 982 kitabxana məhv edilmişdi. AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə kitabxanalara ayrılan vəsait olduqca azaldılıb minimuma endirilmiş, özəlləşdirmə adı altında kitabxanaların binalarının əllərindən alınması kampaniyası başlanmışda. Bu dövrdə AXC-Müsavat rəhbərliyinin yuxarı dairələrində elmi müəssisələrin, mədəniyyət ocaqlarının bağlanması haqqında sərsəm fikirlər səslənməyə başlanmış, bir çox mədəniyyət müəssisələrinin və kitabxanaların binası əlindən alınmış, kitabxanalar bağlanmışdı.

1992-ci ildə Respublika Tibb Kitabxanasının binası alınıb Amerika səfirliyinə verilmiş, kitabxana başqa yerə köçürülmüşdü. Həmkarlar İttifaqının ən böyük kitabxanası olan Qubkin adına kitabxananın da taleyi belə olmuşdu. Belə misalların sayını artırmaq olar. Əgər bu proses davam etsə idi, respublikamızın kitabxana ictimaiyyəti böyük faciə qarşısında qala bilərdi.

1991-1992-ci illərdə həmçinin bir sıra idarə və müəssisələrin, siyasi və ictimai təşkilatların kitabxanaları ləğv edildi. Ləğv edilən kitabxana şəbəkələri içərisində Azərbaycan Kommunist Partiyasının və Azərbaycan Həmkarlar İttifaqının böyük kitabxana şəbəkəsi yaradılmışdı. Bakı Partiya Komitəsinin, rayon partiya komitələrinin, böyük idarə və müəssisələrin partiya komitələrinin kitabxanaları var idi. 1991-ci il sentyabrın 14-də iflasa uğramış Azərbaycan Kommunist Partiyası özünü buraxdıqdan sonra partiya kitabxanaları tamamilə başsız qaldı, onların gələcək taleyi haqqında heç bir tədbir görülmədiyindən tamamilə pərakəndə şəkildə dağılmağa başladı. Azərbaycan partiya təşkilatının ən böyük kitabxanası Bakı Şəhər Siyasi Maarif Evinin yanında fəaliyyət göstərən Mərkəzi Partiya Kitabxanası idi. Partiya kitabxanalarının fondunda əsasən marksizm-leninizm klassiklərinin əsərləri, partiya tarixinə dair ədəbiyyat və təbliğat-təşviqat xarakterli ədəbiyyatla yanaşı, tarixi, ədəbi-bədii, incəsənətə dair qiymətli ədəbiyyat da saxlanılırdı. Mərkəzi kitabxananın fondunda isə olduqca qiymətli və nadir kitablar var idi. Bu kitabxanalar ləğv edilərkən onların fondları demək olar ki, ucdantutma dağıldı. Qiymətli ədəbiyyatın qorunub saxlanması, dövlət kitabxanalarına verilməsi haqqında heç bir tədbir görülmədi.

Sovetlər İttifaqı dövründə respublikamızda fəaliyyət göstərən kitabxana şəbəkələrindən ən böyüyü Azərbaycan Həmkarlar İttifaqının kitabxana şəbəkəsi idi. 1990-cı ildə bu şəbəkədə 4 milyon nüsxə kitab fonduna malik 326 kitabxana var idi. Müstəqillik əldə edildikdən sonra Həmkarlar İttifaqı Mərkəzi Şurasının ləğv olunması, sahə həmkarlar ittifaqı təşkilatının müstəqil fəaliyyətə başlaması nəticəsində böyük hərc-mərcilik baş vermiş, maliyyə böhranı başlamışdı. Məhz belə bir şəraitdə həmkarlar təşkilatları öz kitabxanalarını maliyyələşdirə bilmədi. Həmçinin kitabxanaları olan bəzi idarəvə müəssisələr kitabxanaların binalarını ələ keçirmək üçün bu prosesi daha da gücləndirdilər, nəticədə kitabxanalar kütləvi surətdə bağlanmağa mə-ruz qaldı. O dövrdə başı özünə qarışmış dövlət rəhbərləri də heç bir tədbir görmədilər. Beləliklə, qısa bir müddətdə həmkarlar təşkilatlarının 236 kitabxanası bağlanmış, 1.326.590 nüsxə kitab fondu olan 90 kitabxana qalmışdı. Bağlanan kitabxanaların fondu insafsızcasına talan edilmişdi.

Məlum həqiqətdir ki, həmkarlar ittifaqı kitabxanalarının əksəriyyəti kütləvi kitabxanalar idi. Onlar bilavasitə geniş zəhmətkeş kütlələrinə, ilk növbədə isə fəhlələrə kömək edirdilər. Ona görə də həmkarlar ittifaqının kitabxana fondlarında çox qiymətli ədəbiyyat toplanmışdı. Bu qiymətli fondun o dövrdə dağılıb məhv edilməsi Azərbaycan mədəniyyətinə vurulan böyük zərbə idi.

Bu dövrdə respublikamızda ən çox zərər çəkən kitabxana şəbəkələrindən biri də texniki kitabxana şəbəkəsi olmuşdur. Respublikada başlayan və getdikcə dərinləşən iqtisadi böhran, istehsal müəssisələrinin, fabrik və zavodların bir-birinin ardınca bağlanması həmin müəssisələrdə olan texniki kitabxanaların bağlanmasına səbəb oldu. Texniki kitabxanaların illər boyu toplanmış, formalaşmış zəngin fondu və avadanlığı qısa bir müddət içərisində tamamilə talan edilmişdi. Texniki kitabxanalar əsasən Azərbaycan Dövlət Plan Komitəsinə və həmkarlar təşkilatlarına tabe idilər. Bu təşkilatlar isə texniki kitabxanaları xilas etmək üçün heç bir əsaslı tədbir görməmiş, qərar qəbul etməmişdilər. Beləliklə, 1991-1992-ci illərdə 100-ə yaxın texniki kitabxana bağlanmışdı.

1990-1992-ci illərdə respublika hökuməti kitabxanaları məhv olmaq təhlükəsindən qurtarmaq üçün heç bir tədbir görmədiyindən kitabxana şəbəkələri olan digər nazirliklərdə də belə hallar kütləvi surətdə baş vermiş, kitabxanalar bağlanmışdı.

Kitabxanalarla yanaşı, mədəniyyət evlərinə, muzeylərə, idman komplekslərinə və digər müəssisələrə də hücum başlanmışdı. Gələcək nəsillərə bir faktı söyləməklə kifayətlənəcəyəm. Hamıya məlum olduğu kimi, Bakıda çox böyük, xüsusi muzey layihəsi ilə tikilmiş V.İ.Lenin adına bir muzey var idi. 90-cı illərin əvvəllərində bağlanmış həmin binanı Mədəniyyət Nazirliyinə vermək əvəzinə o dövrdə Ali Məhkəmənin sədri işləyən Tahir Kərimlinin təkidi ilə Ali Məhkəməyə vermişdilər. Çox şükürlər olsun, Heydər Əliyevin respublikaya qayıdışından sonra "bəylər" öz istəklərini yerinə yetirə bilmədilər, bina Mədəniyyət Nazirliyinə qaytarıldı. Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıdışı Azərbaycan dövlətçiliyi ilə yanaşı, kitabxana işini də böyük bəlalardan xilas etdi. Elm və mədəniyyət müəssisələrinə dövlət budcəsindən vəsait ayrılmaqla yanaşı, onların dövlət mülkiyyəti, ümumxalq sərvəti kimi qorunub saxlanması haqqında qərarlar qəbul edildi, sərəncamlar və fərmanlar verildi.

1995-ci il sentyabr ayının 29-da "Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı fərman imzalandı. Bu fərmanın birinci bölməsində "Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərin siyahısı" verilmişdir. Bu bölmənin 3-cü bəndində göstərilir: "Azərbaycan xalqının tarixi və mədəni irs obyektləri (nadir mədəniyyət və təbiət abidələri, təbiət, tarix, mədəniyyət, elm və texnika obyektləri, o cümlədən dövlət muzeylərində, arxivlərdə və kitabxanalarda saxlanılan sərvətlər, onların yerləşdiyi binalar və sahələr".[1]

Fərmandan aydm olur ki, kitabxanalarda saxlamlan sərvətlərin, onlarm binasımn və sahələrinin özəlləşdirilməsi qadağan edilir. Bu fərmanm imzalanması kitabxanaların qorunub saxlanmasma şərait yaratdı. Kitabxanalar müstəqil dövlətimizin

---

[1] "Azərbaycan" qəzeti.-1995.-12 noyabr.- S.l-3.

əsas atributlarından biri kimi dövlət müəssisəsi statusuna malik oldu.

Əsrlərdən bəri xalqımızın arzusunda olduğu müstəqilliyin əldə edilməsi Azərbaycan Respublikasının qarşısında tarixi, milli ənənələrimizə əsaslanan demokratik, hüquqi, dünyəvi dövlət qurmaq vəzifəsini qoymuşdu. Yeni yaranan cəmiyyət keçmiş sosialist cəmiyyəti prinsiplərindən, marksizm-leninizm ideologiyasından tam azad olmuş, ictimai-siyasi sahədə demokratik prinsiplərə, ümumbəşəri dəyərlərə, iqtisadi sahədə isə bazar iqtisadiyyatına keçidə əsaslanırdı.

Bu məsələlərdən danışarkən Heydər Əliyev deyir: “Azərbaycan keçmiş sovet, kommunist ideologiyasından tamamilə ayrılmışdır və bu ideologiyanın həm ictimai-siyasi sahədə, həm də iqtisadi sahədə Azərbaycana yenidən qayıtması daha mümkün deyildir. Azərbaycanın milli dövlət ideologiyası ölkəmizin müstəqilliyini təmin etməkdən və Azərbaycanda demokratik dövlət qurmaqdan ibarətdir.

İqtisadi sahədə strateji yolumuz respublikada bazar iqtisadiyyatına keçmək üçün iqtisadi islahatlar aparmaqdan və tədricən Azərbaycanda bütün sahələrdə sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı formalarını tətbiq etməkdən ibarətdin”[1]

Keçid dövrünün hər cür çətinliklərinə baxmayaraq ulu öndərin qarşıda qoyduğu bu vəzifələr ardıcıl olaraq həyata keçirilməyə, əsl vətəndaş cəmiyyəti quruculuğuna başlandı. Respublikamızda çoxsaylı ictimai təşkilatların, siyasi partiyaların, müxtəlif cəmiyyətlərin və fondların yaranması, senzuranın ləğv edilməsi, yerlərdə müstəqil qəzet və jurnalların nəşri, özəl televiziya və radio kanallarının fəaliyyətə başlaması fikir azadlığı, mətbuat azadlığı, söz azadlığı, siyasi plüralizm üçün əlverişli zəmin yaratmış, ölkənin demokratik imicini formalaşdırmış, siyasi, ideoloji və mədəniyyət müəssisələrinin inkişafını təmin etmişdir. Keçid dövründə ölkə vətəndaşlarının informasiya təminatında, kitabxana-informasiya xidmətinin təşkilində, informasiya cəmiyyəti quruculuğunda mühüm əhəmiyyət kəsb edən kitabxana işi də mühüm dəyişikliklərə, islahatlara məruz qaldı.

---

[1] Heydər Əliyev. Müstəqillik yollarında. -B., 1997. IVcild.- S. 355.

Sosialist quruculuğu dövründə kitabxana işi sahəsində formalaşan, əsasən ideoloji xarakter daşıyan prinsiplərdən imtina edilməklə, formalaşmaqda olan yeni müstəqil Azərbaycan cəmiyyətinin demokratik, dünyəvi prinsipləri kitabxana işinə tətbiq edilməyə başlandı. Kitabxana işi ideoloji buxovlardan azad edildi. Kitabxana işinə demokratikləşmə, milliləşmə və azərbaycanlaşma ab-havası gətirildi. Kitabxanalar milli ideologiyanın formalaşmasında və təbliğində yaxından iştirak etməyə başladılar.

Məhz bu illərdə Heydər Əliyevin bilavasitə rəhbərliyi və qayğısı sahəsində kitabxanalar ləğv edilməkdən xilas oldular, kitabxanaların qorunub saxlanılması uğrunda dövlət mübarizəyə başladı.

1993-1999-cu illər Azərbaycanda kitabxana işinin tarixinə kitabxanaların qorunub saxlanılması uğrunda mübarizə illəri kimi daxil olmuşdur. 1993-cü ilin əvvəllərində dövlətin rəsmi orqanlarıda kiçik kitabxanaların bağlanması haqqında qeyri-sağlam səslər ucaltmağa başlamışdılar. Yüksək vəzifəli rəsmi şəxslərin bu fikri müdafiə etməsi cəmiyyətdə birmənalı qarşılanmamışdı. Çoxminlik kitabxanaçılar ordusu ilə yanaşı, respublikamızın görkəmli yazıçıları, şairləri, alimləri, müəllimləri, ümumiyyətlə, bütün ziyalıları kitabxanaları müdafiə etməyə başladılar. Ona görə də müvəqqəti olsa da kitabxanalara qarşı aparılan kampaniya sönməyə başladı. 1993-cü ilin iyulunda Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı bu prosesi tamamilə dayandırdı.

Bütün mədəniyyət ocaqlarının, o cümlədən kitabxanaların özəl-ləşdirilməsi, onların binalarının başqa məqsədlər üçün istifadə olunması prezident fərmanı ilə qadağan edildi. Ölkədə mövcud kitabxana şəbəkələrinin qorunub saxlanılması uğrunda mübarizə illəri başlandı. Kitabxana işi tarixində bu illər 1993-1999-cu illəri əhatə edir. Məhz bu illərdə Azərbaycan dövləti keçid dövrünün hər cür çətinliyinə baxmayaraq, bir sıra ictimai təşkilatların kitabxana şəbəkələri istisna olmaqla, dövlət kitabxana şəbəkələrini qorumağa müvəffəq oldu.

1996-cı ildə Azərbaycan Nazirlər Kabineti "Kitabxana işi haqqında" qərar qəbul etldi. Bu qərarda kitabxana şəbəkələrini

qoruyub saxlamaq və əhaliyə xidmət işini yaxşılaşdırmaq üçün Azərbaycan Mədəniyyət Nazirliyinin qarşısında ciddi vəzifələr qoyulmuşdu. Qərarın keçid dövründə kitabxanaların qorunub saxlanılmasına xeyli kömək göstərdiyini söyləsək, səhv etmiş olmarıq.

Bu dövrdə dövlətin kitabxana sahəsində apardığı siyasətin mühüm sahələrindən birini kitabxanaların maliyyələşdirilməsi tuturdu. Ölkədə hökm sürən maliyyə böhranına baxmayaraq, dövlət kitabxanaların saxlanılmasına və kitabxana işçilərinin əmək haqqının verilməsinə ayrılan vəsaiti qoruyub saxlaya bildi. Bu, kitabxana şəbəkələrinin qorunub saxlanılmasını təmin etdi. Doğrudur, 1990-cı illərin ilk dövründə kitabxana fondunu komplektləşdirmək və yeni kitablar almaq üçün vəsaitin ayrılmaması kitabxana işinə çox mənfi təsir etdi. Kitabxanalar öz oxucularının müəyyən hissəsini itirdi. Əhaliyə kitabxana xidməti acınacaqlı vəziyyətə düşdü. Bir çox kitabxana binalarının əllərindən alınması, kitabxanaların namünasib binalara köçürülməsi kampaniyası başlanmışdı. Kitabxanaların başının üstünü qara kabus almışdı. Ancaq 1990-cı illərin ikinci yarısından başlayaraq kitabxanalar mövcud şəraiti qiymətləndirməyə, çətin vəziyyətdən çıxmağa, yaşamaq uğrunda mübarizəyə başladılar. Nəticə etibarilə kitabxanalar yerli büdcələrin, icra başçılarının ayırdığı vəsait, ayrı-ayrı xeyirxah kitab müəlliflərinin bəxşişləri, xeyriyyəçilərin köməyi və xarici qeyri-hökumət təşkilatlarının ayırdığı qrantlar hesabına yeni kitablar əldə etməyə nail oldular. 1998-ci ildən başlayaraq dövlət büdcəsində kitabxanalara yeni kitablar almaq üçün vəsaitin nəzərdə tutulması və onun ilbəil artırılması əhaliyə kitabxana xidmətinin təşkili işini xeyli yaxşılaşdırdı. Ölkəmizdə özəl müəssisələrin yaradılması ilə əlaqədar olaraq yeni özəl kitabxanalar təşkil edilməyə başladı. Xüsusilə təhsil sahəsində özəl təhsil kitabxana şəbəkəsi, ali və orta ixtisas məktəbləri kitabxana şəbəkəsi formalaşmağa başlamışdı.

Çətinliklə və zəif olsa da ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxanalarında informasiya texnologiyası artmağa, kitabxanalar tədricən kompüterləşdirilməyə, respublikamızın bir çox elmi kitabxanaları internetə qoşulmağa başladılar.

Beləliklə, müstəqillik dövründə baş verən hadisələr dövlətimizə kitabxana işi sahəsində yeni, müstəqil, demokratik siyasət yeritməsi üçün şərait yaratdı. Müstəqil, suveren, dünyəvi, demokratik, hüquqi Azərbaycan dövlətinin kitabxana işi sahəsində siyasəti formalaşmağa və cəmiyyətdə özünə yer tutmağa başladı.

Siyasət müasir şəraitdə və gələcəkdə bu və ya digər vəziyyəti əvvəlcədən müəyyən edən müxtəlif baxışlar, fikirlər, alternativlərdən ən önəmlisidir. Bu siyasəti yaradanlar isə bu işin sükanı arxasında dayanan, qabaqcıl ideyaları mənimsəyən, həyatını həsr etdiyi işə bağlayan, onun vacibliyinə, bəşəriyyətə xeyir verdiyinə inanan yüksək elmi, intellektual peşə səviyyəsinə malik olan insanlar qrupudur. Belə insanlar iş prosesində özləri birləşir, təşkilatlanır, ümumdövlət, ümumxalq işinin dayağına, aparıcı qüvvəsinə çevrilirlər. Məhz belə insanlar bu və ya başqa sahədə dövlət siyasətini müəyyənləşdirirlər. Siyasət bir və ya bir qrup insan tərəfindən deyil, böyük insanlar qrupu tərəfindən müəyyənləşdirilir. Məhz onlar dövlət idarə orqanlarının həyata keçirdikləri bütün hərəkətlərin, siyasi baxışların əsasını müəyyən edirlər.

Beləliklə, kitabxana işi sahəsində dövlət siyasəti çox mürəkkəb ictimai bir fenomendir. Öz ideoloji, sosial və siyasi əhəmiyyətinə görə müstəsna əhəmiyyətə malik olan bir hadisədir. Dövlət kitabxana siyasəti mürəkkəb, çoxtərəfli, çoxsəviyyəli, çoxşəkilli, çoxqütblü, çoxkomponentli, çoxsubyektli və çox obyektlidir.

Məlumdur ki, SSRİ məkanında olduğu kimi, Azərbaycanda da "dövlət kitabxana siyasəti" məfhumu yox idi. Bu dövrdə "kitabxanalara rəhbərlik" məfhumu var idi. Totalitar rejimdə siyasət də partiya rəhbərliyinə tabe edilmişdi. Müstəqillik əldə edildikdən sonra cəmiyyətin bütün sahələrində baş verən demokratikləşmə prosesi öz təsirini mədəniyyətin bütün sahələrinə, o cümlədən də kitabxana işinə göstərdi. Kitabxana işi sahəsində böyük demokratikləşmə işi başlandı ki, bu da öz növbəsində kitabxana işi sahəsində dövlət siyasətinin hazırlanmasını tələb edirdi. Bu siyasətin hazırlanması və formalaşmasında sosioloqlar və politoloqlarla yanaşı, kitabxanaşünaslar da yaxından iştirak edir,

kitabxana işinə dair qərarların, konsepsiyaların, qanunların hazırlanmasına yardımçı olur, cəmiyyət həyatını öyrənmək üçün geniş elmi-tədqiqatlar aparırdılar. Artıq kitabxanaşünaslar içərisində kitabxana politoloqları yetişməyə başlamış, kitabxana politologiyasının əsası qoyulmuşdur. Dövlətin kitabxana işi sahəsində siyasətinə dair yazılar meydana çıxmış, tədqiqatlar aparılmağa başlanmışdır. Müstəqil Azərbaycan dövlətinin həyatı yeniliklərlə, iqtisadiyyat, elm və mədəniyyət sahəsində böyük müvəfəqiyyətlərlə doludur. Köhnə nə varsa yavaş-yavaş dağılmış, hiss edilmədən, gözə görünmədən yeni proseslər başlamış, yeni keyfiyyətlər baş vermişdir. Bütün bunlar kitabxana işi sahəsində dövlət siyasətinin hazırlanması üçün baza, məhək daşı olmuşdur. Müstəqil Azərbaycan dövlətinin kitabxana işi sahəsində siyasəti formalaşmışdır. Bu siyasət dünyanın qabaqcıl ölkələrinin kitabxana siyasətindən, ümumbəşəri dəyərlərdən bəhrələnən, müasir dövrün mahiyyətcə yeni olan ideyaları ilə silahlanan, gələcəyə baxan, perspektiv inkişafı təmin edə bilən bir siyasətdir. Kitabxana işi haqqında dövlət siyasətini formalaşdırmaq üçün yeni təfəkkür tərzi ilə düşünən insanların dünya baxışını analiz və sintez əsasında nəzərdən keçirib təhlil etmək, xalqımızın mədəniyyət, kitab və kitabxana tarixi ənənələrindən istifadə etmək, milli mentalitetimizə, soykökümüzə uyğun ənənələri ortaya çıxarıb ümumiləşdirmək əsasında hazırlamaq zəruridir. Belə siyasət keçmişi nəzərə almaqla müasirliyin bütün mütərəqqi tələblərini təmin edir, gələcək istiqamətləri müvəffəqiyyətlə müəyyənləşdirir.

Müasir şəraitdə kitabxana işi sahəsində dövlət siyasətini müəyyənləşdirərkən respublikamızda əldə edilmiş müstəqilliyin xalqımıza bəxş etdiyi milli dövlətçiliyimizin, milli ideologiyamızın, azadlıq və demokratiyanın nailiyyətini son illərdə ölkənin həyatında baş verən iqtisadi, sosial, mədəni və təhsil sahəsindəki dəyişiklikləri, milli soykökümüzə qayıtmağımızı, milli mentalitetimizin möhkəmləndirilməsini, ümumiyyətlə, müstəqil, suveren Azərbaycan cəmiyyətində baş verən bütün dəyişikliklərin inkişaf qanunauyğunluqlarını nəzərə almaq lazımdır. Axı ötən illər dövlət tamam başqa cür olub, cəmiyyət hələ tam aydın olmayan, ancaq əvvəlkindən tamamilə fərqlənən başqa yolla, başqa qanunauyğunluqlarla inkişaf edir.

Kitabxanalar, onların vəzifələri, oxucular və kitabxanaçılar da tamamilə dəyişmiş, yeniləşmişdir. Cəmiyyətin formalaşmasında meydana gəlib təkmilləşən yeni dünya baxışı, yeni təfəkkür tərzi onların da dəyişməsinə şərait yaratmışdır.

Əgər sovet quruluşu vaxtı kitabxanaların qarşısında daha çox əhalini kitabxana oxucuları sırasına cəlb etmək, kitabxana fondlarından istifadəni intensivləşdirmək vəzifəsi qoyulmuşdusa, indiki informasiyalaşdırılmış cəmiyyət şəraitində kitabxanaların qarşısında bütün əhalini internetin kitabxana işinə tətbiqi və onun köməyi ilə dünyanın kitab və digər mədəni sərvətlərindən istifadə etməyə cəlb etmək vəzifəsi qoyulmuş, informasiya-dan azad istifadə üçün şərait yaradılması zəruri hesab edilmişdir.

Həmçinin beləbir şəraiti də nəzərə almaq lazımdır ki, respublikamızda əhaliyə kitabxana xidmətini təşkil edən müxtəlif kitabxana şəbəkələri ayrı-ayrı nazirliklər, idarə və müəssisələr tərəfindən idarə olunur. Əlbəttə, özünün geniş şəbəkəsi olan nazirliklər, idarə və müəssisələr mövcud şəraitə və həmin sistemdə kitabxana xidmətinə olan tələbata uyğun olaraq öz şəbəkələrinin qarşısında duran vəzifələrə müvafiq kitabxana işi sahəsində siyasət formalaşdırıb həyata keçirə bilərlər. Bu siyasət bilavasitə kitabxanaların xidmət etdiyi sistemin tələbatına uyğunlaşmalı, həmin nazirliyin qarşıya qoyduğu vəzifələrlə səsləşməlidir. Belə halda respublikada hər bir nazirliyin, məsələn, Təhsil Nazirliyinin, Səhiyyə Nazirliyinin və s. özünün formalaşdırdığı kitabxana siyasəti qaçılmazdır. Deməli, respublikamızda kitabxana şəbəkələrinin qarşısında duran vəzifələrdən asılı olaraq müxtəlif, bir-birindən məzmunca fərqlənən siyasətlər mövcuddur. Bu, danılmazdır, inkaredilməzdir. Həmçinin belə bir həqiqət də inkaredilməzdir ki, ölkəmizdə əhaliyə kitabxana xidmətinin təşkilinin ümumdövlət siyasəti də vardır. Bu siyasət ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana siyasəti nəzərə alınmaqla formalaşan, cəmiyyətdə gedən bütün problemləri, dəyişiklikləri, qanunauyğunluqları əks etdirən bir siyasətdir. Əgər ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana siyasəti bir nazirliyin, bir müəssisənin mənafeyini müdafiə edirsə,ümumdövlət kitabxana siyasəti bütün ölkənin,

bütün xalqın mənafeyinə, tələbat və sorğusuna xidmət edir.

Beləliklə, ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin formalaşdırdığı kitabxana siyasəti öz əsas prinsiplərini və vəzifələrini müəyyənləşdirərkən bilavasitə dövlət siyasətinə əsaslanmalı, onun mahiyyətinə uyğunlaşmalıdır.

Dövlət tərəfindən hazırlanan kitabxana siyasəti respublika miqyasında aparılan kitabxana işinin əsasını təşkil etdiyindən kitabxana işinə dair hazırlanan bütün sənədlər bu ana sənədə, Azərbaycan dövlətinin kitabxana işi sahəsində siyasətinə əsaslanmalıdır.

Bu gün müasir dünya böyük bir inqilabi prosesi yaşamaqdadır. Bu inqilab cəmiyyətin inkişafına təkan verən, onu sürətləndirən, insanların həyat şəraitini yaxşılaşdıran, intellektual səviyyəsini yüksəldən, peşə bacarığının artmasına, işinə və istirahətinə əsaslı köməklər göstərə bilən informasiya inqilabıdır. Bu inqilabın müvəffəqiyyətlə həyata keçirilməsinin əsas vasitələrindən biri kitabxanalardır. Məhz buna görədir ki, müasir şəraitdə dövlətin kitabxana işi sahəsində siyasətinin hazırlanmasına böyük ehtiyac duyulmaqdadır.

Dövlətin kitabxana işi sahəsindəki siyasəti elə hazırlanmalı və həyata keçirilməlidir ki, informasiyalaşdırılmış cəmiyyətin vəzifələrinə cavab verə bilsin. Dövlətin kitabxana işi sahəsində siyasətinin hazırlanmasında göstərdiyimiz mühüm amillərin özünə yer tapmasına diqqət yetirmək vacibdir:

1. Kitabxanaların ümumaçıq olması prinsipinin qorunub saxlanılması;
2. Kitabxanaların dövlət tərəfindən maliyyələşdirilməsinin təmin edilməsi;
3. Kitabxana fondlarının qorunması, onun yeni ədəbiyyatla ardıcıl olaraq komplektləşdirilməsi üçün şərait yaradılması, Kitabxana Kollektorunun işinin daha da təkmilləşdirilməsi;
4. Kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya texnikası ilə təmin edilməsi, yeni kitabxana binalarının tikilməsi, mövcud binaların təmir edilməsi üçün tədbirlər hazırlanması;
5. Mədəni sərvətlərdən və informasiya mənbələrindən vətəndaşların azad və sərbəst istifadə etməsinə dair konstitusiya hüququnun təmin edilməsi üçün şərait yaradılması;
6. İnkişaf etmiş informasiyalaşdırılmış cəmiyyətdə informasiya sahəsində dövlət siyasətinin obyekti olan kitabxanaların rolunun artması, dünyəvi, hüquqi dövlətin qurulması, iqtisadiyyatın inkişafı, iqtisadi

islahatların dərinləşməsi və cəmiyyətin demokratikləşməsi prosesinə kömək edən informasiya mərkəzləri kimi onların işinin daim diqqət mərkəzində saxlanılması və inkişaf etdirilməsi:

7. Beynəlxalq ölkələrarası və idarələrarası kitabxana əməkdaşlığının inkişaf etdirilməsi;

8. Azərbaycan kitabxanalarında qabaqcıl xarici təcrübənin tətbiq edilməsi üçün proqram hazırlanması;

9. Respublika kitabxanalarının, ilk növbədə elmi kitabxanaların kompüterləşdirilməsi üçün xüsusi proqramın hazırlanıb həyata keçirilməsi;

10. Kitabxana işinin bu günü, sabahı və yaxın gələcəyinin təminatçısı və rəhni olan yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanması;

11. Azərbaycan kitabxanalarının işini dünya standartları səviyyəsinə çatdırmaq, kitabxanaların elmi-metodik təminatını daha da təkmilləşdirmək, kitabxana-informasiya xidmətini elmi əsaslar üzərində qurmaq məqsədi ilə vətən kitabxanaşünaslıq elminin inkişaf etdirilməsi, elmi nəticələrin təcrübəyə tətbiqi üçün tədbirlərin hazırlanıb həyata keçirilməsi;

12. Cəmiyyətdə ən qədim və ən sadə peşə adamları kimi tanınan, Azərbaycan ziyalılarının ən zəhmətkeş zümrəsini təşkil edən, insanların xidmətində dayanan, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində, milli ideologiyanın formalaşmasında və yayılmasında xüsusi xidmətləri olan kitabxanaçıların sosial vəziyyətinin yaxşılaşması, vəzifə maaşlarının artırılması üçün dövlət tədbirlərinin görülməsi.

## 2.1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kitabxana şəbəkəsi müstəqillik illərində

Müstəqillik illərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dövlət kitabxana şəbəkəsi ulu öndər Heydər Əliyevin misilsiz qayğısı və köməyi nəticəsində əhaliyə kitabxana xidmətinin təşkilində müstəsna rol oynamışdır.

MDB dövlətlərindən fərqli olaraq Azərbaycanda bir dənə də olsun dövlət kitabxanasının bağlanmasına icazə verilmədi. Kitabxanalar keçid dövrünün çətinliklərinə baxmayaraq, dövlət büdcəsindən maliyyələşdirilməyə başlandı. Doğrudur, kitabxana işinə ayrılan vəsait olduqca az olduğundan bu vəsaitlə kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək, yeni kitablarla təchiz etmək mümkün olmasa da, kitabxanaları tam vahid kimi saxlamağa imkan yaratdı.

Keçid dövründə kitabxanaların qarşısında çox mühüm və mahiyyətcə tamamilə yeni vəzifələr qoyulmuşdu. Bu vəzifələr sırasında kitabxana işinin demokratikləşməsi, milliləşməsi və azərbaycançılıq kimi böyük elmi-nəzəri və ideoloji əhəmiyyətə malik olan vəzifələr ön plana çəkilməli idi.

Kitabxanalar qısa müddət içərisində ləngimədən müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, dövlətin daxili və xarici siyasətinin təbliğinə, erməni faşizminə qarşı insanların səfərbər edilməsi ideyalarının təbliğinə başladılar. Dövlətçiliyimizin möhkəmləndirilməsi, milli ideologiyanın yaranması və təbliği kitabxana işinin əsas mahiyyətini təşkil edirdi. Kitabxana fondunun təkmilləşməsində, ədəbiyyatın təbliğində milli ədəbiyyat fondunun yenidən təşkili, tarixi soykökümüzə, adət-ənənələrimizə qayıdış ön plana çəkilirdi. Xalqımızın azərbaycançılıq, vətənpərvərlik, respublikamızda yaşayan bütün millətlərin, xalqların dostluq və qardaşlığı ruhunda tərbiyə edilməsinə xüsusi diqqət yetirilirdi.

Ulu öndər Heydər Əliyev məruzə və çıxışlarında, başqa əsərlərində yeni azad Azərbaycan cəmiyyətinin, bazar iqtisadiyyatına keçid prosesinin elmi-nəzəri və ideoloji əsaslarının hazırlanması, azərbaycançılıq ideyalarının formalaşdırılması yeni cəmiyyət quruculuğunda iştirak edən bütün ziyalılarımızın yolunu

işıqlandırırdı. Heydər Əliyevin elmi-nəzəri və mədəni irsindən bacarıqla istifadə edən və onu dönmədən təbliğ edən Azərbaycan kitabxanaçıları kitabxana işinin demokratikləşməsində böyük uğurlar əldə etdilər. Məhz Heydər Əliyevin qayğısı sahəsində Azərbaycan kitabxanaları böyük uğurlar əldə etməyə müvəffəq oldular.

1994-cü ildən başlayaraq dövlət kitabxana şəbəkəsinin maliyyələşdirilməsinə diqqət artırıldı. Beləliklə də dövlət kitabxanalarının bağlanması təhlükəsi aradan qalxdı. Doğrudur, kitabxanalara ayrılan vəsait onların yeni ədəbiyyatla komplektləşdirilməsinə, avadanlıq alınmasına, binalarının təmir edilməsinə çatmırdı. Mədəniyyət Nazirliyi bu çətinlikləri aradan qaldırmaq, kitabxanaların işini təşkil etmək üçün yerli dövlət orqanla-rı ilə birlikdə tədbirlər görür, kitabxanaları kitablarla və avadanlıqla təmin edirdi.

Müstəqillik illərində Azərbaycan Mədəniyyət Nazirliyi kitabxana işinin yaxşılaşdırılması sahəsində xeyli iş görmüşdü. Kitabxanaların fondu ideoloji cəhətdən lazımsız olan ədəbiyyatdan: marksizm-leninizm klassiklərinin əsərlərindən, Sov.İKP tarixinə dair əsərlərdən, hər cür siyasi makulaturadan azad edildi. Kitabxanaların milli ədəbiyyatla təmin edilməsi üçün şərait yarandı. Hər cür çətinliyə baxmayaraq, xidmət işində yeni iş forma və üsullarından istifadə edilməklə oxucuların sayı azalmaqdan qorundu. Doğrudur, kitabxanalara yeni ədəbiyyat alınmadığından oxucular buraya az gəlməyə başlamışdılar. Bu da özünü kitabxanalarda kitab dövriyyəsinin azalmasında göstərirdi.

Mədəniyyət Nazirliyinin kitabxana şəbəkəsində əsas yeri rayon mərkəzləşdirilmiş kitabxana sistemləri tuturdu. Zamanın sınağından keçmiş bu sistem müstəqillik illərində də özünü tamamilə doğrultdu. Kənd yerlərində Azərbaycan mədəniyyətinin dayaq bazası kimi kənd əhalisinə kitabxana xidmətinin təşkilini uğurla apara bildi. Xüsusilə keçid dövrünün çətinliyi şəraitində kənd kitabxanalarını qoruyub saxlamaq və yeri gəldikcə onların işini yaxşılaşdırmaq mümkün oldu.

1990-cı ildə respublikamızda 68 mərkəzləşdirilmiş sistem və onların 4605 filialı var idi. Bu kitabxanaların fondunda 45,3 milyon kitab

saxlanılırdı. Kitabxanalar 6386 min oxucuya xidmət edirdi. Sevindirici haldır ki, ölkəmizdə baş verən böyük iqtisadi, siyasi çətinliklərə baxmayaraq bu kitabxanalar qorunub saxlanılmaqla əhaliyə xidmət işini müvəffəqiyyətlə davam etdirmişlər.

Bu dövrdə kütləvi kitabxanalarla yanaşı, uşaq kitabxanaları da öz fəaliyyətini dayandırmamış, uşaqların təhsil və tərbiyəsində yaxından iştirak etmişdir. Bu çətin şəraitdə Mədəniyyət Nazirliyinin respublika əhəmiyyətli kitabxanaları - M.F.Axundov adına Respublika Milli Kitabxanası, F.B.Köçərli adına Respublika Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası oxuculara kitabxana xidmətini təşkil etməklə yanaşı, dövlətin kitabxana siyasətinin hazırlanması və həyata keçirilməsində, kitabxanaların metodik təminatında yaxından iştirak etmişlər.

Ulu öndərin on ildə mənəvi sərvətimiz olan kitabxanalara qayğısını, respublikanın bütövlükdə kitabxana sisteminin və şəbəkələrinin qorunub saxlanması sahəsində böyük çətinliklə olsa da həyata keçirdiyi tədbirləri gündəmə gətirmək, onu qiymətləndirmək üçün kitabxana işinin keçdiyi yola qısaca olaraq nəzər salaq.

Respublikamızda ən böyük kitabxana şəbəkəsinə malik olan nazirlik Mədəniyyət Nazirliyidir. Dövlət kitabxanasına rəhbərlik edən bu nazirlik, həmçinin kitabxana işi sahəsində dövlət siyasətinin formalaşmasında yaxından iştirak etməklə kitabxana sisteminə elmi-metodik təminatın təşkilində mühüm işlər görür. Hazırda Mədəniyyət Nazirliyi sistemində 1 milli kitabxana, 3 respublika əhəmiyyətli sahəvi kitabxana, 74 şəhər və mər-kəzi rayon kitabxanası, 3744 kənd kitabxanası fəaliyyət göstərir. Orta hesabla əhalinin hər 700 nəfərinə bir stasionar kitabxana düşür. Kitabxanaların fondunda 35,9 milyon nüsxə kitab (sənəd) toplanmışdır. Bir il ərzində kitabxanalara 121,76 nüsxə kitab, 22 min nüsxə audiovizual sənəd daxil olmuşdur. Bu ədəbiyyatın 101,18 nüsxəsini Azərbaycan dilində ədəbiyyat təşkil etmişdir.

Bu rəqəmlərdən göründüyü kimi, iqtisadi çətinliyə baxmayaraq kitabxanaların fəaliyyətini davam etdirməsi üçün dövlət

əlindən gələni etmişdir. Bu kitabxanalar il ərzində 2804,07 min oxucuya xidmət göstərmişdir. Fərəhləndirici haldır ki, oxucular içərisində uşaqlar və gənclər əhəmiyyətli yer tuturlar.[1] Bu da kütləvi kitabxanaların təhsil prosesində iştirak etməsini ön plana çəkir. Azərbaycan şəraitində, xüsusilə kəndlərdə uşaq kitabxanaları və məktəb kitabxanaları olmadığını nəzərə alsaq, kənd kitabxanalarının məktəblər üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyi göz önünə gələr.

Müstəqillik illərində kitabxana işi haqqında Heydər Əliyev ideyalarının həyata keçirilməsində Azərbaycan Respublikası Mədəniyyət Naziri Polad Bülbüloğlunun böyük xidmətləri olmuşdur. Polad Bülbüloğlu mədəniyyət haqqında qanunların, fərmanların, sərəncamların, qərarların və kitabxana işi haqqında dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində yaxından iştirak etmişdir. Məhz buna görədir ki, Polad Bülbüloğlunun 17 ildən artıq bir müddətdə Azərbaycan mədəniyyətinin inkişafı sahəsində böyük xidmətlərini nəzərə alan dövlətimiz onu respublikanın ən yüksək mükafatı – "İstiqlal" ordeni ilə mükafatlandırmışdır.

Məlum həqiqətdir ki, ölkəmizdə kitabxana işinin beynəlxalq standartlara müvafiq təşkilində kadr potensialı mühüm rol oynayır. Məhz buna görədir ki, 1993-2003-cü illərdə respublikamızda ali və orta ixtisas təhsilli kitabxanaçı kadrların hazırlanmasına xüsusi diqqət yetirilmiş, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində ali ixtisas təhsilli, Bakı Mədəni-Maarif Texnikumunun kitabxanaçılıq bölməsində orta ixtisas təhsilli kitabxanaçı kadrlar hazırlanması müvəffəqiyyətlə davam etdirilmişdir.

Yüksəkixtisaslı kitabxanaçı kadrlar hazırlanmasında xüsusi xidmətləri olan Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi 5.000 nəfərə qədər peşəkar kitabxanaçı-biblioqraf və kitabşünas kadr hazırlamışdır. Demək olar ki, fakültənin hazırladığı kadrlar Azərbaycanda əhaliyə kitabxana xidmətini təşkil edən kitabxana sistem və şəbəkələrində xidmət etməklə, Azərbaycanın qabaqcıl ziyalıları kimi böyük şöhrət qazanmışlar.

Müstəqillik illərində fakültədə böyük islahatlar aparılmış, kadr hazırlığının keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmiş, informasiya

[1] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin cari materialları.

cəmiyyətinin tələblərinə və kitabxanalarda informasiya texno-logiyasının tətbiqinə müvafıq fakültənin tədris planına kitabxana işinin kompüterləşdirilməsi ilə əlaqədar bir çox yeni fənlər əlavə edilmiş, elmi kadrların aspirantura vasitəsilə hazırlanmasında ciddi nailiyyətlər əldə edilmişdir. Fakültənin çoxpilləli təhsil sisteminə keçməsi, bakalavrlarla yanaşı magistrlərin hazırlanmasına başlanılması kadr hazırlığının potensial imkanlarını gücləndirməklə böyük elmi kitabxanalarımızı yüksək peşəkar kadrlarla təmin etmək imkanı yaratmışdır.

Son on ildə fakültənin maddi-texniki bazasının yaxşılaşdırılması, müasir tələbata cavab verən bina ilə, laboratoriyalarla, kompüter mərkəzi ilə təmin edilməsi təhsil prosesinin keyfiyyətinə müsbət təsir göstərmişdir. 1999-cu ildə Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünaslıq kafedrasının yanında respublikamızda ilk dəfə olaraq “Kitabxana işinin kom-püterləşdirilməsi” elmi-tədqiqat laboratoriyasının yaranması kitabxanaların kompüterləşdirilməsinə, bu sahədə aparılan işin təkmilləşməsinə müsbət təsir göstərmişdir.

Hazırda respublikamızın kitabxanalarında təxminən 30 minə qədər kitabxana işçisi çalışır. Bunlardan 8167 nəfəri Mədəniyyət Nazirliyinin kitabxana sistemində işləyir. Onların 1552 nəfəri ali təhsilli, 1204 nəfəri ali ixtisas təhsilli, 3273 nəfəri isə orta və orta ixtisas təhsilli işçilərdir.[1]

Bu rəqəmlərdən göründüyü kimi, respublika kitabxanalarının ali peşə təhsilli işçilərə böyük ehtiyacı və tələbatı vardır. Göstərdiyimiz bu vəziyyət Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin qarşısında çox böyük vəzifələr qoyur. Fakültə öz tələbə kontingentini ilbəil artırmalıdır. Həmçinin orta ixtisas təhsilli işçilərə də böyük ehtiyac duyulmaqdadır.

Böyük iqtisadi, siyasi çətinliklərə baxmayaraq böyük öndər Heydər Əliyevin qayğısı və ciddi səyi nəticəsində kitabxana işi

[1] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin cari materialları.

sahəsində görülən işləri, əldə edilən nəticələri Mədəniyyət Nazirliyi kitabxana şəbəkəsinin timsalında 1990-cı illə müqayisədə nəzərdən keçirək.

**1995-2000-ci illərdə**
**Azərbaycanda kütləvi kitabxanaların vəziyyəti və fəaliyyəti haqqında statistik cədvəl**[1]

| Şəhər və kənd yerləri | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|---|
| Kütləvi kitabxanaların sayı | 4605 | 4794 | 4644 | 4608 | 4522 | 4382 | 4374 |
| Onlarda olan kitab və jurnallar: cəmi milyon nüsxə | 45,3 | 39,3 | 38,9 | 38,6 | 38 | 37,2 | 38,7 |
| Orta hesabla hər 1000 sakinə, nüsxə | 6386 | 5168 | 5063 | 4982 | 4857 | 4708 | 4867 |
| Kütləvi kitabxanalarda oxucuların sayı, min nəfər | 4145 | 3031 | 2962 | 2967 | 2881 | 2899 | 2984 |
| Klub müəssisələrinin sayı | 3680 | 3677 | 3598 | 3544 | 3537 | 3372 | 3354 |
| Şəhər<br>Kütləvi kitabxanaların sayı | 708 | 735 | 725 | 715 | 710 | 658 | 660 |
| Onlarda olan kitab və jurnallar: cəmi milyon nüsxə | 22,5 | 19,2 | 19,2 | 19,1 | 1 9,1 | 18,3 | 19,9 |
| Orta hesabla hər 1000 sakinə, nüsxə | 5931 | 4845 | 4814 | 4762 | 4766 | 4537 | 4922 |
| Kütləvi kitabxanalarda oxucuların sayı, min nəfər | 2393 | 1474 | 1407 | 1429 | 1394 | 1420 | 1511 |
| Klub müəssisələrinin sayı | 529 | 503 | 500 | 495 | 495 | 427 | 432 |
| Kənd кütləvi kitabxanaların sayı | 3897 | 4059 | 3919 | 3893 | 3812 | 3724 | 3714 |
| Onlarda olan kitab və jurnallar: cəmi milyon nüsxə | 22,8 | 20,1 | 19,7 | 19,5 | 18,9 | 18,9 | 18,8 |
| Orta hesabla hər 1000 sakinə, nüsxə | 6911 | 5520 | 5333 | 5219 | 4951 | 4836 | 4811 |
| Kütləvi kitabxanalarda oxucuların sayı, min nəfər | 1752 | 1557 | 1555 | 1538 | 1487 | 1479 | 1473 |

Cədvəldən məlum olur ki, respublikada keçid dövrünün çətinliklərinə baxmayaraq kütləvi kitabxanaların sayı qorunub saxlanmışdır. Bəzi illərdə müəyyən azalmalar olmuşdur ki, bu da kiçik kütləvi kitabxanaların

[1] Müstəqil Azərbaycan.-10 il.- B., 2001.- S. 174.

böyük kitabxanalarla birləşməsi prosesində baş vermişdir. Kitabxanaların fondunda və oxuculara xidmət işinin təşkilində də diqqəti çəkən geriləmə olmuşdur. Bilavasitə xalqa xidmət edən kütləvi kitabxana şəbəkəsinin qorunub saxlanması, şəbəkəni saxlamaq üçün ayrılan dövlət vəsaitinin dayandırılmaması müstəqil Azərbaycan dövlətinin milli mədəniyyətə, kitabçılığa, kitabxana işinə böyük diqqət və qayğısının nəticəsi idi. Halbuki digər MDB dövlətlərində kütləvi kitabxanaların çoxu bağlanmışdır. Ölkədə gedən müharibə, torpaqlarımızın 20 faizinin işğal edilməsi, bir milyon nəfərdən artıq qaçqınların mövcudluğu şəraitində kitabxana şəbəkələrini qoruyub saxlamaq ancaq ümummilli liderimiz Heydər Əliyevin böyük fədakarlığı, kitabxana işinə sonsuz məhəbbəti sayəsində mümkün olmuşdur.

## 2.2. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası müstəqillik illərində

Müstəqillik illərində ulu öndər H.Əliyevin kitabxana işinə diqqət və qayğısının parlaq təzahürünü M.F.Axundov adına Milli Kitabxanaya münasibətində daha aydın görmək olar.

Kitabxanaları mədəniyyətimizin mühüm tərkib hissəsi, xalqımız üçün müqəddəs bir yer, bilik və zəka mənbəyi kimi qiymətləndirən, təhsil almaqda, elmlərə yiyələnməkdə özünü kitaba borclu hesab edən, böyük mütaliəçi və kitab həvəskarı olan H.Əliyevin müstəqil respublikamıza başçılıq etdiyi dövrdə, qısa zaman kəsiyində, vaxtının məhdud olduğu bir şəraitdə-1995-1997-ci illərdə beş dəfə bu kitabxanaya gəlməsi, onun işi ilə, əməkdaşları ilə tanış olması, kitabxanada keçirilən tədbirlərdə iştirak və çıxış etməsi dediklərimizə parlaq sübutdur.

Müstəqillik illərində dövlətin diqqət və qayğısı ilə əhatə edilmiş M.F.Axundov adına Milli Kitabxana başqa müəssisələr kimi keçid dövrünün böyük iqtisadi çətinliklərinin öhdəsindən gəlməyə müvəffəq oldu, öz iş ritmini saxladı, oxuculara xidmət işini uğurla həyata keçirə bildi. Hər şeydən əvvəl ölkənin baş kitabxanası kimi respublikada bütün kitabxanaların elmi-metodik təminat mərkəzi funksiyasını dayandırmadı.

Kitabxana işinin demokratikləşdirilməsi, milliləşdirilməsi, azərbaycanlaşdırılması prosesində yaxından iştirak etməklə bu prosesə başçılıq etdi. Milli kitabxanaçılığımızın təkmilləşməsi və inkişafının elmi-nəzəri əsaslarının yaradılmasına, milli kitabxanaşünaslığın formalaşmasına öz töhfələrini verdi. Kitabxananın kollektivi kitab fondunun yeni ədəbiyyatla komplektləşdirilməsi, nəşr edilən yeni kitabların əldə edilməsi sahəsində də mühüm işlər görməyə, kitabxana işinin təkmilləşməsinə müvəffəq oldu. Doğrudur, 90-cı illərin əvvəllərində bu işin müvəffəqiyyətlə təşkili mümkün olmasa da, buraxılmış nöqsanların sonrakı illərdə aradan qaldırılmasına, yaranmış boşluğun doldurulmasına nail ola bildi.

Müstəqillik illərində kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsində, binaların əsaslı təmir edilməsində, xarici dillərdə ədəbiyyatla komplektləşdirilməsində mühüm işlər görüldü. Xarici sərmayəçilərin köməyi ilə kitabxana binası əsaslı surətdə təmir edildi, oxu zalları yenidən quruldu, yeni oxu zalları açıldı, kitabxana müasir informasiya texnologiyası ilə təmin edildi. Kitabxananın kompüterləşdirilməsi sahəsində ilk mühüm addımlar atıldı. Xarici ölkələrin Azərbaycanda olan səfirlikləri əcnəbi dillərdə ədəbiyyat fondunun təkmilləşməsinə kömək etmək məqsədilə kitabxanaya çoxlu kitablar hədiyyə etdilər.

Ulu öndər Heydər Əliyev M.F.Axundov adına Respublika Kitabxanasına ilk dəfə 1995-ci il iyunun 3-də Azərbaycan Qadınları Milli Komitəsinin, Respublika Kitab Cəmiyyətinin və ABŞ-ın “Stark enterprayz” firmasının təşəbbüsü ilə kitabxanada “Vətənə, dövlətə, xalqa sədaqət andı” miniatür kitabın təqdimat sərgisində iştirak etmək üçün gəlmişdi. Sərgidə XVIII əsrdən bəri müxtəlif dillərdə nəşr edilmiş iki minə qədər miniatür kitab və prezident H.Əliyevin Respublika Dövlət Kitabxanasına bağışladığı 300 dən artıq kitab nümayiş etdirilirdi. Sərginin əlamətdar cəhətlərindən biri də bu idi ki, prezident H.Əliyevin andiçmə mərasimində söylədiyi Vətənə, dövlətə, xalqa sədaqət andı olan nitqin miniatür şəkildə Azərbaycan, rus və ingilis dillərində nəşr edilmiş variantları dövlət başçısına hədiyyə edildi.

Sərgi Azərbaycan "Kitab" Cəmiyyətinin sədri, Azərbaycan kitabının bacarıqlı təbliğatçılarından biri, kitab həvəskarı Zərifə Salahova tərəfindən hazırlanmışdı. Hörmətli prezidentimiz bu sərginin açılışına dəvət edilmişdi. Prezident H.Əliyevin dəvəti məmnuniyyətlə qəbul edib sərgiyə gəlməsi mərasimi daha da şöhrətləndirmiş, onun böyük mədəni əhəmiyyətini ön plana çəkmişdi. Ulu öndər böyük məmnunluqla sərgini seyr etdikdən sonra onun böyük mədəni əhəmiyyətini qeyd etmiş, sərginin təşkilatçılarına öz təşəkkürünü və minnətdarlığını bildirmiş, təntənəli açılış mərasimində dərin, məzmunlu nitq söyləmişdir.

Prezident Heydər Əliyevin çıxışı mətbuatda "Xalqımız Azərbaycanın elmi-mədəni potensialından bundan sonra daha çox bəhrələnməlidir"[1] başlığı ilə çap edilmişdir.

Ulu öndərin mühüm proqram əhəmiyyətinə malik olan bu çıxışında müstəqillik şəraitində kitab və kitabxanaların yeri və vəzifələri müəyyənləşdirilmiş, cəmiyyətin gələcək inkişafında onların roluna xüsusi diqqət yetirilmişdir. Prezidentin bu çıxışı elmi-nəzəri və fəlsəfi baxımdan cəmiyyətdə kitabxanaların statusunu, vəzifələrini və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən böyük elmi-metodoloji əhəmiyyətə malik olan bir sənəddir.

Tarixdən məlumdur ki, dünyanın görkəmli dövlət, elm və mədəniyyət xadimləri kitabxanalar haqqında çox qiymətli, mühüm elmi, mədəni əhəmiyyət kəsb edən fikirlər söyləmişlər. Bu kəlamlar içərisində H.Əliyevin fikirləri öz məzmunu və elmiliyi etibarilə çox yüksəkdə durur. Mübaliğəsiz demək olar ki, H.Əliyevin böyük fəlsəfi mahiyyət kəsb edən bu fikirləri dünya mədəniyyəti tarixində kitabxanaya verilən ən müdrik kəlam, elmi və mədəni əhəmiyyətə malik olan fikirlərdir. H.Əliyev deyir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyət, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.

Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və

---

[1] "Azərbaycan" qəzeti.-1995.- 3 iyun.

ehtiram hissi duyuram. Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm”[1].

Prezidentin kitabxananı müqəddəs bir yer (ilahi qüvvəyə malik, toxunulmaz, sarsılmaz, pak, təmiz bir yer) adlandırması kitabxanaların cəmiyyətin mənəvi tərbiyəsində böyük məsuliyyət daşımasını ön plana çəkir. Həmçinin kitabxanaların mənəviyyat, bilik, zəka mənbəyi kimi xarakterizə edilməsi onun cəmiyyət qarşısındakı elmi, informasiya, mədəniyyət, təhsil və tərbiyə kimi çox mühüm sosial funksiyaları yerinə yetirmək vəzifələrini elmi cəhətdən əsaslandırır. Bütün cəmiyyətlərdə kitab mədəniyyətin silahı, sivilizasiyanın bünövrəsi, biliyin mənbəyi, təhsil, tərbiyə və informasiyanın əsas aparıcı vasitəsi kimi çıxış etmiş, cəmiyyət üzvlərinin biliyə, zəkaya, müdrikliyə, kamala gedən yolunu işıqlandırmışdır. Məhz buna görədir ki, kitabı toplayan, qoruyan, saxlayan, əsrdən-əsrə, nəsildən-nəslə ötürən kitabxanalar həmişə ölkənin mədəni inkişafının əsas göstəricisi hesab edilmişdir. Tariximizin lap qədim qatlarında formalaşan bu ideya ulu öndər Heydər Əliyev tərəfindən yüksək zirvəyə qaldırılmış, ona yeni məna və məzmun verilmiş, bilavasitə xalqın ümumi mədəni səviyyəsi ilə əlaqələndirilmişdir. Bu məsələni şərh edərkən H.Əliyev göstərir: “Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir”. Doğrudan da xalqımızın tarixi keçmişinə, mədəniyyət tarixinə nəzər saldıqda belə bir həqiqət aşkar olur ki, Azərbaycan xalqı tarixən kitaba və kitabxanaya böyük hörmət etmiş, onu qoruyub saxlamışdır. Hər bir azərbaycanlı ailəsində kitab müqəddəs, ilahi qüvvə kimi qiymətləndirilmişdir.

H.Əliyevin çıxışında dünyanın ən qədim peşələrindən biri olan kitabxanaçı peşəsinə böyük hörmət və ehtiram da öz geniş həllini tapmışdır. Müasir dövrdə cəmiyyətə bilavasitə xidmət edən peşələr içərisində kitabxanaçı peşəsi də yüksək bir peşə kimi formalaşmış, böyük kitabxanaçılar ordusu yaranmışdır. Təxmini hesablamalara görə, Azərbaycanda 30 mindən artıq kitabxanaçı fəaliyyət göstərir. Sadə peşə adamları olan kitabxanaçıların müstəqillik şəraitində cəmiyyətin

---

[1] Heydər Əliyev. Müstəqillik yollarında.- B., 1997.III cild.-S.397.

informasiya təminatında, mədəni inkişafında, cəmiyyət üzvlərinin təhsil və tərbiyəsində rolu əvəzsizdir. Cəmiyyətdə gedən bütün prosesləri ardıcıllıqla izləyən, onları dərindən duyan, bu böyük iqtisadi, siyasi və mədəni prosesdə iştirak edən mütəxəssislərin əməyini yüksək qiymətləndirən ulu öndər kitabxanaçı əməyinə yüksək qiymət vermiş, kitabxanaçı peşəsini, kitabxanaçı şəxsiyyətini yüksək qiymətləndirmişdir.

H.Əliyev M.F.Axundov kitabxanası haqqında danışarkən deyir: “Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük ehtiram hissi duyuram, kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm”.

Daha sonra təqdimat mərasimində kitabın nəşrinə sponsorluq etmiş “Stark enterprayz” firmasının vitse-prezidenti Aleksandr Nisanov, Yazıçılar Birliyinin sədri Anar, Jurnalistlər Birliyinin sədri Hacı Hacıyev, kitabxananın direktoru Leyla Qafurova və başqaları H.Əliyevə bu çətin vaxtda imkan tapıb kitabxanaya gəldiyi üçün öz təşəkkürlərini bildirdilər. Azərbaycan dövlətinin başçısı Heydər Əliyev toplananlar qarşısında dərin məzmunlu çıxış etdi. Heydər Əliyevin bu çıxışı tarixi, elmi, fəlsəfi əhəmiyyətə malik bir çıxış idi. Özünün dərin məzmunlu çıxışında ulu öndər kitab və kitabxana işinin böyük mədəni əhəmiyyətini qeyd etmiş, onu ölkəmizin ümumi mədəniyyətinin əsas göstəricisi kimi qiymətləndirmişdir. Bu da ulu öndərin yüksək elmi, mədəni və intellektual səviyyəsi ilə, bəşəri xarakter daşıyan hadisələri düzgün qiymətləndirə bilmək istedadı ilə şərtləşir.

Daha sonra prezidentin çıxışında kitab sərgisinin olduqca böyük mədəni hadisə kimi qiymətləndirilməsi, ilboyu onlarla belə sərgilər təşkil edən kitabxanaların fəaliyyətinə, kitabxanaçı əməyinə verilən yüksək qiymət kimi olduqca səciyyəvidir.

Sərginin təşkilindən danışarkən H.Əliyev deyir: “Buradakı sərgidə Azərbaycanın görkəmli yazıçı və şairlərinin, alimlərinin əsərlərinin miniatür nəşrləri nümayiş etdirilir. Bir daha qeyd edirəm ki, bu əlamətdar hadisədir. Yazıçı və şairlərimiz, alimlərimiz, mədəniyyət xadimlərimiz böyük potensiala malikdirlər. Onlarm indiyədək yazdıqları əsərlər Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və

mədəniyyətimizin, mənəviyyatımızın inkişafında öz rolunu oynamışlar. Ancaq xalqımız Azərbaycanın elm və mədəniyyət potensialından bundan sonra daha çox bəhrələnməlidir. Ona görə də çalışmalıyıq ki, belə yaradıcı adamlar öz fəaliyyətlərini davam etdirsinlər. Onlara kömək etməliyik, şərait yaratmalıyıq”.[1]

Heydər Əliyev miniatür kitablar sərgisinə gələrkən M.F.Axundov adına Dövlət Kitabxanasına bağışlamaq üçün öz şəxsi kitabxanasından 400 kitab gətirmişdi. Çox qiymətli kitablardan təşkil edilmiş bu nadir kitablar kolleksiyası bilavasitə kitabxananın qızıl fonduna daxil oldu.

Kitabları kitabxanaya hədiyyə edərkən H.Əliyev demişdir: “Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan, ayrı-ayrı mövzulara həsr edilmiş kitablardır. Bunlar mənim özümün deyil, müxtəlif müəlliflərin kitablarıdır və kitabxananın böyük xəzinəsində öz yerini tutarlar. Zənnimcə, bu təşəbbüs də davam edə bilər. Elə imkanı olan adamlar kitabxanamızı zənginləşdirmək üçün yəqin ki, ona kitablar bağışlayacaqlar. Bilirəm, bizim bu kitabxananın çox böyük fondu var. Kitabxananın direktoru bu barədə məlumat verdi. Ancaq kitabxana elə bir yerdir ki, gərək daim onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır, bunlar insanlara yeni biliklər, yeni məlumat gətirir. Ona görə də bizim bu mərkəzi kitabxanamız daim yeni-yeni nəşrlərlə təmin olunsun. Vaxtı ilə biz bunu planlı şəkildə edirdik. Dövlət planı var idi, heç kəsi narahat etmədən bu kitabxananı yaradıb inkişaf etdirmişdik və indi də fəaliyyət göstərir. Ancaq gərək indi buraya hər kəs öz payını versin. Azərbaycanın bütün icti-maiyyətini bu xeyirxah işə dəvət edirəm.

Bağışladığım kitabları nümayiş etdirmək istəmirəm. Ancaq bizim üçün müqəddəs olan bir kitabı da bağışlamaq istəyirəm. Bilirsiniz ki, mən Səudiyyə Ərəbistanına rəsmi səfərə getmişdim. Səfər zamanı biz İslam aləminin müqəddəs yerlərini ziyarət etdik və bundan çox məmnun olduq. Orada - İslam dininin mərkəzi olan Məkkədə mənə Quranın nüsxələrini

---

[1] “Azərbaycan” qəzeti.-1995.- 6 iyun.

bağışlamışlar. Çox nəfis şəkildə buraxılmış bu nüsxələrdən birini də Dövlət Kitabxanasına verirəm”.[1]

Dünya kitabxanalarının tarixindən məlumdur ki, sivil ölkələrdə kitabxanalara kitab hədiyyə etmək həmişə dəbdə olan bir hadisə olmuşdur. Görkəmli dövlət, ictimai, elm və mədəniyyət xadimləri kitabxanalara kitablar hədiyyə etməyi mədəniyyətin inkişafına kömək kimi qiymətləndirmişlər.

Heydər Əliyevin bizim zəmanəmizdə bəşəri olan bu ənənəni davam etdirməsi respublikamızda bu mütərəqqi ənənəyə ciddi qayğı ilə yanaşılmasına parlaq bir sübutdur. Ulu öndər bu təşəbbüsü ilə sanki çoxdan unudulmuş bir ənənəni canlandırdı, ona yeni nəfəs verdi. Məhz həmin vaxtdan görkəmli ziyahlarımız dövlət başçısının yolunu davam etdirməyə, M.F.Axundov Kitabxanasına və respublikamızın digər kitabxanalarına kitab hədiyyə etməyə başladılar.

Hazırda bu iş böyük vüsət almış, ümumxalq hərəkatına çevrilmişdir. Nəinki M.F.Axundov adına Dövlət Kitabxanasına, həmçinin digər böyük elmi kitabxanalara, kütləvi kitabxanalara kitablar hədiyyə edən onlarla kitab həvəskarı meydana çıxmışdı.

Təkcə M.F.Axundov adına Respublika Kitabxanasına onlarla ziyalı kitablar hədiyyə etmişdir.

Belə bir faktı qeyd etmək lazımdır ki, indi respublikamızın ziyalıları, alimləri, yazıçıları, incəsənət xadimləri, ümumiyyətlə, kitab müəlliflərinin öz yeni nəşr etdirdiyi kitablarını kitabxanalara hədiyyə verməsi bir dəb halını almışdır. Bu xeyirxah iş kitabxanaların maliyyə çətinliyi ilə üzləşdiyi şəraitdə olduqca böyük əhəmiyyət kəsb edir, xüsusilə paytaxt kitabxanalarının yeni ədəbiyyatla zənginləşməsinə müsbət təsir göstərir.

Müstəqillik illərində respublikamızın ayrı-ayrı elm və mədəniyyət mərkəzlərində, təhsil kitabxanalarında yeni kitabların təqdimat mərasimlərinin keçirilməsi və bu mərasimlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması kitab təbliğinin yeni və ən mütərəqqi forması kimi diqqəti cəlb edir.

---

[1] Heydər Əliyev. Müstəqillik yollarında.-B., 1997. III cild.-S.401.

Mərasimlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin iştirakı, yeni təqdim olunan kitablar haqqında çıxışı belə tədbirlərin daha geniş yayılmasına, bu işin mühüm mədəni əhəmiyyət kəsb etməsinə, geniş kütləvi hal almasına səbəb olmuşdur. Prezidentin yeni kitabların təqdimat mərasimində çıxışları kitabı təhlil etməyin və qiymətləndirməyin ən yaxşı nümunəsi kimi diqqətə layiqdir.

Buna misal olaraq M.F.Axundov adına Dövlət Kitabxanasında 1996-cı il martın 5-də İsraildə çıxan "Heydər Əliyev: siyasi portretin cizgiləri" kitabının təqdimat mərasimində çıxışını,[1] 1997-ci il noyabrın 6-da "Azərbaycan qaçqınları" fotoalbomunun təqdimat mərasimində çıxışını,[2] 1997-ci il noyabrın 22-də Amerikada nəşr edilən "Azərbaycan interneşl" jurnalının beşilliyinə həsr olunmuş mərasimdə çıxışını[3] və s. göstərmək olar.

Heydər Əliyevin milli kitabxanaya münasibəti, həmişə onu diqqət mərkəzində saxlaması, onun işi ilə, vəziyyəti ilə maraqlanması müstəqillik illərində kitabxananın işində böyük dönüşə səbəb olmuş, müstəqil dövlətin milli kitabxanası, Azərbaycan kitabının toxunulmaz kitabsaxlayıcısı kimi onun gələcək inkişaf istiqamətini təmin etmiş, kitabxananın fəaliyyətində, oxuculara xidmət işinin təşkilində, kitabxana işinin demokratikləşdirilməsində mühüm nailiyyətlər əldə edilmişdir.

Keçid dövrünün çətinliklərinə baxmayaraq kitabxana 1993-cü ildən başlayaraq dövlət tərəfindən davamlı olaraq maliyyələşdirilmiş, kitabxanaya ayrılan vəsait ilbəil artırılmışdır. Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana binasının əsaslı təmir edilməsi, yeni oxucu zallarının yaradılması, avadanlıqla, kitabxana işinin texniki vasitələri və kitabxana-informasiya texnologiyası ilə təmin edilməsi oxuculara xidmət işinin keyfiyyətini xeyli yaxşılaşdırmışdı. Hər şeydən əvvəl kitabxana 80-ci illərin axırı-90-cı illərin əvvəllərində böyük maliyyə çətinlikləri ilə üzləşdiyindən və həm ittifaq, həm də respublika məcburi nüsxələrindən məhrum olduğundan fondun

[1] "Azərbaycan" qəzeti.-1996.- 6 mart
[2] "Ponorama" qəzeti.-1997.- 6 noyabr.
[3] "Azərbaycan" qəzeti.-1997.- 22 noyabr

yeni ədəbiyyatla komplektləşdirilməsində ciddi problemlər meydana çıxmışdı. 1993-cü ildən başlayaraq, tədricən bu problem aradan qalxmağa başladı. Bu xüsusilə yeni kitablar almaq üçün dövlət vəsaitinin artırılması nəticəsində mümkün oldu.

Dövlət büdcəsi 1991-ci ildəki 1.569.800 rubldan 2003-cü ildə 37.572.400 manat olmuşdur. Yəni on ildə 36 milyon manata qədər artmışdır. Həmçinin kitabxananın komplektləşdirilməsi üçün ayrı-ayrı təşkilatlar, qabaqcıl, xeyriyyəçi ziyalılar, elm və mədəniyyət xadimləri də yeni kitablar hədiyyə edirdilər. Kitabxananın Azərbaycan dilində olan kitab fondu xeyli zənginləşdi. Bu da müstəqillik illərində nəşriyyatlarımızın Azərbaycan dilin-də kitab nəşrinə geniş yer verməsi ilə əlaqədar idi.

Müstəqillik illərində kitabxananın xarici ədəbiyyat fondu da əsaslı şəkildə çoxalmışdı. Bu işdə respublikamızda fəaliyyət göstərən xarici dövlətlərin səfirlikləri mühüm işlər görür, öz ölkələrinə aid kitablar kolleksiyasını kitabxanaya bağışlayırdılar. Məsələn, ABŞ-ın, Fransanın, İngiltərənin, Almaniyanın, İsveçrənin, Türkiyənin, Rusiyanın və s. səfirlikləri kitabxanaya xeyli kitab hədiyyə etmişdilər.

Ümumiyyətlə, on il müddətində kitabxananın fondu cədvəldə göstərildiyi kimi müntəzəm olaraq artmışdır.

| **İllər** | **Kitabxana fondu** |
|---|---|
| 1993 | 4.426437 |
| 1994 | 4.440514 |
| 1995 | 4.448314 |
| 1996 | 4.450802 |
| 1997 | 4.454017 |
| 1998 | 4.462108 |
| 1999 | 4.470036 |
| 2000 | 4.482986 |
| 2001 | 4.489450 |
| 2002 | 4.495098 |
| 2003 | 4.509511 |

Cədvəldən göründüyü kimi, on il müddətində kitabxanaya 134.829 nüsxə çap məhsulu daxil olmuşdur ki, bundan da 557.774 nüsxəsi kitablardır.

Ölkədə keçid dövrünün çətinlikləri ilə əlaqədar şəhərimizin bir çox kitabxanaları öz fəaliyyətlərini zəiflətdiklərindən, milli kitabxanaya böyük oxucu axını əmələ gəlmişdi.

1993-2003-cü illərdə kitabxananın 2.204.441 min oxucuya xidmət etməsi dediklərimizə əsaslı sübutdur. Müstəqillik illərində milli kitabxana öz işinin məzmununda və formasında böyük dəyişikliklər etmiş, kitabxana işinin demokratikləşdirilməsi, kitab fondundan heç bir məhdudiyyət olmadan bütün oxucuların istifadə etməsi, kitabxanaların ümumaçıq olması prinsipinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün əhəmiyyətli işlər görmüşdür.

Kitabxana müharibə şəraiti ilə əlaqədar aparılan işləri ön plana çəkmiş, gənclər arasında hərbi vətənpərvərlik tərbiyəsinə dair ədəbiyyat təbliğinə xüsusi diqqət yetirmişdir. 1993-2003-cü illərdə kitabxana öz keçmiş ənənələrini davam etdirmiş, oxucuları yeni kitablarla tanış etmək, müxtəlif elm sahələrinə və mövzulara aid daimi və tematik kitab sərgiləri təşkil etməyə xüsusi diqqət yetirmiş, tarixi və mədəni əhəmiyyət kəsb edən belə sərgilərin kütləvi informasiya vasitələrində təbliğinə fikir vermiş, yeni kitabların təbliğində mühüm işlər görmüşdür. Kitabxanda daimi olaraq Azərbaycan dövlətçiliyini, ulu öndər H.Əliyevin əsərlərinin, məruzə və çıxışlarının təbliği üçün xüsusi daimi sərginin təşkili işi kitabxananın uğuru kimi qiymətləndirilməlidir.

Müstəqillik illərində M.F.Axundov adına Dövlət Kitabxanası milli ideologiyanın formalaşmasında və təbliğində də mühüm işlər görmüşdür. Milli ideologiyaya dair təşkil edilən daimi və tematik kitab sərgiləri həmişə oxucuların diqqət mərkəzində olmuş, keçirilən kütləvi tədbirlərdə oxucular həvəslə iştirak etmişlər. Son on ildə kitabxanada 595 dda kitab sərgisinin, onlarla mühazirənin təşkil edilməsi dediklərimizə parlaq sübutdur.

Kitabxana ənənəvi iş üsulları ilə yanaşı olaraq yeni iş forma və üsullarına, görkəmli dövlət, ədəbiyyat və incəsənət xadimlərinin əsərlərinin təqdimat mərasimlərinin keçirilməsinə xüsusi diqqət yetirmişdir ki, bu da kitabxananın oxucularla əlaqəsini daha da möhkəmləndirmiş, yeni kitabm təbliği işini xeyli yaxşılaşdırmış, oxucuların fəallığına səbəb olmuşdur. Müstəqillik illərində 20-yə qədər belə tədbirin keçirilməsi kitabxananın uğurlu fəaliyyətinə sübutdur.

Kitabxana həmçinin geniş elmi-metodik işlər aparmış, kitabxanaların metodik təminatında yaxından iştirak etmişdir. Kitabxananın nəşr etdirdiyi metodik vəsaitlər kütləvi kitabxanaların işinə müsbət təsir göstərmişdir.

Müstəqillik illərində kitabxana 15 metodik müşavirə keçirmiş, 10 adda metodik vəsait və 12 adda metodik məktub hazırlayıb kitabxanalara göndərmiş, rayon MKS-lərinə kömək göstərmək məqsədi ilə 20 dəfə kitabxananın metodistləri ezamiyyətdə olmuşlar. Bütün bunlarla yanaşı, müstəqillik illərində milli kitabxana informasiya cəmiyyətinin kitabxana işinin qarşısına qoyduğu yeni vəzifələrə və tələblərə müvafiq təşkilati və elmi-metodik iş aparmış, kitabxana işini dövrün tələblərinə uyğun yenidən qurmaq üçün mühüm tədbirlər həyata keçirmişdir. Bu tədbirlər içərisində kitabxana işinin kompüterləşdirilməsi kimi çox mürəkkəb bir prosesin həyata keçirilməsi, ilk növbədə kitabxananın özünün avtomatlaşdırılması, yeni informasiya texnologiyası ilə təmin edilməsi, kitabxana xidmətinin informa-siyalaşdırılması üçün müasir avadanlıqlarla təmin edilməsi vəzifələri qoyulmuşdu. Kitabxana ölkədə mövcud olan iqtisadi çətinliyə baxmayaraq bu işi qeyri-dövlət donor təşkilatların köməyi ilə həyata keçirməyi, bu sahədə uğurlar əldə etməyi bacardı. Belə ki, 1998-ci ilin sonunda kitabxana USAID-in vəsaiti hesabına Avrasiya Fondundan udduğu qrant əsasında beynəlxalq İnternet şəbəkəsinə qoşulmuşdur. 1999-cu ilin əvvəlində isə kitabxana yenə də bu fonddan "Kontakt qrantı" udmuşdur. Bu qrant əsasında isə kitabxananın əməkdaşları Tbilisi kitabxanalarında olmuş və Gürcüstan İnformasiya Mütəxəssislərinin Assosiasiyası (AİS) ilə birgə Avrasiyanın əməkdaşlıq proqramı çərçivəsində "Cənubi Qafqaz dövlətlərinin kitabxana və informasiya işçilərinin regional informasiya mərkəzi" adlı layihə işləmişlər. Layihə əsasında kitabxananın 8 nəfər əməkdaşı həmin mərkəzdə Amerika kitabxana və informasiya proqramı çərçivəsində təhsil almışdır.

Kitabxana Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu -ACİ YF (Soros fondu) ilə də geniş əməkdaşlıq işi quraraq, göstərdiyimiz layihələr üzrə qrantlar udmuşdur:

- Beynəlxalq kitab mübadiləsinin genişləndirilməsi;

- Çadır şəhərciklərinə kitab bağlamalarının göndərilməsi;
- Kitabxananın İnternet zalının genişləndirilməsi;
- Kitabxanada Tədris Mərkəzinin yaradılması;
- Regional məlumat-informasiya mərkəzlərinin yaradılması

və s.

Dövlət kitabxanası eyni zamanda bu fondların yardımı ilə müxtəlif beynəlxalq konfransların və seminarların iştirakçısı olmuşdur. Onlardan:

- "Kitabxana Assosiasiyaları - regional əməkdaşlıq" adlı II Cənubi Qafqaz regional kitabxana konfransı (Tbilisi, 1999, aprel).
- UNIMARC və biblioqrafik nəzarət (Tbilisi, 1999, oktyabr; Bakı, 2000, mart)
- BMT-nin materialları üzrə ümumi məlumat axtarışı və informasiyanın əldə olunması (Moskva, 2000, may)
- YUNESKO-nun məlumat bazalarının yaradılması (Bişkek, 2000, oktyabr)
- "Krım-2000" beynəlxalq konfransı (Sudak, 2000, iyun)
- "eIFL-direct" adlı elektron jurnallara həsr olunmuş seminar (Budapeşt, 2001, sentyabr)
- "Krım-2001" beynəlxalq konfransı (Sudak, 2001, iyun) və s.

Bütün bunlarla yanaşı, kitabxanada kadrların yetişdirilməsi məsələsinə də geniş yer ayrılmış, onların yeni texniki vərdişlərinin artırılması məsələlərinə diqqət verilmiş və xarici dil öyrənilməsi üçün kurslar təşkil olunmuşdur. Kitabxana həmçinin öz metodik mərkəz vəzifəsini həyata keçirərək Mədəniyyət Nazirliyinin kitabxana şəbəkəsinə metodik köməklik etmək üçün kadr hazırlığına başlamışdır.

Kitabxananın yanında 2000-ci ildə Tədris Mərkəzi yaradılmış və kütləvi kitabxanaların işçiləri bu mərkəzdə öz ixtisaslarını artırmağa başlamışlar. Bir il müddətində Bakı və Sumqayıtın 35 kitabxanasından 214 nəfər kitabxanaçı həmin kursları bitirmişdir. Tədris Mərkəzi eyni zamanda respublikanın 8 rayonunda (Əli Bayramlı, Şəki, Lənkəran, Şamaxı, Quba, Gəncə, Bərdə, Salyan) "Müasir kitabxanalar və onların vəzifələri" mövzusunda üçgünlük zona seminarı keçirmişdir.

Beləliklə, M.F.Axundov adına Milli Kitabxana müstəqillik illərində H.Əliyevin bilavasitə köməyi və qayğısı sayəsində hər cür çətinliyə sinə gərərək öz şərəfli işini müvəffəqiyyətlə davam etdirmiş, xalqımızın informasiya təminatına, mədəni inkişafına, intellektual yüksəlişinə, elminə, təhsilinə, tərbiyəsinə xidmət etmiş, milli dövlətçiliyimizin möhkəmləndirilməsində, milli ideologiyamızın formalaşmasında və təbliğində yaxından iştirak etmişdir.

Müstəqillik illərində Mədəniyyət Nazirliyinin respublika əhəmiyyətli sahəvi kitabxanaları: F.Köçərli adına Respublika Uşaq Kitabxanası və C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası uşaqlara və gənclərə kitabxana xidmətini müstəqilliyin qarşıda qoyduğu vəzifələrə uyğun daha da təkmilləşdirmiş, yeni iş forma və üsullarından istifadə edərək xidmət işinin keyfiyyətini yaxşılaşdırmağa müvəffəq olmuşlar.

Doğrudur, son on ildə keçid dövrünün çətinliklərini yaşayan, maliyyə təminatı cəhətdən böyük çətinliklərlə üzləşən kitabxanaların yaşaması və fəaliyyət göstərməsi o qədər də asan olmamışdır. Dövlət orqanlarının ciddi qayğısı və kitabxanaçıların böyük səyi nəticəsində kitabxana işini qoruyub saxlamaq mümkün olmuşdur.

## 2.3. F.Köçərli adına Respublika Uşaq Kitabxanası müstəqillik illərində

Xalqımızın gələcəyi olan uşaqlara kitabxana xidmətinin təşkili sahəsində böyük təcrübəsi və xidmətləri olan F.Köçərli adına Respublika Uşaq Kitabxanası da 90-cı illərin əvvəllərində bir çox çətinliklərlə üzləşmişdi. Bu çətinliklər hər şeydən əvvəl kitabxananın maliyyələşdirilməsində və maddi-texniki bazasının möhkəmləndirilməsində özünü göstərirdi. Kitabxananın binasını və ştat vahidlərini saxlamaq işində böyük çətinliklər ortaya çıxmışdı. Kitabxana öz binasından məhrum olmaq təhlükəsi qarşısında qalmışdı. gözü düşən Bəzi işbazlar kitabxananın binasını almaq üçün cidd-cəhd göstərsələr də respublikamızda ulu öndər H.Əliyevin hakimiyyətə gəlməsindən sonra yaranmış ab-hava bu işin qarşısını aldı. Həmçinin Mədəniyyət Nazirliyi kitabxananın ştat vahidlərini saxlamağa müvəffəq oldu.

Hazırda kitabxanada 73 işçi vardır ki, bu da çox yüksək göstəricidir. Görülən tədbirlər kitabxananın kollektivinə öz gələcək işlərini müvəffəqiyyətlə davam etdirməyə imkan yaratdı. 1995-ci ildən başlayaraq kitabxananın maliyyələşdirilməsində dönüş əmələ gəldi. Kitabxanaya ayrılan vəsait ilbəil artırılmağa başladı. Artıq 90-cı illərin axırında kitabxananın büdcəsi 83 milyon 141 manata çatdı. Kitabxana fəaliyyətə başlayandan sonra onun binası əsaslı təmir edilməmişdi. Son zamanlarda kitabxananın binası müasir standartlara müvafiq əsaslı təmir edilmiş, yeni avadanlıqlarla təchiz edilmişdir. Ümumiyyətlə, təmir və avadanlıq üçün 10 milyon manat vəsait xərclənmişdir.

Böyük çətinliklə də olsa kitabxana son on ildə kitab fondunun komplektləşdirilməsi sahəsində mühüm göstəricilərə nail ola bilmişdir. Kitabxana fondu azalmamış, əksinə, yeni kitablarla zənginləşmişdir.

Hazırda kitabxana fondunda 202788 nüsxə kitab vardır. On il müddətində kitabxanaya 13844 nüsxə yeni kitab daxil edilmiş, fondun artımı 209700 nüsxə olmuşdur.

Oxuculara xidmət işinin təşkilində kitabxananın fəaliyyətində böyük keyfiyyət dəyişiklikləri baş vermiş, kitab fondunun dövriyyəsi xeyli yüksəlmişdir. On ildə oxuculara 5 milyon nüsxə kitab verilmiş, bir oxucuya il ərzində verilən kitabların miqdarı yüksələrək 3 nüsxəyə çatmışdır. Oxucuların sayı da ilbəil artmışdır.

Cədvələ diqqət yetirək:

| **İllər** | **Oxucuların sayı** | **Kitab verilişi** | **Qəzet və jurnallar** |
|---|---|---|---|
| 1993 | 2.2000 | 462.000 | 6515 |
| 1994 | 25.000 | 525.000 | 6573 |
| 1995 | 25.000 | 560.780 | 6636 |
| 1996 | 25.000 | 525.000 | 4703 |
| 1997 | 25.000 | 528.706 | 6759 |
| 1998 | 25.000 | 542.779 | 6802 |
| 1999 | 25.000 | 448.140 | 6840 |

| | | | |
|---|---|---|---|
| 2000 | 25.000 | 546.771 | 3450 |
| 2001 | 18.700 | 410.608 | 6974 |
| 2002 | 18.750 | 434.725 | 7050 |
| 2003 | 18.570 | 383.148 | 7124 |
| 2004 | 18.750 | 362.309 | 7203 |

Cədvəldən göründüyü kimi, 90-cı illərin çətinliklərini yaşayan kitabxana öz fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin gələcəyimiz olan uşaqlar haqqında kəlamını rəhbər tutmuş və öz işini bu müdrik kəlamın həyata keçirilməsi uğrunda mübarizəyə həsr etmişdir. Uşaqlara ümumxalq, dövlət qayğısının vacibliyindən danışan H.Əliyev deyir: "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır".[1]

Müstəqillik illərində uşaqlara kitabxana-informasiya xidmətini daha da yaxşılaşdırmağı, yaşadığımız informasiya cəmiyyətinin tələblərinə cavab verməyi qarşısına məqsəd qoyan Respublika Uşaq Kitabxanasının kollektivi kitabxana işinin informasiyalaşdırılması və kitabxananın informasiya texnologiyası ilə təmin edilməsi sahəsində xeyli uğurlar qazanmağa müvəffəq olmuşdur. Hər şeydən əvvəl kitabxanaya xeyli miqdarda kompüter, elektron məlumat vasitələri, texniki avadanlıq alınmış və bu vasitələrin kitabxana işinə tətbiq edilməsi kitabxana işini qismən də olsa kompüterləşdirmişdir. Kitabxananın ən böyük nailiyyətlərindən biri uşaqların istifadəsi üçün kompüter zallarının açılması olmuşdur. 2002-ci ildən kitabxanada təşkil edilən "İnternet sinif" və "Biləyən" multi-media zalında uşaqlar İnternetdən istifadə etməklə, istədikləri materialları əldə etməklə, CD disklərindən istifadə etməyi də mənimsəmişlər.

Müstəqilik illərində kitabxana müharibə şəraiti ilə əlaqədar olaraq uşaqların hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirmiş, bu mövzuda kitabların təbliği və bu mövzuda kütləvi işlərin təşkili ön plana çəkilmişdir. 10 il müddətində oxuculara

[1] Heydər Əliyev: Biblioqrafik məlumat kitabı.-B.- 2003.- S. 150.

hərbi vətənpərvərlik mövzusuna həsr edilmiş 51580 nüsxə kitab verilmiş və 12 mindən artıq kütləvi tədbir keçirilmişdir.

90-cı illərdə RUK uşaq kitabxanalarının elmi-metodik təminatı sahəsində apardığı ənənəvi işini davam etdirmiş, dövrün tələblərinə uyğun yeniləşən elmi-metodik tədbirlər həyata keçirmişdir. Uzun illərdən bəri uşaq kitabxanalarının işinin istiqamətləndirilməsində, oxuculara xidmət prosesinin təkmilləşdirilməsində, kitabxana işinin yeni forma və metodlarının meydana gəlib formalaşmasında mühüm elmi-praktik əhəmiyyətə malik metodik təminat sistemini həyata keçirən kitabxana müasir şəraitlə əlaqədar öz işini yenidən qurmuş, zamanın tələbi olan demokratikləşmə prinsipindən geniş istifadə etmişdir. Kitabxananıb apardığı metodik işlərin inzibati amirlik metodlarından uzaqlaşmasına, daha çevik və tövsiyələr xarakterində olmasına üstünlük verilmişdir.

Müstəqillik illərində metodik işin formaları kimi ezamiyyələrdən, elmi-praktik konfranslardan, zona müşavirələrindən, tövsiyə xarakterli məktublardan, metodik vəsaitlərindən geniş istifadə edilmişdir. Respublikamızda uşaq ədəbiyyatının nəşri problemi ilə əlaqədar nəşriyyat işçilərinin və uşaq yazıçılarının iştirakı ilə keçirilmiş dəyirmi masalar böyük marağa səbəb olmuşdur. Kitabxananın Az.TV-nin uşaq yazıçıları və şairləri haqqında hazırlanmış verilişlərində iştirak etməsi yeni iş üsulu kimi diqqətəlayiqdir.

Kitabxanada vaxtaşırı olaraq uşaq yazıçıları və şairləri ilə görüşlərin keçirilməsi, həmçinin kitab müzakirələrinin təşkili oxuculara xidmətin təşkili işinə böyük köməklik etmişdir.

Kitabxanada təşkil olunan daimi və tematik kitab sərgilərinin yeni formada təşkili də oxucuların marağına səbəb olmuşdur. Bunu qeyd etmək yerinə düşər ki, son on ildə kitabxanada 900-dən çox kitab sərgisi təşkil edilmişdir.

Son on ildə kitabxana rayon mərkəzlərinə 15 ezamiyyə təşkil etmiş, 130-dan çox tövsiyə məktubu göndərmiş, 12 müşavirə keçirmiş, 137 adda metodik vəsait nəşr etdirmişdir.

Müstəqillik illərində kitabxana beynəlxalq əlaqələrini də xeyli genişləndirmiş, xüsusilə Rusiya Federasiyasının Moskva Şəhər Uşaq Kitabxanası ilə əlaqə yaratmış, təcrübə mübadiləsi aparmışdır.

Beləliklə, respublikamız müstəqillik əldə etdikdən sonra F.Köçərli adına Respublika Uşaq Kitabxanasının həyatında tamamilə yeni dövr başlanmış, kitabxananın maddi-texniki bazası möhkəmləndirilmiş, kitabxananın binası əsaslı təmir edilmiş, kitabxana işi demokratikləşdirilmiş, oxuculara xidmət işi keyfiyyətcə yaxşılaşdırılmışdır.

Kitabxana xalqımızın gələcəyi olan uşaqların təlim-tərbiyəsində mühüm mədəniyyət mərkəzinə çevrilmişdir.

### 2.4. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası müstəqillik illərində

Müstəqillik illərində ölkəmizdə kitabxana xidmətinin təşkilində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Respublika Gənclər Kitabxanasının müstəsna rolu olmuşdur. Oxuculara xidmət işinin təşkilində böyük təcrübəsi və ənənələri olan kitabxananın kollektivi müharibə şəraitinə baxmayaraq müstəqilliyi yüksək əhval-ruhiyyə ilə qarşılamış, özünün bütün fəaliyyətini milli dövlətçiliyimizin qorunmasına, möhkəmlənməsinə və təbliğinə həsr etmişdir.

Keçid dövrünün çətinliklərinə baxmayaraq kitabxana kitab fondunu qoruyub saxlamaq, yeni ədəbiyyatla komplektləşdirmək, maddi-texniki bazanı möhkəmləndirmək, kadr tərkibini qoruyub saxlamaq üçün ciddi tədbirlər görməli olmuşdur. Hər şeydən əvvəl kollektiv kitabxananın binasına dikilən yad gözlərlə mübarizə aparmağı bacarmış, nəinki binanı qoruyub saxlamış, hətta onu genişləndirməyə və təmir etməyə müvəffəq olmuşdur.

Kitabxana böyük çətinliklə müntəzəm olaraq öz fondunu zənginləşdirə bilmiş, maliyyə çətinliyinə baxmayaraq fondu yeni ədəbiyyatla komplektləşdirməyə nail olmuşdur. Əgər kitabxananın fondunda 1993-cü ildə 205.350 nüsxə kitab var idisə, 2003-cü ildə 209.700 nüsxə kitab olmuşdur. Yəni 10 il müddətində kitabxanaya 10 min nüsxə ədəbiyyat daxil olmuşdur. Kitabxanaya ayrılan vəsaitin ilbəil

artması yeni kitablar almaq üçün əlverişli şərait yaratmışdır. Əgər kitabxanaya kitab almaq məqsədi ilə 2003-cü ildə 15 milyon manat vəsait ayrılmışdısa, bu rəqəm 2004-cü ildə 55 milyon manata çatdırılmışdır. Bu da yeni kitabların alınmasına müsbət təsir göstərmişdir. Belə ki, 2003-cü ildə kitabxananın fonduna 450 nüsxə kitab daxil olmuşdusa, bu rəqəm 2004-cü ildə 1065 nüsxəyə, 2005-ci ildə isə 2000 nüsxəyə çatmışdır. Kitabxana həmçinin dövri mətbuatla aparılan işə böyük diqqət yetirmiş, 2003-cü ildə 5 adda jurnala və 15 adda qəzetə abunə yazılmışdır.

Müstəqillik dövrü kitabxananın qarşısında gənc nəslin vətən-pərvərlik ruhunda tərbiyəsi vəzifəsini qoymuşdur. Müharibə şəraitində yaşayan ölkəmizdə gənclərin vətən sevgisi, vətəni qorumaq, onu işğalçılardan azad etmək ruhunda tərbiyəsi kitabxananın əsas vəzifəsindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, müstəqillik illərində gənclərin tərbiyəsinə, gənclərlə aparılan işə xüsusi diqqət yetirən ulu öndər Heydər Əliyev gənc nəslin tərbiyəsini xalqın və dövlətin əsas vəzifəsi hesab edirdi. O yazırdı: "Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan və tərbiyə etməkdən ibarətdir".[1]

Kitabxananın kollektivi prezidentin qarşıya qoyduğu bu mühüm vəzifəni yerinə yetirmək üçün oxuculara kitabxana-informasiya xidmətini xeyli yaxşılaşdırmaqla zamanın tələblərinə cavab verəcək forma və üsullardan istifadə etmişlər. Kitabxanada geniş kütləvi işlər aparılmış, kitab müzakirələri, ədəbi-bədii gecələr, mühazirələr, konfranslar keçirilmiş, kitab sərgiləri təşkil edilmişdir. Görkəmli yazıçılar, şairlər və alimlərlə görüşlərə də geniş yer verilmişdir. Belə mədəni-kütləvi tədbirlərə misal olaraq son illərdə M.Füzuliyə, C.Cabbarlıya, M.Müşfiqə, M.Ə.Sabirə, S.Vurğuna, S.Rüstəmə, Ə.Cəfərzadəyə, Bülbülə, Əmir Mustafayevə və s. həsr edilmiş tədbirləri göstərmək olar. Kitabxananın keçirdiyi "Müstəqilliyimiz əbədidir", "20 Yanvar", "Xocalı faciəsi", "Heydər Əliyevin 80 illiyi", "Prezidentin gənclərə qayğısı və gənclərin

[1] Heydər Əliyev: Biblioqrafik məlumat kitabı.- B., 2003.- S. 150.

prezidentə etimadı", "ADR-in yaranmasının 80 illiyi" və s. tədbirlər oxucuların böyük marağına səbəb olmuşdur.

Kitabxananın oxucularla apardığı işin nəticəsində gənclərində kitabxanaya marağı artmış, müntəzəm olaraq oxucuların sayı çoxalmışdır. Əgər 1993-cü ildə kitabxananın 6.435 nəfər oxucusu var idisə, 2003-cü ildə onların sayı 7450 nəfərə çatmışdır. Son on il müddətində kitabxana 250.000 oxucuya xidmət etmişdir ki, bunu da çox mühüm nailiyyət hesab etmək olar. Kitabxananın oxucularının sayının artması, kitabxana işinin keyfiyyətinin yüksəldilməsi kitab verilişinə də müsbət təsir etmiş, kitabxana fondunun dövriyyəsi, oxunan kitabların sayı da ilbəil çoxalmışdır. Əgər kitabxana 1993-cü ildə oxuculara 102.430 min nüsxə kitab vermişdirsə, bunların miqdarı 2003-cü ildə 108.830 min nüsxə olmuşdur.

Kitabxana informasiya cəmiyyətinin qarşıya qoyduğu yeni vəzifələrin öhdəsindən gəlmək, kitabxana işini kompüterləşdirmək, kitabxana-informasiya texnologiyası ilə təmin etmək üçün də xeyli iş görmüşdür. Son zamanlar kitabxanaya kompüterlər alınmış, kitabxana-informasiya texnikası və avadanlıqla təmin edilmiş, oxuculara informasiya xidməti göstərilməyə başlanmışdır. Kitabxananın işçilərinin yeni xidmət formaları ilə tanış edilməsi, onlara yeni texnikanın mənimsədilməsi üçün tədbirlər görülmüş, kitabxananın işçiləri ixtisasartırma kurslarına göndərilmişdir.

Kitabxana müstəqillik illərində elmi-metodik fəaliyyətini də genişləndirməyə çalışmış, yeni iş forma və üsullarına üstünlük vermişdir. Elmi-metodik konfransların, seminarların keçirilməsinə, rayonlara ezamiyyələrin və orada mühazirələrin təşkilinə diqqət artırılmışdır.

Beləliklə, müstəqillik kitabxananın işinə yeni ab-hava gətirmiş, demokratik prinsiplərin tətbiqi, milli ideologiyamızın, azər-baycançılıq, dövlətçilik ideyalarının təbliği üçün şərait yaratmışdır.

## 2.5. Respublika Təhsil Nazirliyinin kitabxana şəbəkəsi müstəqillik illərində

Respublikamızda Mədəniyyət Nazirliyindən sonra ən böyük kitabxana şəbəkəsi Azərbaycan Respublikasının Təhsil Nazirliyinə məxsusdur. Son on ildə ölkəmizdə gedən təhsil islahatları ilə yanaşı, bu şəbəkə ən çox dəyişikliklərə, yeniləşməyə və təkmilləşməyə məruz qalmaqla daha çox inkişafa nail olmuşdur. Təhsil kitabxanalarının şəbəkəsi çoxalmaqla onların qarşısında duran vəzifələrdə də, işinin məzmununda da dəyişiliklər baş vermiş, yeni kitabxanalar şəbəkəsi meydana gəlmişdir.

Ölkəmizdə bazar iqtisadiyyatına keçidlə əlaqədar yeni özəl ali və orta ixtisas məktəbləri də yaradılmışdır. Belə kitabxanalar həm özəl ali məktəblərin, həm də özəl orta ixtisas məktəblərinin, kolleclərin, orta ümumtəhsil məktəblərinin, xarici dillərdə təhsil verən məktəblərin yanında təsis edilmişdir. Zamanın tələbi ilə təşkil edilən kitabxana şəbəkələri respublikamızın təhsil kitabxana şəbəkələrini daha da genişləndirməklə kitabxana işinin zənginləşməsi, təkmilləşməsi, yeniləşməsi üçün şərait yaratmışdır.

Məktəblərdə aparılan təhsil islahatları ilə bağlı dərsliklərin uşaqlara pulsuz verilməsi, onların tədris ilinin axırında kitabxanalarda toplanıb saxlanması, gələcək tədris ilində yenidən şagirdlərə paylanmasının kitabxanalara tapşırılması kitabxana işinin və kitabxanaçıların məktəblərin həyatında yaxından iştirakına gətirib çıxarmışdır. Kitabxana fəaliyyətinin məktəblərin dinamik təhsil fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi formalaşması, təhsil prosesinə daha dərindən nüfuz etməsi üçün şərait yaratmışdır.

Müstəqillik illərində Azərbaycan təhsilində baş verən mütərəqqi proseslər, təhsil islahatlarına müvafiq meydana gəlib formalaşan yeni iş forma və üsulları, məktəb sisteminin milli mədəniyyətimizə, milli mentalitetimizə, milli məktəb təcrübəmizə müvafiq yenidən qurulması dövlətimizin təhsil konsepsiyasının nəticəsidir. Son on ildə təhsil sahəsində həyata keçirilən təhsil islahatları bir daha sübut edir ki, təhsil institutuna xidmət edən orqanlar içərisində təhsil kitabxanaları ən önəmli

müəssisələrdir, məktəblərimizin bir nömrəli laboratoriyasıdır, təhsilin informasiya təminatının əsas bazasıdır.

Hazırda Təhsil Nazirliyinin kitabxana sisteminə 4536 məktəb kitabxanası, 180 orta ixtisas və texniki peşə məktəbi kitabxanası, 6 gənclər yaradıcılıq sarayı kitabxanası və Respublika Elmi-Pedaqoji Kitabxanası daxildir. Məktəb kitabxanalarından 1310-u şəhər məktəblərinin, 3408-i isə kənd məktəblərinin kitabxanalarıdır. Məktəb kitabxanalarının fondunda 26 milyon kitab vardır. Məktəb kitab fondlarında dərsliklər, dərs vəsaitləri ilə yanaşı, elmi, texniki, bədii, pedaqoji, ictimai-siyasi ədəbiyyata da geniş yer verilmişdir. Ancaq məktəb kitabxana fondlarının müasir kitablarla təkmilləşməsinə böyük ehtiyac hiss edilməkdədir. Bunu hər şeydən əvvəl respublikamızda müvəffə-qiyyətlə həyata keçirilən təhsil islahatları tələb edir.

Orta ümumtəhsil məktəblərinin yuxarı siniflərində tədrisin daha intensiv aparılması, təbiət elmlərinin və texniki elmlərin daha dərindən tədris edilməsi, tədris proqramlarının informasiya cəmiyyətinin tələblərinə cavab verməsi üçün daha da təkmilləşməsi məktəblərin birinci laboratoriyası hesab edilən, müasir şəraitdə təhsilin keyfiyyətinə təsir göstərə bilən bir qurum kimi məktəb kitabxanalarının işinin daha da yaxşılaşdırılmasını tələb edir. Bu proses isə öz növbəsində məktəb kitabxanalarının fondunun təkcə dərsliklər, dərs vəsaitləri ilə deyil, şagirdlərlə yanaşı, müəllimlərin də tələbatını ödəyə biləcək ədəbiyyatla zənginləşdirilməsini tələb edir. Məktəb kitabxanalarının təhsil islahatlarında yaxından iştirak etməsi üçün bu kitabxanaların yüksək ixtisaslı peşəkar kadrlarla təmin edilməsinə böyük ehtiyac duyulmaqdadır.

Hörmətli prezidentimiz H.Əliyevin təsdiq etdiyi təhsil islahatları proqramında təhsil problemlərinin tədqiq edilib öyrənilməsi sahəsində ciddi araşdırmalar aparılması, eksperimentlər qoyulması, əsaslandırılmış elmi nəticələr alınıb tədris prosesinə, məktəb quruculuğuna tətbiq edilməsi vəzifələri qarşıda qoyulmuşdur. Bu vəzifələri təhsil kitabxanalarına da şamil etməyə ciddi ehtiyac var. Təhsil kitabxanaların qarşısında informasiya cəmiyyəti şəraitində həll edilməsinə böyük ehtiyac hiss edilən problemlər durur. Təhsil Nazirliynin Təhsil Problemləri

İnstitutu bu problemləri öyrənməyə, təhsil kitabxanalarının gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməyə və tövsiyələr hazırlamağa borcludur.

Respublikamızda müasir şəraitdə intensiv təhsil islahatlarının aparılması təhsil kitabxanalarının işinin yenidən qurulmasını, kitabxana işində ciddi islahatlar aparılmasını tələb edir. Müasir informasiyalaşdırılmış cəmiyyətdə təhsilin informasiya təminatının təşkilində təhsil kitabxanalarının qarşısında çox böyük vəzifələr qoyulmuşdur. Bu vəzifələri ardıcıllıqla, tam və qüsursuz yerinə yetirmək təhsil kitabxanalarının kitabxana-informasiya texnologiyası ilə təmin edilməsini, kitabxana işinin kompüterləşdirilməsini tələb edir.

Bəşəri problem olan cəmiyyətin informasiyalaşdırılması problemi XXI əsrin ən böyük problemi kimi bütün dünyanı düşündürür. Məhz buna görədir ki, 2003-cü ilin dekabrında Birləşmiş Millətlər Təşkilatı Cenevrədə informasiya cəmiyyəti, onun problemləri üzrə dünya sammiti keçirmişdir. Bu sammitdə ölkəmiz yüksək səviyyədə təmsil olunmuş, respublikamızın informasiyalaşdırılmasına, informasiya texnologiyası ilə təmin edilməsinə yüksək önəm verən prezident İlham Əliyev burada iştirak etmiş və ingilis dilində sammit iştirakçılarının böyük marağına səbəb olan nitq söyləmişdir. Müasir informasiya cəmiyyətində kommunikasiya texnologiyasına böyük əhəmiyyət verən prezident İlham Əliyev demişdir: "Son on il müddətində kommunikasiya texnologiyaları bizim gündəlik həyatımızın tərkib hissəsinə çevrilmişdir. Artıq bu gün gündəlik həyatımızı "internetsiz", "e-mailsiz" və qlobal rabitənin imkanları olmadan təsəvvür etmək mümkün deyildir".[1]

Prezident ilk növbədə kommunikasiya texnologiyasının təhsil sistemində, ümumtəhsil məktəblərində təbliğ edilməsini, gənc nəslin informasiya texnologiyasına yiyələnməsini zəruri hesab edir. Bu baxımdan prezidentin 2004-cü il 21 avqust sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları üə təminatı proqramı (2005-2007-ci illər)" olduqca böyük əhəmiyyət kəsb edir. Müstəqil Dövlətlər Birliyində

---

[1] Azərbaycan naminə.- B., 2005.-S.108.

bu problemə dair ilk dəfə qəbul edilmiş bu proqram respublikamızın təhsil sisteminin yeni elmi-texniki əsaslar üzərində qurulmasını təmin etməklə, təhsilimizin keyfiyyətinin yüksəldilməsinə, dünya standartları səviyyəsinə çatdırılmasına səbəb olmaqla ölkəmizdə gənc nəslin yüksək intellektual inkişafını təmin edir. Məhz buna görədir ki, respublikamızda müstəqillik illərində prezident H.Əliyevin bilavasitə qayğısı və göstərişi ilə məktəb kitabxanalarının miqdarı artmış, onların maddi-texniki bazası möhkəmlənmiş, fəaliyyət dairəsi xeyli genişlənmişdir. Hazırda respublikamızda Təhsil Nazirliyi sisteminə daxil olan 5 minə yaxın ümumtəhsil, internat və peşə məktəblərinin kitabxanalarında 5 milyon nüsxədən artıq ədəbiyyat toplanmışdır. Son zamanlar bu kitabxanalar öz ənənəvi xidmət işləri ilə yanaşı, dərslik fon-dunun yaranmasında, saxlanmasında, tənzim edilməsində və yenidən şagirdlərə verilməsində məktəbin pedaqoji kollektivinə böyük köməklik edirlər.

Ölkəmizdə keçirilən təhsil islahatları, təhsil prosesinin daha da təkmilləşməsi və intensivləşməsi məktəb kitabxanalarının qarşısında şagirdlərin sinifdənkənar işlərinin təşkilatçısı kimi olduqca mühüm vəzifələr qoymuşdur. Məhz bu vəzifələrin həlli məktəb kitabxanalarının fəaliyyətinin daha da təkmilləşməsini, informasiya cəmiyyətinin tələblərinə cavab verməsini zəruri edir.

Məktəblərin qarşısında duran vəzifələrin həyata keçirilməsində məktəb kitabxanalarının işlərinin yenidən qurulmasına böyük ehtiyac duyulmaqdadır. Təhsil və tərbiyə prosesində bilavasitə iştirak edən məktəb kitabxanaları təhsilin informasiya təminatındakı işini gündən-günə təkmilləşdirməli, yeni iş forma və üsullarından, kommunikasiya texnologiyasından bacarıqla istifadə etməlidirlər. Bütün bunlar isə məktəb kitabxanalarına elmi-metodik rəhbərliyin daha da təkmilləşməsini, qabaqcıl məktəb kitabxanalarının iş təcrübəsinin ümumiləşdirilməsini və yayılmasını, məktəb kitabxanaları işçilərinin ixtisasının artırılmasını tələb edir. Bu mühüm iş Respublika Elmi Pedaqoji Kitabxanası tərəfindən həyata keçirilir.

## 2.6. Respublika Elmi Pedaqoji Kitabxanası müstəqillik illərində

Respublika əhəmiyyətli bu kitabxana ölkəmizdə təhsilə dair ədəbiyyatı toplayıb saxlamaqla, geniş oxucu kütləsinə kitabxana-informasiya xidməti göstərməklə yanaşı, təhsil kitabxanalarının elmi-metodik mərkəzi kimi də böyük fəaliyyət göstərir.

Kitabxananın kollektivi müstəqillik illərində hər cür çətinliyə baxmayaraq maddi-texniki bazanın möhkəmləndirilməsində, yeni kitabxana avadanlığı, kitabxana informasiya-texnologiyası ilə təminat sahəsində, kitab fondunun ardıcıl olaraq komplektləşdirilməsində, kadr potensialının möhkəm-ləndirilməsində önəmli işlər görməyə müvəffəq olmuşdur. Əgər kitabxananm fondunda 1993-cü ildə 486.532 nüsxə ədəbiyyat var idisə, onların miqdarı 2002-ci ildə 512.090 nüsxəyə çatmışdır. Həmçinin müstəqillik əldə etdikdən sonra ideoloji cəhətdən köhnəlmiş, yeni dövrün tələblərinə cavab verməyən ədəbiyyatın, o cümlədən marksizm-leninizm ədəbiyyatının kütləvi surətdə kitabxanadan çıxarılmasını nəzərə alsaq, onda kitabxananın fondunun yeni ədəbiyyatla təmin edilməsinin intensivliyi aşkara çıxır. Müstəqilliyin on illik müddətində, yəni 1993-2002-ci illərdə kitabxanaya 300 min nüsxədən artıq kitab daxil olmuşdur ki, bu da mühüm göstəricidir.

Kitabxana müstəqillik illərində oxuculara xidmət işini ön plana çəkmiş, pedaqoji ədəbiyyatın təbliği ilə yanaşı, müstəqilliyimizə, milli ideologiyamıza, Azərbaycan tarixinə, soy-kökümüzə, xalqımızın mədəniyyətinə, vətənpərvərlik tərbiyəsinə dair ədəbiyyat təbliğini ön plana çəkmişdir. Məhz buna görədir ki, kitabxananın oxucularının sayı daim artmış, kitab verilişi çoxalmışdır. Rəqəmlərə müraciət edək. 1993-2002-ci illərdə ki-tabxana 135 mindən çox oxucuya xidmət etmiş, onlara 2 milyon nüsxədən artıq kitab vermişdir ki, bu da çox böyük mədəni nailiyyətdir.

REPK respublika əhəmiyyətli təhsil kitabxanası statusuna malik olduğu, təhsil problemlərinə dair aparılan elmi-tədqiqat işlərinə xidmət etdiyi üçün böyük audiovizual və dövri mətbuat fonduna malikdir və dövrün tələblərinə cavab vermək üçün bu

fondu daim təkmilləşdirir. Bu məqsədlə fondda avtoreferatlar, dissertasiyalar, pedaqogika və psixologiya sahələrinə aid elmi-tədqiqat hesabatları, mikrolentlər, mikrofişlər saxlanılır. Kitabxananın dövri mətbuat fondu da xüsusi maraq doğurur. Kitabxanada respublikamızda uzun illərdən bəri nəşr edilən, Azərbaycan pedaqoji fikir tarixində böyük xidmətləri olan "Azər-baycan məktəbi" jurnalının arxivinin toplanıb saxlanılması diqqətəlayiqdir.

Kitabxana oxuculara kitabxana-informasiya xidmətini günün tələbləri səviyyəsində təşkil etmək məqsədi ilə ənənəvi forma və üsullardan bacarıqla istifadə etməklə, öz işində ardıcıl olaraq islahatlar aparır, yeni metodlardan istifadə edir, xidmət prosesini təkmilləşdirir və yeniləşdirir. Kitabxananın son illərdəki nəşriyyat fəaliyyəti də xidmət prosesinin yeniləşdirilməsinə yönəldilmişdir. Kitabxanada aparılan məlumat-biblioqrafiya və informasiya işinin təşkili, biblioqrafik göstəricilərin və tövsiyə siyahılarının tərtib edilməsi və nəşri oxucular üçün çox böyük məlumat mənbəyinə çevrilmişdir. Bu baxımdan kitabxananın müxtəlif mövzulara aid tərtib və çap etdiyi 200-dən artıq biblioqrafik göstərici diqqəti cəlb edir. Elm və təhsilin müxtəlif sahələrinə, ayrı-ayrı elm və maarif xadimlərinə həsr edilmiş belə biblioqrafik vəsaitlər oxucuların elmi araşdırmalarına kömək etməklə, informasiya daşıyıcısı kimi də oxucuların sorğularının ödənilməsində iştirak edir.

Kitabxananın tərtib etdiyi biblioqrafik vəsaitlərin, göstəricilərin və metodik vəsaitlərin mövzusu müasir dövrün problemləri ilə səsləşdiyindən oxucuların böyük marağına səbəb olmuşdur. Bunlara misal olaraq "Dərsdənkənar (sinifdənxaric və məktəbdənkənar) tərbiyə işlərinin təşkili", "Qəzet və jurnalların cari biblioqrafik göstəricisi", "Yeni jurnalların retrospektiv biblioqrafik göstəricisi", "Xalq maarifi, pedaqogika və pedaqoji elmlərə dair göstəricilər, vəsaitlər", "Namizədlik və doktorluq dissertasiyalarının biblioqrafik göstəricisi", "Mehdi Mehdizadə", "Əhməd Seyidov" və s. göstəriciləri göstərmək olar.

Kitabxananın fəaliyyətində məktəb kitabxanalarının metodik təminatı mühüm yer tutur. Öz statusuna görə respublika məktəb kitabxanalarının metodik mərkəzi hesab edilən REPK

böyük elmi-metodik şöbə yaratmışdır ki, bu şöbədə bilavasitə məktəb kitabxanalarının metodik təminat sistemini təşkil edən metodistlər fəaliyyət göstərirlər. Bu metodistlər məktəb kitabxanalarının işini təşkil etmək, qabaqcıl iş təcrübəsini ümumiləşdirib yaymaq, kitabxana işində baş verən yeni iş forma və üsullarını müəyyənləşdirmək, kitabxana işinə dair nizamnamələr, normativ sənədlər tərtib etmək və s. kimi metodik işlər təşkil etmək üçün tədbirlər həyata keçirirlər.

Metodistlər öz işlərini ezamiyyələrə getmək, kitabxanaların işini yoxlayıb onlara kömək etmək, tövsiyələr vermək, yerlərə metodik məktublar, tövsiyələr göndərmək, müşavirələr və konfranslar keçirmək yolu ilə həyata keçirirlər.

Son illər kitabxana göstərdiyimiz metodik işlərin demək olar ki, hamısından müvəffəqiyyətlə istifadə etmiş, məktəb kitabxanalarının işinin yaxşılaşdırılmasında yaxından iştirak etmişdir. Kitabxananın metodistləri son illərdə məktəb kitabxanalarının fəaliyyətini yaxşılaşdırmaq, onların təhsil islahatlarında iştirakını təmin etmək, tədris prosesinin təşkilində, təhsilin keyfiyyətinin yüksəldilməsində yaxından iştirak etmək məqsədi ilə 30-dan çox metodik vəsait və tövsiyə hazırlayıb kitabxanalara göndərmişlər. Kitabxana işinin müxtəlif sahələrinə həsr edilmiş belə metodik vəsaitlər və tövsiyələr kitabxanaçıların təcrübi işinə, peşə səviyyəsinin yüksəldilməsinə kömək etmişdir.

REPK-nın müstəqillik illərindəki fəaliyyətində kitabxana işinin kompüterləşdirilməsi problemi də mühüm yerlərdən birini tutmuşdur. Bu məqsədlə kitabxana respublika məktəb kitabxanalarının vəziyyətini öyrənmək, onların işini istiqamətləndirmək, informasiya texnologiyası ilə təmin etmək üçün tövsiyələr hazırlamaq məqsədi ilə məktəb kitabxanalarının məlumat bazasını yaratmaq təşəbbüsünü irəli sürmüş və həyata keçirmişdir. Kitabxana məktəb kitabxanalarını informasiyalaşdırmaq məqsədi ilə xüsusi layihə hazırlayıb Azərbaycanda fəaliyyət göstərən Açıq Cəmiyyət İnstitutunun Yardım Fonduna təqdim edib, qrant udmuşdur. Layihəyə müvafiq olaraq kitabxanaya kompüter dəsti və digər avadanlıqlar ayrılmışdır. Kitabxana İnternet Şəbəkəsinə qoşulmuş və İnternetdə öz Web səhifəsini yaratmışdır.

Məlumat bazasının yaradılmasını 2002-ci ildə başa çatdıran kitabxana öz daxili imkanları hesabına “İnterbase” proqramı əsasında Təhsil Nazirliyi sistemində ilk dəfə olaraq elektron məlumat bazası yaratmış, məlumat bazasının topladığı materiallar elektron məlumat bazasına daxil edilmişdir. Yaradılmış məlumat bazası əsasında “Təhsil Nazirliyi sisteminə daxil olan ümumtəhsil məktəb kitabxanalarının fəaliyyəti (2003)” adlı məlumat kitabı çap edilmişdir. Bazanın təşkili, məlumat kitabının nəşri məktəb kitabxanalarının fəaliyyətini dərindən təhlil edib öyrənməyə, onların işində olan çatışmazlıqların üzə çıxarılmasına şərait yaratmaqla, məktəb kitabxanalarının gələcək inkişaf istiqamətlərini öyrənməyə imkanlar açır.

Müstəqillik illərində respublikamızda gedən təhsil islahatları, həmçinin informasiya cəmiyyətinin tələbləri təhsil prosesinin informasiya təminatının təşkilində məktəb kitabxanalarının qarşısında olduqca mühüm vəzifələr qoymuşdur. Bu vəzifələr Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramında (2005-2007)” öz əksini tapmışdır.

Bu proqram təhsil işçiləri, o cümlədən təhsil kitabxanaları qarşısında yeni informasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən, dünya təhsil sisteminə inteqrasiya imkanı verən, vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiya cəmiyyəti quruculuğunda müvəffəqiyyətlə iştirak etməyə hazırlamaq, onlara informasiya mədəniyyətini aşılamaq vəzifəsini qoymuşdur. Bu proqramda həmçinin məktəblərdə elektron kitabxanaların yaradılması vəzifəsi də irəli sürülmüşdür.

Bu proqramın həyata keçirilməsində mühüm işlər görən REPK Təhsil Nazirliyinin rəhbərliyi və köməyi ilə xüsusi plan hazırlayıb həyata keçirməyə başlamışdır. Kitabxana hər şeydən əvvəl məktəblərdə elektron kitabxanaların yaradılmasının elmi-metodik əsaslarının hazırlanmasında yaxından iştirak edir.

Müstəqillik illərində hər cür çətinliyə baxmayaraq REPK daim öz işini təkmilləşdirmiş, kitab fondunu işlək vəziyyətdə saxlaya bilmiş, yeni

kitablar əldə etməyə səy göstərmişdir. Kitabxana işinin məzmununda ciddi yeniləşmə, demokratikləşmə və informasiyalaşma prosesi baş vermişdir ki, bütün bunlar da oxuculara xidmət işinin təşkilində yeni keyfiyyət dəyişikliklərinə gətirib çıxarmışdır. Kitabxana təkcə pedaqoji ədəbiyyatın deyil, bütün elm və təhsil sahələrinə dair ədəbiyyatın mərkəzinə çevrilmişdir.

Respublikamızda gedən geniş təhsil islahatlarında yaxından iştirak edən kitabxana məktəb kitabxanalarının işinin təhsil islahatları ilə əlaqələndirilməsinə, islahatların qarşıda qoyduğu vəzifələrlə əlaqədar məktəb kitabxanalarının işinin məzmununda baş verən yeni keyfiyyət dəyişikliklərinin ümumiləşdirilməsinə və yayılmasına böyük metodik köməklik göstərmişdir.

Beləliklə, müstəqillik illərində REPK-nın fəaliyyətinin təhlili və işinin məzmunu bir daha göstərir ki, kitabxana təkcə pedaqoji ədəbiyyatı təbliğ edən sahəvi elmi kitabxana deyil, təhsil problemlərinə xidmət edən böyük elmi-mədəni mərkəzdir.

## 2.7. Ali məktəb kitabxanaları müstəqillik illərində

Müstəqillik illərində respublikamızda ulu öndər Heydər Əliyevin daimi diqqət və qayğısı nəticəsində ali təhsil müəssisələri də böyük inkişaf yolu keçmiş, həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edib təkmilləşmişdir. Dövlət ali məktəbləri ilə yanaşı, ölkəmizin tarixində yeni hadisə olan özəl ali məktəblər şəbəkəsi meydana gəlib formalaşmışdır.

Hazırda respublikamızda 47 dövlət və özəl ali məktəb (filialları ilə birlikdə) vardır ki, bunlardan 25-i dövlət, 22-si özəl ali təhsil müəssisəsidir. Beləliklə, müstəqillik illərində 30 yeni ali məktəb yaradılmışdır. Bunların 5-i dövlət, 25-i isə özəl ali məktəblərdir. Dövlət ali məktəblərində 100 minə qədər tələbə təhsil alır. Müstəqillik illərində ali məktəblərdə təhsil prosesini dünya standartları səviyyəsinə yüksəltmək üçün təhsil islahatları keçirilmiş, üçpilləli təhsilə keçilmiş, ali məktəblərin maddi-texniki bazası möhkəmləndirilmiş, beynəlxalq

əlaqələri genişləndirilmiş, təhsil prosesinin təşkilində uğurlu keyfiyyət göstəriciləri əldə edilmişdir.

Müstəqillik illərində ali məktəblərin kadr potensialının tərkibində baş verən böyük kəmiyyət və keyfiyyət göstəriciləri də dövrün xarakterik cəhətlərindən biri olmuşdur. Rəqəmlərə diqqət yetirək. Əgər 1991-ci ildə dövlət ali məktəblərində müəllimlərin sayı 8541 nəfər idisə, on ildən sonra bu rəqəm 10.786-ya çatmışdır. Müəllimlərin tərkibində elmlər doktorlarının və elmlər namizədlərinin sayı da əhəmiyyətli dərəcədə artmışdır. 1991-ci ildə 581 elmlər doktoru, 4301 elmlər namizədi var idisə, 2002-ci ildə doktorların sayı 668, namizədlərin sayı 5.140 nəfərə çatmışdır.

Müstəqillik illərində dövlət ali məktəbləri ilə yanaşı özəl ali məktəblər şəbəkəsi də meydana gəlib formalaşmışdır. Hazırda respublikamızda 22 özəl ali məktəb fəaliyyət göstərir ki, bunların içərisində öz işini günün tələbləri səviyyəsində quran, müasir təhsil standartlarına cavab verə biləcək səviyyədə yüksəkixtisaslı kadr hazırlayan ali məktəblər az deyildir.

Beləliklə, müstəqillik illərində respublikamızda ali təhsilin inkişafı, yeni dövlət və özəl ali məktəblərin yaranması, ali təhsil kitabxana şəbəkələrinin inkişafı, təkmilləşməsi və yenidən qurulması üçün şərait yaranmışdır. Bu dövrdə 30 ali məktəb kitabxanası yaranmışdır ki, bunlardan 5-i dövlət, 25-i isə özəl ali məktəb kitabxanalarıdır. Sovetlər dövrü ilə müqayisədə son on ildə ali məktəb kitabxanalarının miqdarının üç dəfəyə qədər artması müstəqilliyimizin mühüm mədəni nailiyyətidir. Yeni yaranan ali məktəblərin yanında elmi-tədris və ictimai həyatda yaxından iştirak edən, professor-müəllim və tələbə kontingentinin informasiya tələbatını ödəyən elmi kitabxanaların təşkil edilməsi respublikamızın elmi, mədəni və təhsil həyatında çox mühüm hadisədir. Ölkəmizin təhsil sistemində həmişə xüsusi mövqeyi olan, ali məktəblərin strukturuna daxil olan, onların əsas atributu, birinci laboratoriyası hesab edilən kitabxanalara xüsusi qayğı göstərilmiş, onun inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi, fondunun komplektləşdirilməsi diqqət mərkəzində olmuşdur. Son on ildə ali məktəb kitabxanaları daxili

maliyyə vəsaiti hesabına kitab fondlarını yeni kitablarla ardıcıl komplektləşdirməyə nail olmuş, ali məktəblərin profilinə uyğun sənədlərlə, dövri nəşrlərlə, qəzet və jurnallarla təkmilləşdirmişdir. Respublika ali məktəblərinin beynəlxalq əlaqələrinin genişlənməsi kitabxana fondlarının xarici dildə ədəbiyyatla komplektləşdirilməsi üçün şərait yaratmışdır. Beləliklə, ali məktəb kitabxanalarının fondunda olduqca böyük elmi-mədəni sərvət toplanmışdır. Ali məktəblərin əksəriyyəti son on ildə kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsinə, gözəl təmir edilmiş binalarla, avadanlıqlarla təmin edilməsinə diqqəti artırmışdır. Hazırda respublikamızın ali məktəb kitabxanaları müasir dünya standartlarına cavab verən, oxucuların informasiya təminatını qüsursuz ödəməyə səy göstərən, elmi-mədəni kompleks informasiya mərkəzinə çevrilmişlər. Oxucu tərkibi ilə tanış olarkən məlum olur ki, ali məktəbdə işləyən bütün professor-müəllim heyəti və tələbə kontingenti kitabxanaların oxucularıdır. Son illərdə ali məktəb kitabxanalarında müasir kitabxana avadanlığı, kompüterlər və informasiya texnologiyası ilə təchiz edilmiş, İnternet şəbəkəsinə qoşulmuş geniş qiraət zalları açıldığından, tələbə və müəllimlərin informasiya tələbatının durmadan artdığından oxucuların sayı xeyli çoxalmışdır. Təxmini hesablamalara görə, bir ildə ali məktəb kitabxanalarının daimi oxucularının sayı orta hesabla yarım milyon nəfərdən artıq olmuşdur.

Müstəqillik illərində ali məktəb kitabxanalarından Bakı Dövlət Universitetinin, Neft Akademiyasının, Pedaqoji Universitetin, Texniki Universitetin, Dillər Universitetinin, Memarlıq və İnşaat Uni-versitetinin, Slavyan Universitetinin, Lənkəran Universitetinin, Xəzər Universitetinin, Qafqaz Universitetinin, Beynəlxalq Universitetinin və başqa ali təhsil ocaqlarının kitabxanaları təhsil prosesinə kitabxana-informasiya xidmətinin təşkili sahəsində böyük işləri ilə fərqlənmiş, öncül mövqe tutmuşlar.

Yekun olaraq demək olar ki, müstəqillik illəri ali məktəb kitabxanalarının tərəqqi və inkişaf illəri olmuş, onların tədris prosesinə və elmə xidməti sahəsində böyük keyfiyyət dəyişiklikləri baş vermiş, kitabxana işi ali məktəblərin və tədris prosesinin əsas bazasına çevrilmişdir.

## 2.8. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası müstəqillik illərində

Müstəqillik illərində ölkəmizdə fəaliyyət göstərən ali məktəblər içərisində Azərbaycan ali məktəblərinin bayraqdarı, yüksək elm və təhsil məbədgahı olan Bakı Dövlət Universiteti xüsusi mövqeyə malik olmuşdur. Xalq Cümhuriyyətinin yadigarı olan universitet Azərbaycan Respublikasının ilk ali məktəbi - elm məbədgahı kimi xalqımızın elm, təhsil və mədəniyyət tarixində çox böyük rol oynamış, fəaliyyət göstərdiyi 85 ildə 100 mindən artıq yüksəkixtisaslı kadr hazırlamışdır. Respublikamızın müstəqilliyini böyük fərəhlə qarşılayan BDU son on ildə elm, mədəniyyət və təhsil sahəsində böyük nailiyyətlər əldə etməklə təhsil islahatlarında yaxından iştirak etmiş, milli ideologiyanın formalaşmasında, Azərbaycan dövlətçiliyinin qorunmasında və daha da möhkəmlənməsində ideoloji və siyasi dayaq kimi məşhurlaşmışdır.

Bakı Dövlət Universitetinin respublikamızda elm və mədəniyyətin inkişafında, Azərbaycan xalqı və Azərbaycan Respublikası qarşısında böyük xidmətlərini çox yüksək qiymətləndirən, universitetin məzunu olması ilə fəxr edən ulu öndər Heydər Əliyev demişdir: “Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır».[1]

Bakı Dövlət Universitetini xalqımızm milli iftixarı kimi qiymətləndirən XX əsrin ən böyük görkəmli dövlət xadimi, Azərbaycan xalqınm ümummilli lideri H.Əliyevin özü də Bakı Dövlət Universitetinin böyük məzunu və iftixarıdır. BDU-nun çoxminlik kollektivi Heydər Əliyev kimi böyük şəxsiyyət yetişdirməsi ilə qürur hissi keçirir. H.Əliyevin universitetdə təhsil aldığı illər və respublikaya rəhbərlik etdiyi dövrdəki universitetlə əlaqələri Bakı Döv'lət Universitetinin şanlı tarixinin böyük və əlamətdar bir mərhələsini təşkil edir. Bakı Dövlət Universitetinin tərəqqi və inkişafmın ən məhsuldar dövrü olan son 30 il məhz onun adı ilə, onun şəxsiyyəti ilə qırılmaz tellərlə bağlıdır.

---

[1] Abel Məhərrəmov. Bakı Dövlət Universiteti.-B., 2000.- S. 48.

Məhz buna görədir ki, Bakı Dövlət Universitetinin çoxminlik qədirbilən kollektivi öz böyük məzununun xatirəsini əziz tutur. Bakı Dövlət Universitetinin Böyük Elmi Şurası 1994-cü il 28 oktyabr tarixli geniş iclasmda Azərbaycan xalqı, dövləti, elmi və təhsili qarşısında böyük xidmətlərinə görə Heydər Əlirza oğlu Əliyevə universitetin fəxri doktoru adı verilməsi haqqında yekdil qərar qəbul etmişdir.

Bakı Dövlət Universitetinin yüksəkixtisaslı kadr hazırlanmasında, vətən elminin inkişaf və tərəqqisində əldə etdiyi uğurlarında BDU-nun Elmi Kitabxanasının böyük rolu və xidmətləri olmuşdur.

Universitetin yarandığı ilk günlərdən əsası qoyulan və bu təhsil ocağının rəhbərliyinin, görkəmli alim və müəllimlərin daim qayğısı ilə əhatə olunan bu kitabxana ölkəmizin ilk ali məktəb kitabxanası kimi şərəfli bir yol keçmiş, daim inkişaf edib təkmilləşmiş, qiymətli kitablarla, dövri mətbuatla, elmi nəşrlər və jurnallarla zənginləşmiş, milli elm və mədəniyyətimizin qiymətli xəzinəsinə çevrilmişdir. BDU-nun Elmi Kitabxanası öz fondunun zənginliyinə görə respublikada üçüncü kitabxana hesab edilir. Hazırda böyük tarixi və elmi əhəmiyyət kəsb edən kitabxana fondunda çox qiymətli, nadir elmi və milli əhəmiyyətə malik olan 2 milyon 300 min nüsxədən artıq ədəbiyyat saxlanılır. Bunların da 201.466 nüsxəsini dövri nəşrlər təşkil edir. Bu zəngin kitab xəsinəsində dünyanın bir çox dillərində ədəbiyyatın toplanması onun böyük elmi və mədəni əhəmiyyətindən xəbər verir. Fondun tərkibində 274.913 nüsxə kitab Azərbaycan, 1.682.170 nüsxəsi kitab rus, 93.957 nüsxə kitab isə ingilis, alman, fransız, türk, ərəb, fars və s. dillərdədir. Müstəqillik illərində kitabxananın xarici dillərdə ədəbiyyat fondu sürətlə artmaqdadır.

Böyük tarixi keçmişə, zəngin kitab xəzinəsinə malik olan bu kitabxana mühüm elmi potensiala malik olan BDU-nun professor-müəllim heyətinin və çoxminlik tələbə kontingentinin informasiya tələbatını ödəmək sahəsində böyük tarixi yol keçmiş, oxuculara kitabxana xidmətinin təşkilində zəngin təcrübə qazanmış, mütərəqqi ənənələrin əsasını qoyub möhkəmləndirmişdir.

Müstəqillik illərində kitabxana özünün uzun illərdən bəri yaradıb, formalaşdırdığı təcrübəsini və ənənələrini daha da zənginləşdirmiş, qarşıda qoyulmuş yeni vəzifələrə, Azərbaycan təhsilinin və elminin müstəqil, milli əsaslarla inkişafına, təhsil islahatlarına, Azərbaycançılıq ideyalarına, milli ideologiyaya, dövlətçiliyin möhkəmlənməsinə, ulu öndər H.Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətinin təbliğinə xidmət etmişdir.

Doğrudur, müstəqilliyin ilk illərində ölkədə baş alıb gedən anarxiya, iqtisadi böhran, maliyyə çətinliyi kitabxananın işinə də öz mənfi təsirini göstərmiş, yeni ədəbiyyatın əldə edilməsi, xarici ölkələrdən kitablar, dövri nəşrlər, xüsusilə təbiət və texniki elmlərin inkişafında xüsusi əhəmiyyəti olan referativ jurnalların, informasiya nəşrlərinin alınması tamamilə dayanmışdı. Həmçinin kitabxana SSRİ dağıldıqdan sonra pullu məcburi nüsxələrdən də məhrum edilmişdi. Respublikanın nəşriyyat sistemi tamamilə müflisləşmiş, kitab nəşri işi iflic vəziyyətə düşmüşdü. Bütün bunlar kitabxananın yeni ədəbiyyatla komplektləşdirilməsi işini demək olar ki, dayandırmışdı.

1993-cü ildə H.Əliyevin yenidən hakimiyyətə qayıdışı, respublikada yaranan yeni ab-hava kitabxana işinə də öz müsbət təsirini göstərdi. Son on ildə BDU-nun Elmi Kitabxanası yenidən quruldu, kitabxana işində böyük canlanma baş verdi. Hər şeydən əvvəl kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana işinə ayrılan vəsaitin artırılması, yeni bina və avadanlıqla təmin edilməsi, kitab fondunun yeni ədəbiyyatla, dövri nəşrlərlə, elmi və referativ jurnallarla komplektləşdirilməsi kitabxananın Avropa standartları səviyyəsinə yüksəldilməsinə səbəb oldu.

Kitabxananın fonduna son on ildə 59.297 nüsxə ədəbiyyat daxil olmuşdur ki, bu da əvvəlki illərlə müqayisədə xeyli böyük rəqəmdir. Kitabxana işinin komplektləşdirilməsi işinə dövlət vəsaitindən əlavə universitet rəhbərliyinin ödənişli təhsildən əldə edilmiş gəlirdən xeyli vəsait ayırması fondun zənginləşməsinə böyük şərait yaratmışdır. Müstəqillik illərində yeni kitabların əldə edilməsində BDU-nun Elmi Kitabxanasında meydana gəlib formalaşan yeni ənənə olduqca yüksək mədəni əhəmiyyətə malikdir. Respublikada görkəmli ziyalıların, şairlərin,

yazıçıların, alimlərin nəşr etdirdiyi yeni kitablarından bir neçə nüsxə kitabxanaya hədiyyə verməsi nəticəsində zəngin hədiyyələr fondu yaranmışdır.

1999-cu ildən başlayaraq "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq respublikada nəşr edilən bütün kitablardan 2 məcburi nüsxə alması kitabxana fondunun ardıcıl komplektləşdirilməsi üçün əlverişli şərait yaratmışdır.

Müstəqillik illərində kitabxana fondunda Azərbaycan dilində olan kitabların sayı əhəmiyyətli dərəcədə artmışdır. Son 12 ildə kitabxanaya Azərbaycan dilində 26.827 nüsxə ədəbiyyat daxil olmuşdur. Həmçinin müstəqillik kitabxananın beynəlxalq əlaqələrinin genişlənməsinə də böyük təsir göstərmiş, beynəlxalq kitab mübadiləsi genişlənmişdir. 12 ildə kitabxana 18 xarici ölkənin 52 kitabxanası ilə əlaqə saxlamış, kitabxananın fonduna xarici dillərdə 9.661 nüsxə ədəbiyyat daxil olmuşdur.

Müstəqillik illərində kitabxana fondunun inkişaf dinamikası ilə tanışlıqdan məlum olur ki, 90-cı illərin ilk üç ili istisna edilməklə kitabxana fondu müntəzəm olaraq artmışdır. Hər cür çətinliyə baxmayaraq universitet rəhbərliyinin qayğısı nəticəsində kitabxana fondunun komplektləşdirilməsinə ayrılan vəsait ilbəil artırılmış, yeni kitabların, o cümlədən xarici dildə kitabların, qiymətli elmi jurnalların, həmçinin olduqca baha qiymətə olan referativ jurnalların alınmasına şərait yaradılmışdır. Bütün bunların nəticəsidir ki, kitabxana hər il orta hesabla 10.000 nüsxəyə qədər yeni ədəbiyyat alır. Bu ədəbiyyat içərisində dərsliklər, dərs vəsaitləri ilə yanaşı, elmin müxtəlif sahələrinə dair qiymətli elmi nəşrlər, elmi-tədqiqat əsərləri, monoqrafiyalar mühüm yer tutur. Təkcə 2003-cü ildə elmi kitabxanaya 300 milyon manat qiymətində 9 min nüsxədən artıq ədəbiyyat daxil olmuşdur. Bu kitablar içərisində pulsuz məcburi nüsxələr, hədiyyələr və mübadilə yolu ilə daxil olan kitablar da az deyildir.

Məlumdur ki, respublikamızda böyük elmi potensiala malik Bakı Dövlət Universitetinin ölkəmizdə fundamental elmlərin inkişafında çox mühüm mövqeyi vardır. Bu mövqeyi həmişə əldə saxlamağa səy göstərən universitet elmi-tədqiqat işinin elmi-texniki bazasını möhkəmlətmək,

onun informasiya təminatını aratmaq üçün yeni elmi ədəbiyyatın əldə edilməsinə xüsusi diqqət yetirir.

BDU-nun Elmi Kitabxanası respublikamızda yeganə kitabxanadır ki, Moskva şəhərində nəşr edilən ən bahalı referativ jurnalları (7 adda) almağa müvəffəq olmuşdur. Bu jurnallardan universitet alimləri ilə yanaşı respublikamızın fundamental və texniki elmlər sahəsində çalışan bütün alimlərinin maneəsiz istifadə etməsi elmimizə böyük töhfədir. Oxucularının dövri mətbuata, elmi və referativ jurnallara tələbatının artmasını nəzərə alan universitet rəhbərliyi bu sahəyə ayrılan vəsaiti müntəzəm olaraq artırır. Təkcə 2004-cü ildə dövri mətbuata abunə yazılışına 238 milyon manatdan artıq vəsait ayrılmışdır. Bu vəsait hesabına kitabxana 11 adda qəzetə, 85 adda elmi jurnala abunə yazılmış, mübadilə və hədiyyə yolu ilə 378 adda xarici jurnal almışdır.

Müstəqillik illərində baş verən ən mühüm hadisələrdən biri də kitabxananın beynəlxalq əlaqələrinin genişlənməsidir. Azərbaycanın müstəqil dövlət kimi dünyanın bir çox dövlətləri ilə diplomatik əlaqələr yaratması universitetin beynəlxalq əlaqələrinin genişlənməsinə şərait yaratmış, Bakı Dövlət Universiteti dünyanın qabaqcıl universitetləri içərisində özünə layiqli yer tutmuşdur. Hazırda universitet dünyanın 18 ölkəsi ilə beynəlxalq əlaqələr yaratmışdır və 4 beynəlxalq assosiasiyanın üzvüdür. Bakı Dövlət Universitetinin kitabxanası da müstəqillik şəraitindən müvəffəqiyyətlə istifadə edərək öz beynəlxalq əlaqələrini genişləndirmiş, beynəlxalq kitab və dövri mətbuat mübadiləsini təkmilləşdirmişdir. Kitabxana dünyanın 30-dan artıq ölkəsi ilə əlaqə yaratmışdır, bu ölkələrin 48 universiteti ilə ədəbiyyat mübadiləsi edir. Mübadilə fondunun fəaliyyəti nəticəsində dünyanın qabaqcıl universitetlərinin qiymətli nəşrlərinin əldə edilməsi ilə yanaşı milli nəşrlərimizin xarici universitetlərə göndərilməsi üçün də şərait yaranır. Kitabxana həmçinin ölkəmizdə fəaliyyət göstərən səfirliklərlə, qeyri-dövlət təşkilatları ilə, xüsusilə Soros fondu ilə sıx əlaqələr yaratmış, onların köməyi ilə kitab fondunu xarici dillərdə olan çox qiymətli ədəbiyyat və dövri nəşrlərlə zənginləşdirə bilmişdir. Universitetin əməkdaşlıq etdiyi xarici şirkətlərdən Ekson və Mobil şirkətləri

kitabxananın xarici dəbiyyatla komplektləşməsinə yaxından köməklik göstərmişlər.

Beynəlxalq kitab mübadiləsi bölməsində kitab və jurnallarla yanaşı, “qeyri-maddi daşıyıcılar” (elektron vasitələr) da saxlanılır. Hazırda kitab mübadiləsi şöbəsində elmin müxtəlif sahələrinə dair biblioqrafik və tam mətnli informasiyaları əks etdirən 56 adda 136 ədəd CD-ROM, 20 ədəd DVD-ROM, 30 ədəd disket və 2 ədəd kaset saxlanılır. Mübadilə şöbəsinin müasir avadanlıqla, informasiya texnologiyası vasitələri ilə təmin edilməsi, şöbənin İnternetə qoşulması onun işində mühüm keyfiyyət göstəricilərinin baş verməsinə, böyük oxucu kontingentinə xidmət etməsinə səbəb olmuşdur. Təkcə 2003-cü ildə şöbənin 1150 nəfər oxucuya xidmət etməsi dediklərimizə sübutdur.

Bakı Dövlət Universitetinin müstəqillik illərindəki fəaliyyətində kitabxana işinin yaşadığımız informasiya cəmiyyətinin tələblərinə uyğun kompüterləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. BDU-nun Elmi Kitabxanası respublikamızın kitabxanaları içərisində kompüterləşmə problemini həyata keçirməyə çalışan, informasiya texnologiyasını təcrübəyə tətbiq edən ilk kitabxanalardan biri olmuşdur. Bu mühüm işdə kitabxanaya elmi-nəzəri və sırf praktiki cəhətdən kömək etmək, kitabxana proseslərini kompüterləşdirmək işində 1999-cu ilin martında BDU Kitabxanaçılıq-informasiya fakültəsi Kitabxanaşünaslıq kafedrasının yanında təşkil edilən “Kitabxana işinin kompüterləşdirilməsi” elmi-tədqiqat labo-ratoriyasının çox böyük köməyi olmuşdur. Bu laboratoriyanın yaranması Kitabxanaşünaslıq kafedrasının müdiri, Əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor A.A.Xələfovun adı ilə bağlıdır.

90-cı illərin axırlarında BDU-da tədris prosesinin informasiyalaşdırılması və onun keyfiyyətinin yüksəldilməsi sahəsində böyük islahatlar həyata keçirən gənc rektor, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Abel Məhərrəmov BDU-nun Elmi Kitabxanasının fəaliyyətini modernləşdirmək məqsədilə professor A.A.Xələfovun təşəbbüsünü bəyəndi və belə laboratoriyanın açılmasına nail oldu. Professor A.M.Məhərrəmov laboratoriyanın kitabxananın yanında

fəaliyyət göstərməsini və itabxana işinin kompüterləşdirilməsini həyata keçirməsini məsləhət bildi. Rektorun uzaqgörənliklə istiqamətləndirilmiş bu məsləhəti laboratoriyanın sonrakı fəaliyyətinə və kitabxana işinə mühüm təsir göstərdi.

Qısa müddət içərisində kitabxana işinin kompüterləşdirilməsi sahəsində ilk mühüm nailiyyətlər əldə edildi və laboratoriya kitabxananın ayrılmaz tərkib hissəsinə çevrildi. Laboratoriyanın kompüterlərlə, printerlə və digər informasiya texnologiyası ilə təmin edilməsi kitabxana işinin kompüterləşdirilməsi üçün böyük imkanlar açdı. Laboratoriya 1999-cu ildən başlayaraq kitabxananın kompleks kompüterləşdirilməsini həyata keçirməyə başladı. Respublikamızda ilk dəfə olaraq laboratoriyanın əməkdaşı, fizika-riyaziyyat elmləri namizədi Azad Qurbanov tərəfindən Milli Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) – “Kitabxana-2.0” versiyası yaradılmışdır. Bu AKİS-lər 20 minə yaxın biblioqrafik yazıya, kitabxananın Azərbaycan fondunun informasiya bazasına malik olub, 13 ax-tarış göstəricisi və onların kombinasiyasına görə informasiya axtarışını həyata keçirmək imkanı verir. Bu AKİS-lər 90-cı illərdə qüvvədə olan QOST 7.8.-84 standartı əsasında hazırlanan biblioqrafik məlumat bazasına əsaslandığından, kitabxanaların müasir prob-lemlərini, o cümlədən beynəlxalq biblioqrafik məlumat mübadiləsini təmin etmədiyi üçün laboratoriya 2003-cü ildən etibarən kitabxana elektron kataloqunun yaradılmasında MDB ölkələrinin bir sıra qabaqcıl kitabxanalarında uzun müddət tətbiq olunan “Marc-Sql-5” AKİS-lə işləməyə başlamışdır. Bu proqram elektron kataloqun yaradılmasını, kitabxana fondunun komplektləşdirilməsini və uçotunu, abonement və axtarış-məlumat xidmətini avtomatlaşdırır, İnternet şəbəkəsi vasitəsilə oxucuların uzaq məsafədən on-line ədəbiyyat axtarışı və sifarişini təmin edir. Laboratoriya məlumat bazasının hazırlanmasında UNIMARC və USMARC formatlarından istifadə edir ki, bu da beynəlxalq biblioqrafik məlumat mübadiləsini həyata keçirməyə kömək edir. Laboratoriyanın işçiləri tərəfindən UNIMARC formatı Azərbaycan dilinə tərcümə edilmiş və onun tətbiqinə kömək etmək məqsədilə təsvir nümunələri hazırlanmışdır. Laboratoriyanın əməkdaşları kitabxananın 15

işçisinin ixtisasını artırmaq üçün MARC-Sql-1.5 AKİS-i ilə işləmək üçün təlim keçmiş və UNİMARC (beynəlxalq maşınla oxunan kataloq və kataloqlaşdırma) formatının tətbiqi üsulları öyrədilmişdir. Artıq bu proqram vasitəsilə Elmi Kitabxananın "Nadir kitablar fondu"ndan 7100 adda kitab, "Dissertasiyalar və avtoreferat" fondundan 3170 adda dissertasiya rus dilində, 580 adda Azərbaycan dilində, "Xarici ədəbiyyat və dövri mətbuat" şöbəsində isə bütün elm sahələri üzrə müxtəlif xarici dillərdə (ingilis, alman, fransız və Qərbi Avropa dillərində) 1525 jurnal (son illərin nəşrləri), texniki elm sahələrinə aid rus dilində 13.768 jurnal, Azərbaycan dilində 976 jurnal elektron kataloqa daxil edilmiş və oxucuların istifadəsinə verilmişdir. Həmçinin son bir ildə laboratoriyanın işçiləri rus dilində kitabxananın sis-temli kataloqunda kimya elminə aid olan 6000 adda kitabı elektron kataloqa daxil etmişdir. Hazırda biologiyaya aid kitablar elektron kataloqa daxil edilməkdədir. Hazırda kitabxananın fondunda Azərbaycan dilində olan bütün kitablar, həmçinin nadir xarici ədəbiyyat və dövri mətbuat fondu bütünlüklə elektron kataloqa salınmışdır. 90-cı illərin axırlarından başlayaraq kitabxa-naya yenidən daxil olan kitablar və dövri nəşrlər də elektron kataloqa salınır. Kitabxananın oxucularına xidmət üçün elektron xidmət bölməsi yaradılmış və bu bölməyə xüsusi işçilər ayrılmışdır. Oxucular kitabxananın elektron xidmətindən müvəffəqiyyətlə istifadə edirlər. Bu məqsədlə oxuculara elektron xidmət göstərmək üçün xüsusi kompüterlər ayrılmışdır. Həmçinin oxucular kitabxanada yaradılmış İnternetin www.bsu.az saytı vasitəsi ilə elektron kataloqdan istifadə etməklə öz sorğularına cavab tapa bilirlər.

Kitabxana kompüterləşdirilmə sahəsində aparılan işləri müntəzəm olaraq təkmilləşdirir. 2005-ci ildə kitabxana kompüterləşdirmə işini kompleks aparmaq məqsədi ilə beynəlxalq təcrübədə sınaqdan keçmiş, praktik cəhətdən olduqca əhəmiyyətli İRBİS proqramını tətbiq etməyə başlamışdır. Bu pro-qram tətbiq edilməzdən qabaq proqramçılar tərəfindən öyrənilmiş, kitabxanada indiyə qədər tətbiq edilən proqramlara uyğunlaşdırılmışdır. Bu proqramın tətbiqi kitabxananın bütün

fəaliyyətini, bütün şöbələrinin işini kompleks halda kompüterləşdirməyə, qısa müddətdə kitabxana işini müasir tələblər səviyyəsində qurmağa imkan yaratmışdır.

Kitabxana işinin kompüterləşdirilməsi sahəsində görülən tədbirlər kitabxananın informasiyalaşdırılmasını təmin etməklə yanaşı, onun bütün fəaliyyətinə müsbət təsir göstərmiş, oxucuların informasiya təminatının ödənilməsində yeni mərhələ, elektron mərhələsi başlanmışdır. İndiyə qədər kitabxana xidmətində istifadə edilən ənənəvi üsullardan fərqli olaraq elektron xidməti oxucuların tələbatının ödənilməsini daha da intensivləşdirmiş, daha məzmunlu, daha keyfiyyətli xidmət prosesinin formalaşmasına səbəb olmuşdur.

Müstəqillik illərində kitabxananın fəaliyyətində baş verən yeniliklər, aparılan islahatlar, elektron vasitələrlə xidmət oxucularla işi kökündən yaxşılaşdırmış, kitabxana xidməti prosesində əhəmiyyətli keyfiyyət dəyişilikləri baş vermişdir. Bütün bunlar son illərdə oxucuların sayının artmasına səbəb olmuşdur. Əgər kitabxananın 1991-ci ildə 4.500 oxucusu var idisə, 2003-cü ildə onların sayı 14.207 nəfər olmuşdur. Son 12 ildə kitabxana 530.849 oxucuya xidmət etmiş, onlara 17.207.034 nüsxə ədəbiyyat verilmişdir. Bütövlükdə kitabxananın professor-müəllim heyətinin 70 faizindən çoxu, tələbələrin isə 91,2 faizi kitabxana xidməti ilə əhatə edilmişdir.

Müstəqillik illəri Bakı Dövlət Universitetinin tarixində intibah dövrü kimi xarakterizə edilir. Bu dövr 1999-cu ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə rektor təyin edilmiş AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor A.M.Məhərrəmovun adı ilə bağlıdır. Məhz XX əsrin son illəri və XXI əsrin əvvəllərində təhsilin, elmin, mədəniyyətin inkişafı sahəsində universitetin qazandığı nailiyyətləri onilliklər boyu əldə edilmiş nailiyyətlərlə müqayisə etmək olar. Son illərdə Bakı Dövlət Universitetinin maddi-texniki bazası görünməz dərəcədə möhkəmləndirilmiş, binası demək olar ki, yenidən qurulmuş, geniş təmizlik işləri aparılmış, idman kompleksi, örtülü stadion, dünya standartlarına cavab verən üzgüçülük hovuzu tikilib istifadəyə verilmiş, böyük mədəniyyət və istirahət parkını xatırladan universitet şəhərciyi salınmışdır.

Universitetin tədris və elmi laboratoriyaları yenidən qurulmuş, cihazlarla, texniki vasitələrlə, müasir elm və təhsilin tələbatına cavab verən avadanlıqlarla təchiz edilmişdir. Həmçinin universitetin yeni binasında 1500 kv metrlik sahəsi olan nəşriyyat yaradılmış, nəşriyyat üçün 1 milyon 500 min ABŞ dolları qiymətində yeni mətbəə avadanlığı - çap maşınları, elektron cihazlar alınmışdır. Müstəqillik illərində Bakı Dövlət Universitetinin bilik xəzinəsi olan Elmi Kitabxanası da diqqətəlayiq uğurlar qazanmışdır. Tədris prosesinin təşkilində və elmi-tədqiqat işlərinin aparılmasında, professor-müəllim heyətinin və tələbələrin informasiya təminatında kitabxana işinə böyük qiymət verən, onu universitetin bir nömrəli laboratoriyası adlandıran professor Abel Məhərrəmov kitabxananın maddi-texniki bazasını möhkəmləndirmək, respublikamızın və dünyanın böyük elmi kitabxanaları sırasına çıxarmaq üçün mühüm tədbirlər həyata keçirmişdir. Kitabxanaya yeni bina ayrılmış, onun böyük korpusları əsaslı təmir edilmiş, qiymətli avadanlıq və yüksək informasiya texnologiyası ilə təmin edilmiş, kitabxana işçilərinin peşəkarlığının artırılması və sosial vəziyyətinin yaxşılaşdırılması üçün əhəmiyyətli tədbirlər görülmüşdür. Oxuculara xidmət işini yaxşılaşdırmaq, onların durmadan artan tələbatını ödəmək məqsədi ilə kitabxananın maliyyə vəziyyəti daimi olaraq yaxşılaşdırılmışdır. Kitabxana fonduna yeni ədəbiyyat, elmi jurnallar və referativ jurnallar almaq üçün istənilən qədər vəsait ayrılmışdır.

Kitabxananın sənəd-informasiya resursları yaxın keçmişlə müqayisədə 300-400, bina sahəsi 400 dəfəyə qədər artmışdır. Kitabxananın kadr tərkibi əsaslı şəkildə yaxşılaşdırılmış, yüksək-ixtisaslı peşəkar kitabxanaçı kadrlarla təmin edilmişdir.

Hazırda universitet Elmi Kitabxanası 4000 kvadrat metr sahəsi olan 3 binada (əsas korpusda, birinci və ikinci tədris korpuslarında) yerləşir. Əsas binada yerləşən kitabxananın girişi, sərgi salonu, dövri mətbuat fondu və professor-müəllimlər üçün oxu zalı, beynəlxalq kitab mübadiləsi fondu və onun oxu zalı, birinci tədris korpusunda humanitar fakültələr kitabxanası və oxu zalı, ikinci tədris korpusunda Şərq ədəbiyyatı fondu və qiraət zalı yerləşmişdir. Bütün kitabxana və oxu zallarına son dəbdə

Avropa standartlarına uyğun dizayn verilmiş, yeni kitabxana mebelləri ilə təmin edilmişdir. Bütün zallarda kitabxanaçıların və oxucuların istifadəsi üçün kompüterlər qoyulmuşdur. Bütövlükdə kitabxananın irili-xırdalı 14 oxu zalı vardır ki, bunlardan da eyni vaxtda min nəfərdən çox oxucu istifadə edə bilər. Hər bir oxu zalının ayrıca fondu və elektron kataloqu olduğundan zallar həmişə oxucu ilə dolu olur.

Beləliklə, müstəqillik illərində universitetdə aparılan intensiv quruculuq işləri ona respublikamızda böyük nüfuz qazandırmış, beynəlxalq aləmdə isə dünya standartlarına cavab verən öncül bir universitetə, xalqımızın milli iftixarına çevirmişdir.

## 2.9. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində

Müstəqillik illərində Azərbaycan elminin baş qərargahı olan Azərbaycan Milli Elmlər Akademiyası xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi, prezident Heydər Əliyevin rəhbərliyi və qayğısı sayəsində böyük inkişaf və tərəqqi yolu keçmiş, mühüm elmi nailiyyətlər əldə etmişdir.

Heydər Əliyev doğma respublikamıza 30 illik rəhbərliyi dövründə daim Azərbaycan elminin hamisi olmuş, onun inkişafına böyük təkan vermiş, xalqımızın inkişafını respublikamızın dünya ölkələri içərisində qabaqcıl mövqelərə çıxmasının qarantı hesab etmişdir. Tarixi faktdır ki, müstəqilliyimizin ilk illərində səriştəsiz AXC-Müsavat hakimiyyəti dövründə AMEA-nın başının üstündə bir qara kabus dolaşmaqda idi. Akademiyanın bağlanmaq təhlükəsi var idi. Akademiya bu qara kabusdan məhz 1993-cü ildə - ulu öndər Heydər Əliyev respublika rəhbərliyinə gələndən sonra xilas oldu.

Azərbaycan elminin baş qərargahını milli dövlətçiliyimizin əsas atributlarından biri kimi qiymətləndirən ulu öndər nəinki AMEA-nı qoruyub saxladı, həmçinin 15 may 2001-ci ildə onun gələcək inkişafı

üçün çox böyük milli dəyərlərə malik olan tarixi fərman imzaladı. Akademiyanın həyatında çox mühüm bir hadisə olan bu fərman onun taleyini həll etməklə gələcək inkişaf istiqamətlərini və statusunu müəyyənləşdirdi.

Fərmanda deyilir: "Azərbaycan Respublikasında milli elmi potensialın qorunub saxlanması və gücləndirilməsi, xalqımızın tarixi və mədəniyyəti ilə bağlı araşdırmaların müasir standartlar səviyyəsində aparılmasının təmin edilməsi, fundamental elmi-tədqiqatların əlaqələndirilməsi, işinin təkmilləşdirilməsi, elmi fəaliyyətin həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Elmlər Akademiyasının ali dövlət elmi təşkilatı olduğu nəzərə alınmaqla Azərbaycan Milli Elmlər Akademiyası adlandırılsın".[1]

Azərbaycan Elmlər Akademiyasına Milli Akademiya statusunun verilməsi onu ümumdövlət əhəmiyyətli bir müəssisəyə çevirdi. Bu fərmanla əlaqədar akademiyanın yeni demokratik nizamnaməsi təsdiq edildi. Nizamnaməyə görə, Milli Elmlər Akademiyası Azərbaycan elminin baş qərargahı, azərbaycanşünaslığın mərkəzi olmaqla yanaşı, respublikada aparılan elmi tədqiqatların əlaqələndirmə mərkəzinə çevrildi.

Azərbaycan Milli Elmlər Akademiyasının strukturunda akademiyanın Mərkəzi Elmi Kitabxanası akademiya elminin informasiya mərkəzi kimi mühüm yer tutur. Respublika miqyasında təbiət, texniki və humanitar elmlər üzrə ən iri kitabxana sayılan AMEA-nın Mərkəzi Elmi Kitabxanası dünya xalqlarının 50-dən çox dilində 3 milyon nüsxədən artıq ədəbiyyat saxlayan zəngin, universal kitab fonduna malikdir. İlk özəyi 1923-cü ildə Azərbaycanı Tədqiq və Tətöbbə Cəmiyyəti tərəfindən qoyulmuş bu möhtəşəm kitab məbədi 80 ildən artıq bir dövr ərzində böyük tərəqqi və inkişaf yolu keçərək Azərbaycan elminin və mədəniyyətinin qızıl fonduna çevrilmişdir. Ölkəmizdə elmin inkişafında, ayrı-ayrı elm sahələrinin yaranıb formalaşmasında, yüzlərlə elmi kadrların yetişməsində əvəzsiz rol oynayan bu elm məbədgahı müstəqillik illərində də böyük inkişaf yolu keçmiş, öz fəaliyyətini daha

---

[1] "Azərbaycan" qəzeti.- 2001.-16 may.

da təkmilləşdirmiş, yeniləşdirmiş, milliləşdirmişdir. Müstəqillik illəri kitabxananın həyatında yeni mərhələnin başlanğıcı, yenidənqurma və böyük islahatlar illəri kimi xarakterizə olunur. Doğrudur, müstəqilliyin ilk illərində akademiyanın başının üstünü almış qara buludlar kitabxananın işinə də mənfi təsir göstərmiş, kitabxananın maddi-texniki bazası zəifləmiş, kitab fondunun komplektləşdirilməsi işində ciddi problemlər meydana çıxmış, beynəlxalq əlaqələr pozulmuş, kitabxananın maliy-yələşdirilməsi ciddi çətinliklərlə üzləşmişdi. Bütün bunlar kitabxananın fəaliyyətinə mənfi təsir göstərmiş, oxuculara xidmət işinin zəifləməsinə gətirib çıxarmışdı.

Xoşbəxtlikdən bu proses uzun sürmədi. Azərbaycan xalqının təkidli çağırışı və tələbi ilə 1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması bu mənfi proseslərin qarşısını aldı. Ulu öndərin ölkənin siyasi, iqtisadi və mədəni həyatında reallaşdırdığı tədbirlər nəticəsində akademiya ilə yanaşı, kitabxananın işində də böyük canlanma baş verdi. Hər şeydən əvvəl kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, maliyyələşdirilməsi, beynəlxalq əlaqələrinin bərpası və genişləndirilməsi, oxuculara xidmət işinin yaxşılaşdırılması üçün tədricən tədbirlər görülməyə başladı. Doğrudur, ilk illərdə həyata keçirilən tədbirlər kifayətləndirici olmasa da, kitabxananın həyatında baş verən durğunluğu dayandırdı, inkişaf üçün, gələcək perspektivlər üçün zəmin hazırladı, kitabxananın kollektivində böyük ruh yüksəkliyi yaratdı.

Müstəqillik illərində kitabxananın fəaliyyətində baş verən böyük dəyişikliklər, aparılan əhəmiyyətli islahatlar dediklərimizi bir daha təsdiq edir. Müstəqillik illərində kitabxananın qarşısına çıxan ən böyük çətinlik kitab fondunun komplektləşdirilməsi sahəsindəki problemlər idi. Beynəlxalq əlaqələrin pozulması, Moskvadan alınan məcburi nüsxələrin dayandırılması, respublikada kitab nəşri sahəsində baş verən böhran, az tirajla nəşr edilən kitabların görünməz dərəcədə bahalaşması, həmçinin kitabxananın maliyyə imkanlarının azlığı kitabxananın yeni ədəbiyyatla komplektləşdirilməsini iflic vəziyyətə salmışdı. Belə vəziyyət özünü ilk növbədə elmi-informasiya qıtlığında göstərirdi. Maliyyə çatışmazlığına görə kitabxana fondunun yeni ədəbiyyatla təkmilləşməsi işində ciddi boşluqlar yarandı, elmi tədqiqatların operativ informasiya təminatı dayandırıldı. Kitabxananın maddi təchizatı zəiflədi, beynəlxalq əlaqələri olduqca məhdudlaşdı. Bütün bunlar elmi işçilərin Mərkəzi Elmi

Kitabxanadan istifadə intensivliyini zəiflətdi ki, bu da öz növbəsində Milli Elmlər Akademiyasında aparılan elmi tədqiqatların kə-miyyət və keyfiyyət göstəricilərinə mənfi təsir göstərməyə bilməzdi. Göstərilən çətinlikləri aradan qaldırmaq üçün kitabxana müxtəlif vasitələrdən, ayrı-ayrı müəlliflərin köməyindən, sponsorlardan, qrantlardan istifadə edərək mühüm tədbirlər həyata keçirməyə, tədricən kitab fondunun yeni ədəbiyyatla təmin olunmasına nail olmuşdur. Bu işdə akademiyanın böyük alimlər ordusunun rolu danılmazdır.

Müstəqillik illərində kitabxana fondunun vəziyyətini əks etdirən cədvələ nəzər salaq.

| **İllər** | **Kitab fondu** | **İllər** | **Kitab fondu** |
|---|---|---|---|
| 1990 | 1737523 | 1998 | 1891684 |
| 1991 | 1750535 | 1999 | 2004098 |
| 1992 | 1859885 | 2000 | 2001362 |
| 1993 | 1869096 | 2001 | 2060432 |
| 1994 | 1873148 | 2002 | 2074916 |
| 1995 | 1873348 | 2003 | 2087980 |
| 1996 | 1872520 | 2004 | 2099691 |
| 1997 | 1881566 | | |

Cədvəldən göründüyü kimi, hər cür çətinliyə baxmayaraq kitabxananın fondu nəinki azalmış, hətta 1990-cı illə müqayisədə 362.168 nüsxə artmışdır. Hazırda ölkəmizdə təbiətşünaslıq, sosial-iqtisadi, ictimai, humanitar, siyasi və texniki elm sahələri üzrə ən zəngin kitabxana olan AMEA-nın Mərkəzi Elmi Kitabxanasında dünya xalqlarının 50 dilində 30 milyondan artıq kitab vardır. Respublika elminin qızıl fondu hesab edilən bu kitabxanada Azərbaycan, rus, türk, ərəb, fars, ingilis, alman, fransız, ukrayna və s. dillərdə xronoloji əhatəsi XII-XX əsrlərə aid olan çox qiymətli və nadir kitablar saxlanılır. Kitab fodu dillərə görə bu cür bölünür: Azərbaycan dilində 100 min, rus dilində 2 milyon, Qərbi Avropa dillərində 75.000, nadir və qiymətli nəşrlər fondunda 6.000 nüsxədən

artıq kitab vardır. Şərq dillərində ədəbiyyat fondu nadir kitabların sayına görə respublikada ən zəngin fond hesab edilir. Bu fondda nadir elmi kitablar, məcmuələr, dövri mətbuat materialları, həmçinin arxiv fondu mühafizə olunur. Kitabxana təbiətşünaslıq və texnika elmləri üzrə depozitar kitabxana statusuna malik olduğundan burada saxlanılan kitablar içərisində təbiətşünaslıq və texnikaya aid ədəbiyyat mühüm yer tutur.

AMEA Mərkəzi Elmi Kitabxanası akademiya kitabxana şəbəkəsinin elmi-metodik mərkəzi olduğundan akademiyanın bütün elmi-tədqiqat institutları kitabxanalarının işinin istiqamət-ləndirilməsində, ilk növbədə isə onların fondlarının təkmilləşməsində yaxından iştirak etmişdir. Müstəqillik illərində kitabxana öz fondunun komplektləşməsi ilə yanaşı, elmi-tədqiqat institutlarının kitab-xanalarının komplektləşdirilməsi işinə böyük qayğı göstərmiş, kitabxana fondlarını dinamik, oxucu tələblərinə cavab verən durumda saxlamağa müvəffəq olmuşdur.

Hazırda Mərkəzi Elmi Kitabxananın metodik rəhbərlik etdiyi 27 elmi-tədqiqat institutunun yanında fəaliyyət göstərən filial kifabxanalarında elmin müxtəlif sahələrinə dair 1.354.902 nüsxə kitab oxucuların istifadəsindədir. Müstəqillik illərində Mərkəzi Elmi Kitabxananın və institut kollektivlərinin köməyindən faydalanan filial kitabxanaları öz fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirmiş, institutların elmi-tədqiqat planlarının həyata keçirilməsində yaxından iştirak etmiş, elmi-tədqiqatın informasiya bazası rolunu oynamışlar.

Müstəqillik illərində kitabxana fondu yerli nəşrləri və xarici nəşrləri satan kitab mağazaları, ayrı-ayrı müəlliflərin hədiyyələri, beynəlxalq kitab mübadiləsi və nəhayət, 1999-cu ildən sonra "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq respublikada nəşr edilən kitablardan 2 nüsxə pulsuz məcburi nüsxə almaq yolu ilə komplektləşməyə başlamışdır. Kitabxananın respublikada nəşr edilən ədəbiyyatdan pulsuz məcburi nüsxələr almaq hüququ olan kitabxanalar qrupuna aid edilməsi onun milli ədəbiyyatla ardıcıl və tam

komplektləşməsi işini təmin etməklə milli ədəbiyyat fondunun inkişafı üçün böyük imkanlar açmışdır.

Müstəqillik illərində respublikamızda kitabxana fondlarının komplektləşdirilməsində görkəmli ziyalılar, alimlər, yazıçılar və mədəniyyət xadimləri xüsusi fəallıq göstərmişlər. Onların öz yeni kitablarını və kitab kolleksiyalarını kitabxanalara hədiyyə etməsi nəticəsində yeni ənənə meydana gəlib formalaşmışdır. Bu işdə AMEA-nın Mərkəzi Elmi Kitabxanası daha fəal mövqe tutmuş, yüzlərlə müəllifdən hədiyyə olaraq çoxlu sayda kitablar əldə etmişdir. Həmçinin kitabxana akademiklərdən M.Ə.Useyinovun (1997), İ.D.Mustafayevin (1999) və xalq yazıçısı M. İbrahimovun (1999) şəxsi kitab kolleksiyalarını hədiyyə olaraq almışdır. Yeni alınan şəxsi kitabxanalardan başqa kitabxanada B.N.Zaxoderin, Y.E.Bertelsin, Y.A.Belyayevin, Y.A. Paxomovun, Z.Hüseynzadənin, Niyazinin,və başqa elm və mədəniyyət xadimlərinin şəxsi kitabxanaları saxlanılır. Sevindirici haldır ki, kitabxana son illərdə oxucuların böyük tələbatı olan bu qiymətli şəxsi kitabxanaların kataloqunu hazırlamağa baş-lamışdır. Artıq B.N. Zaxoderin, M.Ə.Useyinovun, İ.D.Mustafayevin, Y.E. Bertelsin şəxsi kitabxanalarının kataloqu oxucuların istifadəsinə verilmişdir.

Kitabxana, həmçinin 1994-cü ildən başlayaraq Rusiya Federasiyası və digər MDB ölkələri ilə keçmiş əlaqələri bərpa etmiş, kitab və dövrü mətbuat əldə etməyə müvəffəq olmaqla kitab mübadiləsi işini genişləndirmişdir. Kitabxana xüsusilə Rusiya Federasiyasında nəşr edilən yeni elmi ədəbiyyatı almaq üçün beynəlxalq əhəmiyyətli tədbirlər həyata keçirmişdir. AMEA-nın xahişi ilə Rusiya Elmlər Akademiyası "Hayka" nəşriyyatının nəşr etdiyi jurnalların Mərkəzi Elmi Kitabxanaya göndərilməsi haqqında 1999-cu ildə sərəncam verdi. Həmin sərəncam kitabxananın yeni nəşr edilən jurnallarla təkmilləşməsi üçün böyük imkanlar açdı ki, bu da respublikada elmi-tədqiqatların müasir səviyyədə aparılmasında mühüm əhəmiyyət kəsb etdi. 1999-cu ildə kitabxana Rusiyada həyata keçirilən "Puşkin meqalayihəsi"nə daxil oldu və bu layihəyə müvafiq olaraq Rusiya Federasiyasında nəşr edilmiş 1000 nüsxədən artıq qiymətli kitab əldə etdi.

Kitabxana müstəqillik illərində beynəlxalq əlaqələrin yenidən qurulması sahəsində böyük tədbirlər həyata keçirməyə başladı. SSRİ dövründən fərqli olaraq beynəlxalq əlaqələrin yaradılması sahəsində yaranmış əlverişli şərait kitabxanaya qısa müddət içərisində dünyanın 63 dövləti ilə əlaqə yaratmağa imkan verdi. Hazırda AMEA Mərkəzi Elmi Kitabxanası dünyanın 63 dövlətinin 610 kitabxanası, təşkilatları, cəmiyyətləri, elmi mərkəzləri, nəşriyyatları ilə əlaqə saxlayır. Bu əlaqələrin intensivliyi nəticəsində təkcə 1994-2004-cü illərdə kitabxana kitab mübadiləsi yolu ilə 35859 nüsxə elmi ədəbiyyat almağa müvəffəq olmuşdur ki, bu da olduqca böyük nailiyyətdir. Kitabxananın xarici dillərdə ədəbiyyatla zənginləşməsində kitabxananın Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirlikləri ilə əlaqələr yaratmasının və əməkdaşlığının böyük rolu olmuşdur. Bu əməkdaşlıq sayəsində Fransa səfirliyinin köməyi ilə 2002-ci ildə kitabxanada Azərbaycan və Fransa arasında dövlətlərarası dostluq əlaqələrinin möhkəmlənməsində və elmi-mədəni əlaqələrin təşkilində mühüm rol oynayan "Azərbaycan-Fransa elmi-mədəni əlaqələr zalı" açılmış, bu zal üçün Fransadan 1000 avro dəyərində qiymətli ədəbiyyat gətirilmişdir. Həmçinin Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfirliyi tərəfindən kitabxanaya ərəb dilində 600 nüsxə kitab, Almaniya səfirliyi vasitəsilə "Alman tədqiqat cəmiyyəti" tərəfindən Leopold Qmelinin 734 cildlik "Kimya məlumat kitabı" hədiyyə verilmişdir. Son illərdə kitabxananın fəaliyyətində müxtəlif müsabiqələrdə iştirak etmək, qrantlar almaq da xüsusi əhəmiyyət kəsb etmişdir. Kitabxana qrantlar vasitəsilə əldə etdiyi vəsait hesabına kitab fondunun təkmilləşməsinə, kitabxananın yeni avadanlıqla təchiz edilməsinə, kitabxana binasının təmir edilməsinə nail olmuşdur. Bu işdə Açıq Cəmiyyət İnstitutunun Soros fondu kitabxanaya yaxından kömək etmiş, 2000-ci ildə kitabxanada müasir avadanlıqla, kompüterlərlə təchiz edilmiş internet zalı açılmışdır.

Mərkəzi Elmi Kitabxana Azərbaycan elminin baş qərargahı olan Milli Elmlər Akademiyasının informasiya bazası kimi ölkəmizdə dövlətçilik, azərbaycançılıq ideyalarının, milli ideologiyanın təbliğində mühüm işlər görür. Kitabxana 2003-cü ildə ümummilli liderimiz, müstəqil Azərbaycan

dövlətçiliyinin memarı Heydər Əliyevin elmi-nəzəri irsini təbliğ etmək üçün “Azərbaycan dövlətçiliyi və Heydər Əliyev kitabxanası” təşkil etmişdir. Heydər Əliyevin əsərlərini onun haqqında əsərləri, dövlətçiliyə, azərbaycançılığa, milli ideologiyaya aid əsərləri özündə əks etdirən bu kitabxana oxucularəın böyük marağına səbəb olmuş, geniş oxucu auditoriyası ilə əhatə edilmişdir. Müasir Azərbaycan cəmiyyətinin elmi-nəzəri əsaslarının geniş elmi müddəalarla şərh edildiyi, onun gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirildiyi bu dərin məzmunlu əsərlər sosial-iqtisadi sahənin bütün tədqiqatçıları üçün qiymətli mənbə kimi böyük böyük əhəmiyyət kəsb edir. Burada Heydər Əliyev kitabxanası üçün ayrıca bina ayırmış, dövlətçiliyə, azərbaycançılığa, azərbaycanşünaslığa, milli ideologiyaya dair çox qiymətli və zəngin ədəbiyyat fondu yaradılmışdır. Hazırda kitabxananın fondunda 1000 nüsxədən artıq ədəbiyyat toplanmış, onun elektron kataloqu yaradılıb oxucuların istifadəsinə verilmişdir.

Kitabxananın əməkdaşları oxucuların daimi sorğusunu nəzərə alaraq Azərbaycan dövlətçiliyinə dair mövzu biblioqrafik göstəriciləri tərtib edir, geniş kütləvi işlər aparırlar. Burada görkəmli alimlərin, mütəxəssislərin bilavasitə iştirakı və köməyi ilə keçirilən elmi-kütləvi tədbirlər respublika elmi ictimaiyyətinin diqqətini cəlb edir. Kitabxanada hər il müxtəlif mövzularda orta hesabla 130-150 sərgi təşkil edilir və oxucuların marağına səbəb olur. Təkcə 2003-2005-ci illərdə kitabxananın sərgi zalında “Azərbaycan Xalq Cümhuriyyəti-85”, “Azərbaycanın alim qadınları”, “Qafqaz müharibələri”, “Azərbaycanın neft strategiyası”, “Xəzər dənizinin problemləri”, “Avtomatlaşdırma texnologiyaları və kitabxanalar”, “Azərbaycan alimlərinin respublikanın iqtisadi inkişafında rolu”, “Heydər Əliyev-80”, “M.Ə.Sabir-140”, “Nəsirəddin Tusi-800” və s. adlı sərgilər təş-kil edilmişdir.

Son zamanlar sərgilərin təşkilində müasirlik, sistemlilik, elmilik, əyanilik və kütləvilik daha çox hiss edildiyindən onun praktik əhəmiyyəti artmış, seyriçilərin və istifadəçilərin sayı çoxalmışdır.

Müstəqillik illərində kitabxana öz işini informasiya cəmiyyətinin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq həyata keçirmək,

oxuculara kitabxana-informasiya xidmətini beynəlxalq standartlar səviyyəsində təşkil etmək üçün mühüm struktur və təşkilati islahatlar aparılmışdır. Bu islahatların həyata keçirilməsinə, kitabxananın maddi-texniki bazasının yaradılmasına, kadr potensialının daha da möhkəmlənməsinə və təkmilləşməsinə AMEA rəhbərliyinin kitabxana işinə daimi qayğısının və 1998-ci ildə kitabxana işinin yaxşılaşdırılması haqqında qəbul etdiyi qərarın böyük rolu olmuşdur. İslahatlar nəticəsində demək olar ki, kitabxananın ayrı-ayrı şöbələrinin işi yenidən qurulmuş, onların nizamnamələri təsdiq edilmişdir. Eyni zamanda şöbələr arasında əlaqələrin genişlənməsinə, yeni şöbələrin yaradılmasına, kitabxananın kadr tərkibinin yaxşılaşdırılmasına, yüksək ixtisaslı, elmi dərəcələri olan kadrlarla təmin edilməsinə, kadr korpusunun cavanlaşdırılmasına xüsusi diqqət yetirilmişdir. Kitabxana rəhbərliyinin seçki yolu ilə yerləşdirilməsi işin demokratikləşməsinə müsbət təsir göstərmişdir. Kitabxana ictimaiyyətinin mütləq səs çoxluğu ilə seçilmiş, respublikanın istedadlı kitabxana işi təşkilatçılarından biri kimi tanınmış filologiya elmləri namizədi Aybəniz Əliyeva-Kəngərli qısa zaman kəsiyində kitabxana işində böyük dönüş yaratmağa müvəffəq olmuş, kitabxana kollektivinin və respublika kitabxana ictimaiyyətinin böyük hörmətini qazanmışdır.

2003-cü ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə Mərkəzi Elmi Kitabxanaya elmi müəssisə statusunun verilməsi burada həyata keçirilən islahatlara daha böyük təkan verməklə onun kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və informasiya sahəsində apardığı elmi-tədqiqatların daha intensiv xarakter almasına, aktual elmi problemlərin həllində yaxından iştirak etməsinə və elmi dərəcələri olan yüksək ixtisaslı mütəxəssisləri kitab-xana işinə cəlb etməsinə imkan yaratmışdır.

Kitabxana kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və informasiya sahəsində elmi-tədqiqat işlərinin mərkəzlərindən biri və metodik mərkəz kimi fəaliyyət dairəsini əsaslı surətdə yaxşılaşdırmağa müvəffəq olmuşdur.

Son dövrlərdə kitabxananın oxuculara xidmət işinin təşkili, onun səmərəliliyi, nadir nəşrlərin mühafizəsi və konservasiyası,

kitabxana işinin avtomatlaşdırılması sahəsində apardığı elmi işlər uğurlu nəticələr vermişdir.

Kitabxana eyni zamanda kollektivin elmi-tədqiqat işinin nəticələrini işıqlandırmaq üçün dövri elmi nəşrlər buraxmağa nail olmuşdur. Bu elmi əsərlərdə Azərbaycan kitabxana son nailiy-yətlərinin işıq üzü görməsi respublika kitabxanaşünaslıq ictimaiyyətinin böyük rəğbətinə səbəb olmuşdur. Kitabxananın elmi araşdırmalarının nəticələri son dövrdə nəşr edilən elmi əsərlərin 4 nömrəsində öz əksini tapmışdır. Bu əsərlərdən başqa kitabxana 2000-2004-cü illərdə "Orucov qardaşları mətbəəsi", "Qafqaz ərazilərinin və xalqlarının təsvirinə dair materiallar toplusu", "ABŞ Konqres Kitabxanası", "Füzuli sehri", "AMEA kitabxana sisteminin fəaliyyətini tənzimləyən sənədlər toplusu" (1-2-ci buraxılış), "Vebiblioqrafiya" kimi elmi, nəzəri və metodik əsərlər çap etdirmişdir. Hazırda kitabxana statusuna müvafiq elmi-tədqiqat və nəşriyyat fəaliyyətini genişləndirmək üçün böyük perspektiv əhəmiyyət kəsb edən proqram hazırlamışdır. Bu proqramda respublikamızda kitabxana-şünaslıq, biblioqrafiyaşünaslıq və informasiya sahəsində əsaslı elmi-tədqiqat işlərinin aparılması və yüksək ixtisaslı kadr hazırlamaq üçün kitabxananın yanında aspirantura şöbəsinin açılması nəzərdə tutulmuşdur.

AMEA Mərkəzi Elmi Kitabxanası öz statusuna görə həm akademiyanın kitabxana sisteminin metodik mərkəzidir. Kitabxananın metodik funksiyasının təşkilində onun bütün yaradıcı kollektivi və aparıcı şöbənin təcrübəli əməkdaşları iştirak edirlər. Kitabxana bir qayda olaraq elmi-tədqiqat institutları kitabxanalarının kom-plektləşdirilməsində, yeni kitablar alınmasında, oxuculara xidmət işinin yeni forma və metodlarının formalaşdırılmasında, şəbəkə kitabxanalarının fəaliyyətini tənzimləyən təlimatların, əsasnamələrin, müxtəlif normativ sənədlərin hazırlanmasında yaxından iştirak edir. Kitabxana həmçinin kitabxanaçı kadrların peşə səviyyəsini yüksəltmək və qabaqcıl iş təcrübəsini yaymaq üçün kurslar, seminarlar, praktikumlar, təcrübi konfranslar keçirir. Mərkəzi Elmi Kitabxananın ayrı-ayrı aparıcı şöbələrində fəaliyyət göstərən metodistlər vaxtaşırı olaraq şəbəkə kitabxanalarının işi ilə tanış olur, mənfi və müsbət cəhətləri aşkara çıxarır, işin yaxşılaşdırılması üçün

tədbirlər görülməsində bilavasitə iştirak edirlər.

Son zamanlar MEK müasir dövrün ən mühüm problemi olan kitabxana işinin kompüterləşdirilməsində, onların İnternetə şəbəkəsinə qoşulmasında, müasir informasiya texnologiyası ilə təmin edilməsində, kitabxanaçı-informator kadrların hazırlanmasında yaxından iştirak edir.

Müstəqillik illərində MEK-in metodik təminat sistemi daha da təkmilləşdirilmiş, yeni iş forma və metodlarının aşkara çıxarılıb ümumiləşdirilməsi, oxuculara kitabxana-informasiya xidmətinin daha da təkmilləşdirilməsi üçün mühüm tədbirlər həyata keçirilmişdir.

Müstəqillik şəraitində dövlətimiz, xalqımız, alimlərimiz, ziyalılarımız və bütün qəbildən olan mütəxəssislərimiz qarşısında duran ən mühüm vəzifə müasir Azərbaycan cəmiyyətinin informasiyalaşdırılmasıdır. Məhz buna görədir ki, AMEA və onun nəzərində fəaliyyət göstərən MEK dövlət əhəmiyyətli məsələlərin həllini ön plana çəkmiş və mühüm tədbirlər həyata keçirməyə başlamışdır. Bu tədbirlər içərisində MEK-in informasiya fəaliyyəti kitabxana işi təcrübəsində yeni mərhələnin başlanğıcı kimi xüsusi əhəmiyyət kəsb edir. Bu mühüm işdə 2003-cü ildə MEK-də yaradılmış "Kitabxana proseslərinin avtomatlaşdırılması" şöbəsinin mühüm əhəmiyyəti olmuşdur. Kitabxana işinin bütün fəaliyyət sahələrinin bütövlükdə avtomatlaşdırılmasını və computerləşdi-rilməsini qarşısına məqsəd qoyan bu şöbə qısa zaman kəsiyində ölkəmizdə və xarici ölkələrdə kitabxana işinin kompüterləşməsində baş verən prosesləri öyrənməklə, dünya təcrübəsindən istifadə əsasında öz işini yerli şəraitə uyğun qurmağa müvəffəq olmuşdur. Kitabxana rəhbərliyinin ciddi səyi nəticəsində bu şöbə qısa müddətdə kitabxana-informasiya texnologiyası ilə, kompüterlərlə, digər texniki vasitələr və avadanlıqlarla təchiz edilmiş, kompüter texnologiyası, elektron kitabxana-informasiya proqramları ilə işləməyi bacaran mütəxəssislərlə komplektləşdirilmişdir.

Şöbə 2002-ci ildə kitabxana-informasiya proseslərinin avtomatlaşdırılmasının əsas istiqamətlərinin təxmini planını hazırlamışdır. Bu planda kitabxana-informasiya işi sahəsində görüləcək işlər ardıcıl olaraq

öz əksini tapmış, avtomatlaşdırılmış kitabxana-informasiya sistemi proqramlarının mərhələlər üzrə həyata keçirilməsi müəyyənləşdirilmişdir. Şöbə ilk gündən öz işini düşünülmüş və təcrübədə sınanmış elmi əsaslar üzərində qurduğundan tezliklə ilk müvəffəqiyyətlər qazanmağa nail olmuşdur. Bu plan əsasında kitabxana fondunun komplektləşdirilməsinə, Azərbaycan dilində ədəbiyyatın elektron kataloqunun yaradılmasına, oxucuların qeydiyyatına, biblioqrafik informasiya xidmətinə, beynəlxalq kitab mübadiləsinə, elektron kitabxananın yaradılmasına başlanmışdır.

2002-ci ildə MEK-in Web saytı yaradılmış, burada kitabxananın tarixi, strukturu, fondları, zalları, şəbəkə kitabxanaları və MEK-ə daxil edilən yeni ədəbiyyat haqqında məlumat yerləşdirilmiş, həmçinin yeni xidmət növü kimi saytın "Elektron xidmət" rubrikası təqdim edilmişdir.

MEK-də az bir müddətdə oxucuları maraqlandıran mövzulara («Heydər Əliyev şəxsiyyəti Rusiya mətbuatında", "İlham Əliyev", "Bakı-Tbilisi-Ceyhan", "Terrorizm", "Rusiyanın müasir ədəbi jurnallarının elektron kitabxanası", "Gender problemi" və s.) dair elektron məlumat bazalarının yaradılması alimlərin və mütəxəssislərin böyük marağına səbəb olmuşdur.

MEK Azərbaycan Kitabxana-İnformasiya Konsorsiumuna daxil olmuş, EBSCO elektron məlumat bazasından, 40 min xarici tammətnli elmi jurnaldan internet vasitəsib istifadə etməyə başlamışdır. MEA həmçinin kitabxana işinin kompüterləşdirilməsi sahəsində son vaxtlar daha da irəliyə getmiş, kitabxana işini kompleks şəkildə kompüterləşdirmək üçün 2005-ci ildən Rusiyanın "İRBİS-64" (avtomatlaşdırılmış kitabxana informasiya sistemi) proqramını tətbiq etməyə başlamışdır.

Müstəqillik illərində kitabxana AMEA-nın əsas informasiya ehtiyatları bazası kimi oxuculara xidmət işini ön plana çəkmiş və demək olar ki, bu sahədə çox əhəmiyyətli uğurlar əldə etməyə müvəffəq olmuşdur. Doğrudur, 90-cı illərin əvvəllərində AMEA maliyyə çətinliyi ilə üzləşdiyindən elmi işçilərin bir hissəsini itirmiş, elmi-tədqiqat işlərinin aparılmasında böyük çətinliklərlə üzləşmişdi. Bu vəziyyət kitabxana işinə də öz mənfi təsirini göstərmişdi. Kitabxana yeni ədəbiyyatla, dövri mətbuatla lazımi səviyyədə komplektləşdirilmədiyindən və AMEA-ya olan qeyri-normal münasibətdən oxucularının bir hissəsini itirmişdi. Lakin bu vəziyyət uzun sürmədi. 1994-cü ildən başlayaraq respublikamızın ümumi inkişafı fonunda kitabxana işində də canlanma baş verdi. Oxuculara xidmət işi qaydaya düşdü və oxucuların sayı ilbəil artmğa başladı.

Fikrimizi təsdiq etmək üçün MEK-in müstəqillik illərində oxuculara xidmət sahəsindəki fəaliyyətini ümumiləşdirilmiş şəkildə əks etdirən cədvələ diqqət yetirək:

**MEK-də va onun filiallarında oxuculara xidmət (1990-2004-cü illər)**

| | İllər | | | | |
|---|---|---|---|---|---|
| | | 1990 | 1995 | 2000 | 2004 |
| 1 | Oxucuların miqdarı | 39931 | 39475 | | 42375 |
| | O cümlədən: a)MEK | 26915 | 27942 | | 30570 |
| | b)filiallar | 13016 | 6485 | | 11805 |
| 2 | Kitab verilişi | 3147694 | 3249135 | | 2370806 |
| | O cümlədən: a)MEK | 1832894 | 2118235 | | 1247333 |
| | b)filiallar | 1314800 | 1130900 | | 1132563 |

Cədvəldən göründüyü kimi, kitabxana müstəqillik dövrünün, xüsusilə onun ilk illərinin çətinliyinə baxmayaraq öz işini müvəffəqiyyətlə davam etdirmiş, oxuculara xidmət işinin zəifləməsinə, oxucuların sayının və kitab verilişinin azalmasına imkan verməmişdir.

Son illərdə kitabxananın maliyyə durumunun yaxşılaşması, maddi-texniki bazasının möhkəmlənməsi, kitabxana-informasiya texnologiyası və texniki avadanlıqla təmin edilməsi, kitabxanada aparılan uğurlu islahatlar bilavasitə oxuculara kitabxana-informasiya xidmətinin keyfiyyətcə yaxşılaşdırılmasına səbəb olmuşdur. Kitabxana sözün əsl mənasında respublikamızda elmin informasiya bazası, ölkəmizin ən önəmli kitabxana-informasiya mərkəzi kimi formalaşmışdır. Kitabxananın elmi müəssisə statusu alması onun gələcək inkişafı

qarşısında olduqca böyük perspektivlər açmış, MEK kitabxanaşünaslığın, biblioqrafiyaşünaslığın, kitabşünaslığın və informasiyanın elmi-tədqiqat və metodik mərkəzinə çevrilmişdir.

## 2.10. Respublika Elmi Texniki Kitabxanası müstəqillik illərində

Ölkəmizdə respublika əhəmiyyətli kitabxana statusuna malik olan kitabxanalar içərisində Respublika Elmi Texniki Kitabxanasının özünəməxsus yeri və tarixi rolu olmuşdur. Bütün Azərbaycan xalqı kimi RETK-nın əməkdaşları da ölkəmizin müstəqilliyini böyük sevinc və iftixar hissi ilə qarşılamışdır. Müstəqilliyin ilk illərində meydana çıxan hər cür çətinliyə baxmayaraq kitabxana öz fəaliyyətini bilavasitə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, milli mədəniyyətimizin, elmimizin, ideologiyamızın, texnikamızın inkişafına, oxucuların informasiya təminatının ödənilməsinə yönəltdi. Kitabxana işi müstəqilliyin tələb etdiyi yeni şəraitə, milli ideologiyaya, yeni demokratik prinsiplərə uyğun qurulmağa başladı.

90-cı illərin əvvəllərində ölkə iqtisadiyyatında baş verən böhran sosial, mədəni sahəyə, xüsusilə kitabxana işinə olduqca mənfi təsir göstərdi. Kitabxananın maliyyələşdirilməsi üçün ayrılan vəsait ciddi surətdə ixtisar edildi. Məhz buna görədir ki, 80-ci illərlə müqayisədə 90-cı illərin əvvəllərində RETK-ya daxil olan yeni elmi-texniki ədəbiyyatın və müxtəlif informasiya daşıyıcılarının miqdarı 15-20 dəfə azalmışdı. Təkcə bunu göstərmək kifayətdir ki, son illər kitabxanaya rus və əcnəbi dillərdə xaricdə nəşr olunan kitablar demək olar ki, alınmamışdır. Elmi-texniki referativ jurnalların alınmaması respublikada texniki elmlərin öyrənilməsinə, elmi araşdırmalar aparılmasına olduqca mənfi təsir göstərirdi. Kitabxana binasının darısqallığı, namünasibliyi, maddi-texniki avadanlığın köhnəlməsi oxuculara xidmət işini müasir tələblər səviyyəsində təşkil etməyə imkan vermirdi.

Bütün göstərilən çətinliklərə baxmayaraq respublikada yaranmış sabitlik, iqtisadiyyat və mədəniyyət sahəsində baş verən tədrici inkişaf

RETK-mn fəaliyyətinə ciddi təsir etdi. Kitabxananın işi dirçəlməyə və tədricən inkişaf etməyə başladı. Hər şeydən əvvəl Azərbaycan Respublikasının Nazirlər Kabineti kitabxananın təşkilati cəhətdən tabeçiliyində məqsədyönlü dəyişiklik etdi. 1993-cü ildə kitabxananı Azərbaycan Respublikası İqtisad Nazirliyinin tabe-çiliyindən alıb Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsinin tabeçiliyinə verdi. Kitabxana 2002-ci ilə, - Azərbaycan Dövlət Elm və Texnika Komitəsi ləğv edilənə qədər onun nəzdində fəaliyyət göstərdi.

Kitabxananın Azərbaycan Dövlət Elm və Texnika Komitəsinin tabeçiliyinə keçməsi onun inkişafında geniş imkanlar açmışdı. Bu komitə RETK-nın profilinə uyğun olduğundan kitabxananın işini, onun inkişaf perspektivlərini və istiqamətlərini daha düzgün müəyyənləşdirmək imkanına malik idi.

Bu dövrdə Elm və Texnika Komitəsinə görkəmli alim, akademik Azad Mirzəcanzadə başçılıq edirdi. Dünya şöhrətli alim, Azərbaycan elminin korifeylərindən biri olan Azad Mirzəcanzadə kitabın böyük dostu, dövrün ən çox kitab oxumuş adamlarından biri, kitab xəzinəsinin mahir bilicisi, elmin, mədəniyyətin inkişafında və yayılmasında kitabxanaların və kitabxanaçıların rolunu yüksək qiymətləndirən bir şəxsiyyətdir. Azad Mirzəcanzadə öz çıxışlarında Azərbaycan elmi-texniki fikrinin inkişafında, elmi-texniki tərəqqidə mühüm rol oynayan nüfuzlu ziyalılar kollektivinin yetişib formalaşmasında, xüsusilə neftçi kadrların hazırlanmasında bu qocaman kitabxananın fəaliyyətinə yüksək qiymət verirdi. RETK-nın qocaman oxucusu olan Azad Mirzəcanzadə kitabxananın inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. Kitabxananın maliyyə vəziyyəti yaxşılaşdırıldı, maddi-texniki bazası möhkəmləndirildi, binası təmir edildi. Yeni texniki vasitələrlə və avadanlıqlarla təchiz edildi, kitabxananın komplektləşdirilməsi, xarici dildə olan kitabların, patentlərin, jurnalların alınması üçün vəsait ayrıldı. Kitabxana həmçinin kitabxana işinin kompüterləşdirilməsi üçün ciddi tədbirlər görməyə səy göstərirdi. Az bir müddət içərisində kitabxanaya kompüterlər və digər texnoloji avadanlıqlar alındı. Kitabxananın işində yeni şəraitlə əlaqədar ciddi islahatlar aparılmağa başlandı, strukturunda dəyişikliklər edildi, yeni şöbələr yaradıldı və espublika patent fondunun fəaliyyətini yenidən qurmaq üçün tədbirlər görüldü.

2000-ci il dekabr ayının 12-də Azərbaycan Elm və Texnika Komitəsinin qərarı ilə ölkə miqyasında RETK-nın təntənəli yubileyi qeyd edildi. Yubiley iclasında respublikanın geniş kitabxana ictimaiyyəti iştirak edirdi. Yubiley iclasını Azərbaycan Elm və Texnika Komitəsinin sədri, akademik A.Mirzəcanzadənin aparması kitabxananın işinə böyük dövlət qayğısının nə-ticəsi idi.

Yubiley iclasında 70 illik inkişaf yolu haqqında kitabxananın direktoru Hicran Əfəndiyeva məruzə etdi.

Məruzədən sonra yubilyarı professor Abuzər Xələfov, kitabxana işçilərindən Solmaz Bağırova, Mail Əhmədov, Əmin Əfəndiyev, Tamila İsmixanova və b. təbrik etdilər.

Yubiley mərasimini yekunlaşdıran akademik Azad Mirzəcanzadə son sözündə Azərbaycanın müstəqilliyi şəraitində RETK-nın kollektivinin qarşısında çox böyük vəzifələr durduğunu qeyd etdi. O, qısa müddət ərzində oxuculara xidmət işinin daha da yaxşılaşdırılması, kitabxana kitabının hər bir oxucuya çatdırılmasını, kitabxana işinin komplektləşdirilməsində dönüş yaradılmasını, İnternet şəbəkəsinə qoşulmasını, kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsini, müasir kitabxana-informasiya avadan-lıqlarının alınmasını, yeni düşüncə tərzinə malik gənc kitabxanaçı kadrların işə cəlb edilməsini məsləhət gördü. Kitabxananın kollektivinə gələcək fəaliyyətində böyük uğurlar arzuladı.

Müstəqillik dövrünün ilk illərinin çətinliklərinə baxmayaraq RETK kitab fondunun komplektləşdirilməsi, yeni ədəbiyyatın və dövri nəşrlərin alınması, xarici ölkə kitabxanaları, ilk növbədə isə Rusiya kitabxanaları ilə qırılmış əlaqələrin bərpası sahəsində mühüm işlər görə bildi. Kitablara və dövri mətbuata abunə yazılışına başlandı. 1994-cü ildən başlayaraq kitabxanaya ayrılan vəsait tədricən artmağa başladı. Bunu cədvəldən aydın görmək olar:

| İllər | Ayrılan vəsaitin miqdarı manat |
|---|---|
| 1994 | 100.381.000 |
| 1995 | 240.122.000 |
| 1996 | 280.752.000 |
| 1997 | 302.451.000 |
| 1998 | 350.512.000 |
| 1999 | 446.543.000 |
| 2000 | 546.437.000 |
| 2001 | 312.496.000 |
| 2002 | 322.924.000 |
| 2003 | 369.190.000 |
| 2004 | 446.543.000 |

Rəqəmlərdən göründüyü kimi, göstərilən dövrdə kitabxanaya ayrılan vəsait ilbəil artmışdır. Əgər kitabxanaya 1994-cü ildə 100.381.000 manat vəsait ayrılmışdırsa, bu vəsait 2004-cü ildə 446.543.000 manata çatmışdır. Doğrudur, ayrılan vəsait kitabxananın yeni ədəbiyyatla, dövri nəşrlərlə tam və hərtərəfli təkmilləşməsi üçün kifayət etməsə də, yeni nəşrlərdən bir neçə nüsxə almağa imkan verirdi. Kitabxana büdcə vəsaitindən əlavə sponsorların, qeyri-dövlət təşkilatlarının, xarici təşkilatların, SOROS fondunun köməyindən, ayrı-ayrı şəxslərin, kitab müəlliflərinin hədiyyələrdən də bəhrələnirdi.

1994-cü ildə Milli Məclis "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış bu qanun respublikanın kitabxana həyatında böyük hadisə olduğu kimi, RETK-nın işinə də mühüm təsir etdi. Kitabxana öz işini bu qanuna müvafiq həyata keçirməyə başladı. Qanunun 8-ci maddəsinə görə, RETK-ya respublika əhəmiyyətli elmi-sahəvi kitabxana statusu verildi. Qanunun 15-ci maddəsinə əsasən, RETK-ya dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən nəşr edilən çap məhsullarından profilinə uyğun olaraq iki pulsuz məcburi nüsxə almaq hüququ verildi. Kitabxana bu hüququndan istifadə etməsi nəticəsində öz fondunu respublikada nəşr edilən yeni texniki profilli kitablarla ardıcıl

olaraq komplektləşdirmək imkanı əldə etdi. Bütün bunların nəticəsidir ki, kitabxana müstəqillik illərində 646.077 nüsxə yeni nəşr edilmiş ədəbiyyat əldə etməyə müvəffəq olmuşdur.

Büdcənin ilbəil əsaslı surətdə artmasına nisbətən kitabın az alınmasının obyektiv səbəbi ölkədə kitabın bahalaşması idi. Dövlət nəşriyyatları olduqca zəifləmişdi, kitab nəşri əsasən özəl nəşriyyatlar tərəfindən həyata keçirilirdi. Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq özəl nəşriyyatlar kitab bazarını ələ keçirərək, kitabı istədikləri qiymətə satırdılar. Beləliklə, Azər-baycan kitab bazarında sovet dövrünə nisbətən kitabın qiymətinin qat-qat bahalaşması prosesi gedirdi ki, bu da kitabxanaların komplektləşdirilməsi işinə mənfi təsir göstərirdi.

Müstəqillik illərində kitabxana fondlarının komplektləşdirilməsində müəyyən zəiflik hiss edilsə də, bu oxuculara xidmət işinin təşkilinə qətiyyən mənfi təsir göstərməmiş, oxucuların sayı, kitab verilişi və kitabxana fondunun dövriyyəsi müntəzəm olaraq artmışdır.

**1993-2004-cü illərdə RETK-nın oxuculara xidmət sahəsində fəaliyyəti**

| Göstərilən işin adı | İllər | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
| Kitabxana oxucularının sayı | 11912 | 12011 | 13255 | 19836 | 18486 | 18503 | 21528 | 21578 | 22798 | 24960 | 20172 | 20823 |
| Oxuculara verilən kitablar | 118341 | 106601 | 110387 | 226832 | 305476 | 501352 | 786396 | 586175 | 933332 | 693926 | 5545 | 10235 |
| Kitabxana fondunun dövriyyəsi | 15,439 | 17,3 | 26,259 | 23,529 | 22,73 | 22,02 | 22,02 | 25,15 | 21,93 | 21,93 | 16,24 | 58,55 |

Son illərdə oxuculara xidmət sahəsində göstəricilərin azalması kitabxananın yeni binaya köçməsi ilə əlaqədardır. Fondun yeni binaya köçürülməsi zamanı kitabxana bir neçə müddət öz fəaliyyətini dayandırmalı olmuşdur ki, bu da xidmət prosesinə öz mənfi təsirini göstərmişdir.

Müstəqillik illərində kitabxana oxuculara xidmət işinin təşkilində öz ənənəvi iş üsullarından müvəffəqiyyətlə istifadə edirdi. Kitabxanada ən geniş yayılmış iş üsullarından biri kütləvi tədbirlər idi. Kitabxana fonda daxil olan yeni kitablar haqqında oxuculara məlumat vermək, oxucuların sorğularını öyrənmək üçün kütləvi tədbirlərin müxtəlif növlərindən, daimi sərgilərdən, yeni kitab sərgilərindən, mövzu sərgilərindən, yeni jurnalların sərgilərindən, informasiya günlərindən, mütəxəssis günlərindən, normativ texniki sənədlərin sərgilərindən geniş istifadə etmişdir. Sərgilər təşkil edilərkən onun tərtibatına ciddi diqqət yetirilir, ən zəruri kitablar nümayiş etdirilir. Kitabxana işçiləri sərgiyə tamaşa edən oxucular arasında geniş izahat işi aparır, kitabları necə əldə etmək haqqında onlara izahat verirlər. Kitabxanada keçirilən informasiya və mütəxəssis günləri, normativ-texniki sənədlərin sərgisi xüsusi maraq doğururdu. Belə günlərdə əsasən ziyalılar, mühəndislər, mütəxəssislər və şəbəkə kitabxanalarının kitabxana işçiləri, biblioqraflar daha çox iştirak edirdilər. Kitabxana 1994-2002-ci illərdə 230-dan artıq kütləvi tədbir keçir-mişdir ki, belə tədbirlərdə yüzlərlə oxucu istifadə etmiş, onlara xeyli kitab və jurnal verilmişdir. Xüsusilə RETK-da keçirilən mütəxəssis və informator günləri oxucuların daha böyük marağına səbəb olmuşdur. Belə tədbirlərin keçirilməsində görkəmli mütəxəssislərin, alimlərin iştirakı onların səmərəliliyini artırır, daha maraqlı və məzmunlu olmasını təmin etmişdir.

Müstəqillik illərində RETK öz fəaliyyətini informasiya cəmiyyətinin tələblərinə uyğun qurmaq, oxucuların informasiyaya durmadan artan tələbatını ödəmək məqsədi ilə kitabxana işini avtomatlaşdırmağa, yeni kitabxana və informasiya texnologiyası ilə təmin etməyə, kitabxana işinin kompüterləşdirilməsi üçün əməli addımlar atmağa başlamışdır. 1999-cu ildə Dövlət Elm və Texnika Komitəsi kitabxananın komputer-ləşdirilməsini, İnternet sisteminə qoşulmasını təmin etmək üçün

kompüter dəsti ilə təchiz etdi. Kitabxananın İnternet və elektron poçt sisteminə qoşulmaq üçün texniki baza hazırlandı.

Kitabxana işinin kompüterləşdirilməsini həyata keçirmək üçün ayrıca "Diferensial məlumat xidməti və tədqiqat işləri" şöbəsi yaradıldı. Bu şöbə bütün növ oxucu sorğularını araşdırır, elm sahələri üzrə kompüterin yaddaşına daxil edirdi. Şöbədə elektron kataloqun yaradılmasına başlanmışdı. Neft ədəbiyyatına olan böyük tələbat nəzərə alınaraq neft ədəbiyyatının elektron kataloqunun yaradılması üçün intensiv iş aparılırdı. Şöbə həmçinin tərcümə mərkəzi ilə birlikdə UNIMARC-ın Azərbaycan dilinə tərcüməsi və redaktəsində yaxından iştirak etmiş və kompüterdə çap etmişdir.

Azərbaycanda kitabxana işinin avtomatlaşdırılması problemləri ilə hələ 80-ci illərdən məşğul olmağa başlayan kitabxana son illərdə kompüterləşdirilmə sahəsində mühüm təcrübə qazanmışdır. Bu təcrübənin təkmilləşdirilməsinə və yayılmasına böyük ehtiyac hiss edilməkdədir.

Müstəqillik illərində RETK elmi-texniki kitabxanalar şəbəkəsinin metodik mərkəzi kimi öz işini davam etdirmişdir. Kitabxana müasir şərait, kitabxana işinin demokratikləşdirilməsi ilə əlaqədar metodik təminat sistemini yenidən qurmuş, inzibati amirlik metodundan uzaqlaşaraq tövsiyə və məsləhət xarakterli yeni üsullardan istifadə etməyə, metodik tədbirlər keçirərkən hər bir kitabxananın şəraitini və durumunu nəzərə almağa çalışmışdır.

Uzun illərdən bəri elmi-texniki kitabxanalar şəbəkəsinin metodik təminat bazası kimi formalaşan RETK bu sahədə böyük təcrübə qazanmışdır. Kitabxanada metodik təminat işini təşkil etmək üçün ayrıca şöbə yaradılmışdır. Bu şöbə 1990-cı illərin əvvəllərində 125 kitabxanaya metodik köməklik göstərirdi. Bu şöbədə kitabxana işini çox yaxşı bilən təcrübəli kadrlar toplanmışdı. Şöbə təkcə kitabxanalara metodik köməklə kifayətlənmir, şəbəkəyə daxil olan kitabxanaların illik hesabatlarını toplayır, təhlil edir, həmçinin mərkəzi kitabxananın illik fəaliyyətinin təhlili əsasında respublika texniki kitabxanalar şəbəkəsinin hesabatını hazırlayırdı. Bu hesabatlar kitabxanalarda aparılan işin təhlili, mənfi və

müsbət cəhətlərin aşkara çıxarılması kitabxana işinin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək üçün böyük əhəmiyyətə malikdir. Həmçinin bu hesabatlar respublikada texniki kitabxanaların tarixinin arxiv fondudur. Şöbədə kitabxanaşünaslığa, biblioqrafiyaşünaslığa dair elmi və metodik ədəbiyyatın zəngin kitabxanası yaradılmışdır ki, bu da tədqiqatçılar üçün böyük axtarış bazası rolunu oynayır.

Kitabxanada ayrıca elmi-metodik şöbənin fəaliyyət göstərməsi metodik işin məqsədyönlü təşkilini asanlaşdırmış, metodik işlərin elmi əsaslara söykənərək aparılmasına imkan yaratmışdır.

Müstəqilliyin ilk illərində respublikamızda yaranmış böyük çətinliklərlə əlaqədar zavod və fabriklərin bağlanması, ayrı-ayrı nazirliklərin ləğv olunması və ya strukturlarında dəyişikliklər edilməsi elmi-texniki kitabxanalar şəbəkəsinin azalmasına gətirib çıxarırdı.

1993-cü ildə respublikamızda böyük öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə yaranan sabitlik, dövlət strukturlarının möhkəmlənməsi bu prosesin qarşısını aldı. Bağlanmaq təhlükəsindən qurtaran kitabxanalar öz işlərini davam etdirməyə başladılar.

1994-cü ildə RETK 124 kitabxanaya metodik köməklik göstərirdi. Metodik şöbə çətinliklərə baxmayaraq öz fəaliyyətini davam etdirmiş, texniki kitabxanaların işini yaxşılaşdırmaq üçün ayrı-ayrı idarələr, müəssisələr və nazirliklər qarşısında məsələ qaldırmışdır. Sovet dövründə metodik fəaliyyətə dair hazırlanıb təsdiq edilmiş sənədlər ideoloji cəhətdən köhnəlib öz aktu-allığını itirdiyinə görə kitabxana metodik işlərin bütün forma və üsullarından istifadə edirək, metodik sənədlərin hazırlanmasına xüsusi diqqət yetirməyə başlamışdır. Kitabxananın yeni tərtib etdiyi sənədlərə misal olaraq "Dövlət sirrinə aid edilən məlumatları özündə əks etdirən ədəbiyyatın saxlanması qaydaları"; "İllik hesabatların tərtibi qaydaları"; "Yeni kitabxanaların yaradılması qaydaları"; "Köhnəlmiş, əhəmiyyətini itirmiş ədəbiyyatın kitabxanadan çıxarılması qaydaları"; "Kitabxana fondunun komplektləşdirilməsi xüsusiyyətləri" və s. kimi nümunəvi sənədləri göstərmək olar.

Bu dövrdə kitabxananın həyata keçirdiyi metodik tədbirlər içərisində seminarlar, fərdi və qrup halında məsləhətlər, icmallar, yeni metodik ədəbiyyatın sərgiləri geniş yer tuturdu. Komplektləşdirmə günlərinin keçirilməsi və yeni texniki ədəbiyyat haqqında kitabxanalara məlumat verilməsi mühüm əhəmiyyət kəsb edirdi.

2002-ci ildə Dövlət Elm və Texnika Komitəsinin ləğv edilməsi ilə əlaqədar RETK Nazirlər Kabinetinin sərəncamı ilə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin tabeçiliyinə verildi. Agentlik kitabxana işinə diqqəti xeyli artırdı. Kitabxananın maliyyə vəziyyəti yaxşılaşdırıldı, rəhbərliyi möhkəmləndirildi. Kitabxananın direktoru vəzifəsinə gənc alim, pedaqoji elmlər namizədi, dosent Nadir İsmayılovun təyin edilməsi kitabxananın işində əhəmiyyətli dəyişikliklərin baş verməsinə səbəb oldu.

Qısa zaman kəsiyində kitabxanada müşahidə edilən mövcud reallıqlar və digər konkret faktlar əsasında dərin və hərtərəfli təhlil aparılmış, nəticələr və qarşıda duran işlər nəzərə alınmaqla geniş müşavirə keçirilmişdir. Müşavirənin yekunu olaraq kitabxananın cari və perspektiv vəzifələrinin əsas aspektləri müəyyən olunaraq, dövlətimizin elm, təhsil, kitabxana siyasəti sahəsində tələbləri nəzərə alınmaqla ciddi müzakirələrdən sonra geniş tədbirlər planı qəbul edilmişdir. Bu tədbirlər planının əsas istiqamətləri bunlardan ibarətdir:

1. Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi və daha da təkmilləşdirilməsi;
2. Oxucularla işi günün tələbləri səviyyəsində təşkil etməklə, onlara müasir standartlar səviyyəsində xidmət göstərilməsi;
3. Kitabxanada müasir avadanlıqların və müasir texnologiyaların tətbiqi;
4. Kitabxana fondunun oxucular tərəfindən daha çox tələb olunan yeni və aktual ədəbiyyatla zənginləşdirilməsi;
5. Biblioqrafik fəaliyyətin canlandırılması, biblioqrafik xidmətin keyfiyyətinin yüksəldilməsi;
6. Elmi-metodik və biblioqrafik nəşrlərin çap edilməsi;
7. Kitabxana işçilərinin peşə biliklərinin müntəzəm olaraq artırılması sisteminin yaradılması;

8. Kitabxananın beynəlxalq əlaqələrinin canlandırılması və s.

Bu tədbirlər planının tərkib hissəsi olaraq, əvvəlcə təşkilati işlər həyata keçirilmiş, kitabxananın fəaliyyətinin hüquqi bazasını təmin edən sənədlər əsasında işlərin görülməsi üçün zəmin yaradılmışdır. 2003-cü ilin may ayında təcrübəli, peşəkar kitabxanaçı-biblioqraflardan ibarət bir qrup mütəxəssisi özündə birləşdirən "RETK-nın kitabxana şurası" yaradılmışdır ki, bu şuranın vəzifəsi də gündəlik və perspektiv məsələlərin həllində professionalların iştirakını təmin etməkdir.

Bundan sonra Azərbaycan Respublikası Elmi Texniki Kitabxanasının əsasnaməsi hazırlanıb təsdiq edilmişdir. Kitabxananın əsasnaməsinə uyğun olaraq, bütün digər struktur bölmələrin əsasnamələri işlənib hazırlanmış, həmçinin işçilərin iş bölgüsü müəyyənləşdirilərək hər bir əməkdaşın tutduğu vəzifəyə görə konkret vəzifəsi dəqiqləşdirilmişdir.

İlk günlərdən əməkdaşların hüquqlarının qorunmasına önəm verilmiş, işə qəbul edilmiş bütün işçilərlə əmək müqaviləsi bağlanaraq, onlara hüquq və vəzifələri izah edilmişdir. Məzuniyyətlərin, iş normasının, istirahət günlərinin düzgün verilməsi, əməyin müvafiq qaydada ödənilməsi, təhsil alan işçilərə və azyaşlı uşağı olan qadınlara güzəştlərin edilməsi və s. sahələrdəki mövcud nöqsanlar tez bir zamanda aradan qaldırılmış, hazırkı qanunların tələblərinə istinad edilmişdir. Kitabxanada işə daha peşəkar, daha savadlı kadrlar qəbul edilmişdir ki, onlar da səmərəli iş üsulları ilə rəhbərliyin etimadlarını doğrultmuşlar.

Ölkəmizin daxili və xarici siyasətini, bu siyasətdə ölkə rəhbərliyinin uğurlu addımlarını, əhalinin sosial rifahı sahəsindəki durmadan və ardıcıl həyata keçirilən tədbirləri, elmə və elm xadimlərinə dövlətin göstərdiyi diqqət və qayğını daim müşahidə edən kitabxana kollektivi hər şeyi düzgün ayırd edərək, 2003-cü ilin 15 oktyabrında keçirilən prezident seçkilərinə böyük ruh yüksəkliyi ilə qatılmış, ən ağıllı seçim etməklə qəti olaraq İlham Əliyevi dəstəkləmiş, ona səs vermişlər.

Seçkilərdə İ.Əliyevin uğurlu qələbəsindən sonra kitabxananın bir qrup işçisi "Uğurlu seçki strategiyası" adlı fundamental biblioqrafik məlumat kitabının hazırlanması istiqamətində işə başlamışdır.

Bu məlumat kitabı prezident seçkilərində qalib gəlmiş İ.Əliyevin seçki marafonu dövründəki çıxışı, məruzələri, görüşləri ilə bağlı mənbələri toplayıb oxuculara təqdim etmək məqsədi ilə hazırlanır.

Perspektiv iş planının tərkib hissəsi kimi kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərin əmək şəraitinin yüksəldilməsi sahəsində az bir zamanda çoxlu işlər görülmüşdür. Məsələn, "8-ci kilometr" adlanan sahədə yerləşən Respublika Patent Fondunun binası Avropa standartları səviyyəsində əsaslı təmir olunmuş, əməkdaşların rahat və məhsuldar işləmələri üçün yeni mebel dəstləri alınmış, iş otaqları kondisionerlərlə, televizor və yeni tipli kompüterlərlə təchiz edilmişdir.

RETK-nın əsas binası da təmir edilmiş, kitab fondlarında və kabinetlərdə işıqlandırma və istilik sistemləri mövcud sanitar-texniki tələblərə uyğun olaraq yenidən quraşdırılmışdır. Nahar zamanı və asudə vaxtlarında işçilərin istirahəti və oxucuların istədikləri vaxt dincəlməsi üçün binanın ətrafında abadlıq işləri aparılmış, xüsusi mədəni istirahət kompleksi yaradılmışdır. Kitabxana üçün alınan yeni kompüterlər və surətçixarma-surətçoxaltma avadanlıqları oxuculara xidmətin səmərəli təşkilində mühüm əhəmiyyət kəsb edir.

2004-cü ilin aprel ayında agentliyin tövsiyələri və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin nəzdində RETK-nın filialının bazasında Naxçıvan Muxtar Respublikasının Elmi Texniki Kitab-xanası yaradılmış və bu kitabxana öz fəaliyyətində RETK-nın qabaqcıl iş təcrübəsini əsas götürmüşdür. Bu, respublikamızın mədəni həyatında çox mühüm hadisə hesab edilə bilər.

RETK-nın Gəncə şəhərində yerləşən filialının da maddi-texniki bazasının təkmilləşdirilirməsi və yeni ədəbiyyatla təchiz edilməsi diqqətdən kənarda qalmamışdır. 2005-ci ilin avqust ayında Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Gəncə şəhər şöbəsinin inzibati binasında kitabxana üçün geniş otaqlar ayrılaraq təmir edilmiş və kitabxananın istifadəsinə verilmişdir. Bu da öz

növbəsində həmin kitabxananın işçilərinin tabeliyində olduqları müvafiq şöbənin əməkdaşlarına daha yaxından, operativ xidmət etmək imkanı vermişdir.

Uzun illər boyu keçmiş sovet respublikaları ilə pozulmuş əlaqələrin bərpası yolunda mühüm addımlar atılmışdır. Rusiyanın Elmi Texniki Kitabxanası və digər elm mərkəzləri ilə ənənəvi əməkdaşlığın bərpa edilməsi, habelə belə bir əməkdaşlığın qonşu Gürcüstanla yaradılması məqsədilə həmin respublikalara əməkdaşlar ezam olunmuş, birgə planlar hazırlanmışdır. Belə əməkdaşlığın nəticəsidir ki, RETK dəfələrlə beynəlxalq fondlardan, habelə Rusiya və Ukraynadan yeni-yeni müxtəlif nəşrləri alaraq öz fonduna daxil etmişdir.

Respublikamızda və ölkədən kənarda müvafiq sahələr üzrə yeni nəşr edilən kitabların və digər çap məhsullarının alınıb oxucuların istifadəsinə verilməsi işi ən vacib məsələlərdən olduğuna baxmayaraq, maliyyə çətinliyi üzündən 90-cı illərin əvvəllərində olduqca az miqdarda ədəbiyyat daxil olmuşdur. 2003-cü ildən yeni ədəbiyyatın alınması qaydaya salınmışdır.

Kitabxanada son dövrlər biblioqrafik fəaliyyətin aktivləşməsi prosesi baş vermiş, oxucu sorğularının daha dərindən təhlili onlara göstərilən biblioqrafik xidmətin və biblioqrafik materialların daha yüksək tələblərə cavab verəcək səviyyəyə qaldırılması zərurətini yaratmışdır. Son iki il ərzində kitabxananın rəhbərliyi və biblioqrafların əməyi sayəsində doqquz adda nəzəri-metodik və biblioqrafik nəşr çap edilmişdir. Həmin vəsaitlər bunlardan ibarətdir:

1. Azərbaycanda biblioqrafiyanın biblioqrafiyası Biblioqrafik vəsaitlərin göstəricisi - B.: Mütərcim, 2003.-112 s.
2. Xəzər dənizi və neft (1954-2002): Biblioqrafik göstərici / Tərt.ed.N.İ.İsmayılov.-B.: Mütərcim, 2003.-48 s.
3. Azərbaycan biblioqrafiyasının canlı salnaməsi / Tərt. ed. N.İ.İsmayılov.- B.: Mütərcim, 2003.- 96 s.
4. Исмайлов Н.И. Библиотечно-библиографические и информационные ресурсы Азербайджанской Республики: состояние и пути совершенствования.B.: Mütərcim, 2003.-136 c.
5. Respublika Elmi Texniki Kitabxanasına daxil olmuş nəşrlərin biblioqrafik informasiya göstəricisi (1990-2003).- B., 2004.-32 s.

6. İsmayılov N.İ. və Hacıyeva Q.S. Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) və biblioqrafik fəaliyyət. B.: Mütərcim, 2004.-112 s.

7. Biblioqrafiyanın biblioqrafiyası: Biblioqrafik göstərici (1996-2000) / Tərt. ed.: pedaqoji elmlər namizədi N.İ.İsmayılov.-B.: Mütərcim, 2004.-12 s.

8. İsmayılov N.İ. və Vəzirova R.Ə. Biblioqrafik tərtibatın metodikası.-B., 2004.- 56 s.

9.İsmayılov N.İ. Elmi-təbii ədəbiyyatın biblioqrafiyası.-B., 2004.- 78 s.

Bu vəsaitlər geniş oxucu kütləsi və kitabxana işi sahəsində çalışan əməkdaşlar, tələbə və müəllimlər üçün əvəzedilməz bir mənbədir və gələcək nəsillərə də öz qiymətli köməyini göstərəcəkdir.

Kitabxana hazırda ölkədə gedən sosial-siyasi və iqtisadi islahatlara uyğun olaraq sahibkarlığın informasiya təminatının təşkili sistemində mühüm yer tutur.

## 2.11. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kitabxanası

Müstəqillik illərində Azərbaycan Respublikasının mədəni həyatında çox mühüm hadisə baş verdi. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kitabxanası (ARPİİK) və Azərbaycan Respublikası Milli Məclisinin Parlament Kitabxanası yaradıldı. Hər iki kitabxana Azərbaycanın müstəqilliyinin yadigarıdır. Çünki dünyanın bütün müstəqil dövlətlərinin tarixinə nəzər saldıqda məlum olur ki, müstəqil dövlətlərin atributları sırasında prezident kitabxanaları və parlament kitabxanaları mühüm yer tutur. Prezident Aparatının və Parlamentin strukturuna daxil olan bu kitabxanalar öz statusu etibarilə dövlət kitabxanalarıdır.

XX əsrdə Azərbaycan ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra kitabxana işinə olduqca böyük qiymət verən, onu xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik,

zəka mənbəyi adlandıran ümummilli liderimiz Heydər Əliyev kitabxana işini dövlət işi hesab edir, onun ümumxalq qayğısı ilə əhatə edilməsini lazım bilirdi. O deyirdi: “Kitabxanaya daimi hörmət xalqımızın” mənəviyyatını nümayiş etdirən amillərdən biridir”.

Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Kitabxanasının yaradılması ideyasını irəli sürən ulu öndər dövlət aparatında çalışan işçilərə yüksək kitabxana-informasiya xidməti göstərmək, dövlətin qəbul etdiyi bütün fərmanları, qanunları, əsasnamə və sərəncamları, digər dövlət sənədlərini toplamaq, qorumaq və saxlamaq üçün Prezident Kitabxanasının yaradılmasını lazım bilmişdi. Ulu öndərimizin bilavasitə xeyir-duası ilə yaradılan Prezident Kitabxanası öz fondunun zənginliyi, oxuculara xidmət işinin yeni forma və üsulları, müasir kitabxana-informasiya texnologiyası ilə təmin edilməsi cəhətdən hazırda respublikamızda çox mühüm mədəni, elmi və informasiya əhəmiyyəti kəsb edən bir kitabxanaya çevrilmişdir. Kitabxana 2003-cü ildə Bakı şəhərinin iki ən qədim kitabxanasının: Mərkəzi Şəhər Kitabxanasının (keçmiş Lenin adına kitabxana) və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi təsərrüfat şöbəsi nəzdində olan kitabxananın (keçmiş Siyasi Maarif Evinin Kitabxanası) bazasında təşkil edilmişdir.

Məlumdur ki, tezliklə fəaliyyətə başlamalı olan kitabxananı “quru yerdə” yaratmaq mümkün olmadığından Prezident Aparatı tərəfindən işçi qrupu təşkil edilmiş və bu işçi qrupunun qarşısında kitabxana üçün bina müəyyənləşdirmək, az bir müddətdə kitabxana fondunu təkmilləşdirmək, onu işlək hala salmaq vəzifəsi qoyulmuşdu. İşçi qrupu müəyyən axtarışdan və araşdırmalardan sonra Prezident Kitabxanasını Bakı Şəhər Mərkəzi Kitabxanasının bazasında və binasında təşkil etməyi məsləhət bildi. Mən bir kitabxana mütəxəssisi kimi qeyd etməliyəm ki, bu, çox düzgün seçim oldu. Belə ki, Bakı Şəhər Mərkəzi Kitabxanası şəhərimizin ən qədim və zəngin kitabxanası olduğundan onun zəngin bədii ədəbiyyat fondu ilə yanaşı çox nadir tarixi kitablar fondu, Bakı kitabxanalarının heç birində olmayan incəsənət əsərləri fondu var idi.

İkinci tərəfdən kitabxananın şəhərin lap mərkəzində gözəl arxitektura nümunəsi olan yaraşıqlı binası var idi. Düzünü desək, 200 ildən artıq tarixi olan bu bina uzun müddət təmir edilmədiyindən, baxımsızlıq üzündən qəza vəziyyətində idi. İşçi qrupu bu binanın bərpası üçün vəsait almağa müvəffəq oldu. Bina əsaslı surətdə yenidən quruldu, müasir kitabxana binası halına gətirildi. Bunu işçi qrupunun böyük xidməti hesab etmək olar. Belə bir cəhəti də xüsusilə qeyd etmək istəyirəm ki, işçi qrupu çox haqlı olaraq kitabxananı ancaq Prezident Aparatı işçilərinin yox, bütün oxucuların üzünə açdı ki, bu da respublikamızda müstəqillik dövründə kitabxana işinin demokratik əsaslar üzərində qurulmasına bariz sübutdur. Kitabxananın nadir arxitektura nümunəsi hesab edilən üçmərtəbəli binası müasir Şərq üslubunda və tikinti texnologiyasının son nailiyyətləri əsasında yüksək zövqlə təmir edilmiş, dünya standartlarına cavab verən kitabxana binası halına gətirilmişdir. Burada oxucuların tələbatına müvafiq zallar: incəsənət ədəbiyyatı zalı; böyük oxu zalı; xüsusi zal; internet zalı; neft və kütləvi ədəbiyyat zalı; nadir kitablar zalı; müxtəlif mədəni-kütləvi tədbirlər, mühazirələr, elmi seminarlar, dəyirmi stollar, görüşlər mətbuat konfransları, sərgilər, disputlar, təqdimatlar keçirmək üçün qədim Şərq memarlıq üslubunda işlənmiş, hər cür avadanlıqla, qiymətli mebellərlə təchiz edilmiş 100 nəfərlik konfrans zalı yaradılmışdır. İki kitabxananın kitab fondunun birləşdirilməsi nəticəsində zəngin və nadir fond yaradılmışdır. Hazırda fondda 400 min nüsxəyə yaxın kitab vardır. Maliyyə cəhətdən böyük imkanlara malik olan kitabxana komplektləşmə planına uyğun olaraq öz fondunu yeni kitablarla ardıcıl olaraq komplektləşdirməyə nail olunmuşdur.

1999-cu ildə prezident Heydər Əliyev tərəfindən imzalanmış “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununa görə, kitabxanaya Azərbaycanda nəşr edilən bütün kitablardan öz profilinə uyğun pulsuz məcburi nüsxə almaq hüququnun verilməsi fondun yerli nəşrlərlə davamlı komplektləşdirilməsinə şərait yaratmışdır. Kitabxana həmçinin öz fondunu komplektləşdirmək üçün xarici nəşrlərin əldə edilməsinə xüsusi diqqət yetirir ki, bu da xarici ədəbiyyat fondunun

zənginləşməsi üçün əlverişli şərait yaradır. Kitabxananın xarici ədəbiyyat fondunda kitabların sayı 50 min nüsxəyə çatıb. Kitabxananın çox düşünülmüş komplektləşdirmə planı vardır. Bu plana uyğun olaraq komplektləşdirmə zamanı əsas üstünlük siyasətə, hüquqa, tarixə, iqtisadiyyata, qanunvericiliyə, azərbaycanşünaslığa dair ədəbiyyatın komplektləşdirilməsinə verilir. Çox düzgün olaraq kitabxanada nadir kitablar fondu yaradılmışdır. Bu fondda hazırda demək olar ki, dünyanın bütün xalqlarının dillərində 4 mindən artıq kitab toplanmışdır. Kitabxana oxucuların arzu və sorğularını nəzərə alaraq geniş dövri mətbuat fondu yaratmağa nail olmuşdur. Kitabxananın Azərbaycanda nəşr edilən dövri mətbuatla yanaşı, xarici ölkələrdə nəşr edilən dövri mətbuatı da alması dövri ədəbiyyat fondunun əhəmiyyətini xeyli artırmış, geniş oxucuların tələbatını ödəməyə müvəffəq olmuşdur. Hazırda fondda 200 addan artıq qəzet və jurnalların komplektləri toplanmışdır.

Kitabxananın qarşısında Azərbaycan Respublikası Prezidenti İcra Aparatının, Katibliyinin, İşlər İdarəsinin və digər mərkəzi icra orqanlarının, həmçinin xalq təsərrüfatının, mədəniyyətin müxtəlif sahələrində çalışan görkəmli alimlərə, mütəxəssislərə, yaradıcı ziyalılara xidmət üçün kitabxana-biblioqrafiya və informasiya bazası yaratmaq, müasir kitabxana-informasiya texnologiyasını tətbiq etməklə kitabxana işini kompüterləşdirmək kimi çox mühüm bir vəzifə qoyulmuşdur. Kitabxana həmçinin Azərbaycan dövlətçiliyinin, milli ideologiyanın, azərbaycançılığın təbliğat mərkəzi kimi ümummilli liderimiz Heydər Əliyevin zəngin irsinin toplanıb saxlanılmasında və təbliğində mühüm rola malikdir. Bu mühüm vəzifələri yerinə yetirmək üçün kitabxanada bu şöbələr yaradılmışdır:

* Prezident və dövlət idarəçiliyi şöbəsi
* Heydər Əliyev fondu
* Azərbaycanşünaslıq şöbəsi
* Xarici ədəbiyyat fondu
* İncəsənət ədəbiyyatı fondu
* Dövri mətbuat fondu
* Kitab verilişi (abonement) şöbəsi

* Biblioqrafiya və informasiya şöbəsi
* Kitabxana işinin avtomatlaşdırılması şöbəsi
* Komplektləşdirmə və kitabişləmə şöbəsi
* Kütləvi tədbirlər şöbəsi.

Bu şöbələr yaradılarkən kitabxananın qarşısında duran bütün vəzifələr nəzərə alınmış, hər bir şöbənin vəzifələrini müəyyənləşdirən nizamnamələr, normativ sənədlər tərtib edilmiş, hər bir şöbə öz profilinə uyğun olan mütəxəssis kadrlarla komplektləşdirilmişdir. Məlum olduğu kimi, hər bir kitabxananın işi, onun müvəffəqiyyətləri kadr korpusundan olduqca çox asılıdır. Məhz buna görə Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin rəhbərliyi bu işə xüsusi əhəmiyyət vermiş, kadr seçərkən tələsməmiş, respublikanın ən yaxşı kitabxana və informatika mütəxəssislərini seçib yerləşdirməyə müvəffəq olmuşdur. Həmçinin kitabxananın işinə siyasətçilər, sosioloqlar, iqtisadçılar, humanitar elm sahəsinin səriştəli mütəxəssisləri cəlb edilmişdir ki, bütün bunlar birlikdə kitabxananın qarşısında duran çox mürəkkəb problemlərin həyata keçirilməsinə qadirdirlər.

Kitabxanaya Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin yetişdirməsi, respublikamızın bacarıqlı kitabxana təşkilatçılarından biri olan Mayıl Əhmədov başçılıq edir.

Yaxın zamanlardan fəaliyyət göstərən bu gənc kollektiv kitabxananı müasir tələbata, dünya standartlarına uyğun formalaşdırmağa, oxuculara xidmət işini günün tələbləri səviyyəsində təşkil etməyə müvəffəq olmuşdur. Hazırda kitabxana Prezident Aparatının işçiləri, dövlət məmurları ilə yanaşı olaraq demək olar ki, kitabxanadan istifadə üçün müraciət edən bütün ziyalılara xidmət edir.

Bəşəriyyətin informasiya əsri kimi qəbul etdiyi XXI əsr kitabxanaların qarşısında olduqca mühüm, keyfiyyətcə yeni vəzifələr qoymuşdur. Müasir kitabxanalar ənənəvi kitabxanaçılıq təcrübəsi ilə kifayətlənməməli, oxuculara xidmət işini informasiya cəmiyyətinin tələbləri səviyyəsinə yüksəltmək üçün dünya informasiya məkanına daxil olmağı, ümumbəşəri intellectual potensialdan operativ istifadə etmək

imkanlarını yaratmağı bacarmalıdır. Bu məqsədlə kitabxanada müasir informasiya texnologiyası tətbiq edilməli, kitabxana işinin informasiyalaşdırılması və informasiya mühitinin yaradılması üçün şərait hazırlanmalıdır. Bu da hər şeydən əvvəl kitabxana işinə müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqini tələb edir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2003-cü ilin dekabrında Cenevrədə informasiya cəmiyyəti problemlərinə həsr edilmiş Ümumdünya sammitindəki çıxışında ölkəmizdə informasiya texnologiyalarının inkişafını dövlətimizin prioritet vəzifələrindən biri hesab etmişdir. Məhz buna görə dövlət kitabxanası kimi fəaliyyətə başlayan Prezident Kitabxanası öz işini dünya standartlarına cavab verə biləcək səviyyədə qurmaq üçün kitabxana işinin avtomatlaşdırılmasını ön plana çəkmiş, kitabxana işini kompleks halda kompüterləşdirməkdən ötrü avtomatlaşdırılmış sistem tətbiq etmişdir. Kitabxana bu məqsədlə geniş araşdırmalar aparmış, dünya kitabxanalarında tətbiq edilmiş sistemləri öyrənmiş, respublikamızın şəraitinə, xüsusilə kitabxananın öz şəraitinə uyğun olanını seçmişdir. Kitabxana öz daxili imkanlarını, sistemin tətbiqinin səmərəliliyini nəzərə alaraq 2004-cü ilin may ayında MDB məkanında geniş yayılmış avtomatlaşdırılmış sistemi (İRBİS-64) tətbiq etməyi məqsədəmüvafiq hesab etmişdir.

Məlum olduğu kimi, bu sistem Rusiya Dövlət Elmi Texniki Ümumi Kitabxanası tərəfindən tətbiq edilmiş, onun müxtəlif variantları Rusiyanın və bir sıra xarici ölkələrin kitabxanalarında müvəffəqiyyətlə tətbiq edilməkdədir. Kitabxanalarda tətbiqi-təcrübi baxımdan olduqca asan olan bu sistem bütün beynəlxalq standartlara cavab verir. Sistem həmçinin beynəlxalq biblioqrafik standartlara və formatlara uyğunlaşdırılmışdır. Bu sistemin qəbul edilməsi kitabxananın kompleks kompüterləşdirilməsinə və kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına şərait yaratmışdır.

Kitabxana respublikamızda İRBİS-64 sistemini ilk dəfə qəbul edən kitabxana olduğundan bu sahədə böyük təcrübə toplamış və bu sistemi

sonradan qəbul edən Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası və digər kitabxanalarla təcrübə mübadiləsi aparmışdır. Hazırda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi də öz kitabxana şəbəkəsində İRBİS-64 sistemini qəbul etməyə başlamışdır. Respublikamızda bu sistemin geniş surətdə tətbiqi ölkəmizdə kitabxana işinin əlaqələndirilməsi və birləşdirilməsi üçün geniş perspektivlər aça bilər.

Prezident Kitabxanası bu proqram vasitəsilə respublikada ilk dəfə oxuculara məsafədən xidmət etməyə başlamışdır. Kitabxanada İnternet oxu zalı yaradılmışdır. 14 oxucu yeri olan və İnternetə daimi çıxışı olan bu zalın xidmətindən oxucular geniş surətdə istifadə edirlər. Həmçinin kitabxananın bütün başqa zallarında oxucuların həm də öz avadanlığı (notebook) vasitəsilə İnternetə çıxış imkanları təmin edilmişdir. 2003-cü ildə kitabxanada elektron kataloqun yaradılmasına başlanmışdır. Elektron kataloqu İRBİS proqramına müvafiq yaradılır və oxuculara kitabxanadan məsafədən istifadə etmək imkanı verir. Bu proqram vasitəsilə kitabxana qısa müddətdə 15 adda biblioqrafik informasiya göstəricisi (bülleteni), tammətnli elektron və çap nəşrləri hazırlamışdır. Misal olaraq bunları göstərmək olar: "Azərbaycanı dünyaya tanıdan lider"; "Azərbaycan Respublikasının prezidenti. Gündəlik fəaliyyətinin xronikası"; "İlham Əliyev və Azərbaycanın neft diplomatiyası"; "Əsrin müqaviləsi-10 il"; "Azərbaycan Olimpiya hərəkatı"; "Sülh Məramlı Səfir"; "Yeni kitablar" və s.

Yüksək səviyyədə tərtib edilmiş bu göstəricilərdə ən mühüm ədəbiyyat öz əksini tapmışdır. Bu nəşrlər qısa müddət ərzində Prezident Aparatı işçilərinin, dövlət qulluqçularının, həmçinin kitabxananın bütün oxucularının geniş rəğbətini qazanmışdır. Tərtib edilmiş biblioqrafik göstəricilərdən və tammətnli elektron mətnlərdən oxucuların kitabxananın saytı vasitəsilə istifadə edə bilməsi onun praktik əhəmiyyətini xeyli artırmışdır.

Kitabxana 2003-cü ildən başlayaraq biblioqrafık informasiya göstəriciləri ilə yanaşı, yeni daxil olan kitablar, jurnallar və digər materiallar əsasında cari biblioqrafik göstəricilər də nəşr edir. Belə göstəricilərə "Yeni kitablar"; "Azərbaycan Respublikası Prezidentinin

fəaliyyətinin xronikası"; "Azərbaycanın görkəmli şəxsiyyətləri"; "İlham Əliyev və Azərbaycanın neft diplomatiyası" və s. misal göstərmək olar. Həmin göstəricilərlə və kitabxananın digər nəşrləri ilə İnternet vasitəsilə kitabxananın saytında tanış olmaq mümkündür. Həmçinin yaxın vaxtlarda kitabxananın İnternet saytına Azərbaycan Respublikası qanunlarının mətnini, Azərbaycan Respublikasının Prezidentinin fərmanlarını, digər mühüm sənədləri və məqalələri daxil etmək nəzərdə tutulmuşdur.

Kitabxana ardıcıl olaraq oxuculara xidməti təkmilləşdirmək üçün müasir kitabxana-informasiya xidmətinin yeni forma və üsullarından istifadə etməyə üstünlük verir. Yeni iş üsulları təcrübədə sınaqdan keçirilir, ən yaxşıları seçilir və kitabxana işinə tətbiq edilir.

Kitabxana-informasiya xidmətini daha da təkmilləşdirmək məqsədi ilə üç işçi qrupu yaradılmış, qruplara ən təcrübəli və xidmət prosesini yaxşı bilən mütəxəssislər cəlb edilmişdir. Qrupların qarşısına ənənəvi kitabxana xidməti ilə yanaşı olaraq bu mühüm işə yeni kitabxana-informasiya texnologiyasını və metodlarını tətbiq etmək vəzifəsi də qoyulmuşdur.

Həmin qruplar bunlardır:

1. Azərbaycanşünaslıq qrupu;
2. Yeni kitabxana-informasiya texnologiyasının tətbiqi qrupu;
3. Biblioqrafik-analitik nəşrlərlə iş qrupu.

Məlumdur ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə azərbaycanşünaslığın, milli ideologiyanın, azər-baycançılığın öyrənilməsinə, xüsusilə azərbaycanşünaslığın iqtisadi, sosioloji və politoloji aspektlərinin dərindən tədqiq edilib öyrənilməsinə böyük tələbat əmələ gəlmişdir. Oxucular Azərbaycan tarixinə, iqtisadiyyatına, elminə, mədəniyyətinə dair əsərlərə və müstəqillik dövründə yeni təfəkkür tərzi, yeni milli ideologiya baxımından yazılmış əsərlərin öyrənilməsinə ciddi maraq göstərirlər. Bu baxımdan Prezident Kitabxanasında "Azərbaycanşünaslıq" şöbəsinin təşkili təqdirəlayiq hadisədir. Şöbədə Azərbaycanın tarixini, iqtisadiyyatını, siyasətini, mədəniyyətini yaxşı bilən yüksək ixtisaslı mütəxəssislərin toplanması azərbaycanşünaslığın mühüm bir sahə kimi öyrənilməsinə, təbliğ edilməsinə, oxuculara çatdırılmasına, oxucu sorğularının ödənilməsinə böyük təsir edir. Şöbə bu məqsədlə azərbaycanşünaslığa dair yeni ədəbiyyatı izləyir, onun əldə edilməsini təmin edir, oxuculara, xüsusilə Prezident Aparatının işçilərinə çatdırmaq, vaxtlı-vaxtında onları məlumatlandırmaq üçün kitab icmalları, biblioqrafik göstəricilər, tövsiyə siyahıları hazırlayır. Şöbə həm-

çinin dövri mətbuat materiallarının toplanılmasını və azərbaycanşünaslığın ayrı-ayrı sahələrinə dair biblioqrafik siyahıların tərtib edilməsini, məqalələr toplusu qovluqlarının yaradılmasını təmin edir. Şöbənin işçiləri kitabxana işinin avtomatlaşdırılması şöbəsi ilə birlikdə tərtib etdiyi materialların elektron variantını hazırlayır. Göstərilən materialların və sənədlərin ki-tabxananın İnternet saytma daxil edilməsi onun elmi əhəmiyyətini daha da artırır. Bütün bu işlərdə kitabxanada yeni yaradılmış kitabxana-informasiya texnologiyası işçi qrupu da yaxından iştirak edir. Həmçinin bu qrup kitabxananın bütün şöbələrində kitabxana-informasiya texnologiyasının tətbiqi məsələlərini öyrənir, hər bir şöbənin xüsusiyyətlərinə müvafiq onların tətbiqi üçün metodlar hazırlayıb həyata keçirir. Kitabxanada fəaliyyət göstərən biblioqrafik-analitik işçi qrupu ənənəvi biblioqrafik fəaliyyətlə elektron biblioqrafik fəaliyyəti əlaqələndirir, ənənəvi biblioqrafik materialların elektron variantını hazırlayır və kitabxanada oxuculara biblioqrafik fəaliyyətin yeni metodlarını və üsullarını hazırlayır.

Beləliklə, Prezident Kitabxanasının kollektivi kiçik bir zaman kəsiyində kitabxananın təşkili, idarə edilməsi, oxuculara xidmətin təşkili, müasir kitabxana-informasiya texnologiyasının tətbiqi sahəsində böyük uğurlar qazanmış, respublikamızın mühüm elm və mədəniyyət mərkəzinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Prezident Kitabxanasının əldə etdiyi nailiyyətlər dövlətimizin başçısı prezident İlham Əliyevin son dövrlərdə Heydər Əliyev ideyalarının ardıcıl olaraq həyata keçirilməsinə parlaq sübutdur.

## 2.12. Azərbaycan Respublikası Milli Məclisinin Kitabxanası

Müstəqillik illərində respublikamızın əldə etdiyi mədəni nailiyyətlərdən biri də Azərbaycan Respublikası Parlament Kitabxanasının yaradılmasıdır. Parlament Kitabxanasının yaradılmasının təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Heydər Əliyev Milli Məclisin sədri olarkən Parlament Kitabxanası yaradılması ideyasını irəli sürmüş və kitabxananın təşkili üçün hazırlıq işlərinin aparılmasını Milli Məclis aparatına tapşırmışdır.

1994-cü ildən başlayaraq kitabxananı təşkil etmək, onun statusunu, vəzifələrini və strukturunu müəyyənləşdirmək üçün müxtəlif fikirlər, rəylər və layihələr meydana çıxdı. Nəhayət, "Azərbaycan" qəzetinin 1994-cü il 26 oktyabr tarixli sayında Milli Məclisin deputatı Xeyrulla Əliyevin "Azərbaycan Respublikasının Parlament Kitabxanası haqqında" qanunvericilik təşəbbüsü qaydasında tərtib etdiyi qanunun layihəsi müzakirə üçün çap edildi. Qanun layihəsi birmənalı qarşılanmadı. Milli Məclisin deputatları, ziyalılar və kitabxana mütəxəssisləri tərəfindən ciddi tənqid edildi, onun yenidən işlənməsi və müəllif tərəfindən irəli sürülən bir çox səhv müddəaların layihədən çıxarılması məsləhət görüldü. Bu layihənin qeyri-qənaətbəxş tərtib edilməsi haqqında görkəmli mütəxəssislərdən Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, Əməkdar elm xadimi, professor Abuzər Xələfovun və kafedranın dosenti Rasim Kazımovun "Azərbaycan" qəzetinin 14 dekabr 1994-cü il sayında "Parlament Kitabxanası necə olmalıdır" adlı yazısı çıxdı. Bu yazıda Parlament Kitabxanasının M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının bazasında yaradılması və ona Parlament Kitabxanası statusu verilməsi haqqında layihə müəllifinin qeyri-elmi, yanlış fikri yolverilməz hesab edilirdi. Məqalə müəllifləri parlament kitabxanasının yaradılması fikrini alqışlayır, ona dövlət kitabxanası statusuna bərabər statusun verilməsini lazım bilirdilər. Bu kitabxana bütün dünyada olduğu kimi müstəqil olmalı, Milli Məclis

aparatı işçilərinin, mütəxəssislərin, millət vəkillərinin kitabxana-informasiya tələbatını tam və operativ şəkildə ödəmək vəzifəsini öz qarşısında qoymalı idi.

Milli Məclis deputatların, mütəxəssislərin, kitabxana ictimaiyyətinin tənqidi qeydlərini nəzərə alaraq qanun layihəsini qəbul etmədi. Onun yenidən işlənilməsini və müstəqil parlament kitabxanasının yaradılmasını lazım bildi. Parlament Kitabxanası haqqında qanunun yeni layihəsini hazırlamaq üçün üç nəfərdən ibarət komissiya yaradıldı. Bu komissiyaya Milli Məclisin deputatı Xeyrulla Əliyev, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfov və M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının direktoru Leyla Qafurova daxil edildilər. Komissiya qısa müddət içərisində qanun layihəsini işləyib təsdiq üçün Milli Məclisə verdi. Qanun layihəsi Milli Məclisdə 1997-ci ildə müzakirə edildi. Milli Məclis müzakirəyə təqdim edilən layihənin qanun kimi yox, kitabxananın nizamnaməsi kimi qəbul edilməsini məsləhət bildi. Beləliklə, Parlament Kitabxanasının nizamnaməsinin Milli Məclis tərəfindən təsdiqi kitabxananın hüquqi bazasının yaradılması üçün zəmin yaratdı.

Nizamnamədə kitabxananın statusu, strukturu, vəzifələri müəyyənləşdirildi. Kitabxanaya Milli Məclis aparatının işçilərinə, mütəxəssislərə, ekspertlərə və Milli Məclis deputatlara kitabxana-informasiya xidməti göstərən elmi kitabxana statusu verildi. Kitabxana ilk növbədə öz fondunda qanun yaradıcılığı üçün zəruri olan hüquqşünaslığa və qanunçuluğa dair ədəbiyyatı; beynəlxalq hüquqi ədəbiyyatı, qanunlar külliyatını, məlumat kitablarını; ayrı-ayrı ölkələrin ensiklopediyalarını, lüğətləri, sahəvi ensiklopediyaları toplamalı, qanun yaradıcılığının informasiya bazası kimi fəaliyyət göstərməli idi.

Kitabxananın təşkilinin təxirəsalınmaz olduğunu nəzərə alan Milli Məclisin rəhbərliyi qısa zamanda işçi qrupu yaratdı. İşçi qrupunun qarşısında kitabxananı tezliklə formalaşdırmaq vəzifəsi qoyuldu. Kitabxana Milli Məclisin yanında olan kiçik qiraətxananın bazasında formalaşmağa başladı. Milli Məclisin sədri, professor Murtuz Ələsgərov kitabxananın təşkilinə, onun maliyyəbşdirilməsinə xüsusi qayğı göstərirdi. Tezliklə kitabxana üçün Milli Məclisin binasında geniş otaqlar

ayrıldı, kitabxana avadanlığı və kitabxana-informasiya işinin texniki vasitələri və kompüterlərlə təmin edildi. Kitabxana fondunu komplektləşdirmək üçün lazımi qədər vəsaitin ayrılması az müddət ərzində fondun formalaşmasına şərait yaratdı.

Milli Məclis Milli Kitabxanaya, respublika əhəmiyyətli kitabxanalara, elmi kitabxanalara və ali məktəb kitabxanalarına müraciət edərək onlarda olan əlavə nəşrlərin, xüsusilə hüquqşünaslığa və qanunçuluğa aid nəşrlərin və məlumat ədəbiyyatının Milli Məclis Kitabxanasına verilməsini xahiş etdi.

Respublika kitabxanalarının köməyi nəticəsində qısa müddət içərisində kitabxana fondunda xeyli ədəbiyyat toplandı. Həmçinin 1999-cu ildə Milli Məclis "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Bu qanunun 15-ci maddəsinə əsasən Parlament Kitabxanasına profilinə uyğun iki pulsuz məcburi nüsxə almaq hüququ verildi. Beləliklə, Parlament Kitabxanasını respublikamızda nəşr edilən yeni ədəbiyyatla ardıcıl komplektləşdirmək imkanı yaradıldı.

Kitabxananın təşkilində Türkiyə Respublikasının Böyük Millət Məclisinin mühüm rolu olmuşdur. TBMM-in Kitabxanası Azərbaycan Parlament Kitabxananın təşkilinə mühüm metodik köməklik etmiş, qiymətli hüquqi kitablar və qanunvericilik külliyatlarını kitabxanaya bağışlamış, həmçinin müasir kitabxana-informasiya avadanlığı, stollar, stullar, kitab rəfləri, ən mühümü isə yeni tipli kompüterlər hədiyyə etmişdir.

1997-ci ilin mart ayında Parlament Kitabxanasının rəsmi açılışı oldu. Kitabxananın açılışında TBMM-in sədri Mustafa Qələmli iştirak etmiş, Azərbaycan Milli Məclisi Kitabxanasının açılışını mühüm hadisə kimi qiymətləndirmiş, bu münasibətlə xalqımızı təbrik etmiş və öz xoş arzularını bildirmişdir.

Hazırda kitabxananın fondunda 5 minə qədər kitab vardır. Bu kitabların 2500 nüsxəsi Azərbaycan, 1200 nüsxəsi rus, 800 nüsxəsi isə türk dilindədir. Digər xarici dillərdə isə ədəbiyyat azdır. Kitab fondu məcburi nüsxələr və yeni ədəbiyyatın alınması yolu ilə komplektləşdirilir. Kitabxana dövri mətbuatla komplektləşmə işinə ciddi fikir verir. 2005-ci ildə kitabxana 42 adda qəzetə, 52 adda jurnala abunə yazılmışdır. Qəzet və jurnallar fondunun genişlənməsinə böyük ehtiyac duyulmaqdadır.

Deputatların əksəriyyəti bu fonddan istifadə etməyə maraq göstərirlər.

Kitabxana fondunun 80 faizini hüquqi ədəbiyyat və məlumat ədəbiyyatı təşkil edir. Fond az da olsa bədii ədəbiyyatla da komplektləşdirilir. Kitabxananın daimi oxucuları Milli Məclis aparatının işçiləri və deputatlardır. Onlarm sayı 200 nəfərə yaxındır. Kitabxana oxucuların sorğusu əsasında ədəbiyyatın əldə edilməsinə çalışır. Xüsusilə deputatlar qanun yaradıcılığı ilə əlaqədar çox mürəkkəb sorğularla kitabxanaya müraciət edirlər. Kitabxananın işçiləri biblioqrafik və informasiya vasitələrindən, məlumat kitablarından istifadə etməklə deputat sorğularını ödəməyə müvəffəq olurlar. İl ərzində kitabxana 1000-1200-dən artıq oxucu sorğusunu ödəyir. Kitabxana yeni kitablar haqqında oxuculara məlumat vermək üçün daimi və tematik kitab sərgilərindən istifadə edir, əlamətdar günlərlə əlaqədar kütləvi işlər aparır, sərgilər və stendlər təşkil edir.

Kitabxana oxucu sorğularını yerinə yetirmək üçün İnternet şəbəkəsinə qoşulmuşdur. Oxucular İnternetdən oxu zalında qoyulmuş kompüterlər və digər avadanlıqlar vasitəsilə istifadə edirlər. İnternetdən istifadə oxuculara dünya informasiya məkanına çıxmaq, qanunvericilik sənədlərindən istifadə etmək imkam verir.

Kitabxana həmçinin öz oxucularının sorğularını ödəmək üçün beynəlxalq əlaqələr yaratmağa da müvəffəq olmuşdur. Hazırda o, Rusiya Federasiyasının Duma Kitabxanası, Ukrayna, Belarusiya, Qazaxıstan və Tacikistanın parlament kitabxanaları ilə rəsmi sənədlərin və çap əsərlərinin mübadiləsini həyata keçirir. Azərbaycan Parlament Kitabxanası Türkiyə Böyük Millət Məclisinin parlament kitabxanası ilə də hərtərəfli əlaqələrə malikdir. Müstəqilliyin bəhrəsi olan Azərbaycan Milli Məclisinin Kitabxanası olduqca az zaman kəsiyində kitab fondunun formalaşması, oxuculara xidmət işinin təşkili, kitabxana işinin kompüterləşdirilməsi, qanun yaradıcılığının informasiya bazasının yaradılması, kitabxananın müasir informasiya texnologiyası ilə tənzim edilməsi sahəsində böyük uğurlar qazanmışdır.

* * *

Bütün bu faktların ciddi təhlili və ümumiləşdirilməsi əsasında demək olar ki, ulu öndər H.Əliyevin Azərbaycana 34 illik rəhbərliyi dövründə ölkədə xalq təsərrüfatı, iqtisadiyyat, elm və mədəniyyət sahəsində böyük nailiyyətlər əldə edilmişdir. Bu nailiyyətlər içərisində mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin inkişafı, əhaliyə kitabxana-informasiya xidmətinin təşkili sahəsindəki uğurlar da mühüm yer tutur.

Ölkənin mədəni inkişafında kitab və kitabxana işinin mühüm rolunu qeyd edən, kitabxanaları xalq üçün, millət üçün bilik və zəka mənbəyi kimi qiymətləndirən H.Əliyev kitabxana işinin inkişafını həmişə ön plana çəkmiş, ona qayğı göstərmiş, mühüm dövlət sənədləri imzalamışdır. Böyük minnətdarlıq hissi ilə qeyd etmək yerinə düşər ki, xüsusilə müstəqilliyimizin ilk illərində ölkədə baş verən çətinliklərə, iqtisadi və siyasi böhrana baxmayaraq, H.Əliyev həmişə mədəniyyətin qeydinə qalmış, onun yaşaması, inkişafı üçün əlindən gələni etmişdir. Ulu öndər Azərbaycanın müstəqilliyini, Azərbaycan dövlətçiliyini xilas etdiyi kimi milli mədəniyyətin və onun tərkib hissəsi olan kitabxanaların da xilaskarı olmuşdur. Digər MDB ölkələrindən fərqli olaraq Azərbaycanda 90-cı illərdə kitabxana şəbəkəsi qorunub saxlanılmış, daimi dövlət qayğısı ilə əhatə edilmiş, dövlət tərəfindən maliyyələşdirilmişdir.

Bütün bunlara görə Azərbaycan kitabxana ictimaiyyəti, çoxminlik kitabxanaçılar ordusu ulu öndərə minnətdardır. Onun əziz xatirəsi bütün xalqımız kimi sadə peşə adamları olan kitabxanaçıların qəlbinə də əbədi həkk edilmişdir. H.Əliyevin vəfatından sonra respublikamızın çoxsaylı kitabxana şəbəkələri öz xilaskarı olan ulu öndərin xalqımızın milli mənəvi sərvəti olan əsərlərini toplayıb saxlamaq, gələcək nəsillərə çatdırmaq, xalq kütlələri içərisində təbliğ etmək vəzifəsini həyata keçirməyə çalışır. Bu vəzifə kənd kitabxanalarından başlamış, Milli Kitabxanaya qədər bütün kitabxanalar tərəfindən şərəflə yerinə yetirilir.

Böyük təəssüf hissi ilə qeyd etməliyəm ki, 2003-cü ildə - fəaliyyətinin çiçəkləndiyi dövrdə, ölkədə gedən növbəti president seçkiləri ərəfəsində ulu öndərimiz qəfildən xəstələndi. H.Əliyevin müdrik bir kəlamı vardır:

“Allah təala kimə nə qədər ömür verdiyini özü bilir”. Allah təala H.Əliyevə 80 il ömür verdi və o, bu ömrü ləyaqətdə yaşadı, xalqına, doğma Azərbaycana xidmət etdi, onun xilaskarı oldu.

Heydər Əliyevin prezident seçkilərində namizədliyi irəli sürülmüşdü. Lakin amansız xəstəlik ona bu seçkilərdə iştirak etmək imkanı vermədi. Ümummilli lider H.Əliyev ABŞ-da xəstəxanada yatarkən xalqa müraciət etdi. Ulu öndər onun sağlıq durumundan narahatlıq keçirən xalqına müraciətində deyirdi: “Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyasının sədrinin 1-ci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən ləyaqətli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim başa çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.[1]

Azərbaycan xalqı ulu öndərin bu çağırışınıbir vəsiyyət kimi qəbul etməklə, öz müdrik liderinə sədaqətini nümayiş etdirdi və yekdilliklə İlham Əliyevi prezident seçdi. İlham Əliyevin ölkənin yeni prezidenti seçilməsi H.Əliyev siyasətinin davam etdirilməsi üçün əlverişli şərait yaratdı. Heydər Əliyev siyasi kursunu böyük məharətlə irəli aparan İlham Əliyevin məqsədyönlü fəaliyyəti bütün cəmiyyətin diqqətini cəlb etdi, yeni siyasi şəraitdə o, bir lider kimi xalqın böyük etimadını qazandı. İlham Əliyev ölkənin iqtisadi, siyasi və mədəni inkişafında, xalqın sosial vəziyyətinin yaxşılaşdırılmasında uğurlar qazandı. Bu uğurlar ölkə daxilində və beynəlxalq aləmdə onun imicini yüksəklərə qaldırdı. O, həmçinin Azərbaycan xalqının tarixinə qızıl səhifələr yazan, böyük

[1] “ Respublika” qəzeti.- 2004.- 31 oktyabr.

uğurlar qazandıran dahi dövlət və siyasət xadimi H.Əliyevin xarici siyasətində müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edən alternativsiz siyasətçi olduğunu təsdiq etdi.

Heydər Əliyevin əsasını qoyduğu demokratik dövlət quruculuğu işlərini davam etdirən İlham Əliyev prezidentlik fəaliyyətinə başlayarkən xalqa verdiyi "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" vədinə əməl edərək həyata keçirilən işləri inamla irəliyə aparmaq qüdrətinə malik olduğunu sübuta yetirdi. Olduqca sevindirici haldır ki, 2004-cü ildə respublikamızda ümumi daxili məhsul təxminən 22 faiz, sənaye istehsalı 28 faiz, eyni zamanda orta əmək haqqı 22 faiz, əhalinin pul gəliri 21 faiz artmışdır.

Son illərdə dövlət büdcəsinin ilbəil artması ölkə inkişafının gələcək perspektivlərindən xəbər verir. Əgər 2003-cü ildə dövlət büdcəsi 1 milyard dollar, 2004-cü ildə 1,5 milyard dollar, 2005-ci ildə 2,2 milyard dollar olmuşdursa, 2006-cı ilin dövlət büdcəsi 4 milyard dollar həcmində təsdiq olunmuşdur. Bu, dinamik inkişaf yolu keçən Azərbaycanın ən böyük nailiyyətidir.

Ölkəmizdə iqtisadi inkişaf ilə yanaşı mədəniyyətin inkişafı sahəsində də böyük tərəqqi əldə edilmiş, mədəni quruculuğun bütün sahələrində dönüş illəri olmuşdur. Mədəniyyətə ayrılan dövlət vəsaitinin 2 dəfəyə yaxın artırılması onun inkişafı sahəsində xeyli imkanlar açmışdır. Mədəniyyətimizin bütövlükdə inkişafı ilə yanaşı olaraq onun ayrı-ayrı sahələrinin inkişafına da xüsusi diqqət yetirilməyə başlanmışdır. Ölkəmizdə mədəniyyətin mühüm tərkib hissələrindən biri olan kitabxana işi sahəsində aparılan məqsədyönlü mütərəqqi tədbirlər buna parlaq sübutdur. Müstəqil Azərbaycanda əsası ulu öndər H.Əliyev tərəfindən qoyulmuş kitabxana siyasəti müvəffəqiyyətlə davam etdirilməkdədir. Bu siyasətin əsasında kitabxana işinə dövlət qayğısı, dövlət tərəfindən maliyyələşdirilməsi, ardıcıl olaraq maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxanaların ümumaçıq olması, kitabxana işinin informasiyalaşdırılması, dünya standartları səviyyəsinə yüksəldilməsi, kitabxanaçıların sosial vəziyyətinin yaxşılaşdırılması və digər vəzifələr durur.

Müasir şəraitdə dövlət bütün kitabxanaları yeni ədəbiyyatla təmin etmək, kitabxana fondlarını zənginləşdirmək üçün ardıcıl tədbirlər həyata keçirir. Belə tədbirlər içərisində kütləvi kitabxanaların və məktəb kitabxanalarının pulsuz olaraq latın qrafikası ilə çap edilən yeni nəşrlərlə komplektləşdirilməsi haqqında prezident sərəncamı olduqca böyük tarixi əhəmiyyət kəsb edir.

Məlumdur ki, ölkəmizdə 1993-cü ildən latın qrafikasına keçmək haqqında qanun qəbul edilmişdir. Bu qanuna müvafiq olaraq bütün təhsil sistemində latın qrafikası tətbiq edilməyə başlandı. Son on ildə orta ümumtəhsil məktəblərində təhsilin latın qrafikası ilə aparılması və şagirdlərin kiril əlifbasını bilməməsi ölkədə tezliklə birdəfəlik latın qrafikasına keçilməsi, bütün kütləvi informasiya vasitələrinin və kitabların latın qrafikası ilə nəşr edilməsi zərurətini irəli sürmüşdü. Məhz buna görədir ki, ölkə prezidenti H.Əliyev dövlət idarələrində, kütləvi informasiya vasitələrində və nəşriyyatlarda məcburi olaraq latın qrafikasına keçmək haqqında fərman verdi. Bu fərmana əsasən ölkə miqyasında latın qrafikasına keçildi. Azərbaycan dilində kiril əlifbası ilə nəşr işinə qadağa qoyuldu.

Ümummilli liderimiz tərəfindən həyata keçirilən bu tədbir böyük milli-mədəni əhəmiyyətə malik idi. Kitab nəşrində və ümumiyyətlə, nəşriyyat işində qayda yaradılması təmin edildi. Tezliklə ölkəmizdə latın qrafikası ilə ədəbiyyatın, dərsliklərin, dərs vəsaitlərinin, elmi ədəbiyyatın azlığı hiss edilməyə başladı. Doğrudur, respublikamızda kitablar 64 il ərzində kiril əlifbası ilə çap edilmişdi və kitabxanalarımızın fondunda kiril əlifbası ilə yazılmış 150 milyon nüsxədən artıq kitab saxlanılırdı. Bütün dünya ədəbiyyatı, klassiklərimizin, alimlərimizin əsərləri kiril əlifbası ilə çap edilmişdi. Bu böyük milli, mədəni sərvəti gənc nəslin istifadəsinə vermək dövlət əhəmiyyətli bir vəzifə kimi qarşıya qoyulmuşdu.

Bu böyük ideoloji, mənəvi, milli problemin həllində Heydər Əliyev siyasətinin görkəmli və ardıcıl davamçısı prezident İlham Əliyevin 12 yanvar 2004-cü ildə imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncam böyük əhəmiyyət kəsb etdi.

Sərəncamda göstərilir: “Latın qrafikalı Azərbaycan əlifbası artıq həyatımızın bütün sahələrində tam yerini tutmuşdur. Bununla yanaşı, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtı ilə latın qrafıkası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri olaraq qalır.

Dövlət müstəqilliyinin başlıca rəmzlərindən biri sayılan ana dilinə dövlət qayğısının daha da artırılmasını təmin etmək, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin ən gözəl nümunələrini müasir dövrdə təbliğ etmək və gələcək nəsillərə çatdırmaq məqsədi ilə Azərbaycan dilində əvvəllər kiril qrafikası ilə çap olunmuş əsərlərin latın qrafikası ilə yenidən nəşrinin kütləvi şəkilədə həyata keçirilməsi zərurətini nəzərə alaraq qərara alıram:

1. 2004-cü ildə latın qrafikası ilə ilk mərhələdə çapı nəzərdə tutulan əsərlərin siyahısı təsdiq olunsun (siyahı əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2004-cü ildə Azərbaycan Respublikasının bütün kütləvi kitabxanalarına və orta tədris müəssisələrindəki kitabxanalara latın qrafikası ilə yenidən çap olunmuş kitabların alınması üçün zəruri vəsaitin ayrılmasını təmin etsin”.[1]

Bu sərəncam prezidentin Azərbaycan mədəniyyətinə, elminə, ədəbiyyatına və təhsilinə böyük qayğısının təzahürüdür. 64 il müddətində kiril əlifbası ilə çap olunmuş qiymətli əsərlərin, xalqımızın milli sərvəti olan nadir kitabların yenidən nəşr edilib xalqın istifadəsinə verilməsi olduqca böyük milli, mədəni əhəmiyyət kəsb etməklə Azərbaycançılığın, milli ideologiyanın inkişafına qiymətli töhfədir.

Bu sərəncamın ən mütərəqqi və humanist cəhətlərindən biri latın qrafikası ilə yenidən nəşr edilən, dövlətə külli miqdarda vəsait hesabına başa gələn kitabların bütün kütləvi kitabxanalara və tədris müəssisələri kitabxanalarına pulsuz verilməsidir.

Kütləvi kitabxanalar və məktəb kitabxanaları bilavasitə təhsil və tərbiyə prosesində yaxından iştirak etməklə yanaşı oxucuların informasiya təminatında, mədəni və intellektual səviyyəsinin

---

[1] Azərbaycan naminə.- B., 2005.- S. 190-191.

yüksəldilməsində böyük əhəmiyyət kəsb edir. Məhz buna görədir ki, bu sərəncam respublikamızın bütün ictimaiyyəti, ziyalıları və kitabxana işçiləri tərəfindən böyük razılıq hissi ilə qarşılanmışdır.

## 2.13. Müstəqillik illərində kitabxana işi sahəsində dövlət siyasəti

Müstəqil, suveren, dünyəvi, demokratik Azərbaycan dövlətinin digər sahələrdə olduğu kimi kitabxana işi sahəsində də özünəməxsus siyasəti vardır. Bu siyasətin yeni formalaşmasına və təkmilləşməsinə baxmayaraq, bir çox ciddi problemlər həll edilmiş, dünya dövlətlərinin təcrübəsindən bəhrələnərək olduqca demokratik kitabxana siyasətinin əsası qoyulmuş, onun bünövrəsi yaradılmışdır.

Bu siyasətin əsasında dünya şöhrətli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir" kəlamı durur. İctimai həyatm müxtəlif sahələrinə uyğun olaraq iqtisadi, sosial, milli, aqrar, təhsil, din, mədəniyyət, kitabxana və s. siyasət ola bilər. Dövlətin kitabxana siyasəti təxminən aşağıdakı əlamətləri özündə əks etdirməlidir:

- Cəmiyyətin inkişaf istiqamətindən doğan prinsipial və vaxtı çatmış aktual məsələləri irəli sürmək, nəzərdə tutulmuş zaman kəsiyində əldə ediləcək perspektiv və yaxın məsələləri dəqiq müəyyənləşdirmək;
- Qarşıdakı məqsədlərə ən optimal və ən tez nail olmağı təmin edən fəaliyyət və təşkilat metodları, vasitələri və formaları işləyib hazırlamaq;
- Qarşıya qoyulmuş vəzifələri mərhələlərlə yerinə yetirməyi bacaran kadrlar seçib yerləşdirmək.

Siyasət müasir şəraiti və yaxın gələcəyi müəyyənləşdirmək üçün qəbul edilən qərarın bir çox alternativ, müxtəlif fikirlər,

ideyalar içərisindən seçilmiş, formalaşdırılmış və düşünülmüş fikirlər və ideyalardır.

Beləliklə, kitabxana işi sahəsində dövlət siyasəti çox mürəkkəb ictimai bir fenomendir. Öz ideoloji, sosial və siyasi əhəmiyyətinə görə müstəsna əhəmiyyətə malik bir hadisədir. Dövlət kitabxana siyasəti bir çox mürəkkəb, çoxtərəfli, çoxsəviyyəli, çoxşəkilli, çoxqütblü, çoxkomponentli, çoxsubyektli və çox obyektlidir.

Məlumdur ki, SSRİ məkanında olduğu kimi Azərbaycanda da "dövlət kitabxana siyasəti" məfhumu əvəzinə "kitabxanalara rəhbərlik" məfhumu var idi. Totalitar rejimdə siyasət də partiya rəhbərliyinə tabe edilmişdi. Müstəqillik əldə edildikdən sonra cəmiyyətdə baş verən demokratikləşmə prosesi mədəniyyətin bütün sahələrinə, o cümlədən kitabxana işinə də öz təsirini göstərdi. Kitabxana işində böyük demokratikləşmə prosesi başlandı ki, bu da öz növbəsində kitabxana işi sahəsində dövlət siyasətinin hazırlanmasını tələb edir.

Müasir şəraitdə kitabxana işi sahəsində dövlət siyasətini müəyyənləşdirərkən respublikamızın müstəqilliyinin xalqımıza bəxş etdiyi milli dövlətçiliyimizin, milli ideologiyamızın, azadlıq və demokratiyanın nailiyyətlərini, son 15 ildə iqtisadi, sosial, mədəniyyət və təhsil sahəsində baş verən dəyişiklikləri, milli soykökümüzə qayıtmağımızı, milli mentalitetimizin möhkəmləndirilməsini, ümumiyyətlə, müstəqil, suveren Azərbaycan cəmiyyətinin inkişaf qanunauyğunluqlarını nəzərə almaq zəruridir. Belə ki, ötən dövrdə dövlət tamam başqalaşıb, cəmiyyət əvvəlkindən tamamilə fərqlənən yolla inkişaf edir. Kitabxanaların vəzifələri, oxucular və kitabxanaçılar tamamilə dəyişmiş, yeniləşmişdir. Kitabxana işində demokratik prinsiplər tədricən dərinləşir və möhkəmlənir. Cəmiyyətin formalaşmasında meydana gəlib təkmilləşən yeni dünyabaxışı, yeni təfəkkür tərzi onların da dəyişməsinə şərait yaratmışdır.

Respublikamızda əhaliyə kitabxana xidmətinin təşkili müxtəlif nazirliklər, idarə və müəssisələr, cəmiyyətlər tərəfindən həyata keçirildiyindən kitabxana şəbəkələrinin vəzifələri baxımından müxtəlif, bir-birindən fərqlənən kitabxana siyasətinin formalaşması qaçılmazdır. Bununla belə, ölkə miqyasında əhaliyə kitabxana xidmətinin təşkilinin,

bütün kitabxana şəbəkələrinin ümumi qanunauyğunluqlarmı müəyyənləşdirən dövlət siyasətinin formalaşması zəruri bir prosesdir. Əgər ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana siyasəti bir nazirliyin, bir müəssisənin mənafeyini müdafiə edirsə, ümumdövlət kitabxana siyasəti bütün ölkənin və xalqın mənafeyinə, tələbat və sorğularına xidmət edir.

Beləliklə, ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana siyasəti öz əsas prinsiplərini və vəzifələrini müəyyənləşdirərkən bilavasitə dövlət siyasətinə əsaslanmalı, onun mahiyyətini əks etdirməlidir. Dövlətin kitabxana siyasəti respublika miqyasında aparılan kitabxana işinin əsasını təşkil etdiyindən bu sahəyə dair hazırlanan bütün sənədlər bu sənədə, Azərbaycan dövlətinin kitabxana siyasətinə əsaslanmalı, demokratik prinsipləri özündə əks etdirən sənəd olmalıdır. Heydər Əliyev yazır: “Demokratik prinsiplər bu günün, gələcəyimizin əsasını təşkil edəcəkdir”.

Kitabxana işinə dair dövlət siyasətinin formalaşdırılmasında və vəzifələrin müəyyənləşdirilməsində ali qanunumuz olan Azərbaycan Respublikasının Konstitusiyası əsas qanunvericilik bazası rolunu oynayır. Məhz vətəndaşların mədəni sərvətlərdən, informasiyadan istifadə etmək hüququnu müəyyənləşdirən, ölkəmizin informasiya təhlükəsizliyini təmin edən konstitusiyamızda insanlarm mədəni sərvətlərdən istifadə etmək və məlumat əldə etmək sahəsində hüquq, vəzifə və azadlıqları geniş şərh edilmiş və onlarm qorunmasının hüquqi əsasları yaradılmışdır.

İnsanların mədəni sərvətlərdən istifadə etmək, istədiyi məlumatı əldə etmək hüquqları və azadlıqları Konstitusiyanın 40-cı və 50-ci maddələrində şərh olunmuş, kitabxanaların hüquqları təsbit edilmiş, onların qarşısında insanlara kitabxana və informasiya xidmətinin yüksək səviyyədə, maneəsiz, qüsursuz və vaxtında təşkil edilməsi vəzifəsi qoyulmuşdur. Bu vəzifələrin yerinə yetirilməsi hər şeydən əvvəl kitabxana işinin dövlət təminatında olmasını, milli kitab sərvətini və informasiya vasitələrini toplaya bilməsini, kitabxana işinin demokratik əsaslarda qurulmasını tələb edir.

Məhz konstitusiyamızda təsbit edilmiş bu hüquqi normaları, ideyaları həyata keçirmək üçün 1998-ci ildə Milli Məclis ölkəmizin tarixində ilk dəfə olaraq “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Bu Qanun ölkəmizdə kitabxana işi sahəsində dövlət siyasətinin əsasıdır. Azərbaycan Respublikasında müasir şəraitdə və yaxın gələcəkdə formalaşan kitabxana işi üzrə dövlət siyasəti, kitabxana işinə dair hazırlanan bütün qərarlar, sənədlər və sərəncamlar, kitabxana işinin inkişaf konsepsiyası, ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana siyasəti bu qanuna əsaslanmalı, onun əsas prinsipləri və müddəalarının yerinə yetirilməsinə xidmət etməlidir. Respublikamızda kitabxana şəbəkələrinə malik olan nazirliklər, idarə və müəssisələr, ictimai təşkilatlar və digər qurumlar, ümumiyyətlə, bütün kitabxana ictimaiyyəti, bütün ziyalılarımız bu qanunun işləməsinə çalışmalı, qanunun işləməsinə maneçilik göstərən məmurlara qarşı mübarizə aparmalıdırlar.

Qanunda deyilir: “Bu Qanun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirmə mənbələrini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir”.

“Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu 29 dekabr 1998-ci ildə ölkə Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış və həmin gündən qüvvəyə minmişdir. Həmçinin Azərbaycan Respublikasının Prezidenti “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə 12 mart 1999-cu ildə fərman imzalamış, qanunun ayrı-ayrı maddələrinin yerinə yetirilməsinə cavabdeh olan dövlət orqanlarını müəyyənləşdirmişdir.

“Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu 6 fəsil, 34 maddədən ibarətdir.

I fəsil “Ümumi müddəalar” adlanır. Bu fəsildə müasir şəraitdə kitabxanaların mürəkkəb, sosial, mədəni və informasiya sistemi kimi cəmiyyətin inkişafında mühüm rolu, vəzifələri və statusu müəyyənləşdirilmiş, respublikamızın tarixində ilk dəfə olaraq onların

elmi tərifi verilmişdir. Qanunda Azərbaycan kitabxanalarının çoxəsrlik tarixinə və təcrübəsinə əsaslanaraq, elmi əsaslara söykənərək kitabxanaların sosial funksiyalarının olduqca uğurlu müəyyənləşdirilməsi təqdirəlayiqdir.

Qanunda göstərilir: "Kitabxana-elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur".

Məlumdur ki, Azərbaycan müstəqillik əldə edənə qədər kitabxanalarımız 1984-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən qəbul edilmiş "SSRİ-də kitabxana işi haqqında" Əsasnaməyə müvafiq fəaliyyət göstərirdi. Mahiyyətinə totalitar rejimin əsasları hopmuş bu əsasnamədə kitabxanalar kütləvi, ideoloji, mədəni-maarif və elmi informasiya idarələri kimi qiymət-ləndirilir, marksizm-leninizm ideologiyasını, Sov.İKP-nın və sovet dövlətinin siyasətini və tarixini, sosializm quruluşunun və sovet həyat tərzinin üstünlüklərini təbliğ etmək onların əsas vəzifələri hesab edilirdi.

Müstəqillik əldə edildikdən sonra marksizm-leninizm nəzəriyyəsindən, sosializm quruluşundan imtina edilməsi, bazar iqtisadiyyatına keçilməsi, cəmiyyətdə kitabxanaların işinin liberal-demokratik dəyərlərə müvafıq yenidən qurulmasını, demokratikləşdirilməsini, sosial funksiyaların müəyyənləşdirilməsini tələb edirdi. Məhz buna görədir ki, cəmiyyət və dövlət kitabxanaları mürəkkəb sosial mədəni sistem kimi qəbul edərək, kitabxana işinin demokratik və elmi əsaslar üzərində qurulmasına başladı. Bütün bunlar öz əksini "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda tapdı. Qanunda müasir Azərbaycanın kitabxana işinin təcrübəsinə, perspektiv inkişafına və dünya təcrübəsinə əsaslanaraq kitabxanaların 5 sosial funksiyası müəyyənləşdirilmişdir. Bunlar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə funksiyalarıdır. Həmin funksiyaların yerinə yetirilməsi kitabxanaları cəmiyyətin sosial həyatı ilə bilavasitə əlaqələndirməklə onların cəmiyyətdə tutduqları yeri və

vəzifələrini müəyyənləşdirir. Kitabxanaları informasiyalaşdırılmış cəmiyyətin əsas atributlarından birinə, insanların informasiya təminatının əsas bazasına çevirir. Beləliklə, kitabxanalar hər şeydən əvvəl elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə sahəsində dövlət siyasətinin obyekti kimi xarakterizə olunur.

Hazırda respublikamızda dövlətin kitabxana işi sahəsində siyasətinin hazırlanması üçün ciddi işlər aparılmalı, ölkəmizin şəraiti, kitabxanalarımızın iş təcrübəsi və kitabxana işinin gələcək perspektivləri elmi əsaslarla öyrənilməli, ümumiləşdirmələr aparılmalıdır. Bunlar təxmini olaraq aşağıdakı məsələləri əhatə etməlidir:

- Kitabxana işinin informasiyalaşdırılması, kitabxanalarda yeni informasiya texnologiyalarının tədbiqi və inkişafı, elektron-məlumat bazasının formalaşdırılması və istifadəsi, yeni texnologiyaların tətbiqi, kitabxanaların işinin əlaqələndirilməsində şəbəkə texnologiyalarının yaradılması və inkişaf etdirilməsi, Azərbaycan üzrə kitabxana kompüter şəbəkəsinin yaradılması;
- Müstəqillik şəraitində kitab nəşri sisteminin tamamilə yeniləşməsi, çoxlu miqdarda özəl nəşriyyatların yaradılması ilə əlaqədar kitabxanaların komplektləşdirilməsi probleminin həlli üçün yollar axtarılması, kitabxana kollektorunun işinin yenidən qurulması, onun fəaliyyət dairəsinin daha da genişlənməsi və təkmilləşdirilməsi;
- Kitabxana fondlarının təhlükəsizliyinin təmin edilməsi və qorunması üçün tədbirlər görülməsi;
- Kitabxana işini, onun hüquqi əsaslarla inkişafını tənzimləyən normativ hüquqi aktlar sisteminin yaradılması;
- Respublikamızda kitabxana sisteminin vahidliyinin təmin edilməsi və onların işinin koordinə edilməsi üçün tədbirlərin hazırlanması;
- Ölkəmizdə kitabxana işinin dünya standartları səviyyəsində təşkili məqsədi ilə beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, təcrübə mübadiləsinin aparılması.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda ən mühüm cəhətlərdən biri kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsip və vəzifələrinin olduqca düzgün

və hərtərəfli müəyyənləşdirilməsidir. Qanunda kitabxanaların bütün əhalinin istifadəsi üçün ümumaçıq olması, kitabxanalara dövlət qayğısı və dövlət tərəfindən maliyyələşdirilməsi prinsiplərinin əsas prinsiplər kimi ön plana çəkilməsi kitabxanaların gələcək inkişafı üçün şərait yaratmaqla, onun ən demokratik kitabxana sisteminə çevrilməsini təmin edir.

3-cü maddədə kitabxana işi sahəsində dövlətin əsas vəzifələri müəyyənləşdirilmiş, onun həyata keçirilməsi yolları göstərilmişdir.

Qanunun II fəslində kitabxana sistemi, onun təşkili və tərkibi əsaslandırılmış, respublikamızda olan bütün kitabxana şəbəkələri, onların tabeçiliyi prinsipləri, dövlət və qeyri-dövlət kitabxanaları haqqında məlumat verilmiş, onların statusu müəyyənləşdirilmişdir.

Bu fəslin 7-ci maddəsi "Milli Kitabxana" adlanır. Burada dünya təcrübəsinə əsaslanaraq milli kitabxananın tərifi verilmiş, onun statusu müəyyənləşdirilmişdir. Qanunda göstərilir: "Milli Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə nəşr olunmuş Azərbaycan haqqında və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitabsaxlayıcısıdır".

Həmçinin Qanunda Milli Kitabxananın kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq sahəsində elmi-tədqiqat müəssisəsi, ölkənin bütün kitabxanaları üçün metodik mərkəz, kitabxanalararası abonement və kitabxanaların beynəlxalq əlaqələr mərkəzi olması əsaslandırılmış, eyni zamanda Milli Kitabxananın qarşısında duran vəzifələr ətraflı şəkildə təhlil edilmişdir. Bu Qanunun böyük üstünlükləri ondan ibarətdir ki, Milli Kitabxana bütün sahələrdə beynəlxalq standartlara cavab verən bir kitabxana müəssisəsi kimi nəzərdən keçirilmişdir.

Qanunun 8-ci maddəsində respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar müəyyənləşdirilmişdir. İndiyə qədər bəzi hallarda mübahisə doğuran respublika əhəmiyyətli kitabxanaların və onların vəzifələrinin

müəyyənləşdirilməsi bu boşluğu doldurmuş, onların fəaliyyəti üçün şərait yaratmışdır.

Qanunun 9-cu maddəsində kitabxanaların informasiya orqanları və digər idarə və müəssisələrlə, həmçinin özlərinin bir-biri ilə əməkdaşlıq qurmaları, öz işlərini göstərilən müəssisələrdə koordinə etmələri vacib sayılmış, kitabxana işinin bütün cəmiyyətlə əlaqədə olması əsaslandırılmışdır.

Qanunda kitabxanaların yaradılması və yenidən təşkili məsələlərinə aydınlıq gətirilmiş, yeni kitabxanaların ancaq qanunvericiliyə uyğun təşkil edilməsi məqsədəuyğun sayılmış, kitabxanaların yenidən təşkilinə və müstəsna şəraitdə müvəqqəti olaraq köçürülməsinə ancaq müvafiq icra hakimiyyəti orqanlarının razılığı olduqda icazə verilməsi məqsədəuyğun hesab edilmişdir.

Qanunun III fəsli "Kitabxana fondu" adlanır. 8 maddədən ibarət olan bu fəsildə xalqımızın milli sərvəti olan kitabxana fondlarının yaradılması, komplektləşdirilməsi, qorunub saxlanılması, kitabxana fondlarının növləri, kitabxana fondlarının təchizi, kitabxanaların mübadilə fondları, depozitar fondlar, dövlət kitabxana fondlarının uçotu, mühafizəsi və kitabxanaların pulsuz məcburi nüsxələrlə təchiz edilməsi məsələləri öz hüquqi həllini tapmışdır. Qanuna görə, kitabxana fondları dövlət mülkiyyətidir və dövlət tərəfindən qorunur. Dövlət kitabxana fondlarını dağıdanlar, mühafizəsini təşkil etməyənlər, qorunmasına, uçotunun aparılmasına cavabdeh olan müəssisələr dövlət qanunları qarşısında məsuliyyət daşıyırlar.

Dövlət kitabxana fondlarının yaradılması və dövlət tərəfindən maliyyələşdirilməsinin Qanunda öz əksini tapması demokratik bir hal olmaqla kitabxana işinə dövlət qayğısının təzahürüdür. Qanunda həmçinin ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana şəbəkələrinin həmin nazirlik, idarə və müəssisələrin vəsaiti hesabına komplektləşdirilməsi nəzərdə tutulmuşdur. Qanunda kitabxanaların komplektləşdirilməsində (xüsusilə rayon, kənd kitabxanalarının) kollektorun böyük rolu nəzərə alınaraq, onun işinin yaxşılaşdırılması lazım bilinmiş və komplektləşdirmə işinin günün tələbləri səviyyəsinə qaldırılması onun qarşısında bir vəzifə olaraq qoyulmuşdur.

“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun böyük əhəmiyyət kəsb edən maddələrindən biri “Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı” adlı 15-ci maddədir. Dünyanın bütün ölkələrində bir qayda olaraq mühüm dövlət və ümummilli əhəmiyyət kəsb edən bir çox kitabxanalar pulsuz məcburi nüsxələr alır. Bu işin olduqca böyük, milli, tarixi və mədəni əhəmiyyəti danılmazdır. Nəşr olunan kitablar heç bir bürokratik çətinlik olmadan kitabxanalarıb fonduna düşür. Beləliklə də dövlət kitabxanaları fondlarının tamlığı təmin olunur. Bazar iqtisadiyyatına keçdiyimiz indiki şəraitdə nəşriyyatların əksəriyyəti özəlləşmişdir və onlar bazarın tələbatına uyğun olaraq öz istədikləri kitabları nəşr edirlər. Belə kitabların uçotunu aparan, onları toplayan, mühafizə edən və saxlayan heç bir müəssisə yoxdur. Bu baxımdan Qanunun bu maddəsi çox vaxtında qəbul edilmiş və Azərbaycan kitabının qorunub saxlanılmasını təmin etməyə yönəlmişdir.

Qanunda göstərilir: “Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından Milli Kitabxanaya 4 pulsuz məcburi nüsxə, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanalarına, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalara, Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına və Bakı Dövlət Universitetinin Kitabxanasına profilinə uyğun olaraq 2 pulsuz məcburi nüsxə, Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnal redaksiyaları isə 2 pulsuz məcburi nüsxə göndərməlidirlər”.

Qanunun 16-cı maddəsində isə dövrün tələblərinə cavab vermək, əhaliyə kitabxana xidmətini daha da təkmilləşdirmək, kitabxanaların beynəlxalq əlaqələrini günün tələbləri səviyyəsində qurmaq üçün çox ciddi vəzifələr həll edə bilən kitabxanaların mübadilə fondlarının yaradılması təsbit edilmişdir.

Məlumdur ki, xüsusilə elmi kitabxanaların mübadilə fondu olmadan həm ölkədaxili, həm də beynəlxalq kitab mübadiləsini həyata keçirmək mümkün olmaz. Ona görə də Qanunda göstərilir ki, müvafiq icra hakimiyyəti orqanları beynəlxalq və ölkədaxili kitab mübadiləsini həyata

keçirən kitabxanaların mübadilə fondları üçün əlavə kitab alınmasına vəsait ayırırlar.

Qanunda xüsusi əhəmiyyət kəsb edən maddələrdən biri də 19-cu maddədir. “Dövlət kitabxana fonduna vurulmuş ziyana görə məsuliyyət” adlanan bu maddə demək olar ki, kitabxana fondlarının ayrı-ayrı oxucular və kitabxanaçılar tərəfindən dağıdılmasının, kitabxana fondlarında olan milli, tarixi və elmi əhəmiyyətə malik olan nadir kitabların mənimsənilməsinin qarşısını alır, beləliklə də fondun qorunması dövlət əhəmiyyətinə malik bir vəzifə səviyyəsinə qaldırılır.

Qanunda göstərilir: “Dövlət kitabxana fondlarının uçotu, mühafizəsi və istifadə qaydalarının pozulmasına görə kitabxana işçiləri qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar”.

“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun IV fəsli “Kitabxana xidmətinin təşkili” məsələsinə həsr edilmişdir. Qanunun əvvəlki fəsillərində göstərildiyi kimi, kitabxanaların qarşısında duran əsas vəzifə ölkə əhalisinə qüsursuz kitabxana-informasiya xidmətini təşkil etməkdən, onların tələb və sorğularını vaxtında ödəməkdən, oxucuların mütaliə prosesində yaxından iştirak etməkdən ibarətdir.

Bu məsələ Qanunda çox lakonik ifadə edilmişdir: “Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir”.

Göstərilən vəzifələr kitabxanaların cəmiyyətin mühüm atributlarından biri kimi böyük təşkilati, elmi, informasiya, mədəni, təhsil və tərbiyə işləri aparmasını, iqtisadi, elmi, mədəni həyatda yaxından iştirak etmək vəzifələrini qoyur, onu açıq cəmiyyətin demokratik müəssisələrindən birinə çevirir.

Bu fəsildə həmçinin kitabxanaların, kitabxanaçıların və oxucuların hüquq və vəzifələri şərh edilmiş, onların işlənməsi və kitabxanadan istifadə etməsi üçün olduqca demokratik, dünya standartlarına cavab verən qaydalar müəyyənləşdirilmişdir.

Qanunun V fəsli “Kitabxana işinin idarə olunması” məsələlərinə həsr edilmişdir. Bu fəsildə göstərilir ki, Azərbaycan Respublikasında müvafiq icra orqanları öz işində dövlətin kitabxana işi sahəsindəki siyasətini rəhbər tutur. Qanunda kitabxana işinin idarə olunmasında ictimaiyyətin iştirakına xüsusi diqqət yetirilir. İctimai birliklərin, kitabxana şuralarının, assosiasiyaların kitabxanaların idarə olunmasında iştirakı ön plana çəkilir, kitabxana xidmətinin təşkilində onlarm iştirakı zəruri sayılır.

Bu fəsildə kitabxana işinin elmi-metodik təminatına da xüsusi diqqət yetirilməklə, elmi-metodik təminat mərkəzləri və onların vəzifələri müəyyənləşdirilir. İlk dəfə olaraq bu Qanunda yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və yetişdirilməsi dövlət əhəmiyyətli bir iş hesab edilməklə peşə-ixtisas təhsilinə yiyələnmiş mütəxəssislərə kitabxanalarda işə düzələrkən üstünlük verilməsi əsaslandırılır.

Qanunda göstərilir: “Kitabxanaların kadr təminatında müvafiq peşə-ixtisas təhsili olan şəxslərə üstünlük verilir. Müstəsna hallarda müvafiq peşə-ixtisas təhsili olmayan, ancaq yüksək təcrübəyə və kitabxanada çoxillik iş stajına malik olan mütəxəssislər də kitabxanada işləyə bilərlər”.

Bazar iqtisadiyyatı şəraitində kitabxanaların ən mühüm problemi maliyyələşdirmə problemidir. Bu problem kitabxana işinin canıdır, onun yaşamasının fəaliyyətinin qarantıdır. Kitabxana işinin taleyi, müqəddəratı məhz bu məsələdən asılıdır.

Sevindirici haldır ki, hüquqi, dünyəvi, demokratik Azərbaycan dövləti bu mühüm problemi çox yüksək şəkildə həll etmiş, dövlət kitabxanalarının maliyyələşdirilməsini öz üzərinə götürmüşdür. Bu tədbir müstəqil, gənc Azərbaycan dövlətinin ən böyük mədəni nailiyyətlərindən biridir.

Qanunda göstərilir: “Dövlət kitabxanaları və büdcədən maliyyələşdirilən təşkilatların tabeçiliyində olan kitabxanalar dövlət büdcəsi vəsaitləri, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları və qanunvericilikdə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Dövlət kitabxanaları maliyyələşdirilərkən büdcədən kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilməli və bu vəsait müntəzəm olaraq artırılmalıdır”.

Bütün bu tədbirlərlə yanaşı, Qanunda kitabxanaları müdafiə etmək, onların maddi-texniki bazasını möhkəmləndirmək, əhaliyə kitabxana işinin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə "Kitabxanaların inkişaf fondu"nun yaradılması nəzərdə tutulmuşdur. Bu fond dövlət və qeyri-dövlət təşkilatları, ayrı-ayrı cəmiyyətlər tərəfindən təşkil edilə bilər.

Doğrudur, Qanunun qəbul edilməsindən bir neçə il keçməsinə baxmayaraq, hələlik respublikamızda belə bir fond yaranmamışdır. Ancaq olduqca mütərəqqi xarakter daşıyan bu ideyanın həyata keçirilməsinə böyük ehtiyac duyulmaqdadır. Müstəqil dövlətimizin son zamanlar iqtisadi, siyasi, təhsil və mədəni sahədə əldə etdiyi nailiyyətlərin gələcəkdə belə bir fondun təşkil ediləcəyinə şərait yaradacağı şübhəsizdir. Əgər respublikamızda kitabxanaların inkişafı fondu yaranarsa, heç şübhəsiz, kitabxana işinin inkişafına böyük təkan verəcəkdir. Qanunda kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana işinin kompüterləşdirilməsi məsələsi ön plana çəkilmiş, dövlət kitabxanaları üçün xüsusi layihə əsasında kitabxana binalarının tikilməsi və kitabxana işinin avtomatlaşdırılması üçün vəsait ayrılması zəruri hesab edilmişdir.

Qanunun "Kitabxanaların əmlakı və təsərrüfat fəaliyyəti" adlı 31-ci maddəsi bazar iqtisadiyyatı şəraitində böyük aktuallıq kəsb edir.

Kitabxanalara mülkiyyətində olan və ya idarəçiliyinə verilən əmlakdan qanunvericiliyə uyğun istifadə hüququ verilmiş, təsərrüfat fəaliyyəti ilə məşğul olmağa şərait yaradılmışdır. Bu fəaliyyətdən əldə edilən vəsaitin kitabxanaların sərəncamında qalması qanuniləşdirilmişdir. Əlbəttə, kitabxanalarımız bu fəaliyyət növündən istifadə edə bilsələr, daha böyük müvəffəqiyyətlər əldə edə bilərlər.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununda öz əksini tapmış ən mühüm, böyük dövlət əhəmiyyətinə malik məsələlərdən biri "Kitabxana işçilərinin sosial müdafiəsi" maddəsidir.

SSRİ məkanında kitabxana işçiləri ən az maaş alan peşə sahibləri idi. Kitabxana işçilərinin maaşları ən axırda artırılır, bəzən də heç artırılmırdı. Məlumdur ki, kitabxanalar öz tabeçilik

və xidmət prinsiplərinə görə bu və ya digər nazirliklərin, idarə və müəssisələrin mütəxəssislərinə və işçilərinə xidmət edir. Məsələn, təhsil kitabxanaları bilavasitə təhsil sahəsinin elmi-pedaqoji kollektivinə, şagird və tələbələrinə xidmət edir. Bu kitabxanalarda çalışan kitabxanaçılar bilavasitə təhsil sisteminə xidmət etdiklərindən təhsil işçiləri kimi xidmət göstərirlər. Bu baxımdan təhsil kitabxanaları işçilərinin maaşı da təhsil işçilərinin maaşına bərabərləşdirilsə, çox məntiqi olardı. Təhsil Nazirliyinin timsalında göstərdiyimiz bu misalı digər nazirliklərə, idarə və müəssisələrə də şamil etmək olar.

Sovet İttifaqı dağıldıqdan sonra müstəqil Azərbaycan dövləti maaşların verilməsi qaydalarında dəyişikliklər etdi, ədalətsiz qaydaları ləğv etdi. Kitabxana işçilərinin maaşları xidmət etdikləri nazirliklərin işçilərinin maaşları ilə birlikdə artırılmağa başladı. Müstəqil Azərbaycan dövlətinin bu siyasəti Milli Məclisin qəbul etdiyi qanunda öz hüquqi həllini tapdı. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda kitabxa-naçıların sosial müdafiəsinə böyük qayğı ilə yanaşıldı, onların əməyi elm və təhsil işçilərinin əməyinə bərabər tutuldu ki, bu da sadə əməyi ilə həmişə fərqlənən Azərbaycan kitabxanaçılarına dövlətimizin böyük qayğısının nəticəsi idi.

Qanunda göstərilir: “Dövlət kitabxana işçilərinin sosial müdafiəsinə təminat verir.

Kitabxana işçilərinin əmək haqları elm və təhsil sahələri işçilərinin əmək haqlarından aşağı olmamalıdır.

Kitabxanaların statusu, spesifik xüsusiyyətləri nəzərə alınmaqla işçilərə əmək haqqından əlavə ödənişlər tətbiq edilə bilər.

Müvafiq icra hakimiyyəti orqanları, müəssisə, idarə və təşkilatlar öz tabeçiliyində olan kitabxanaların işçilərinə əlavə kompensasiyalar müəyyən edə bilərlər”.

Beləliklə, göstərilən müddəalar Azərbaycan kitabxana işçilərinə dövlət qayğısının nəticəsidir və Azərbaycan kitabxanaçıları bu qayğını böyük minnətdarlıq hissi ilə qəbul edirlər. Qanunun sonuncu - VI fəslində kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın təşkilindən bəhs edilir. Qanunda beynəlxalq əməkdaşlığa yüksək qiymət verilməklə belə əməkdaşlığın təşkili və aparılmasına, xarici kitabxanaların iş təcrübəsinin

öyrənilməsi və yayılmasına xüsusi diqqət yetirilməsi zəruri hesab edilir. Beynəlxalq əməkdaşlıqda ayrı-ayrı kitabxanalar, ictimai birliklər, beynəlxalq kitabxana təşkilatları iştirak edə bilərlər.

Nəhayət, Qanunun son maddəsində göstərilir: "Bu Qanunun pozulmasında təqsirli olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar".

Məhz bu maddə Qanunun qüsursuz olaraq respublikamızın ərazisində işləməsi üçün şərait yaradır, onun tətbiqini asanlaşdırır.

Müasir şəraitdə hər bir ziyalının, dövlət idarələrinin rəhbər işçilərinin, bütün oxucuların, ilk növbədə isə kitabxana əməkdaşlarının əsas vəzifəsi bu Qanunun işləməsi, onun əsas müddəalarının həyata keçirilməsi uğrunda mübarizə aparmaqdır.

Müstəqil Azərbaycan dövlətinin kitabxana işi haqqında qəbul etdiyi ilk Qanun son dövrlərdə bazar iqtisadiyyatı şəraitində cəmiyyətdə baş verən bütün dəyişikliklərə əsaslanmaqla cəmiyyətin mənəvi həyatındakı qanunauyğunluqları özündə əks etdirir, cəmiyyətin qarşıya qoyduğu tələblərə cavab verir.

Bu Qanun Azərbaycanda kitabxana işinə dövlət münasibətinin, dövlət qayğısının və dövlət siyasətinin əsası, onun məhək daşıdır, respublikamızda kitabxana işinin qorunub saxlanılması və inkişafının hüquqi bazasıdır. Respublikamızda kitabxana işinə dair vahid dövlət siyasətinin əsası kimi fəaliyyət göstərən bu Qanunun bütün kitabxanalar, kitabxana birlikləri, dövlət və qeyri-dövlət təşkilatları, müəssisələri tərəfindən əsas baza kimi qəbul edilməsi və tanınması bütövlükdə müasir Azərbaycan cəmiyyətinin can atdığı böyük nailiyyətdir.

"Kitabxana işi haqqında" Qanun kitabxanaların fəaliyyətinin əsas prinsiplərini müəyyənləşdirməklə, insanların mədəni sərvətlərdən istifadə etməsini və məlumat azadlığı hüququnun həyata keçirilməsini təmin edir. Bu Qanun kitabxana və cəmiyyət, kitabxana və dövlət, kitabxana və oxucu problemlərini, həmçinin kitabxana şəbəkələri olan nazirliklər, idarə və müəssisələr arasındakı münasibətləri beynəlxalq hüququn prinsipləri və normaları əsasında tənzimləyir, kitabxana işinin hüquqi bazasını yaradır.

## SON SÖZ ƏVƏZİ

Kitabxana işinin tarixi ümumi tariximizin, mədəniyyət tarixinin parlaq səhifəsi, ayrılmaz tərkib hissəsidir.

Böyük və qədim tarixi keçmişi olan xalqımız kitabxanaları yüksək qiymətləndirmiş, onu sevmiş, qayğı göstərmiş, əsrdən-əsrə, nəsildən-nəslə böyük yadigar kimi hədiyyə etmiş, qoruyub saxlamışdır.

Xalqımızın yetişdirdiyi dünya şöhrətli böyük şəxsiyyətlərdən: Xaqani, Nizami, Tusi, Füzuli, Şah İsmayıl Xətai, M.F.Axundov, S.Vurğun və başqaları millətin, ölkənin mədəni inkişafında kitabxanaların rolunu, əhəmiyyətini yüksək qiymətləndirmiş, kitabxananı müqəddəs bir yer, elm, təhsil, tərbiyə, bilik və mərifət evi adlandırmışlar.

Xalqımızın XX əsrdə yetişdirdiyi böyük şəxsiyyətlərdən biri də Heydər Əliyev olmuşdur. Türk dünyasının günəşi, müasir tariximizin çox məsul bir dövründə 30 ildən artıq ölkəyə rəhbərlik etmiş, respublikamızı dünyanın qabaqcıl ölkələri sırasına çıxarmış, XX əsrin axırlarında xalqımıza nəsib olan müstəqilliyi qoruyub saxlamış, müstəqil, hüquqi, demokratik Azərbaycan dövlətinin banisi olmuş, fenomen bir şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın mədəni tərəqqisinə, Azərbaycan mədəniyyətinin inkişafına xüsusi qayğı göstərmişdir.

Heydər Əliyev XX əsr türk dünyasının yetişdirdiyi ən böyük şəxsiyyətdir. Öz vətənini, xalqını böyük məhəbbətlə sevən, Azərbaycanı uğurlu, işıqlı gələcəyə aparan böyük vətəndaş, dövlət xadimi, dünya miqyaslı siyasətçi, ümummilli liderdir. Heydər Əliyev xalqımızın tarixini, mədəniyyətini, incəsənətini, iqtisadiyyatını dərindən bilən, siyasət elminin, diplomatiyanın incəliklərinə yiyələnmiş fenomenal bir şəxsiyyət, görkəmli alimdir. Onun böyük idarəçilik, dövlətçilik istedadı, sehrli, füsunkar yaddaşı, yüksək intellekti, bütün elmlərdən, hadisələrdən baş çıxara bilmək bacarığı, həyatı dərk etmə qabiliyyəti vahid bir vəhdət təşkil edir. Gələcəyi görmək, hadisələri qabaqlamaq bacarığı, dönməz iradəsi, qüdrətli işgüzarlığı onun böyük dövlət xadimi olmasını təsdiqləyir.

Heydər Əliyevin milli dövlətçiliyimiz, milli ideologiyamız və müstəqilliyimiz istiqamətində apardığı işlər həmişə onun elmi, ideoloji və nəzəri fəaliyyəti ilə əlaqədar olmuşdur. Ölkənin həyatında baş verən mürəkkəb prosesləri düzgün qiymətləndirmək, sosial-siyasi hadisələri qabaqlamaq, onun həlli yollarını zərgər dəqiqliyi ilə müəyyənləşdirmək qabiliyyətinə, böyük elmi təfəkkürə malik olan bu insan öz məruzələrində, çıxış və nitqlərində, fərman və sərəncamlarında, göstəriş və tövsiyələrində, xalqa müraciətlərində həmin problemlərin həlli yollarını açıb göstərməklə cəmiyyətin irəliyə doğru inkişafını təmin etmişdir. Onun bütün çıxışları və nitqləri əvvəlcə dövri mətbuatda, qəzet və jurnallarda dərc edilmiş, sonra isə kitab şəklində buraxılmışdır. İftixar hissi ilə demək olar ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 34 illik dövrdə böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı, zəngin elmi-nəzəri, mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvət kimi elmimizin və mədəniyyətimizin "qızıl fondu"na daxil edilmişdir.

Müasir şəraitdə ölkəmizin gələcək inkişaf yolunu işıqlandıran bu zəngin irsin öyrənilməsinə böyük ehtiyac hiss edilməkdədir. Respublikamızın vətəndaşlarının, ziyalıların, alimlərin, mütəxəssislərin, əhalinin bütün təbəqələrinin, xüsusilə vətənimizin gələcəyi olan gənclərin bu irsi dərindən mənimsəməsinə ciddi ehtiyac duyulmaqdadır.

Heydər Əliyevin elmimizə, tariximizə, dilimizə, milli ideologiyamıza, soykökümüzə həsr edilmiş dərin məzmunlu əsərləri, ideya və fikirləri elm və mədəniyyətin bütün sahələrində aparılan elmi araşdırmaların metodoloji əsasıdır. Bu əsərlər azərbaycanşünaslığa böyük hədiyyədir, onun məhək daşıdır. Heydər Əliyevin nəzəri irsi həmçinin Azərbaycan dövlətçiliyinin yaranması, qorunması və inkişaf etdirilməsinin əsasıdır. Bu əsərlər siyasi tarix, azərbaycançılıq, vətəndaşlıq, dövlət quruculuğu, vətən sevgisi, vətənə hədsiz məhəbbət dərsliyidir. Heydər Əliyevin hər bir əsəri böyük əhəmiyyətə malikdir. Əsrlər keçəcək, illər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək, bu əsərlər isə yaşayacaq, neçə-neçə nəsillərə, Azərbaycan xalqının gələcəyinə xidmət edəcəkdir. Çünki bu əsərlər zamanın sifarişidir, xalqın tarixidir, salnaməsidir. Bu əsərləri zaman özü

yaratdığından daim yaşayacaq, gələcəyə işıq saçacaq.

Böyük natiqlik qabiliyyətinə, dərin zəkaya, məntiqi ardıcıllığa, iti zehnə, möhkəm yaddaşa malik olan bu böyük insan öz əsərlərini xalq qarşısındakı çıxışlarında, dinləyicilərlə üzbəüz, onların qarşısında, onların iştirakı ilə yaratmışdır. Heydər Əliyevin hər bir nitqi, hər bir çıxışı xalqla təmasda, ictimai-siyasi yığıncaqlarda, izdihamlı mitinqlərdə, əsgər səngərlərində, qaçqın düşərgələrində, rəsmi dövlət tədbirlərində, beynəlxalq məclislərdə yaranmış və Azərbaycanda dövlət quruculuğu proqramının, milli dövlətçilik ideologiyasının əsasını təşkil etmişdir. Bu əsərlərdə müasir Azərbaycanın keşməkeşli tarixi öz geniş əksini tapmış, ölkənin iqtisadi, sosial, elmi, mədəni problemləri təhlil olunmuş, onlarm həlli yolları göstərilmişdir. Olduqca uni-kal bir şəxsiyyət olan H.Əliyevin hər bir məruzəsini, çıxışını və nitqini redaktəsiz də nəşr etmək olar.

Dünyada çoxlu dövlətlər, dövlət başçıları olmuş və yenə də olacaqdır. Ancaq heç də onların hamısı onlarla kitab yazmaq qabiliyyətinə malik olmamış, böyük elmi, mənəvi irs qoyub getməmişlər. Etiraf edilməlidir ki, Heydər Əliyev kimi zəngin irsi, çoxsaylı əsərləri olan dövlət başçıları çox azdır.

Heydər Əliyevin əsərlərini mütaliə edərkən belə bir qənaət aşkara çıxır ki, bu əsərlər çox geniş elmi məlumatlarla zəngindir. Bu əsərlərdə bəşəriyyətin görkəmli dövlət, elm və mədəniyyət xadimlərindən gətirilən sitatlar, misallar və elmi fikirlər onun müəllifinin çox geniş mütaliə dairəsinə, çox zəngin və dərin biliyə, elmi məlumata malik olan bir şəxsiyyət və görkəmli ziyalı olduğunu sübuta yetirir.

Xalqımızın milli sərvəti olan Heydər Əliyev əsərlərinə həmişə böyük tələbat olduğundan onlar həm Sovetlər Birliyi dövründə, həm də müstəqillik illərində respublika nəşriyyatları tərəfindən böyük tirajlarla nəşr edilmişdir.

H.Əliyevin əsərlərinin respublikamızda nəşrini şərti olaraq iki mərhələyə ayırmaq olar. Birinci mərhələ Sovetlər Birliyi dövrünü, yəni 1969-1993-cü illəri, ikinci mərhələ isə 1993-cü ildən sonrakı dövrü əhatə edir.

Qeyd etmək lazımdır ki, 1970-1993-cü illərdə Heydər Əliyevin təxmini hesablamalara görə 1500 çap vərəqi həcmində 209 adda kitabı nəşr edilmişdir. Bunlardan 151 adda kitab 1970-1993-cü illərin, qalan kitablar isə müstəqillik dövrünün payına düşür. Nəşr edilən kitabların ümumi həcminin (Azərbaycan və rus dillərində) 23 min səhifədən artıq olması H.Əliyev əsərlərinə böyük tələbatdan və maraqdan irəli gəlir.[1] Heydər Əliyevin dövri mətbuatda nəşr edilən məruzə, çıxış və məqalələri göstərilən rəqəmlərə daxil deyildir.

Müstəqillik illərində Heydər Əliyevin ayrıca kitab, kitabça halında çap edilmiş əsərləri ilə yanaşı, çoxcildli əsərləri də işıq üzü görmüşdür. 1997-ci ildən H.Əliyevin əsərləri "Müstəqilliyimiz əbədidir" başlığı altında latın qrafikası ilə 10 cilddə çap edilməyə başlamış və 2003-cü ildə başa çatdırılmışdır. Çox vaxtında nəşr edilmiş bu oncildlik Azərbaycan xalqının, müstəqil Azərbaycan dövlətinin müasir tarixinin son dərəcə ağır və məsu-liyyətli bir dövrünü əhatə etdiyindən böyük elmi və tarixi mənbə kimi dəyərlidir. Azərbaycanşünaslığa qiymətli hədiyyə olan bu oncildlik alimlər, politoloqlar, siyasətşünaslar, müəllimlər, tələbələr və digər mütəxəssislər üçün, həmçinin geniş oxucu kütləsi üçün əvəzsiz qiymətli mənbədir. Əminik ki, "Müstəqilliyimiz əbədidir" çoxcildliyini dərindən öyrənən və mənimsəyən hər bir azərbaycanlı Heydər Əliyevin bütün əsərlərinin vətəndaşlıq, dövlətçilik, vətənə sevgi, vətənpərvərlik dərsliyi olduğunu məsuliyyətlə təsdiqləyəcək, respublikamızın gələcəyi naminə bu böyük şəxsiyyətin gördüyü möhtəşəm tədbirləri bir daha yüksək qiymətləndirəcəkdir.

Beləliklə, Heydər Əliyevin nəşr edilmiş əsərləri, külliyyatı dövrümüzün nəhəng elmi-mədəni, mənəvi abidəsidir. Bu tarixi abidənin qeyri-adi müəllifi isə zəmanəmizin dahi şəxsiyyəti, Azərbaycan xalqının dünya şöhrətli oğlu, ümummilli lideri Heydər Əliyevdir.

23 min səhifədən artıq, 1500 çap vərəqi həcmində əsər yazmaq, onu çap etdirib xalqın istifadəsinə vermək heç də dünya

---

[1] Müəllif tərəfindən müəyyənləşdirilmiş bu məlumatlar təxminidir və 2003-cü ilə qədərki dövrü əhatə edir.

dövlətləri başçılarının əksəriyyətinə nəsib olmamışdır. Bu xoşbəxtlik ancaq Heydər Əliyev kimi dünya şöhrətli dövlət xadimlərinin qismətinə düşmüşdür.

H.Əliyevin əsərləri, zəngin elmi-nəzəri irsi Azərbaycan xalqının milli sərvətidir, Azərbaycan kitabının "qızıl fondu"na daxildir. Azərbaycan kitabını qoruyub saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə çatdıran kitabxanalar bu mənəvi irsi göz bəbəyi kimi qoruyub saxlamalı, bütün oxucuların istifadəsinə verməlidir.

Ulu öndərin gələcək nəsillərə vəsiyyəti olan bu ölməz elmi-nəzəri irs içərisində mədəniyyət, kitab, kitabxana və mütaliə məsələləri mühüm yer tutur. Cəmiyyətin bütün üzvləri: alimlər, ziyalılar, təhsil işçiləri, mütəxəssislər, tələbələr və başqaları kimi kitabxanaçıların da bu irsi öyrənməyə böyük ehtiyacı vardır.

Məhz bunları nəzərə alan bu sətirlərin müəllifi "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" kimi olduqca ciddi bir monoqrafiyanı yazmağa cəsarət etmişdir.

Həmçinin H.Əliyevin dövründə yaşamış, onun bütün fəaliyyətini gözü ilə görmüş, həyata keçirdiyi tədbirlərin böyüklüyünü anlamış, onu yüksək qiymətləndirmiş, Heydər Əliyev siyasətinin, ideyalarının həyata keçirilməsində yaxından iştirak etmiş bir insan kimi Heydər Əliyev şəxsiyyətinə olan böyük məhəbbətim məni bu şərəfli işə sövq etmişdir.

# ƏLAVƏLƏR

## 1. HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV HAQQINDA QISA BİOQRAFİK MƏLUMAT[1]

| | |
|---|---|
| 1923-cü il 10 may | Heydər Əlirza oğlu Əliyev Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. |
| 1939-cu il | Naxçıvan Pedaqoji Texnikumunu əla qiymətlərlə bitirmiş və Azərbaycan Sənaye İnstitunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. |
| 1941-1944-cü illər | Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Xalq Komissarları Sovetində müxtəlif məsul vəzifələrdə çalışmışdır. |
| 1944-1969-cu illər | Dövlət təhlükəsizlik orqanlarında çalışmışdır. |
| 1950-ci il | Dövlət Təhlükəsizlik Komitəsində bölmə rəisi vəzifəsinə təyin olunmuşdur. |
| 1950-ci il | Leninqrad (indiki Sankt-Peter-burq) Milli Təhlükəsizlik Orqanları Məktəbini əla qiymətlərlə bitirmişdir. |
| 1951-ci il | Bakı Dövlət Universitetinin Tarix fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. |
| 1957-ci il | Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir. |
| 1964-1967-ci illər | Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini vəzifəsində çalışmışdır. |
| 1967-1969-cu illər | Azərbaycan SSR Nazirlər Soveti ya- |

[1] Heydər Əliyev. Təltiflər .-B., 2005.-335 s.

| | |
|---|---|
| | nında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində çalışmışdır. |
| 1969-cu il | Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul plenimunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitənin birinci katibi vəzifəsinə srçilmişdir. |
| 1976-1982-ci illər | Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilmişdir. |
| 1982-ci il dekabr | Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Birosunun üzvü seçilmiş və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunmuşdur. |
| 1982-1987-ci illər | Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışmışdır.<br>İyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı olmuşdur. |
| 1987-ci il oktyabr | Sov.İKP MK Mərkəzi Komitəsi rəhbərliyinin yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir. |
| 1990-cı il | Azərbaycan Respublikası Parlamentinə deputat seçilmişdir. |
| 1991-ci il iyul | Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. |
| 1991-1993-cü illər | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışmışdır. |
| 1992-ci il | Yeni Azərbaycan Partiyasının (YAP) Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. |
| 1993-cü il iyun | Azərbaycan xalqının yekdil iradəsi və tələbi ilə o zamankı ölkə rəhbərliyi tərəfindən rəsmən Bakıya dəvət edil- |

| | |
|---|---|
| | mişdir. |
| 1993-cü il 15 iyun | Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmiş, iyunun 24-dən isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır. |
| 1993-cü il oktyabr | Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. |
| 1993-cü il oktyabr<br>2003-cü il oktyabr | Azərbaycan Respublikasının Prezidenti vəzifəsində çalışmışdır. |
| 2003-cü il 12 dekabr | Amerika Birləşmiş Ştatlarının Klivlent şəhərində vəfat etmişdir. |
| 2004-cü il<br>27 fevral<br>10 mart | Azərbaycan Respublikasının Prezidenti ilham Əliyevin 27 fevral<br>2004-cü il tarixli sərəncamı və 10 mart 2004-cü il tarixli fərmanı ilə Ümummilli lider Heydər Əliyevin adı əbədiləşdirilmişdir. |

## 2. TƏLTİFLƏR

### 2.1.Heydər Əliyevin təltif olunduğu SSRİ-nin orden və medalları[1]

| | |
|---|---|
| 1945-ci il 9 may | "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almanya üzərində qələbəyə görə" medalı |
| 1945-ci il 6 iyun | "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı |
| 1948-ci 22 fevral | "Sovet Ordusunun və Donanmasının 30 illiyi" yubileyi medalı |
| 1949-cu il 27 may | "Əmək rəşadətinə görə" medalı |
| 1957-ci il 18 dekabr | "SSRİ Silahlı Qüvvələrinin 40 illiyi" yubileyi medalı |
| 1959-cu il 2 dekabr | II dərəcəli "Nümunəvi xidmətinə görə" medalı |
| 1964-cü il 4 dekabr | I dərəcəli "Nümunəvi xidmətinə görə" medalı |
| 1960-cı il 15 aprel | "DTK-nın fəxri əməkdaşı" nişanı |
| 1962-ci il 26 may | "Qızıl Ulduz" ordeni |
| 1964-cü 9 yanvar | Azərbaycan SSRİ Ali Sovetinin fəxri fərmanı |
| 1965-ci il 7 may | "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi" yubiley medalı |
| 1967-ci il 20 noyabr | "Sovet millisinin 50 illiyi" yubiley medalı |
| 1967-ci il 15 dekabr | "ÜFK-DTK-nın 50 illiyi" nişanı |
| 1967-ci il 26 dekabr | "SSRİ Silahlı Qüvvələrinin 50 illiyi" yubiley medalı |
| 1968-ci il 28 may | "SSRİ Sərhəd Qoşunlarının 50 illiyi" |

[1] Heydər Əliyev. Təltiflər.-B., 2005.-335 s.

| | |
|---|---|
| | yubiley nişanı |
| 1970-ci il 15 aprel | "V.İ.Leninin anadan olmasının 100 illiyi şərəfinə rəşadətli əməyə görə" yubiley medalı |
| 1971-ci il 25 avqust | Lenin ordeni |
| 1973-cü il 8 may | Lenin ordeni |
| 1975-ci il 25 aprel | "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 30 illiyi" yubiley medalı |
| 1976-cı il 27 dekabr | Lenin ordeni |
| 1978-ci il 28 yanvar | "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı |
| 1979-cu il 24 avqust | Lenin ordeni və "Oraq və çəkic" qızıl medalı |
| 1982-ci il 10 mart | "Oktyabr inqilabı" ordeni |
| 1982-ci 28 aprel | Sov.İKP MK-nın «Политическое образование» jurnalı redaksiya yeyətinin Fəxri Fərmanı |
| 1982-ci il 17 may | "Kiyevin 1500 illiyinə xatirə" medalı |
| 1982-ci il 5 oktyabr | "Georgi Dmitrovun anadan olmasının 100 illiyi" yubiley medalı |
| 1983-cü il 7 may | Lenin ordeni və "Oraq və çəkic" qızıl medalı |
| 1983-cü il 9 may | Georgi Dmitrov ordeni |
| 1984-cü il 8 iyun | "Komsomolsk-Amurun 50 illiyi" yubiley nişanı |
| 1984-cü il 12 iyul | ÜİLKGİ MK-nın "60 il v.i.Le-ninin adı ilə" fəxri nişanı |
| 1984-cü il | "Qırğızıstan SSR-nin və Qırğızıstan Kommunist Partiyasının 60 illiyi" xatirə medalı |
| 1985-ci il 24 yanvar | "25 il.Paris Lumumba adına Xalqlar Dostluğu Universiteti" medalı |
| 1985-ci il 12 aprel | 21941-1945-ci illər Böyük Vətən |

| | |
|---|---|
| | müharibəsində qələbənin 40 illiyi" yubiley medalı |
| 1985-ci il 19 aprel | "I dərəcə Vətən müharibəsi" ordeni |
| 1988-ci il 28 yanvar | "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı |

## 2.2. Heydər Əliyevin təltif olunduğu beynəlxalq orden və medallar

| | |
|---|---|
| 1997-ci il 24 mart | Ukraynanın Yaroslav Mudri ordeni |
| 1997-ci il 5 may | Türkiyə Respublikasının "Dövlət nişanı" |
| 1998-ci il 14 dekabr | Beynəlxalq Kadr Akademiyasının "Elm və təhsilin inkişafına görə" beynəlxalq ordeni |
| 2000-ci il 23 mart | Rusiya Rəssamlıq Akademiyasının "Ləyaqət" qızıl medalı |
| 2001-ci il 28 mart | Beynəlxalq Mühəndislik Akademiyasının "Böyük qızıl medalı" |
| 2001-ci il 18 may | Ukraynanın "Qızıl tale" Beynəlxalq Açıq Məhşurluq Reytinqinin "Qloriya Populi" qızıl ulduzu |
| 2001-ci il 28 may | Rus pravoslav kilsəsinin birinci dərəcəli "Moskva knyazı Müqəddəs Mömin Daniil" ordeni |
| 2001-ci il 29 sentyabr | Gürcüstanın "Qızıl rino" ordeni |
| 2002-ci il 3 may | Avropa Güləş Federasiyasının "Qızıl boyunbağı" fərqlənmə nişanı |
| 2002-ci il 27 iyun | İhsan Doğramacı Fondunun beynəlxalq qızıl sülh medalı |
| 2003-cü il 7 may | Fransa respublikasının "Fəxri Legionun Böyük Xaçı" ordeni |
| 2003-cü il 10 may | Rusiyanın "Müqəddəs apostol Andrey Pervozvannı" ordeni |

| | |
|---|---|
| 2003-cü il 12 may | Uşaq Fondları Beynəlxalq Assosiasiyanın Lev Tolstoy adına beynəlxalq qızıl medalı |
| 2003-cü il 27 iyun | Ukraynanın mədəniyyət ictimaiyyətinin "Şərəf" ordeni |

## 2.3.Heydər Əliyevin təltif olunduğu fəxri elmi adlar

| | |
|---|---|
| 1994-cü il 9 fevral | Ankara şəhərindəki Hacəttəpə Universitetinin fəxri doktoru |
| 1996-cı il 9 mart | Tbilisi Dövlət Universitetinin fəxri doktoru |
| 1997-ci il 29 mart | Moskva Hüquq Akademiyasının fəxri doktoru |
| 1997-ci il 7 may | İzmir şəhərindəki "Doqquz Eylül" Universitetinin fəxri doktoru |
| 1997-ci il 8 may | İstanbul şəhərindəki "Fatih" Universitetinin fəxri doktoru |
| 1997-ci il 11 iyun | Əl-fərabi adına Qazax Milli Dövlət Universitetinin fəxri doktoru |
| 1997-ci il 19 iyun | Daşkənd Dəvlət Universitetinin fəxri doktoru |
| 1988-ci il 24 mart | İzmir şəhərindəki Egey Universitetinin fəxri doktoru |
| 1998-ci il 1 may | Ərzurum Universitetinin fəxri doktoru |
| 1999-cu il 23 fevral | İsgəndərun şəhərindəki Universitetinin fəxri doktoru |
| 1999-cu il 28 noyabr | İsparta Universitetinin fəxri doktoru |
| 2000-ci il 11 fevral | Bakı Dövlət Universitetinin fəxri doktoru |
| 2000-ci il 31 may | Osmanqazi Universitetinin fəxri doktoru |

| | |
|---|---|
| 2002-ci il 10 yanvar | Bursa şəhərindəki Uludağ Universitetinin doktoru |
| 2002-ci il 25 yanvar | Moskva Dövlət Universitetinin fəxri professoru |
| 2002-ci il 11 may | Beynəlxalq Elmlər Akademiyasının fəxri akademiki |
| 2002-ci il 28 iyun | Qarş şəhərindəki Qafqaz Universitetinin fəxri doktoru |
| 2002-ci il 8 iyun | Beynəlxalq Üzümçülük və şərabçılıq Akademiyasının fəxri üzvü |
| 2002-ci il 24 sentyabr | Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitunun (Universitetinin) fəxri doktoru |
| 2003-cü il 12 mart | Kırıkqala Universitetinin fəxri doktoru |
| 2003-cü il 24 mart | Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü |

## 2.4.Heydər Əliyevin təltif olunduğu fəxri adlar və mükafatlar

| | |
|---|---|
| 1997-ci il 25 mart | Kiyev şəhərinin fəxri qonağı diplomu və Ukrayna paytaxtının rəmzi açarı |
| 1997-ci il 6 may | Türkiyə-Azərbaycan dostluğu Vərəqinin fəxri sədri diplomu |
| 1997-ci il 2 avqust | Texas ştatının fəxri vətəndaşı |
| 1997-ci il 3 avqust | Hyüston-Bakı Assosiasiyasının fəxri üzvü |
| 1997-ci il 4 avqust | Amerika-Avrasiya Sənaye-Ticarət Palatasının “1997-ci ilin adamı” mükafatı |
| 1997-ci il 2 noyabr | Milli Olimpiya Komitələri Assosiasiyalarının “Ləyaqət” mükafatı |

| | |
|---|---|
| 1997-ci il 28 noyabr | Ankara iş Qadınları Dərnəyinin "1997-ci ilin görkəmli dövlət adamı" mükafatı |
| 1998-ci il 28 noyabr | Ankara iş Qadınları Dərnəyinin "1998-ci ilin dövlət adamı" mükafatı |
| 2001-ci il 16 sentyabr | Ankara iş Qadınları Dərnəyinin "2001-ci ilin müdrik dövlət adamı" mükafatı |
| 2002-ci il 27 iyun | Ankara iş Qadınları Dərnəyinin "2002-ci ilin dövlət adamı" mükafatı |
| 1998-ci il 10 fevral | Kırpınar yağlı güləş yarışmalarının "Baş Ağası" mükafatı |
| 1998-ci il 13 fevral | Türkiyənin "Nərgiz TV" kanalının 1997-ci il üçün "Dünyada ilin adamı" mükafatı |
| 1998-ci il 14 fevral | Qars Şəhər Bələdiyyəsinin "1997-ci ilin insan haqları" mükafatı |
| 1998-ci il 14 fevral | Türk Sənayeçi və İş Adamları Vəqfinin "İlin dövlət adamı" mükafatı |
| 1999-cu il 6 fevral | Türk Sənayeçi və İş Adamları Vəqfinin "İlin dövlət adamı" mükafatı |
| 2002-ci il 27 iyun | Türk Sənayeçi və İş Adamları Vəqfinin "Üstün xidmət və başarı" mükafatı |
| 2002-ci il 10 sentyabr | Türk Sənayeçi və İş Adamları Vəqfinin fəxri sədri plaketi |
| 1998-ci il 27 yanvar | Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin "Türk dünyasına xidmət" mükafatı |
| 2002-ci 27 iyun | Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin "Türk dünyasının 2001-ci il xüsusi mükafat" |
| 1998-ci il 4 may | Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü |
| 1998-ci il 13 may | Rusiyanın Saratov vilayətindəki "Yurd" Cəmiyyətinin fəxri üzrü |

| | |
|---|---|
| 1998-ci il 23 may | Türkiyə Qəzetçilər və Yazıçılar Vəqfinin “Beynəlxalq Türk Dünyası qohum millətlərinin yaxınlaşması mükafatı” |
| 2002-ci il 13 iyun | Türkiyə Qəzetçilər və Yazıçılar Vəqfinin “Beynəlxalq Türk Dünyası qardaşlıq və dostluq dünyası” |
| 1998-ci il 5 sentyabr | Türkiyə Bayqurd diyarının “Dədə Qorqud” mükafatı |
| 1998-ci il 5 sentyabr | Türkiyənin İzmir şəhərinin Qarşıyaka bələdiyyəsinin “İnsan haqları” mükafatı |
| 1998-ci il 5 sentyabr | Türkiyənin İpək Yolu Vəqfinin “İpək Yolu Xidmət Mükafatı” və vəqfin fəxri üzvü |
| 1999-cu il fevral | Türkiyənin İpək Yolu Vəqfinin 1998-ci il “Böyük lider” mükafatı və vəqfinin fəxri sədri |
| 2000-ci il mart | Türkiyənin İpək Yolu Vəqfinin “1999-cu ilin dövlət adamı” mükafatı |
| 2001-ci il avqust | Türkiyənin İpək Yolu Vəqfinin “2001-ci ilin dövlət adamı” mükafatı |
| 2003-cü il 29 mart | Türkiyənin İpək Yolu Vəqfinin “2002-ci ilin siyasət adamı” mükafatı |
| 1998-ci il noyabr | Türkiyənin “Siyasət” jurnalının “İlin şərəf mükafatı” |
| 2003-cü il 17 mart | Türkiyənin “Siyasət” jurnalının “İlin dövlət adamı mükafatı” |
| 1998-ci il 12 noyabr | Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin fəxri sədri |
| 1999-cu il 7 iyun | Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin “Günümüzün ən dözümlü adamı” mükafatı |
| 2002-ci il 23 avqust | Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin 2002-ci |

| | |
|---|---|
| | ilin “Baş müəllim Atatürk” mükafatı |
| 1999-cu il 19 yanvar | Beynəlxalq Bioqrafiya Mərkəzinin “Dünyanın XX əsrdə görkəmli xadimi” mükafatı |
| 1999-cu il 7 iyul | Azərbaycan Respublikası Əsilzadələr Məclisinin 1 nömrəli şəhadətnaməsi |
| 1999-cu il 1 noyabr | Atatürk Beynəlxalq Sülh Mükafatı |
| 2000-ci il 17 iyun | İ.Y.Yakovlev adına Ümumçuva-şiya Milli Mükafatı |
| 2000-ci il 18 dekabr | Rusiya Kinematoqrafiya Sənəti Akademiyasının “Nika” mükafatı |
| 2001-ci il 22 oktyabr | Beynəlxalq Həvəskar Boks Assosiasiyasının fəxri mükafatı |
| 2002-ci il 22 mart | “Ruh” Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin “Jurnalistlərin dostu” mükafatı |
| 2002-ci il 9 iyun | “Rusiyanın Milli Şöhrəti Mərkəzi”nin “Sivilizasiyaların dialoqu” beynəlxalq Andrey Pervozvannı mükafatı |
| 2002-ci il 2 avqust | 4-cü Avrasiya teleforumunun mükafatı və diplomu |
| 2002-ci il 15 oktyabr | Türkiyənin “Samanyolu” televiziya kanalının “Medianın dostu mükafatı” |
| 2003-cü il 11 yanvar | ANS Şirkətlər Qrupunun və Çingiz Mustafayev adına Fondun “2002-ci ilin adamı” mükafatı |
| 2004-cü il 29 yanvar | ANS ŞirkətlərQrupunun və Çingiz Mustafayev adına Fondun”2003-cü ilin adamı” mükafatı |
| 2003-cü il 1 may | Məmməd Araz mükafatı |
| 2003-cü il 2 may | Türkiyənin “Zaman” qəzetinin “Avrasiyada sülh və dialoq” beynəlxalq mükafatı |

## 3. HEYDƏR ƏLİYEVİN KƏLAMLARINDAN*

***

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir!

***

Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qorumaqdan, əbədi etməkdən ibarətdir.

***

Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən aziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti - dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacağıq.

***

Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

***

Kim müxalifətdə durursa-dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın.

***

Azərbaycanda söz azadlığı, fikir azadlığı, siyasi plüralizm geniş yer almalıdır, hər bir vətəndaş özünü azad, sərbəst hiss etməlidir.

***

Əgər hər hansı ölkənin xalqları öz hüqüqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

***

Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

***

Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

***

İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir.

***

* Heydər Əliyev. Biblioqrafik məlumat kitabı-.B,2003.-S.143-152.

Azərbaycan Respublikası dünya birliyi ilə tam hüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir.

***

Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır.

***

Respublikamız artıq böyük bir dövlətdir. Bu dövləti biz öz gücümüzlə, vətənparvər insanların gücü ilə qoruyuruq və qoruyacağıq.

***

Azərbaycaınn müstəqilliyi, müstəqil dövlətimizin hərtərəfli fəaliyyəti torpaqlarımızın azad edilməsi ilə bağlıdır.

***

Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik.

***

İndi biz dövlət müstəqilliyi əldə etdiyimiz, öz taleyimizin sahibi olduğumuz bir dövrdə problemlərimizi özümüz həll etməliyik.

***

Hər bir demokratik cəmiyyətdə şübhəsiz ki, müxalifət olmalıdır.

***

Bizim konstitusiyamız xalqın konstitusiyasıdır. Hər bir vətəndaşın konstitusiyasıdır.

***

Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin.

***

Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.

Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir.

***

Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz tikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz vətənimizi qoruyuruq.

***

Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüqüqun sarsılmaz prinsipidir.

***

Dövlət müstəqilliyi, milli azadlıq bizim ən böyük tarixi nailiyyətimizdir və biz bunu qoruyub saxlayacağıq.

***

Xalqımız öz gücünü toplamalı, keçmişdən nəticə çıxarmalıdır.

***

Müstəqil Azərbaycan Respublikası bizim ən böyük tarixi nailiyyətimizdir!

***

Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, biz artıq öz taleyimizin, öz ölkəmizin sahibiyik və Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir.

***

Hamını Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin gələcəyi, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə fəaliyyətə, birliyə, əməkdaşlığa dəvət edirəm!

***

Müstəqil Azərbaycan dövləti günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç zaman əldən verməyəcəkdir!

***

Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir.

***

Zəngin hərbi tarixə malik Azərbaycan xalqı öz Silahlı Qüvvələrinin əzm və qüdrətinə arxalanaraq çətin və ağır dövlət quruculuğu yollarında daha inamla addımlayacaq və yeni zəfərlər qazanacaq.

***

Orduya qayğı, hörmət cəmiyyətin, xalqın şərəfli vəzifəsidir.

***

Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir.

***

Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, müstəqil Azərbaycan Respublikasının Milli Ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir.

***

Qəhrəman ordumuz Azərbaycan Respublikasının müstəqilliyinin təminatçısı olmuşdur və gələcəkdə də olacaqdır.

***

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkədə demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaq və respublikanın iqtisadiyyatında islahatlar aparmaq, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq prinsiplərini əsas götürmüşdür.

***

Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi və regionallaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir.

***

Respublikanın sosial-iqtisadi vəziyyətini inkişaf etdirmək üçün biz xarici ölkələrlə və dünyanın bütün şirkətləri ilə sıx əməkdaşlıq etməyi, Azərbaycan ilə xarici ölkələr, şirkətlər arasında müştərək iş görməyi iqtisadiyyat sahəsində əsas istiqamətlərdən biri hesab edirik.

***

Dünya iqtisadiyyatının inteqrasiyası, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətlidir və ümumiyyətlə, dünyada daha da yüksəlmək üçün bu, yeganə bir yoldur.

***

Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur.

***

Dövlət adamları kimi bizim vəzifəmiz milli sərvətimizə son dərəcə qənaətlə və qayğı ilə yanaşmaqdır.

***

Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur.

***

Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.

***

Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.

***

Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir və onların mədəniyyəti bu yolla inkişaf edir.

***

Azərbaycan mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır.

***

Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.

***

Bizim musiqimiz - xalq musiqisi, folklor musiqisi çox rəngarəngdir, çox zəngindir.

***

Yeni-yeni təhsil ocaqlarının, ali məktəblərin, universitetlərin yaranması indi müstəqil Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olmasının əsasını qoymuşdur.

***

Azərbaycan xalqı dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr vermişdir.

Hər bir xalqın mədəniyyəti həmişə onu yüksəldir, bütün dünyada tanıdır, mənəviyyatını zənginləşdirir.

* * *

Azərbaycanda ali təhsilin, ümumi təhsilin, elmin, mədəniyyətin, iqtisadiyyatın inkişafında Bakı Dövlət Universitetinin xidmətləri əvəzsizdir.

***

Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixandır.

***

Xalqımız öz böyük şəxsiyyətləri vasitəsilə Azərbaycanın milli-mənəvi dəyərlərini qoruyub saxlamış, zənginləşdirmiş və bu gün ümumbəşəri dəyərlərin bir hissəsinə çevirmişdir.

***

Mədəniyyətimizin, elmimizin, təhsilimizin insanların mənəviyyatını daha da yüksəklərə qaldırması üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir.

***

Azərbaycan xalqı bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı dünya elmini, mədəniyyətini zənginləşdirmiş, insanları maarifləndirmişdir.

***

Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

***

Tarix hər şeyi öz yerinə qoyur.

***

Gərək biz tariximizi heç vaxt unutmayaq, onun hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq.

***

Tariximiz zəngindir, eyni zamanda əzab-əziyyətli tarixdir.

***

Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir.

***

Xalq gərək öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

***

1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti də bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir.

***

Əgər XX əsrin əvvəlində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olubdur.

***

Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik.

***

Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir.

***

Ana hər bir insan üçün müqəddəsdir. Təsadüfi deyildir ki, biz Vətənə də Ana Vətən deyirik, torpağa da. Azərbaycan xalqının ən böyük sərvəti ondan ibarətdir ki, o, əsrlər boyu qəhrəman, cəfakeş, dözümlü analar yetirmişdir.

***

Hər xalqın, o cümlədən də Azərbaycan xalqının öz milli mənliyi var. O milli mənliyi də xalqın qabaqda gedən adamları ifadə etməli, təmsil etməlidirlər.

***

İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanlan dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir.

***

Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər.

***

Cəmiyyətimizdə saf mənəviyyatı bərqərar etmək, inkişaf etdirmək, bütün mənfi hallara qarşı mübarizəni gücləndirmək əsas vəzifəmizdir.

Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir.

***

Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır.

***

Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq.

***

Azərbaycan xalqı qəhrəman, cəsur, dəyanətli, saf əxlaqlı bir xalq kimi bütün dünyada tanınıb!

***

Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

***

Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun.

***

İnsan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır.

***

Müəllimlik çox şöhrətli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir.

***

Xalqımız öz mənəviyyatına, dininə və ənənələrinə sadiqdir.

***

İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir.

***

Xalqımızın içində böyük bir mədəniyyət potensialı, fitri istedad potensialı vardır.

***

Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini

müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır.

***

Xalqımızm birliyi və qələbəyə inamı gələcək uğurlarımızın təməlidir!

***

Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir!

***

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

***

Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir.

***

Azərbaycanlılar! Harda olursan-ol, hansı ölkədə yaşayırsanyaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən!

***

Azərbaycanın gəncləri Azərbaycanın gələcəyidir!

***

Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daima yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır!

***

Bizim hamımızın bir vətəni var: Bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.

***

Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.

## 4. DÜNYANIN GÖRKƏMLİ SİYASƏTÇİLƏRİ, ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ HEYDƏR ƏLİYEV HAQQINDA*

Siz bizim, Amerikanın yaxın dostusunuz və sizi belə də qəbul edirik.

***Corc Buş,***
***ABŞ prezidenti***

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın böyük gələcək gözləyir.

***Jak Şirak,***
***Fransa prezidenti***

Biz bilirik ki, demokratiyaya doğru gedən yol çətindir. Planlı inzibati-amirlik iqtisadiyyatından sərbəst bazar iqtisadiyyatına keçid uzun sürən, mürəkkəb prosesdir. Ancaq biz inanırıq ki, Heydər Əliyevin müstəqillik əzmi, demokratik əzmi, demokratik mövqe tutması bütün dünya ilə əlaqələr yaratması üçün layiqli körpü rolunu oynayacaqdır.

***Oskar Lui Skalfaro,***
***İtaliyanın prezidenti***

Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan tezliklə dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir.

***Əlahəzrət Akixito,***
***Yaponiyanın imperatoru***

Heydər Əliyev cənablarının şəxsində özümüzə dost və lider toplamışıq. O, əsrlərdən bəri böyük tarixə malik olan bölgədə aparıcı mövqe tutmuş, keçmiş sovetlər birliyində yüksək vəzifə-

---

* Heydər Əliyev haqqındakı fikirlər Baxşeyiş Ələmşahov, Nizami Baxşeyiş oğlu. "Fikirlərin vəhdəti" (B., 1998) kitabından götürülmüşdür.

lərdə olmuşdur. Buna görə də biz onun kimi dahi bir xadimlə daim fikir mübadiləsi aparmaq istəyirik.

***Fərrux Əhməd Xanleqari***
***Pakistan İslam Respublikasının prezidenti***

Cahanşümul siyasətçi kimi dünya siyasətçi proseslərini yaxın gələcəkdə hansı istiqamətdə inkişaf edəcəyini Heydər Əliyevin dilindən eşitmək mənim üçün çox əhəmiyyətlidir.

***Keceril Narayana,***
***Hindistanın prezidenti***

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu və iqtisadi islahatlar sahəsində əməli tədbirlər həyata keçirilir.

***Emil Konstantineku,***
***Rumıniya prezidenti***

Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycanda islahatlar müvəffəqiyyətlə həyata keçirilir.

***Vatslav Havel,***
***Çexiya prezidenti***

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin rəhbəri olmaqla yanaşı, həm də zəmanəmizin görkəmli liderlərindən biridir.

***Aleksandr Kvasnevski,***
***Polşa prezidenti***

Heydər Əliyevi biz təcrübəli dövlət xadimi, müasir Azərbaycanın qurucusu kimi tanıyırıq.

***Jelyu Jelev,***
***Bolqarıstan prezidenti***

Heydər Əliyev dövrümüzün böyük siyasi xadimidir, onunla keçirdiyim hər bir görüş böyük hadisədir.

***Jelyu Jelev,***
***Bolqarıstan prezidenti***

Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycanda baş verən müsbət dəyişikliklərdən xəbərdaram. Biz Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın durmadan inkişaf etdirilməsinə xüsusi maraq göstəririk.

***Piter Stoyanov,***
***Bolqarıstan prezidenti***

Heydər Əliyev Zaqafqaziya və Xəzər regionunda sülh yaranması və sabitliyin qorunub saxlanmasında çox iş görmüş, böyük nüfuza malik siyasətçidir.

***Arpad Hents,***
***Macarıstan prezidenti***

Heydər Əliyev Sovetlər Birliyində ən böyük vəzifələrdə çalışanda mən onunla fəxr edirdim, onun hər bir müvəffəqiyyətinə qəlbən sevinirdim. Bu gün də onu ən yaxın dostum hesab edirəm.

***Hafiz Əsəd,***
***Suriya prezidenti***

Sizə həqiqətən qibtə edirəm Heydər Əliyeviç! Siz Azərbaycan tərəfindən qəbul edilən lidersiniz.

***Leonid Kuçma,***
***Ukrayna prezidenti***

Heydər Əliyevin zəngin təcrübəsi və müdrikliyi sayəsində əldə edilmiş nəticələr yeni müstəqillik qazanmış digər ölkələr üçün də gözəl nümunədir.

***Algirdas Brazauskas,***
***Litva prezidenti***

Bir çox nüfuzlu neft şirkətləri ilə Azərbaycanın tarixi əhəmiyyətli müqavilələr imzalaması görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasətinin bariz nümunəsidir.

***Quntıs Ulmanis,***
***Latviya prezidenti***

XX əsr liderlər əsridir, Heydər Əliyev də əsrimizin lideridir.

***Eduard Şevardnadze,***
***Gürcüstan prezidenti***

Heydər Əliyev xalqı sıx birləşdirməyə və onu tərəqqi, inkişaf yoluna istiqamətləndirməyə müvəffəq olmuşdur. Buna müasir tarixdə əslində heç kəs nail olmamışdır.

***Nirsultan Nazarbayev,***
***Qazaxıstan prezidenti***

Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, təcrübəli, müdrik rəhbər olan Heydər Əliyev çətin vaxtda yenidən hakimiyyətə qayıtdı.

***Əsgər Akayev,***
***Qırğızıstan prezidenti***

Heydər Əliyevin qətiyyətli iştirakı və şəxsi əməyi olmasaydı, Azərbaycanın nailiyyətləri də mümkün olmazdı.

***Emoməli Rəhmonov,***
***Tacikistan prezidenti***

Heydər Əliyev, həqiqətən, bütün çətinliklərdən, ən ağır sınaqlardan keçməyi bacaran rəhbərlərdəndir. O, müdrik insandır. Heydər Əliyev kimi rəhbəri olan xalq xoşbəxtdir.

***İslam Kərimov,***
***Özbəkistan prezidenti***

Bu gün Azərbaycanın nümayiş etdirdiyi uğurlar, qazandığı nailiyyətlər daha əhəmiyyətli və daha sanballıdır. Bütün bunlar Azərbaycan xalqının tanınmış lideri Heydər Əliyevin çox böyük şəxsi töhfəsinin və şəxsi şücaətinin nəticəsidir.

***Saparmurad Niyazov,***
***Türkmənistan prezidenti***

Zəngin təcrübəyə malik siyasi xadim Heydər Əliyevlə görüşə həmişə ehtiyac duyuram.

***Petru Luçinski,***
***Moldova prezidenti***

Prezident Heydər Əliyevin xarici siyasəti nəticəsində Azərbaycan dünya birliyinə çox uğurla qovuşur.

***Mintimer Şaymiyev,***
***Tatarıstan prezidenti***

Heydər Əliyev gənc siyasətçilərin ağsaqqalı, patriarxıdır.

***Kirsan İlyumjinov,***
***Kalmiqiya prezidenti***

Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan milli müstəqillik yolunda böyük nailiyyətlər qazanmışdır.

***Bill Klinton,***
***ABŞ prezidenti***

Azərbaycanın bugunkü nailiyyətlərində Heydər Əliyevin səriştəli və müdrik rəhbərliyi şəksizdir.

***Süleyman Dəmirəl***
***Türkiyə prezidenti***

Heydər Əliyevin uzaqgörən siyasəti xalqı və ölkəni firavanlığa, surətli inkişafa gətirib çıxaracaqdır. Mən görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik zəkasına inanıram və bilirəm ki, onun rəhbərliyi altında Azərbaycan öz müstəqilliyini daha da möhkəmləndirəcək və əbədi edəcəkdir.

***Henri Kissencer,***
***ABŞ-ın məşhur siyasi xadimi, politoloq***

Heydər Əliyev Azərbaycanda demokratiyanın və fikir plüralizminin, yeni iqtisadi və siyasi münasibətlərin qarantıdır.

***Zbignev Bjezinski,***
***ABŞ Beynəlxalq Strateji Tədqiqatlar***
***Mərkəzinin rəhbəri, politoloq***

Heydər Əliyev Mərkəzi Asiyanın Corc Vaşinqtonudur.

***Qreg Laflin,***
***ABŞ konqresmeni***

Mən dünya şöhrətli bir dövlət xadimi olan Heydər Əliyevlə görüşümdən çox məmnunam. Onun çox dərin zəkaya malik olduğunu bir daha aydın hiss etdim.

***Uilyam Kohen,***
***ABŞ-ın müdafiə naziri***

İlkin neftin hasil edilməsinin qeyd olunması çox mühümdür və gələcəyin simvoludur. Bu uğur digər imkanlar üçün qapı olacaqdır. Unutmaq olmaz ki, bu layihə prezident Heydər Əliyevin cəsur liderliyi, beynəlxalq biznes dairələri ilə əməkdaşlığı nəticəsində mümkün olmuşdur.

***Federiko Penya,***
***ABŞ-ın energetika naziri***

Prezident Klintonun prezident Əliyevlə görüşündən məmnunam. Bu vəzifədə olduğum dövrdə ABŞ-da Heydər Əliyev qədər yüksək səviyyəli qarşılanan və uğurlu səfər edən ikinci prezident hələ görməmişəm.

***Madlen Olbrayt,***
***ABŞ-ın dövlət katibi***

Heydər Əliyev təkcə Azərbaycanın yaxşı lideri deyildir, həm də öz nöqteyi-nəzərini digər adamlara və ölkələrə qəbul etdirməyi bacaran siyasi xadimdir.

***Lloyd Bentsen,***
***ABŞ senatoru***

Azərbaycan prezidenti qeyri-adi, dahi şəxsiyyətdir. Onu ən görkəmli siyasi və dövlət xadimi kimi Corc Vaşinqtonla müqayisə edirəm. Onların hər ikisinin tarixi missiyası arasında uyğunluq var.

**Allen Ueynşeyn,**
**ABŞ-da Demokratiya mərkəzinin prezidenti**

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanı demokratik inkişaf yoluna çıxarmışdır.

***Li Hamilton,***
***ABŞ konqresmeni***

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qısa müddətdə böyük inkişaf yoluna çıxararaq, onu bütün dünyada tanıtmış və onu böyük nüfuz qazandırmışdır.

***Doktor Şəfayi Ənsari,***
***ABŞ-dakı Azərbaycan***
***Mədəniyyət Cəmiyyətinin nümayəndəsi***

Prezident Heydər Əliyevin fəaliyyətini Atatürklə yan-yana qoyuram, görürəm ki, bir çox məqamlar üst-üstə düşür.

***Doktor Əli Arslan,***
***Amerikada Azərbaycan Assambleyasının sədri***

Azərbaycanın dövlət müstəqilliyinin saxlanılması prezident Heydər Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində əbədi və dönməz olacaqdır.

***Stroub Talbott,***
***ABŞ dövlət katibinin birinci müavini***

Heydər Əliyev ABŞ-ın böyük dostu, islahatçısıdır. Onun ölkəsinin böyük gələcəyi var və biz onunla sıx əlaqə yaratmaq istəyirik.

***Uilyam Riçardson,***
***ABS-ın BMT yanında daimi nümayəndəsi***

Prezident Heydər Əliyev çox çətin şəraitdə nəzərə çarpan irəliləyişə nail olmuş, Azərbaycanın müstəqilliyinə və gələcək inkişafına təminat yaratmışdır.

***Pol Qobl,***
***"Azad Avropa" "Azadlıq"radiostansiyası direktorunun***
***translyasiya üzrə müavini***

Görkəmli dövlət xadimi prezident Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində müsbət işlər görülür.

***Aven Mur,***
***Beynəlxalq Yardım***
***Komitəsinin direktoru***

Prezident Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycanda yəhudilər üçün yaradılan şərait dünyadakı bütün müsəlmanlar və yəhudilər üçün nümunə olmalıdır.

***Avraam Burq***
***Ümumdünya Yəhudi Agentliyi***
***Direktorlar Şurasının sədri***

Heydər Əliyev ən görkəmli dövlət xadimi kimi təkrarolunmaz səmimi atmosfer yarada bilir, elə bir atmosfer ki, orada hər şey var - inam, dostluq, fədakarcasına xeyirxahlıq.

***Lev Bardaui,***
***"Soxnu" Yəhudi Agentliyinin***
***nümayəndəsi***

Bu gün Heydər Əliyevdən məşhur və hörmətli olan siyasətçi yoxdur.

***Mixail Bakker Avropa***
***Yəhudiləri icmasının sədri***

Heydər Əliyev təcrübəli bir siyasətçidir.

***Norman Tils,***
***Yəhudi icmasının təmsilçisi***

Heydər Əliyev bütün dünyanın etiraf etdiyi görkəmli liderdir.

***Federiko Mayor,***
***YUNESKO-nun baş direktoru***

Heydər Əliyev Azərbaycanda və keçmiş Sovetlər İttifaqında çox layiqli dövlət xidmətləri olmuş bir şəxsdir.

***Samir Sambar,***
***BMT Baş Katibinin ictimai***
***informasiya üzrə müavini***

Cənab Heydər Əliyev çox lazımlı adamdır. Mən onu özümə müəllim hesab edirəm.

***Daqlas Hörd,***
***İngiltərənin dövlət katibi***

Azərbaycanda son dövrdə baş verən müsbət dəyişikliklər prezident Heydər Əliyevin həyata keçirdiyi müsbət tədbirlərin nəticəsidir.

***Yan Lanq,***
***Böyük Britaniyanın***
***ticarət və sənaye naziri***

Obyektiv müfəssəl məlumatları Heydər Əliyev kimi qiymətləndirən ikinci adam tanımıram.

***Reno Monori,***
***Fransada senatın sədri***

Bu gün Azərbaycan Heydər Əliyevin yürütdüyü uzaqgörən daxili və xarici siyasət nəticəsində dünya siyasətində strateji rol oynayır.

***Erve de Şarett,***
***Fransanın xarici işlər naziri***

Heydər Əliyev canlı əfsanədir.

***Jan Düre,***
***Fransa, sovetoloq***

Mən Heydər Əliyevin şəxsində uzaqgörən və qətiyyətli siyasətçi nümunəsi görürəm.

***Akira Amarini,***
***Yaponiya-Azərbaycan Dostluğu***
***Parlament Assambleyasının Prezidenti***

Azərbaycan müstəqillik əldə etdikdən sonra ağır dövr keçmişdir. Heydər Əliyev prezident vəzifəsinə başladıqdan sonra sabitləşmə və iqtisadi islahatlar istiqamətində uğurlu iş aparılır. Bunu təkcə mən yox bütün dünya etiraf edir.

***Herdl Viqhard,***
***Almaniyanın Federal İqtisadi***
***Əməkdaşlıq və İnkişaf Nazirliyinin***
***dövlət katibi***

Hörmətli Heydər Əliyevi biz gəncliyimizdən indiyədək əfsanəvi bir şəxsiyyət, lider kimi tanıyırıq və təbliğ edirik. Bir türkün böyük bir dövlətlər birliyinin ən yüksək vəzifəsində çalışmasından vaxtilə biz həmişə böyük iftixar hissi keçirmişik. Biz Heydər Əliyevin timsalında Azərbaycanın xilaskarını görürük. Heydər Əliyev bütün türk dünyasının lideridir. Mən onun zəkası, ağlı, düşüncəsi, cəsarəti qarşısında baş əyirəm.

***Namiq Kamal Zeybək,***
***Türkiyənin dövlət naziri***

Mən Azərbaycanın gələcəyini çox parlaq görürəm. Azəri xalqının Cumhurbaşqanı sayın Heydər Əliyevin liderliyi ilə Azərbaycan öz müstəqilliyini, suverenliyini möhkəmləndirərək bölgənin önəmli bir dövləti olmaq yolundadır.

***Hikmət Çətin,***
***Türkiyə Böyük Millət Məclisinin sədri***

Baş komutan Heydər Əlirza oğlu dünya şöhrətli bir liderdir. O, Atatürkün mənəvi övladıdır!

***Dəniz Baykal,***
***Türkiyə Respublikası Cümhuriyyət***
***Xalq Partiyasının lideri***

Heydər Əliyev mənalı ömür yolu keçmiş görkəmli bir şəxsiyyətdir.

***Benyamin Netanyahu,***
***İsrailin xarici işləv naziri***

Heydər Əliyevlə görüşdən məmnunam. Əminəm ki, Azərbaycan yaxın illərdə dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir.

***Jan Kvetyen,***
***Kanadanın baş nazivi***

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində müstəqil Azərbaycan böyük tərəqqi yoluna qədəm qoyub.

***Xose Mariya,***
***İspaniya hökumətinin sədri***

Heydər Əliyev həmişə mənim qəlbimdədir. Onun problemlərimiz göstərdiyi diqqəti heç vaxt unutmarıq. Azərbaycanın dəstəyini həmişə hiss etmişik, biz bununla fəxr edirik və bundan qüvvət, güc alırıq.

***Yasir Ərəfat,***
***Fələstin rəhbəri***

Görkəmli dövlət xadimi Heydər Əliyevin liderliyi bölgədə bütün ölkələr üçün xüsusi əhəmiyyət daşıyır. Biz Azərbaycanı Qafqaz regionunda çox mühüm coğrafi-siyasi əhəmiyyəti olan bir ölkə hesab edirik.

***Turbörn Uaqland,***
***Norveçin baş naziri***

Fəxr edirik ki, Heydər Əliyevin zamanəsində fəaliyyət göstəririk və onun arxasınca gedərək göstərişlərini həyata keçiririk.

***Flavio Kotti,***
***ATƏT-in sabiq sədri,***
***İsveçrənin xarici işlər naziri***

Xəzərin Azərbaycan sektorundakı “Çıraq-1" yatağından ilkin neftin hasil edilməsi görkəmli dövlət xadimi prezident Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir.

***Əmir Musa,***
***Misir Ərəb Respublikasının***
***xarici işlər naziri***

Dünyada görkəmli dövlət xadimi kimi yaxşı tanınan prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası yaxın gələcəkdə ən inkişaf etmiş ölkələrdən birinə çevriləcəkdir.

***Kofi Annan,***
***BMT-nin baş katibi***

Mən Azərbaycan prezidentinin qətiyyətini, məğrurluğunu çox yüksək qiymətləndirirəm.

***Xavyer Solana,***
***NATO-nun baş katibi***

Heydər Əliyev zəkasına, məsələləri işgüzarcasına, təmkinlə həll etmək bacarığına görə seçilən şəxsiyyətdir.

***Yuri Lujkov,***
***Moskva şəhərinin meri***

Keçmiş Sovet İttifaqının, indiki Rusiya və Azərbaycanın təhsil sisteminə Heydər Əliyevin böyük, müsbət təsiri olmuşdur.

***Vladimir Kinilyov,***
***Rusiyanın ümumi***
***təhsil vəpeşə təhsili naziri***

İllərdən bəri tanıdığım və hörmət bəslədiyim şəxsiyyətlərdən biri Heydər Əliyevdir. Onun öz xalqı üçün, tarix üçün, Rusiya

ilə əlaqələr üçün sağ-salamat qaldığına görə taleyə minnətdaram.

***Yeqor Stroyev,***
***MDB Parlamentlərarası***
***Assambleyası Şurasının sədri***

Heydər Əliyev tutduğu bütün vəzifələrdə özünü beynəlxalq miqyaslı nüfuza və hörmətə malik siyasətçi, zəkalı rəhbər kimi göstərmiş və göstərir.

***Gennadi Seleznyov,***
***RF Dövlət Dumasının sədri***

Azərbaycan xalqının bəxti gətirdi ki, Heydər Əliyev cənabları yenidən hakimiyyətə qayıtdı.

***Anatoli Minçenko,***
***Ukraynanın dövlət naziri***

Prezident Heydər Əliyevin yolu örnəkdir, ondan nümunə götürülməyə layiqdir.

***Zurab Jvaniya,***
***Gürcüstan Parlamentinin sədri***

Azərbaycan xalqı özünə ölkəni idarə edə biləcək şəxsi prezident seçib.

Məhəmmədəli Məhəmmədov, Dağıstan Dövlət Şurasının sədri

Prezident Heydər Əliyev dünya dövlətlərinin liderləri arasında çox böyük nüfuza malik olan şəxslərdəndir.

***Elizabet Şervud,***
***ABŞ-ın Stenford Universitetinin***
***professoru***

Prezident Heydər Əliyevi dinləmək çox əhəmiyyətli və faydalıdır. Ölkəsini əsl yeni müstəqil dövlət kimi irəliyə aparan prezident Əliyev bütün regionda çox önəmli liderlik rolu oynayan bir şəxsiyyətdir.

***Maykl Kellin,***
***Vaşinqtondakı Corctani***
***Universitetinin vitse-prezidenti***

Bütün güclü şəxsiyyətlər kimi Heydər Əliyev hamını öz arxasınca apara bilir. O, son dərəcə işgüzar və ziyalı bir rəhbər kimi zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirdi, Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu.

***Odri Aldstadt,***
***Amerikalı tarixçi***

Heydər Əliyev bütün varlığı ilə xalqa bağlı adamdır.

***Qulamrza Səbri Təbrizi,***
***İngiltərədə yaşayan***
***yazıçı-alim***

Heydər Əliyev sülhsevər insandır, xalqına gərək böyük rəhbərdir.

***Akira Yaponiya,***
***dilçi alim***

Heydər Əliyev bütün dünyada tanınmış bir siyasətçi, dövlət xadimi və millət atasıdır.

Heydər Əliyev müstəqil, demokratik, hüquqi bir dövlətin memarıdır. O doğma xalqın milli şüurunu dirçəldərək onda gələcəyə böyük ümidlərlə baxmaq hissləri yaratmışdır. Biz Heydər Əliyevlə və Türkiyənin böyük qurucusu Mustafa Kamal Atatürklə fəxr edirik.

***Ergün Yenər,***
***Türkiyənin "Fatih" Universitetinin***
***rektoru, professor***

Heydər Əlirza oğlu bütün mənliyilə türk oğlu türkdür!
Irfan Ünvər Nəsrəddin oğlu, Türkiyə Respublikası, yazıçı

Heydər Əliyev müdrik dövlət xadimi kimi müdrikdir xalqların ən görkəmli liderlərindən biridir.

***İhsan Doğramacı,***
***Türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri***
***Birliyinin fəxri prezidenti, professor***

Heydər Əliyevi türk dünyasının görkəmli siyasi xadimi kimi Türkiyədə də ürəkdən sevirlər.

***Barış Manço,***
***Türk müğənnisi***

Görkəmli dövlət xadimi Heydər Əliyev ülvü, bəşəri hisslərlə yaşayan bir rəhbərdir.

***Maykl De Beyki,***
***Hyüstondakı tibb mərkəzinin professoru,***
***dünya şöhrətli ürək cərrahı***

Bu gün Azərbaycan həqiqəti adlı bir rüzigar dünyanın ən yüksək kürsülərində əsirsə, bu, məhz Heydər Əliyevin yenilməz iradəsinin, gərgin əməyinin, müdrik siyasətinin bəhrəsidir.

***İlhan Aşqın,***
***Hollandiyanın Azərbaycan-***
***Türk Kültür Dərnəyinin rəhbəri***

Prezident Heydər Əliyevin çıxışı öz dəyəri ilə bir çoxları kimi məni də heyran edir. Onun çıxışında bütün məsələlər müdrikliklə açılıb ortaya qoyulur.

***Doktor Cavad Heyət,***
***İran İslam Respublikası, cərrah***

Heydər Əliyev fəal, müdrik və ədalətlidir və belə də qalır.

*Anatoli Solovyanenko,*
*SSRİ xalq artisti*

Heydər Əliyev Azərbaycan dövlətçiliyinin inkişafına əvəzsiz töhfə vermişdir.

*Oleq Kutafin,*
*Moskva Dövlət Hüquq Akademiyasının*
*rektoru, akademik*

Bu gün bir çox siyasətçilər hiylələr qurmaqla, xalqları bir-birinə qarşı vuruşdurmaqla məşğul olduqları bir vaxtda Heydər Əliyev əbədi dəyərlərin qorunması işində əvəzsiz işlər görür.

*Rimma Kazakova,*
*Rusiya Federasiyası, şair*

Mən inanıram ki, Heydər Əliyev kimi prezidenti olan ölkə qarşıya çıxan bütün çətinliklərin öhdəsindən mətanətlə gələcək.

*Vladislav Kazenin,*
*Rusiya Federasiyası Bəstəkarlar*
*İttifaqının sədri*

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda kiçik bir vaxt ərzində çox böyük tərəqqi baş vermişdir.

*Mayya Plisetskaya,*
*Rusiya balerinası, SSRİ xalq artisti*

Heydər Əliyev olduqca böyük bir iş görmüş, xalqı öz ölkəsinin sahibi etmiş və bütünlükdə ölkəni dəyişdirmişdir. Mən Heydər Əliyevi çox sevirəm və ona inanıram.

*Mstislav Rostropoviç,*
*görkəmli musiqiçi*

Prezident Heydər Əliyev mədəniyyət və ədəbiyyata böyük hörmət bəsləyir. Bu, onun müdrikliyinə dəlalətdir.

***İvan Draç,***
***Ukrayna şairi***

Prezident Heydər Əliyevin simasında Azərbaycan müdrik və güclü rəhbərə malikdir. O, respublikanı islahatlar yolu, dünyəvi, demokratik dövlət quruculuğu yolu ilə aparır.

***Türabəy Dalimov,***
***Daşkənd Universitetinin rektoru,***
***professor***

Heydər Əliyev XX əsrn görkəmli liderlərindən biri kimi, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır.

*Çingiz Aytmatov,*
*Qızğızıstan, yazıçı*

Heydər Əliyev Azərbaycanın rəşadətli oğludur.

***Muxtar Şaxanov,***
***Qazaxıstan və Qızğızıstanın xalq şairi, akademik***

Heydər Əliyev böyük şəxsiyyətdir. O, mənim dostum, qardaşımdır. Onun yeri həmişə ürəyimin başındadır.

Butros-Butros Qali,
BMT-nin sabiq baş katibi

Azərbaycanın daha xoşbəxt, daha işıqlı gələcəyini yalnız Heydər Əliyev cənablarının fəaliyyəti ilə bağlamaq lazımdır.

***Con Meycor,***
***Böyük Britaniyanın sabiq baş naziri***

Azərbaycan prezidenti Heydər Əliyev müasir zəmanəmizin görkəmli siyasi xadimlərindən biridir.

***Marqaret Tetçer,***
***Böyük Britaniyanın sabiq baş naziri***

Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində Azərbaycan keçmiş sovetlər birliyinin lider dövlətləri ilə müqayisədə həddindən çox nailiyyətlər əldə edibdir. O, həqiqətən yeni Azərbaycan dövlətinin qurucusudur.

***Timm Eqqar,***
***Böyük Britaniyanın sabiq energetika naziri***

Yaponiyaya bir çox dövlət başçıları səfər edirlər. Lakin Heydər Əliyevin səfərinə ictimaiyyət və kütləvi informasiya vasitələri tərəfindən göstərilən dərin maraq Yaponiyada nadir hallardan biridir.

***Ryutaro Haşimoto,***
***Yaponiyanın sabiq baş naziri***

Ölkənin nüfuzunu artırmaq, beynəlxalq kürsülərdə onun sözünə kəsər gətirmək və xalqın firavan həyatını təmin etmək üçün təkcə əlverişli geosiyasi məkan bəs etmir. Bu geosiyasi vəziyyətdən istifadə etmək, baş çıxarmaq üçün təcrübəli və nüfuzlu dövlət rəhbərlərinə ehtiyac duyulur. Heydər Əliyev məhz belə rəhbərlərdəndir.

***Bənəzir Bühütto,***
***Pakistanın sabiq baş naziri***

Heydər Əliyev cənablarının əzmi və qətiyyəti sayəsində Azərbaycanda insanların çəkdikləri əzab-əziyyətlərə son qoyulacaqdır.

***İon iliyesku,***
***Rumıniyanın sabiq prezidenti***

Azərbaycanda insanların Allaha inamı çox güclüdür. Respublikanın belə bir ağır dövründə Heydər Əliyevin ona rəhbərlik etməsi Allah-təaladan Azərbaycan xalqına böyük töhfədir.

***Marşal Əbdülrəhman Süvar Əs-Səhab,***
***Sudanın sabiq prezidenti***

Heydər Əliyev ağıllı, möhkəm iradəli və ehtiyatlı olan görkəmli siyasətçidir.

***Mixail Qorbaçov,***
***keçmiş SSRİ-nin sabiq prezidenti***

Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram.

***Nikolay Baybakov,***
***keçmiş SSRİ Dövlət Plan Komitəsinin sabiq sədri***

XX əsrdə türklərin yetişdirdiyi iki qüdrətli adam olub: Atatürk və Heydər Əliyev.

***Karen Dəmirçyan,***
***Ermənistan KPMK-nin sabiq I katibi***

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğuria həyata keçirilməsi, sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

***II İohan Pavel,***
***Roma papası***

Sülh yaradanlar müqəddəsdirlər, çünki onlar tanrının övladlarıdırlar. Mənim bu fikrim bütünlüklə Azərbaycan prezidenti Heydər Əliyevə aiddir.

***Arximandrid Aleksandr,***
***Provoslav kilsəsinin başçısı***

Prezident Heydər Əliyev həqiqətən böyük siyasi təcrübəyə malik şəxsiyyətdir.

***Ayətullah Seyid Əli Xameneyi,***
***İranın Ali dini rəhhəri***

XX əsrin siyasi tarixini dünyanın ən nüfuzlu simalan ilə bir cərgədə duran Heydər Əliyevsiz təsəvvür etmək qeyri-mümkündür.

***Şeyxülislam Hacı Allahşükür Paşazadə,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

Heydər Əliyev cənablan başda olmaqla Azərbaycan dövləti düzgün, xalqların arzu və istəyinə uyğun milli siyasət yeridir.

***Patriarx II İlya,***
***Gürcüstan katalikosu***

# 5. HEYDƏR ƏLİYEVİN KİTABXANA İŞİNƏ DAİR ÇIXIŞLARI, İMZALADIĞI QANUNLAR, FƏRMANLAR VƏ SƏRƏNCAMLAR

## 5.1. M.F.Axundov adına Dövlət Kitabxanasında "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabın təqdimat-sərgisində çıxış 3 iyun 1995-ci il

Hörmətli xanımlar və cənablar, hörmətli dostlar!

Bu gün biz büraya - Azərbaycan Respublikasının mədəniyyət mərkəzlərindən biri olan Mirzə Fətəli Axundov adına Dövlət Kitabxanasına gəlmişik. Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daim hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir. Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram.

Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm. Bugünkü hadisə çox əlamətdardır. Burada Azərbaycanın miniatür kitablarının sərgisi keçirilir. Zənnimcə, biz Azərbaycanda belə bir sərginin ilk dəfə şahidi oluruq. Azərbaycanda kitab çapının tarixi böyükdür. Yaxın keçmişdə Azərbaycan Respublikası onun 400 illiyini qeyd etmişdir. Keçmiş dövrlərdə məzmununa və formasına görə müxtəlif, çox maraqlı, nəfis kitablar buraxılmışdır. Bu nəşrlər dünyanın bir çox ölkələrində də Azərbaycanı təmsil edir, onun haqqında biliklər verir. Ancaq Azərbaycanda miniatür kitab nəşrinin tarixi qısadır. Mən çox məmnunam ki, bu gün Azərbaycanda yazıçılarımızın, şairlərimizin və ictimai-siyasi xadimlərimizin kitablarının miniatür nəşrini də görürük. Şübhəsiz ki, bu, mədəniyyətimiz, kitab nəşrimiz üçün çox əlamətdar hadisə, böyük nailiyyətdir. Bununla əlaqədar mən sərginin təşkilatçılarını, Azərbaycan Respublikasının "Kitab" Cəmiyyətini, buraya toplaşanları təbrik edir və əmin olduğumu bildirmək istəyirəm ki, bu iş, təşəbbüs gələcəkdə də davam etdiriləcəkdir.

Burada mənim Azərbaycan prezidenti vəzifəsinə başlayarkən andiçmə mərasimində soylədiyim nitqin də miniatür nəşri nümayiş etdirilir. Bu gün həmin kitabı mənə təqdim etdilər. Mən bundan çox məmnunam. Doğrudan da, mən nitqlər söyləyirəm, çıxışlar edirəm, lakin bunların kitab şəklində çıxmasını o qədər də gözləmirəm və hesab edirəm ki, haradasa dərc olunur. Ancaq indi belə bir təşəbbüs göstərmişlər. Güman edirəm ki, ölkəmiz, respublikamız üçün, o cümlədən mənim üçün də çox əhəmiyyətli olan andiçmə mərasimində söylənilmiş nitq nəfis şəkildə buraxılmışdır. Bu, mənim üçün də əlamətdar hadisədir. Bu işin təşəbbüsçülərinə, kitabı nəşr edənlərə - ilk növbədə Azərbaycan Respublikasının "Kitab" Cəmiyyətinə və onun rəhbəri Zərifə xanım Salahovaya təşəkkür edirəm. Eyni zamanda Amerikanın "Stark enterprayz" firmasının bu işdə fəaliyyətini, təşəbbüsünü yüksək qiymətləndirir və təşəkkürümü bildirirəm.

Burada Zərifə xanım xoş sözlər söylədi və arzularını bildirdi. Güman edirəm ki, bunlar bizim ümumi arzularımızdır və hamımız çalışmalıyıq ki, bu arzular yerinə yetsin. Azərbaycanda kitab nəşri inkişaf etsin, miniatür kitablar kolleksiyası da genişlənsin.

"Stark enterprayz" firmasının nümayəndəsi, həmvətənimiz cənab Nisanovun nitqində məni sevindirən cəhət ondan ibarətdir ki, Azərbaycan vətəndaşları-burada böyümüş, yaşamış və bu torpağa bağlı olan insanlar Azərbaycanı unutmurlar və indi buradan uzaqlarda olsalar da, ölkəmizə kömək edir, Azərbaycanla əlaqələrini saxlayırlar.

Nisanovlar ailəsi Bakıda məşhur ailədir. Onların bir neçə nəsli mənim xatirimdədir. Güman edirəm ki, siz də Nisanovlar ailəsindənsiniz. Mən bu ailənin keçmişini də bilir, onları tanıyıram. İndi belə başa düşdüm ki, Nisanovlardan biri Amerika Birləşmiş Ştatlarında yaşayır, ancaq doğma Vətəni kimi Azərbaycanı unutmamışdır və mənsub olduğu firma ilə bərabər ölkəmizə kömək edir, iqtisadi və başqa əlaqələr qurur. Mən bu təşəbbüsü bəyənir və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu iş davam edəcək, Azərbaycanda doğulub böyümüş, indi ondan kənarda olan adamlar Azərbaycanı unutmayacaq, doğma

Vətən kimi həmişə yad edərək ölkəmizlə əlaqələrini genişləndirəcəklər.

Bu, indi bizim üçün çox lazımdır. Çünki biz Azərbaycanı dünyaya açmışıq, indi Azərbaycanın həm ərazisi, iqtisadiyyatı, həm də intellektual potensialı dünya üçün açıqdır. İqtisadi və ticarət əlaqələrimizdə tam açıqlığı təbliğ edir və bunu genişləndirməyə çalışacağıq. Bayaq qeyd etdiyim addımlar, böyük olmasa da, xarici ölkələrlə, dünya iqtisadiyyatı, dünya mədəniyyəti ilə birləşməyə, əlaqələri inkişaf etdirməyə olan meyllərimizə kömək edir. Ona görə də mən bu təşəbbüsü bəyənir və güman edirəm ki, o, gələcəkdə də davam edəcəkdir.

Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram.

Doğrudur, indiki ağır sosial-iqtisadi böhran dövründə, respublikamızın iqtisadiyyatında yaranmış çətinliklərlə əlaqədar və başqa ölkələrlə əlaqələrimizin məhdudlaşdığı bir vaxtda nəşriyyat işi də çox çətinliklərlə qarşılaşır. Bu təbiidir. Ancaq biz bu çətinliklərin qarşısını almalıyıq, bunun üçün yeni-yeni yollar axtarmalıyıq.

Həyatımız dəyişir, hər bir şey dəyişir. Biz bu dəyişikliklər prosesinin içindəyik. Keçmişdə nəşriyyat işi dövlətin əlində idi, onun tərəfindən maliyyələşdirilirdi və bunun sayəsində Azərbaycanda həmin sahə çox genişlənmişdi. İndi, dövlətin imkanları məhdudlaşdığı, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getdiyimiz bir vaxtda, özəl bölməyə geniş imkanlar yaratmağa çalışdığımız və Azərbaycanda, kiçik də olsa, özəl bölmə-nin meydana çıxdığı bir vaxtda biz onun bütün imkanlarını nəşriyyat işinin canlandırılmasına, inkişaf etdirilməsinə, xüsusən kitab nəşrinin genişləndirilməsinə cəlb etməli, yönəltməliyik.

Bu sahədə başqa ölkələrdə, xüsusən Rusiyada yaxşı təcrübə var. Məsələn, Rüsiyada bəzi firmalar, şirkətlər uşaqlar, gənclər üçün, ümumiyyətlə, cəmiyyət üçün, o cümlədən məktəblilər üçün lazım olan kitabların nəşrini öz üzərinə götürür, bu işə sponsorluq edirlər. Mən bir neçə nümunə ilə tanış oldum və deyə bilərəm ki, keçmişdəkindən də yaxşı kitablar buraxırlar.

İndi respublikamızda xeyriyyəçilik fəaliyyəti genişlənir. Arzu edərdim ki, bizim iş adamları, imkanlı sahibkarlar bütün sahələrdə xeyriyyəçilik fəaliyyəti göstərdikləri kimi, bu işdə - kitabların yazılması və nəşri sahəsində də köməklərini əsirgəməsinlər. Zənnimcə, bu xeyriyyəçilik sahəsində ən yaxşı iş ola bilər. Mən iş adamlarını buna dəvət edirəm. Şübhəsiz ki, dövlətin imkanlarından da daha səmərəli istifadə olunmalıdır. Ancaq bayaq dediyim kimi, indi biz mülkiyyət formasını dəyişdiririk, bazar iqtisadiyyatı yolu ilə gedirik, özəl bölməyə geniş imkanlar yaradırıq və bundan sonra da yaradacağıq. Ona görə də bunların hamısı ümummilli əhəmiyyət kəsb edən kitab nəşrinə səfərbər edilməli, cəlb olunmalıdır. Ümidvaram ki, belə də olacaqdır.

Buradakı sərgidə Azərbaycanın görkəmli yazıçı və şairlərinin, alimlərinin əsərlərinin miniatür nəşrləri nümayiş etdirilir. Bir daha qeyd edirəm ki, bu, əlamətdar hadisədir. Yazıçı və şairlərimiz, alimlərimiz, mədəniyyət xadimlərimiz böyük potensiala malikdirlər. Onların indiyədək yazdıqları əsərlər Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişaf etdirilməsində öz rolunu oynamışdır. Ancaq xalqımız Azərbaycanın elmi, mədəni potensialından, ümumiyyətlə, intellektual potensialından bundan sonra daha çox bəhrələnməlidir. Ona görə də çalışmalıyıq ki, belə yaradıcı adamlar öz fəaliyyətlərini davam etdirsinlər. Onlara kömək etməliyik, şərait yaratmalıyıq.

Eyni zamanda yazılan kitabların nəşr olunmasının qayğısına qalmalıyıq. Bilirəm ki, yazanlar və yazmaq istəyənlər çoxdur. Bu adamlar - alimlər, yazıçılar, mədəniyyət xadimləri yazdıqlarının bir çoxunu çap etdirə bilmirlər. Bu çətinliyi hamımız dərk etməliyik. Ancaq bununla kifayətlənmək olmaz. Hər bir çətinlikdən çıxış yolu tapmalıyıq, özü də bu yolu birlikdə axtarmalıyıq. Dövlət də bütün imkanlardan istifadə edəcəkdir. Ancaq

ayrı-ayrı cəmıyyətlər, təşkilatlar, iş adamlarımız da bu işə qoşulmalıdırlar. Arzu edərdim ki, bu tövsiyənin əməli nəticələri olsun.

Bu günkü mərasim münasibətilə hamınızı bir daha təbrik edirəm. Belə hesab edirəm ki, bu mərasim təkcə mənim nitqimin miniatür nəşrinin təqdimatına yox, ümumiyyətlə, respublikamızda miniatür kitabların sərgisinə həsr olunmuşdur. Bu sərginin açılışı münasibətilə Sizi təbrik edir və çox böyük məmnuniyyətlə onunla tanış olmaq istəyirəm.

Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan ayrı-ayrı mövzulara həsr edilmiş kitablardır. Bunlar mənim özümün deyil, müxtəlif müəlliflərin kitablarıdır və kitabxananın böyük xəzinəsində öz yerini tutarlar. Zənnimcə, gələcəkdə bu təşəbbüs də davam edə bilər. Elə imkanı olan ayrı-ayrı adamlar kitabxanamızı zənginləşdirmək üçün yəqin ki, ona kitab bağışlayacaqlar. Bilirəm, bizim bu kitabxananın çox böyük fondu var. Kitabxananın direktoru bu barədə məlumat verdi. Ancaq kitabxana elə bir yerdir ki, gərək daim onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır. Bunlar insanlara yeni biliklər, yeni məlumatlar gətirir. Ona görə də bizim bu mərkəzi kitabxanamız gərək daim yeni-yeni nəşrlərlə təmin olunsun. Vaxtilə biz bunu planlı şəkildə edirdik. Dövlət planı var idi, heç kəsi narahat etmədən bu kitabxananı yaradıb inkişaf etdirmişdik və o, indi də fəaliyyət göstərir. Ancaq gərək indi buraya hərə öz payını versin. Azərbaycanın bütün ictimaiyyətini bu xeyirxah işə dəvət edirəm.

Bağışladığım kitabları nümayiş etdirmək istəmirəm. Ancaq bizim üçün müqəddəs olan bir kitabı da bağışlamaq istəyirəm. Bilirsiniz ki, mən Səudiyyə Ərəbistanına rəsmi səfərə getmişdim. Səfər zamanı biz İslam aləminin müqəddəs yerlərini ziyarət etdik və bundan çox məmnun olduq. Orada-islam dininin mərkəzi olan Məkkədə mənə Quranın nüsxələrini bağışlamışlar. Çox nəfis şəkildə buraxılmış bu nüsxələrdən birini də Dövlət kitabxanasına verirəm.

Hamınıza bir daha hörmət və ehtiramımı bildirirəm. Sizinlə, xarici ölkələrin burada iştirak edən nümayəndələri, səfirləri ilə görüşdüyümə görə məmnun qaldığımı qeyd edirəm. Sağ olun.

*(Əliyev H. "Xalqımız Azərbaycanın elmi, mədəni potensialından bundan sonra da çox bəhrələnməlidir": M.F. Axundov adına Dövlət Kitabxanasında "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabın təqdimat-sərgisində çıxışı, 3 iyun 1995-ci il//H.Əliyev. Müstəqillik yollarında.C.3.-B.: Azərbaycan Nəşriyyatı, 1997.-s.397-402.)*

## 5.2. KİTABXANA İŞİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirilmə mənbələrini, kitabxanalardan istifadə sahə-sində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir.

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

**Kitabxana** - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut;

**kitabxana işi** - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi kitabxana sisteminin təşkili və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, hüquqi və fiziki şəxslərə kitabxana, informasiya və biblioqrafiya xidməti qaydalarını, kitabxanaçı-biblioqraf kadrların hazırlanmasını, kitabxanaların inkişafının elmi-metodik təminatını əhatə edən fəaliyyət sahəsi;

**kitabxanaçı -** kitabxana işi sahəsində fəaliyyət göstərən müvafiq ixtisaslı mütəxəssis;

**sənəd -** informasiyanın mətn, səsyazma və təsvir formasında qeydə alınan, müəyyən zaman və məkan daxilində informasiyanın verilməsi və ya qorunması məqsədini daşıyan maddi obyekt;

**kitabxana fəaliyyəti -** oxucuların sərbəst surətdə informasiya almaq hüququnu təmin etmək, onların kitablara, dövri nəşrlərə

və kitabxana fondunu təşkil edən digər sənədlərə olan tələbatını ödəmək məqsədi ilə həyata keçirilən fəaliyyət;

**mərkəzləşdirilmiş kitabxana sistemləri** - eyni sistemə aid olan kitabxanaların vahid strukturda könüllü birləşməsi;

**kitabxana fondu** - ictimai istifadə məqsədilə kitabxananın vəzifələrinə uyğun şəkildə formalaşmış çap əsərləri və digər məlumat daşıyıcılarının məcmusu.

**Maddə 2. Kitabxana işi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi**

Kitabxana işi sahəsində Azərbaycan Respublikasmm qanunvericiliyi bu Qanundan, Azərbaycan Respublikasının digər müvafiq qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

Azərbaycan Respublikasmm tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

**Maddə 3. Kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri**

Kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

kitabxanalarda mühafizə olunan mədəni sərvətlərdən və informasiya vasitələrindən istifadənin hamı üçün açıq olması;

milli sərvət olan kitabxanalara dövlət qayğısı, onların fondlarının toxunulmazlığı və üstün maliyyələşdirilməsi.

Kitabxana işi sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

kitabxana işinin inkişafına dair Dövlət Proqramının hazırlanması və həyata keçirilməsi;

kitabxana fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının qəbul və tətbiq edilməsi;

kitabxana işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən (internetdən və s.) istifadə və milli fondların həmin sistemlərdə əks olunması;

milli və dünya mədəniyyəti sərvətlərinə yiyələnməyə yönəldilən informasiya sisteminin yaradılması;

dövlət kitabxana fondlarının mühafizəsi və inkişafı, dövlət kitabxanaların milli və xarici ədəbiyyatla ardıcıl təchizatı sisteminin yaradılması;

xarici ölkə kitabxanalarında saxlanılan, milli sərvət hesab olunan nadir kitabların və əlyazmaların (imkan olmadıqda surətlərinin) Azərbaycan Respublikasına qaytarılmasının təmin olunması;

dövlət kitabxana binalarının tikilməsi, əsaslı təmiri, dövlət kitabxanalarının müasir avadanlıq və texniki vasitələrlə təchiz edilməsi;

kitabxana işinə dair elmi tədqiqatların və metodik tədbirlərin həyata keçirilməsinə köməklik göstərilməsi;

kitabxana kadrları hazırlayan və ya onların ixtisasının artırılmasını həyata keçirən təhsil müəssisələrinin yaradılması və fəaliyyətinin təşkili;

təbii fəlakət, silahlı münaqişə və müharibə zamanı kitabxana fondlarının mühafizəsinin təmin olunması;

qeyri-dövlət kitabxanalarmm inkişafma şərait yaradılması;

kitabxana işinə dair dövlət standartlarının müəyyən olunması;

kitabxana fondlarının statistik uçotunun aparılması.

**Maddə 4. Kitabxana fəaliyyətinin əsas istiqamətləri**

Kitabxana fəaliyyətinin əsas istiqamətləri sənəd-informasiya fondlarının formalaşmasından, mühafizəsindən və bu materialların hüquqi və fiziki şəxslərə istifadəyə verilməsindən, kitabxanalarda toplanıb saxlanılan informasiya vasitələrinin mübadiləsinə imkan verən vahid informasiya məkanının yaradılmasından ibarətdir.

## II fəsil
## KİTABXANA SİSTEMİ

**Maddə 5. Kitabxana sisteminin təşkilinin əsasları**

Azərbaycan Respublikasında kitabxana sistemini ərazi, idarə, idarələrarası, sahəvi, sahələrarası və kompleks xidmət prin-

siplərinə əsaslanan universal, ixtisaslaşdırılmış dövlət və qeyri-dövlət kitabxanaları təşkil edir.

**Maddə 6. Kitabxana sisteminin tərkibi**

Azərbaycan Respublikasında kitabxana sisteminin tərkibinə dövlət və qeyri-dövlət kitabxanaları daxildir.

Dövlət kitabxanalarına aşağıdakılar daxildir:

Milli Kitabxana;

Naxçıvan Muxtar Respublikasının dövlət kitabxanası;

şəhər, rayon, qəsəbə, kənd kitabxanaları (kütləvi, elmi, xüsusi kitabxanalar, gənclər, uşaqlar, korlar üçün və sair kitabxanalar) və onların filiallari, mərkəzləşdirilmiş kitabxana sistemləri;

respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar;

dövlət idarə, müəssisə və təşkilatlarının kitabxanaları;

Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası və onun filialları;

dövlət təhsil müəssisələrənin kitabxanaları.

Qeyri-dövlət kitabxanalarına aşağıdakılar daxildir:

bələdiyyə kitabxanaları;

ictimai birliklərin kitabxanaları;

özəl və digər kitabxanalar;

xarici hüquqi və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş kitabxanalar.

**Maddə 7. Milli Kitabxana**

Milli Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşriəri, xarici ölkələrdə nəşr olunmuş Azərbaycan haqqında və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitab saxlayıcısıdır.

Milli Kitabxana kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq sahəsində elmi-tədqiqat işləri üzrə apancı müəssisə və əlaqələndirici, ölkənin bütün kitabxanaları üçün metodik mərkəz, oxuculara kompleks kitabxana-biblioqrafiya və informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir.

Milli Kitabxana müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan əsasnaməyə uyğun fəaliyyət göstərir.

Milli Kitabxananın fondu və əmlakı milli sərvət hesab olunur və xüsusi əhəmiyyətli obyekt kimi dövlət tərəfindən qorunur.

Milli Kitabxana statusuna malik olan kitabxanaların işçilərinin əmək haqlarına müvafiq əlavələr müəyyən edilir.

Milli Kitabxananı ləğv etmək, mülkiyyət formasını dəyişmək qadağandır.

Milli Kitabxanaya əvəzsiz və müddətsiz istifadə üçün qanunvericilikdə müəyyən olunmuş qaydada torpaq sahəsi verilə bilər.

**Maddə 8. Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar**

Respublika əhəmiyyətli elmi sahəvi kitabxanalar elm sahəsinə görə ixtisaslaşdırılan, milli və xarici ədəbiyyat fondlarına malik olan baş kitabxana-biblioqrafiya və informasiya müəssisələridir;

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar müvafiq sahədə fəaliyyət göstərən digər kitabxanalar üçün informasiya, kitabxanalararası abonement və metodik mərkəz funksiyasını yerinə yetirir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaları fəaliyyəti bu Qanunla və digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların, Azərbaycan Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının və onun filiallarının, Bakı Dövlət Universitetinin kitabxanasının işçilərinin əmək haqlarına müvafiq əlavələr müəyyən edilir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların statusu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 9. Kitabxanaların digər informasiya orqanlan ilə əlaqələri**

Kitabxanalar sənəd-informasiya ehtiyatlarından səmərəli istifadə məqsədi ilə elmi-texniki və digər informasiya orqanları, arxivlər, başqa idarə və müəssisələrlə qarşılıqlı əlaqə yaradır.

Bu əlaqələr birgə fəaliyyət proqramları və müqavilələr əsasında həyata keçirilir.

**Maddə 10. Kitabxanaların yaradılması və yenidən təşkili**

Dövlət və qeyri-dövlət kitabxanaları Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş qaydada yaradılır və yenidən təşkil olunur.

Dövlət kitabxanalarının müvəqqəti olaraq köçürülməsinə müstəsna hallarda (təbii fəlakət, silahlı münaqişə, müharibə təhlükəsi və s.) müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yol verilir.

**Maddə 11. Kitabxanalann özəlləşdirilməsi və icarəyə verilməsi**

Tipindən, tabeçiliyindən asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən kitabxanaların (kitabxanalarda saxlanılan sərvətlərin, onların yerləşdiyi binaların və sahələrin) özəlləşdirilməsi və icarəyə verilməsi profilinə müvafiq olaraq qanunvericiliyə uyğun həyata keçirilir.

## III fəsil
## KİTABXANA FONDU

**Maddə 12. Kitabxana fondunun tərkibi**

Kitabxana fondunun tərkibinə kitab, jurnal, qəzet, digər çap məhsulları, audiovizual və texniki vasitələrlə oxunan materiallar, əlyazmalar və başqa informasiya daşıyıcıları daxildir.

Kitabxana fondları universal, sahəvi, çoxsahəli, ixtisaslaşdırılmış ola bilər.

**Maddə 13. Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu**

Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu kitabxanalararası əlaqələndirilmiş komplektləşdirmə, qarşılıqlı istifadə, depozitar mühafizə və mübadilə prinsipləri əsasında təşkil edilən, məlumat-axtarış sisteminə malik olan kitabxana fondlarından ibarətdir.

Kitabxanalarda olan nadir və qiymətli nəşrlər, xüsusi kolleksiyalar qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil edilir və xüsusi rejimdə mühafizə olunur. Onların mühafizəsi lazımi qaydada təmin edilmədikdə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən digər kitabxanaya verilə bilər.

Azərbaycan Respublikası Dövlət Kitabxana Fondu dövlət mülkiyyətidir.

**Maddə 14. Kitabxana fondlarının təchizi**

Kitabxanalar dövlət və qeyri-dövlət nəşriyyatları tərəfindən buraxılan, profilinə uyğun çap məhsullarını və digər informasiya daşıyıcılarını birinci növbədə almaq hüququna malikdir.

Bu hüquq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada kitabxana kollektoru, kitab ticarəti müəssisələri, nəşriyyat orqanları, ayrı-ayrı şəxslərlə aparılan müvafiq əməliyyatlar, məcburi nüsxələrin alınması, abunə, bağışlama və vərəsəlik əsasında miras qalmış nəşrlərin verilməsi, habelə beynəlxalq və ölkədaxili kitab mübadiləsi yolu ilə təmin edilir.

Təhsil müəssisələrinin kitabxanalarının dərsliklərlə komplektləşdirilməsi müvafıq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydalarla tənzimlənir.

Müvafiq icra hakimiyyəti orqanları tabeçiliyində olan kitabxana fondlarının yeni nəşrlərlə komplektləşdirilməsinə vəsait ayırırlar.

**Maddə 15. Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı**

Milli Kitabxana, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar və Bakı Dövlət Universitetinin kitabxanası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada ölkədə nəşr edilən çap məhsullarının məcburi nüsxələrini almaq hüququna malikdir.

Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə rnəşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan

çap məhsullarından Milli Kitabxanaya 4 pulsuz məcburi nüsxə, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanalarına, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalara, Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına və Bakı Dövlət Universitetinin kitabxanasına profilinə uyğun olaraq 2 pulsuz məcburi nüsxə, Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnal redaksiyaları isə 2 pulsuz məcburi nüsxə göndərməlidirlər.

**Maddə 16. Kitabxanaların mübadilə fondları**

Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil olmayan çap məhsulları və digər materiallar müəyyən olunmuş qaydada bir kitabxanadan digərinə əvəzsiz verilə bilər.

Qeyri-profil, dublet, nisbətən az istifadə edilən, habelə mübadilə fondu üçün ayrılan çap əsərləri və kitabxananın digər sənədləri həmin fonda verilir.

Müvafiq icra hakimiyyəti orqanları beynəlxalq və ölkədaxili kitab mübadiləsini həyata keçirən kitabxanaların mübadilə fondları üçün əlavə kitab alınmasına vəsait ayırırlar.

**Maddə 17. Depozitar kitabxanalar**

Dövlət kitabxanalarında oxucular tərəfindən nadir hallarda istifadə edilən, lakin elmi, tarixi və bədii əhəmiyyətini saxlayan nəşrlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada depozitar fondlara verilir.

**Maddə 18. Dövlət kitabxana fondlarının uçotu, mühafizəsi və onlardan istifadə edilməsi**

Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydalara uyğun həyata keçirilir.

**Maddə 19. Dövlət kitabxana fonduna vurulmuş ziyana görə məsuliyyət**

Dövlət kitabxana fonduna vurulmuş ziyana görə hüquqi və fiziki şəxslər yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla

vurulmuş ziyanın 10 misli həcmində maddi məsuliyyət daşıyırlar.

İtirilmiş və ya yararsız vəziyyətə salınmış çap əsərləri və digər materiallar kitabxana ilə razılıq əsasında başqa müvafiq çap əsərləri və materiallarla əvəz edilə bilər. Bu qayda Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil edilən nadir nüsxələrə şamil edilmir.

Nadir nüsxələr fonduna vurulan zərərə görə məsuliyyət mövcud qanunvericiliklə tənzimlənir.

Dövlət kitabxana fondlarının uçotu, mühafizəsi və istifadə qaydalarının pozulmasına görə kitabxana işçiləri qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## IV fəsil
## KİTABXANA XİDMƏTİNİN TƏŞKİLİ

### Maddə 20. Kitabxana xidməti və onun vəzifəsi

Kitabxanalar çap əsərlərindən və digər informasiya daşıyıcılarından səmərəli istifadə etmək məqsədilə kompleks kitabxana, biblioqrafiya və informasiya xidmətləri göstərir.

Bu xidmətlər abonentləri ədəbiyyat və informasiya ilə təmin etmək, informasiya daşıyıcılarının seçilməsində kömək göstərmək məqsədi daşıyır.

Kitabxana xidməti abonement, qiraət zalı, kitabxanalararası və beynəlxalq abonement, biblioqrafiya, elmi-texniki informasiya, fərdi və kütləvi, yazılı və şifahi, stasionar və qeyri-stasionar, qiyabi, kompleks vasitələrlə təşkil edilir.

Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarh şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir.

### Maddə 21. Kitabxanaların hüquqları

Kitabxanaların hüquqları aşağıdakılardır:

nizamnamələrində göstərilən məqsəd və vəzifələrin həyata keçirilməsi üsullarını və formalarını müəyyənləşdirmək;

kitabxana fondunun komplektləşdirmə mənbələrini müəyyənləşdirmək;

köhnəlmiş və ya yararsız hala düşmüş kitabları qanunvericilikdə müəyyən olunmuş qaydada kitabxananın fondundan çıxarmaq;

fiziki və hüquqi şəxslər tərəfindən kitabxanaya dəymiş ziyanın ödənilməsini qanunvericilikdə müəyyən olunmuş qaydada tələb etmək;

kitabxana birliklərinin yaradılmasında iştirak etmək;

beynəlxalq kitabxana təşkilatları ilə əlaqə yaratmaq, kitabxana, biblioqrafiya və informasiya sahəsində keçirilən tədbirlərdə iştirak etmək.

**Maddə 22. Kitabxanaların vəzifələri**

Kitabxanalar oxucuların mədəniyyət təsisatları və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını, habelə məlumat əldə etmək azadlığını təmin etməli, onların kitabxana fondlarından tam istifadə etməsi üçün hər cür şərait yaratmalıdırlar.

**Maddə 23. Kitabxanalardan istifadə sahəsində oxucuların hüquq və vəzifələri**

Azərbaycan Respublikasında hər kəsin kitabxanalardan istifadə etmək hüququ vardır.

Kitabxanalardan istifadə qaydaları və göstərilən xidmətlər kitabxanaların nizamnamələri və müvafiq normativ hüquqi aktları ilə müəyyənləşdirilir.

Oxucuların kitabxanalardan istifadə hüquqlarını məhdudlaşdırmaq qadağandır.

Oxucular kitabxanalardan istifadə qaydalarına əməl etməli, kitab fonduna qayğı ilə yanaşmalı, çap materiallarının və digər vəsaitlərin itirilməsinə və ya yararsız hala salınmasına yol verməməlidirlər.

## V fəsil
## KİTABXANA İŞİNİN İDARƏ OLUNMASI

Maddə 24. Kitabxana işinə dövlət idarəetməsi

Azərbaycan Respublikasmda kitabxana işinə dövlət idarəetməsi müvafiq icra hakimiyyəti orqanları tərəfmdən həyata keçirilir.

**Maddə 25. Kitabxana işində ictimaiyyətin iştirakı**

Dövlət və qeyri-dövlət orqanları, kitabxana işi sahəsində ictimai birliklər, hüquqi və fiziki şəxslər, kitabxana fondlarının zənginləşdirilməsi, oxuculara xidmət işinin təkmilləşdirilməsi, kitabxanaçılıq proqramlarının və tədbirlərinin hazırlanması və həyata keçirilməsində iştirak edirlər.

**Maddə 26. Kitabxana işinin elmi-metodik və kadr təminatı**

Mülkiyyət formasından asılı olmayaraq kitabxanaların elmi-metodik təminatı Milli Kitabxana və elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar tərəfindən həyata keçirilir.

Elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar kitabxanaşünaslığa, biblioqrafiyaya və informasiyaya dair metodik materiallar nəşr edir, kitabxanaçılıq nəzəriyyəsi və təcrübəsində mütərəqqi iş üsullarını ümumiləşdirib tətbiq edir, kadrların ixtisasının artırılmasını təmin edir.

Kitabxanaların kadr təminatında müvafiq peşə-ixtisas təhsili olan şəxslərə üstünlük verilir. Müstəsna hallarda müvafiq peşə-ixtisas təhsili olmayan, ancaq yüksək təcrübəyə və kitabxanada çoxillik iş stajına malik olan mütəxəssislər də kitabxanada işləyə bilərlər.

**Maddə 27. Kitabxanalarm maliyyələşdirilməsi**

Dövlət kitabxanaları və büdcədən maliyyələşdirilən təşkilatların tabeçiliyində olan kitabxanalar dövlət büdcəsi vəsaitləri, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları və qanunvericilikdə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Dövlət kitabxanaları maliyyələşdirilərkən büdcədən kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilməli və bu vəsait müntəzəm olaraq artırılmalı-

dır. Ayrılmış vəsait kitabxanaların sərəncamında qalır və onların nizamnamə fəaliyyətini həyata keçirmək üçün istifadə edilir. İdarə, müəssisə və təşkilatların, habelə ictimai birliklərin kitabxanaların təsisçilərinin vəsaitləri hesabına maliyyələşdirilir.

**Maddə 28. Dövlət kitabxanalarının büdcədənkənar vəsaitləri**

Dövlət kitabxanalarının işinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və əməyin stimullaşdırılması məqsədilə nizamnamələrində göstərilən qaydada təsərrüfat fəaliyyəti və pullu xidmət əsasında büdcədənkənar fondlar formalaşdırılır.

Dövlət kitabxanalarında pullu xidmət yalnız əlavə əmək sərfi tələb edən və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən xüsusi xidmət növlərinə aid edilir.

**Maddə 29. Kitabxanaların inkişaf fondu**

Kitabxanalarn maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə dövlət və qeyri-dövlət inkişaf fondları təsis edilə bilər. Bu fondlar təsisçilərin payları, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları, qanunvericilikdə müəyyən olunmuş qaydada keçirilən lotereya və digər məqsədli kommersiya tədbirlərindən daxil olan vəsaitlər hesabına yaradılır.

**Maddə 30. Kitabxanaların maddi-texniki təchizatı**

Kitabxanalar kitab fondunun saxlanması və oxuculara xidmət etmək üçün xüsusi layihə ilə tikilmiş binalarla və kitabxana işini avtomatlaşdırmaq üçün zəruri vasitələrlə təmin edilməlidirlər.

**Maddə 31. Kitabxanaların əmlakı və təsərrüfat fəaliyyəti**

Kitabxana onun mülkiyyətində olan və ya idarəçiliyinə verilmiş əmlakdan Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq istifadə edir.

Xidmət fəaliyyətini genişləndirmək məqsədilə dövlət kitabxanalarına torpaq sahələri və əlavə binalar ayrıla bilər.

Kitabxanalar qanunvericilikdə müəyyən olunmuş qaydada nizamnamələrinə uyğun olaraq təsərrüfat fəaliyyəti ilə məşğul

ola bilərlər. Bu fəaliyyətdən əldə edilən vəsait bütövlükdə kitabxananın sərəncamında qalır.

**Maddə 32. Kitabxana işçilərinin sosial müdafiəsi**

Dövlət kitabxana işçilərinin sosial müdafiəsinə təminat verir.

Kitabxana işçilərinin əmək haqları elm və təhsil sahələri işçilərinin əmək haqlarından aşağı olmamalıdır.

Kitabxanaların statusu, spesifik xüsusiyyətləri nəzərə alınmaqla işçilərə əmək haqqından əlavə digər ödənişlər tətbiq edilə bilər.

Müvafiq icra hakimiyyəti orqanları, müəssisə, idarə və təşkilatlar öz tabeçiliyində olan kitabxanaların işçilərinə əlavə kompensasiyalar müəyyən edə bilərlər.

Kitabxana işçiləri öz peşə və sosial hüquqlarını təmin etmək məqsədilə qanunvericilikdə müəyyən olunmuş qaydada ictimai birliklər yarada bilərlər.

## VI fəsil
## YEKUN MÜDDƏALARI

**Maddə 33. Kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq**

Kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr əsasında həyata keçirilir.

Kitabxanalar və kitabxana işi sahəsində ictimai birliklər, beynəlxalq kitabxana təşkilatları, xarici ölkələrin kitabxanaları və kitabxana işi sahəsində ictimai birlikləri ilə əməkdaşlıq edə bilərlər.

**Maddə 34. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasında təqsirli olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 29 dekabr 1998-ci il**
**№ 611-1 Q**

## 5.3. “KİTABXANA İŞİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

- həmin Qanunun 18-ci maddəsində nəzərdə tutulmuş dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydalarını təsdiq etsin;

- bu fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlərə dair digər müvafiq normativ-hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

- “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

- “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin üçüncü hissəsində, 8-ci maddəsinin beşinci hissəsində, 10-cu maddəsinin ikinci hissəsində, 13-cü maddəsinin ikinci hissəsində, 14-cü maddəsinin ikinci hissəsində , 15-ci maddəsinin birinci hissəsində (ikinci halda), 17-ci maddəsində, 18-ci maddəsində, 28-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səla-hiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 15-ci maddəsinin birinci (birinci halda) və ikinci hissələrində göstərilən “müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları” dedikdə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin kitabxanaları nəzərdə tutulur;

- həmin Qanunun 24-cü maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanların”ın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Mədəniyyət Na-zirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

- həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri,**
**12 mart 1999-cu il**
**№ 115**

*(Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu//Azərbaycan.-1999-cu il-14 mart.)*

## 5.4. "AZƏRBAYCAN RESPUBLİKASINDA 1995-1998-Cİ İLLƏRDƏ DÖVLƏT MÜLKİYYƏTİNİN ÖZƏLLƏŞDİRİLMƏSİNİN DÖVLƏT PROQRAMININ" TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" təsdiq edilsin.
2. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29.09.1995-ci il.**

## ÖZƏLLƏŞDİRMƏYƏ MÜNASİBƏTDƏ DÖVLƏT MÜLKİYYƏT OBYEKTLƏRİNİN TƏSNİFATI

Dövlət Mülkiyyətində olan müəssisə və obyektlər 1995-1998-ci illərdə özəlləşdirmə imkanlarından asılı olaraq aşağıdakı qruplara bölünür:

1. Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər.
2. Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər.
4. Yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılaraq, DƏK-in qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər.
5. Özəlləşdirilməsi məcburi sayılan müəssisə və obyektlər.

Proqrama bu əlavədə göstərilən hallardan başqa, özəlləşdirmənin qarşısında məhdudiyyətlərin qoyulmasına yol verilmir.

### 1. ÖZƏLLƏŞDİRİLMƏSİ QADAĞAN OLUNAN MÜƏSSİSƏ VƏ OBYEKTLƏR

1. Yerin təki, meşə fondu, su ehtiyatları, hava məkanı, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasının məxsus olan sektorunun suları və resursları, geostasionar orbitlərdə peyk rabitəsini yerləşdirmək və istifadə etmək hüququ.
2. Qorunan və xüsusi qaydada istifadə olunan təbiət əraziləri.
3. Azərbaycan xalqının tarixi və mədəni irs obyektləri (nadir mədəniyyət və təbiət abidələri, təbiət, tarix, mədəniyyət, elm və texnika obyektləri, o cümlədən dövlət muzeylərində, arxivlərdə və kitabxanalarda saxlanılan sərvətlər, onların yerləşdiyi binalar və sahələr).
4. Azərbaycan Respublikasının büdcə vəsaitləri, milli valyuta ehtiyatları, Pensiya fondu və dövlət büdcədənkənar fondları, Azərbaycan Respublikasının Milli Bankının vəsaitləri, Ləl-cəvahirat fondu, habelə qızıl ehtiyatı.

5. Azərbaycan Respublikasının Milli Bankı, pul nişanlarının, dövlət xəzinə biletlərinin, istiqrazların və digər dövlət qiymətli kağızlarının buraxılmasını və saxlanmasını təmin edən müəssisə, idarə və təşkilatlar.

6. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, habelə Milli Təhlükəsizlik Nazirliyi və Daxili İşlər Nazirliyi qoşunlarının operativ idarəçiliyində olan ştat və ehtiyat əmlakı.

7. Silahların iştənilən növünün sistem və elementlərini hazırlayan və təmir edən, hərbi sursat, partlayıcı maddələr və pirotexnika məmulatlarını istehsal edən müəssisə və obyektlər, habelə göstərilmiş sahələrdə iş görən elmi-tədqiqat və təcrübi konstruktor idarələri (göstərilən müəssisə və obyektlər dövlət konversiya proqramına uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin qərarı və Milli Məclisin razılığı ilə özəlləşdirilə bilər.)

8. Mülki müdafiə və səfərbərlik təyinatlı obyektlər.

9. Maliyyələşdirilmə mənbəyindən asılı olmayaraq dövlət mülkiyyətində olan bütün tip təhsil müəssisələri (Ali və orta ixtisas təhsil müəssisələri Azərbaycan Respublikası Prezidentinin qərarı və Milli Məclisin razılığı ilə özəlləşdirilə bilər.)

10. Büdcə vəsaiti hesabına maliyyələşdirilən bütün müəssisə, idarə və təşkilatlar.

11. Geologiya, kartoqrafiya-geodeziya, hidrometeorologiya xidməti, ətraf mühiti və təbiəti mühafizə xidməti müəssisə və idarələri.

12. Sanitar-epidemioloji, baytarlıq, meşə və bitkilərin mühafizəsi xidməti müəssisə və idarələri, dövlət bitkilərinin karantin müfəttişliyi, texniki nəzarət müfəttişlikləri.

13. Patent xidməti, standartlaşdırma və metrologiya idarələri, habelə maşın-sınaq stansiyaları.

14. Dövlət əhəmiyyətli meliorasiya və su təsərrüfatı obyektləri və qurğuları, habelə onların istismarı müəssisə və obyektləri.

15. Dövlət əhəmiyyətli avtomobil və dəmir yolları, körpülər və tunellər habelə onlara xidmət edən idarə və təşkilatlar.

16. Narkotik və zəhərli maddələr istehsalı müəssisələri, habelə onları əkən, becərən, emal edən və saxlayan müəssisələr.

17. Tədris, hidroqrafiya, reyd donanması, xilasetmə işlərini həyata keçirən və neft dağılmış sahələri təmizləyən donanma, gəmi hərəkəti müfəttişliyinin əmlakı.

18. Dövlət damazlıq və cins toxumçuluq təsərrüfatları, seleksiya - hibrid mərkəzləri, dövlət toxumçuluq müfəttişlikləri, kənd təsərrüfatı üzrə sort-sınaq laboratoriya və stansiyaları.

19. Bərk sənaye və məişət tullantılarını, maye və bərk radioaktiv tullantıları basdırmaq üçün müəssisə, obyekt və avadanlıqlar, heyvanlar basdırılmış sahələr.

20. Müalicə-istehsalat və islah-əmək müəssisə və obyektləri.

21. Bakı metropoliteni.

22. Qəbiristanlıq və krematoriyalar.

23. Əhalinin sosial müdafiə təşkilatları və idarələri, uşaq evləri, körpələr evləri, qocalar evləri, əlillər, uşaqlar və qocalar üçün qospital və sanatoriyalar, habelə psixiatriya, psixonevroloji, yoluxucu, onkoloji, narkoloji və dəri-zöhrəvi xəstələrin, İÇV yoluxmuşların və QİÇS xəstələrinin müalicə və profilaktikası təşkilat və idarələri.

(Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəllədsdirilməsinin Dövlət Proqramı//Azərbaycan.-1995-ciil.-21noyabr.)

## 5.5. MƏDƏNİYYƏT HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanılmasının və inkişafının, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasının, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə for-malarını müəyyən edir.

Bu Qanun bütün xalqların mədəni özünəməxsusluğunun mənbəyi olan şifahi xalq yaradıcılığının, adət-ənənələrin qorunmasına və inkişafına, daha çox insanın mədəni irsdən və mədəniyyət sərvətlərindən istifadəsini təmin etmək məqsədilə bu sərvətlərin yaradılmasına, artırılmasına və yayılmasına təkan verir, habelə yaradıcı işçilərin sosial müdafiəsini təmin edir.

### I FƏSİL
### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsipləri və vəzifələri

Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

sosial və maddi vəziyyətindən, miili, irqi, dini və cinsi mənsubiyyətindən asılı olmayaraq hər kəsin mədəniyyət sərvətlərinin yaradılmasında, istifadəsində və yayılmasında hüquq bərabərliyi;

hər kəsin istedadının, əqli imkanlarının üzə çıxarılmasının və yaradıcılıq azadlığının təmin edilməsi;

milli mədəniyyətin bəşər mədəniyyətinin tərkib hissəsi kimi inkişaf etdirilməsi.

Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasətinin vəzifələri aşağıdakılardır:

mədəni həyat tərzinin formalaşdırılması;

milli və dünya mədəniyyəti sərvətlərinə qovuşmağa yönəldilən təhsil sisteminin inkişaf etdirilməsi;

mədəniyyət sahəsində inhisara yol verilməməsi;

dövlət mədəniyyət sisteminin müxtəlif mənbələrdən maliyyələşdirilməsinin uzlaşdırılması;

yaradıcılıq fəaliyyətinin bütün sahələr üzrə yüksəlişi üçün şərait yaranmasına kömək etmək məqsədilə ictimai müzakirələrin müxtəlif formalarından, ekspertiza və müsabiqələrdən istifadə etməklə mədəniyyətin inkişaf istiqamətlərinin hazırlanması;

mədəniyyət sərvətlərinin qorunması və artırılması;

Azərbaycan Respublikasının mədəniyyət potensialının inkişafına, mühafizəsinə və ondan hərtərəfli istifadə olunmasına, mədəniyyət sahəsində geniş miqyaslı beynəlxalq əməkdaşlığa şərait yaradılması;

dövlət mədəniyyət sisteminin elmi və mütərəqqi metodlarla idarəçiliyinin təmin edilməsi;

tarix və mədəniyyət abidələrinin qeydiyyata alınması, qorunması və bərpası üçün müvafiq tədbirlərin görülməsi;

mədəniyyətin inkişafına dair milli proqramların hazırlanması və həyata keçirilməsi, beynəlxalq proqramların hazırlanmasında iştirak edilməsi;

görkəmli mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi üçün tədbirlər görülməsi;

mədəniyyətin inkişafı fondlarının yaradılmasının təmin edilməsi;

Azərbaycan Respublikasında milli mədəniyyətin tərəqqisi və müasir dünya mədəniyyəti ilə inteqrasiyasını;

milli ənənələrin dirçəldilməsi və inkişafını, əhalinin mənəvi tələbatının ödənilməsini təmin edən mədəniyyət əsərlərinin yaradılması üçün hə-vəsləndirici tədbirlərin görülməsi;

mədəniyyət və incəsənətin nailiyyətlərindən istifadə edilməsində vətəndaşların konstitusiya hüquqlarının, əhalinin zəngin milli və dünya mədəniyyəti sərvətlərindən faydalanmasının təmin edilməsi;

mədəniyyət təsisatlarının normal fəaliyyətinin, onların maliyyələşdirilməsinin və maddi texniki bazasının möhkəmləndirilməsinin təmin edilməsi;

mədəniyyətin ixtisaslı kadrlara olan ehtiyacının təmin edilməsi;

**Maddə 2. Azərbaycan Respublikasının mədəniyyət sahəsində qanunvericiliyi**

Mədəniyyət sahəsində qanunvericilik bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

Mədəniyyət sahəsini tənzimləyən normativ hüquqi aktlarla Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

**Maddə 3. Tarix və mədəniyyət abidələrinin qorunması**

Azərbaycan Respublikasında bütün hüquqi və fiziki şəxslər tarix və mədəniyyət abidələrini qorumağa borcludurlar.

Tarix və mədəniyyət abidələrinin qorunmasının qaydaları Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyən edilir.

**Maddə 4. Mədəniyyət sahəsində yerli özünüidarə orqanlarının səlahiyyətləri**

Yerli özünüidarə orqanları bu Qanundan irəli gələn bütün hüquqların və azadlıqların sərbəst həyata keçirilməsinə şərait yaradırlar.

**Maddə 5. Mədəniyyət haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Mədəniyyət haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət Azərbaycan Respublikasının mülki, cinayət, inzibati və digər qanunvericiliyi ilə müəyyən edilir.

## II fəsil
## MƏDƏNİYYƏT SAHƏSİNDƏ VƏTƏNDAŞLARIN HÜQUQLARI, AZADLIQLARI VƏ VƏZİFƏLƏRİ

**Maddə 6. Mədəniyyət hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsinin I hissəsinə uyğun olaraq hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

Mədəni sərvətlərdən isıtifadə hüququ yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırıla bilər.

Azərbaycan Respublikasının ərazisində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər mədəniyyət hüququna malikdirlər.

**Maddə 7. Yaradıcılıq azadlığı**

Azərbaycan Respublikası Konstitusiyasının 51-ci maddəsinin I hissəsinə uyğun olaraq hər kəsin yaradıcılıq azadlığı vardır.

Hər kəs öz maraqlarına və qabiliyyətinə uyğun istənilən yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq hüququna malikdir. Bu hüquq həm peşəkar, həm də həvəskar əsasda həyata keçirilə bilər. Müəlliflik hüququ, əqli, mülkiyyət hüququ, yaradıcılıq fəaliyyətinin nəticələrindən sərbəst istifadə etmə və dövlət tərəfindən dəstəklənmə baxımından yaradıcılıq fəaliyyəti ilə məşğul olan şəxslər bərabər hüquqludurlar.

Hər kəsin özünün yaradıcılıq fəaliyyətinin nəticələrinə mülkiyyət hüququ vardır. Bu hüquq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası vətəndaşının özünün yaradıcılıq fəaliyyətinin nəticələrini nümayiş etdirmək, satmaq, habelə bu məqsədlər üçün xarici ölkələrə aparmaq hüququ vardır.

**Maddə 8. Mədəni özünəməxsusluq hüququ**

Hər kəsin özünün milli mədəni özünəməxsusluğunu qoruyub saxlamaq, mənəvi, estetik və digər dəyərləri sərbəst seçmək hüququ vardır.

Dövlət şəxsi mədəni özünəməxsusluq hüququna təminat verir.

**Maddə 9. Mədəniyyət sahəsində ictimai birliklər və müəssisələr yaratmaq hüququ**

Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada mədəniyyət sahəsində ictimai birliklər, müəssisələr yaratmaq, habelə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ vardır.

**Maddə 10. Mədəniyyət sahəsində vəzifələr**

Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsinin 2-ci hissəsinə uyğun olaraq hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

Hər kəs:

mədəniyyət sahəsində Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əməl etməli;

xalqın mədəni ənənələrinə hörmət etməli;

Azərbaycan xalqının, o cümlədən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün etnik qrupların mədəniyyətinə, dilinə, adət və ənənələrinə hörmət bəsləməli;

uşaqların və yeniyetmələrin estetik tərbiyəsinə, mədəni inkişafına qayğı göstərməli;

Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Heç kəs və ya heç bir təsisat bütövlükdə mədəniyyət fəaliyyətini və ya mədəniyyət fəaliyyəti növünü inhisarda saxlamamalı və vətəndaşların sərbəst mədəniyyət fəaliyyətinə mane olmamalıdır.

Azərbaycan Respublikasının ərazisində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər mədəniyyət sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş vəzifələri yerinə yetirməlidirlər.

## III fəsil
## DÖVLƏTİN MƏDƏNİYYƏT SAHƏSİNDƏ VƏZİFƏLƏRİ

**Maddə 11. Milli mədəniyyətin qorunub saxlanması, onun inkişafına yardım göstərilməsi**

Dövlət milli mədəniyyətin (Azərbaycan xalqının, o cümlədən Azərbaycan Respublikasının ərazisində tarixən yaşayan və ya məskunlaşmış bütün etnik qrupların özünəməxsus mədəniyyətinin) qorunub saxlanmasına, onun inkişafına təminat verir. Milli mədəniyyət sahəsində həyata keçirilən fəaliyyət dövlətin himayəsindədir.

**Maddə 12. Milli mədəniyyət sərvətlərinin mühafizəsi**

Dövlət milli mədəniyyət sərvətlərinin mühafizəsini təmin edir.

Dövlət Azərbaycan Respublikasından çıxarılmış milli mədəniyyət sərvətlərinin geri qaytarılmasını təşkil edir.

Respublika ərazisinə qaytarılan milli mədəniyyət sərvətlərinə görə gömrük rüsumu və digər rüsumlar alınmır.

Milli mədəniyyət sərvətlərinin mühafizəsinin və onlardan istifadənin, habelə milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılmasının qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 13. Mədəniyyət və yaradıcılıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqlarının və azadlıqlarının müdafiəsi**

Dövlət mədəniyyət və yaradıcılıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqlarına və azadlıqlarına təminat verir.

Müvafiq dövlət orqanları mədəniyyət və ya yaradıcılıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqlarının və azadlıqlarının pozulmasına yönəldilmiş hərəkətlərin qarşısını almalıdırlar.

**Maddə 14. Mədəniyyət sərvətlərindən istifadənin təminatı**

Dövlət maddi və mənəvi mədəniyyət sərvətlərindən hər kəsin bərabər hüquqlarla istifadə etməsinə təminat verir.

Dövlət mülkiyyətində olan mədəniyyət sərvətlərindən istifadə rejimini müvafiq icra hakimiyyəti orqanları müəyyən edirlər.

**Maddə 15. Mədəniyyət təsisatlarının yaradılması və inkişafına yardım**

Dövlət mədəniyyət sərvətlərinin yaradılması, çoxaldılması və yayılması, mədəniyyət fəaliyyəti sahəsində vasitəçilik fəaliyyəti ilə məşğul olan təşkilatların, müəssisələrin və idarələrin yaradılmasına və inkişafına yardım göstərir.

**Maddə 16. Əhalinin mədəniyyət xidmətlərilə minimum təmin olunması**

Müvafiq icra hakimiyyəti orqanı əhalinin mədəniyyət xidmətlərilə minimum təmin olunması üçün dövlət mədəniyyət təsisatları (kitabxana, muzey, klub, kinoteatr, teatr, sərgi və konsert salonları, musiqi və incəsənət məktəbləri) normalarını müəyyən edir.

**Maddə 17. Mədəniyyət fəaliyyətinə dövlət müdaxiləsinin məhdudlaşdırılması**

Dövlətin mədəniyyət fəaliyyətinə müdaxiləsi zorakılığa, irqi, milli və dini müstəsnalığa çağırışların, ümumbəşəri mənəvi dəyərlərə zidd fəaliyyətin, parnoqrafiyanın, narkomaniyanın təbliğinin qadağan olunması, onların qarşısının alınması ilə məhdudlaşır.

Bu maddənin birinci hissəsində göstərilən hər hansı mədəniyyət fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının müraciətinə əsasən yalnız məhkəmə tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada qadağan edilə bilər.

Mədəniyyət fəaliyyətinə müdaxilənin digər formalarına yol verilmir.

**Maddə 18. Mədəniyyət sahəsində inhisarın qarşısının alınması**

Mədəniyyət sahəsində inhisarın qarşısının alınması Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydaya müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Maddə 19. Mədəniyyət statistikası**

Müvafiq icra hakimiyyəti orqanları mədəniyyət sahəsində rəsmi statistika aparırlar və statistik məlumatların düzgünlüyünə, vaxtında toplanmasına cavabdehdirlər. Azərbaycan Respublikasında mədəniyyət sahəsində statistik məlumatlar açıqdır.

## IV fəsil
## MƏDƏNİYYƏT FƏALİYYƏTİ VƏ ONUN NÖVLƏRİ

**Maddə 20. Dövlət mədəniyyət sistemi və onun vəzifələri**

Azərbaycan Respublikasının dövlət mədəniyyət sistemi dövlətə məxsus mədəniyyət sərvətlərindən, bu sərvətlərin və milli mədəniyyətin inkişafı, mühafizəsi, təbliği və artırılması ilə məşğul olan mədəniyyət müəssisələri şəbəkəsindən, mədəniyyəti idarə edən orqanlardan, milli-mədəni əmlakın bərpası, mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə məşğul olan digər dövlət mədəniyyət təsisatlarından ibarətdir.

Dövlət mədəniyyət sisteminə dövlətin mülkiyyətində olan aşağıdakı təsisatlar daxildir:

1. Teatr-konsert müəssisələri:

opera, balet, dram, musiqili komediya, musiqili dram, gənc tamaşaçılar, kukla, mahnı, muğam və digər teatrlar;

filarmoniyalar, konsert salonları və sarayları, musiqi zalları, sirklər, folklor qrupları, peşəkar orkestrlər və musiqi kollektivləri;

teatr-studiyalar, teatr-emalatxanalar, eksperimental və tədris teatrları, teatr, musiqi və təsviri sənət mərkəzləri;

2. Kitabxana müəssisələri:

milli kitabxana;

kütləvi, gənclər, uşaq, korlar, şəhər, rayon, kənd, qəsəbə kitabxanaları və onların filialları, mərkəzləşdirilmiş kitabxana sistemləri;

sahə kitabxanaları, elmi kitabxanalar;

3. Muzey müəssisələri:

bədii və incəsənət, tarix və tarix-diyarşünaslıq muzeyləri;

ədəbiyyat, teatr və musiqi profilli, memorial, xatirə muzeyləri, muzey qoruqlar;

4. Rəsm qalereyaları və sərgi salonları;
5. Zooparklar, akvariumlar, planetarilər, nəbatət bağları;
6. Mədəniyyət və tarix profilli arxivlər;
7. Klub və asudə vaxtın təşkili müəssisələri:

şəhər, rayon, qəsəbə, kənd mədəniyyət sarayları və evləri, klublar, klub tipli müəssisələr;

mədəniyyət və istirahət parkları, asudə vaxt mərkəzləri;

8. Təhsil və tədris müəssisələri:

mədəniyyət profilli ali və orta ixtisas təhsil müəssisələri, ixtisasartırma kursları, uşaq musiqi, incəsənət, rəssamlıq, muğam və xoreoqrafiya məktəbləri;

9. Elmi, metodiki mərkəzlər və kabinetlər:

mədəniyyət üzrə elmi-tədqiqat institutları və mərkəzləri;

mədəniyyət, muzey işi üzrə elmi-metodik mərkəzlər, musiqi təhsili üzrə metodik kabinet, muzey sərvətlərinin və xatirə əşyalarının elmi bərpa mərkəzi;

10. Mədəniyyət və incəsənətin təbliği və yayımı müəssisələri:

mədəniyyət və incəsənət profilli nəşriyyatlar, qəzet, jurnal və bülleten redaksiyaları, informasiya mərkəzləri, informasiya-reklam müəssisəsi, bədii-istehsalat müəssisələri, kinoteatrlar, kinostudiyalar, televiziya, radio və sairə.

Dövlət mədəniyyət sisteminin başlıca vəzifəsi milli mədəniyyət sərvətlərinin, dünya mədəniyyəti nümunələrinin etibarlı şəkildə toplanıb qorunaraq gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, Azərbaycan xalqının adət və ənənələrinə bağlı, milli, mənəvi və mədəni, bəşəri dəyərlərə yiyələnən, müstəqil və yaradıcı düşünən vətəndaşlar yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir.

**Maddə 21. Mədəniyyət fəaliyyəti və onun növləri**

Mədəniyyət sərvətlərinin yaradılması, toplanması, tədqiqi, təbliği, yayılması, nümayişi və qorunması mədəniyyət fəaliyyəti hesab olunur.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bütün hüquqi və fiziki şəxslər mədəniyyət fəaliyyəti ilə məşğul olmaq hüququna malikdirlər.

Mədəniyyət fəaliyyəti muzey, ədəbiyyat, təsviri və tətbiqi sənət, kinematoqrafiya, teatr, musiqi, kitabxana, mədəni-maarif, kitab nəşri, arxiv, memarlıq, dizayn, televiziya, radio və sair fəaliyyət növlərindən ibarətdir. Mədəniyyət fəaliyyətinin ayrı-ayrı növləri sahəsində münasibətlər müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

**Maddə 22. Muzey fəaliyyəti**

Elmi, mədəni, mənəvi və estetik tələbatın ödənilməsi məqsədilə insan, onun fəaliyyəti və yaşayış mühiti haqqında mədəniyyət sərvətlərinin və maddi nümunələrin əldə edilməsi, qorunması, uçotu, tədqiqi, təbliği və nümayişi muzey fəaliyyəti hesab olunur.

Muzeylərin, yaradılma məqsədlərinə və muzeylərdəki mədəniyyət sərvətlərinin nüfuzuna xələl gətirən kommersiya fəaliyyəti ilə məşğul olmaları, digər muzeylərin kolleksiya toplamaq hüquqlarını pozmaları qadağandır.

**Maddə 23. Ədəbi, təsviri və tətbiqi sənət, teatr, musiqi və konsert fəaliyyəti**

Ədəbi, təsviri və tətbiqi sənət, teatr, musiqi və konsert fəaliyyəti vətəndaşların mədəniyyət sərvətlərindən istifadə hüququnu təmin etmək, onların bədii-estetik tələbatını ödəmək, səhnə, musiqi və ifaçılıq sənəti sahəsində yaradılan bədii əsərlərdən tam və sərbəst surətdə faydalanmaq məqsədilə həyata keçirilir.

Ədəbi, təsviri və tətbiqi sənət, teatr, musiqi və konsert fəaliyyəti sahəsində yeni bədii dəyərli əsərlərin yaradılması və meydana çıxmasını təmin etmək məqsədilə dövlət yaradıcılıq sifarişləri tətbiq olunur.

**Maddə 24. Kitabxana fəaliyyəti**

Kitabxana fəaliyyəti vətəndaşların sərbəst surətdə informasiya almaq hüququnu təmin etmək, onların kitablara, dövri

nəşrlərə və kitabxana fondunu təşkil edən başqa sənədlərə olan tələbatını ödəmək məqsədilə həyata keçirilir.

Nəşriyyat fəaliyyəti ilə məşğul olan təsisatlar buraxdıqları çap məhsullarının iki nüsxəsini əvəzsiz olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada milli obyekt statusu almış kitabxanalara göndərməlidirlər.

**Maddə 25. Mədəni-maarif fəaliyyəti**

Mədəni-maarif fəaliyyəti özfəaliyyət əsasında sərbəst yaradıcılıq fəaliyyətinin həyata keçirilməsinin təmin olunmasıdır. Mədəni-maarif təsisatı ayrı-ayrı növlərdən olan mədəniyyət xidmətləri göstərə bilər, öz tərkibində digər mədəniyyət təsisatı (kitabxana, teatr, incəsənət məktəbləri və s.) yarada bilər.

**Maddə 26. Kinematoqrafiya fəaliyyəti**

Kinematoqrafiya fəaliyyəti kinofilmlərin yaradılmasına, yayılmasına və qorunmasına yönəldilən yaradıcılıq, istehsalat, elmi, texniki və təhsil kompleksini əhatə edir.

## V fəsil
## MƏDƏNİYYƏT SAHƏSİNDƏ TƏŞKİLATİ VƏ MÜLKİYYƏT MÜNASİBƏTLƏRİ

**Maddə 27. Mədəniyyət və yaradıcılıq fəaliyyəti ilə məşğul olan subyektlər**

Mədəniyyət və yaradıcılıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, mədəniyyət təsisatları mədəniyyət və yaradıcılıq fəaliyyətinin subyektləridirlər.

Mədəniyyət təsisatları - əsas vəzifəsi mədəniyyət və yaradıcılıq fəaliyyəti olan təşkilatlar, idarələr və müəssisələrdir.

Mədəniyyət və yaradıcılıq fəaliyyətinin subyektləri qanunla müəyyən olunmuş vergiləri və məcburi ödəmələri verməyə borcludurlar.

Mədəniyyət və yaradıcılıq fəaliyyətinin subyektləri özlərinin yaradıcılıq və iqtisadi fəaliyyətlərində sərbəstdirlər.

**Maddə 28. Mədəniyyət təsisatlarının yaradılması, yenidən təşkili və ləğvi**

Mədəniyyət təsisatları müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanları, istənilən hüquqi və fiziki şəxslər tərəfindən yaradıla bilər.

Mədəniyyət təsisatlarının yaradılması, yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada həyata keçirilir.

Mədəniyyət təsisatının mülkiyyətçisi (təsisçisi) ilə mədəniyyət təsisatı arasında münasibətlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə və onların öz aralarında bağladıqları müqavilə ilə nizam-lanır.

Mədəniyyət təsisatının mülkiyyətçisi (təsisçisi) ilə mədəniyyət təsisatı arasında bağlanmış müqavilədə tərəflərin öhdəlikləri, əmlakdan istifadənin şərtləri və qaydaları, mədəniyyət təsisatının maliyyələşdirilməsi qaydası, tərəflərin maddi məsuliyyəti, müqavilənin ləğv edilməsinin əsasları və şərtləri, sosial və əmək məsələlərinin həlli qaydaları müəyyən edilə bilər.

Dövlət mədəniyyət müəssisələrinin yaradılması, yenidən təşkili, ləğv olunması və profilinin dəyişdirilməsi müvafiq icra hakimiyyəti orqanının qərarı ilə həyata keçirilir.

**Maddə 29. Mədəniyyət sahəsində mülkiyyət münasibətləri**

Mədəniyyət sərvətləri, habelə mədəniyyət təyinatlı daşınar və daşınmaz əmlak, mədəniyyət təsisatları dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə, habelə mülkiyyətin qarışıq formalarında ola bilər.

Mədəniyyət sahəsində mülkiyyətçinin hüquqları və vəzifələri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

Mədəniyyət sahəsində dövlət mülkiyyəti müvafiq icra hakimiyyəti orqanları tərəfindən idarə olunur. Mədəniyyət sahəsində dövlət mülkiyyəti yalnız qanunvericilikdə müəyyən edilmiş qaydada digər təşkilatların istifadəsinə və ya idarəçiliyinə verilə bilər. Bu halda mədəniyyət mülkiyyətindən təyinatına uyğun istifadə edilməlidir.

**Maddə 30. Mədəniyyət təsisatlarının əmlakı**

Mədəniyyət təsisatının mülkiyyətində və ya idarəçiliyində öz vəzifələrini yerinə yetirmək üçün zəruri olan istənilən əmlak ola bilər.

İdarəçiliyində olan əmlakın səmərəli istifadəsinə və qorunub saxlanmasına görə mədəniyyət təsisatı mülkiyyətçi (təsisçi) qarşısında məsuliyyət daşıyır.

Mədəniyyət təsisatının idarəçiliyində olan əmlakın geri alınmasına Azərbaycan Respublikasının qanunvericiliyində və ya mülkiyyətçi (təsisçi) ilə bağlanmış müqavilədə nəzərdə tutulan hallarda yol verilir.

**Maddə 31. Mədəniyyət sahəsində dövlət mülkiyyətinin özəlləşdirilməsi**

Mədəniyyət sahəsində dövlət mülkiyyətinin özəlləşdirilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

Qanunvericiliklə müəyyən olunmuş qaydada milli status alan mədəniyyət təsisatları, tarix, mədəniyyət abidələri, dövlət muzeylərində, arxivlərində, kitabxanalarında saxlanılan sərvətlər və onların yerləşdiyi binalar və sahələr özəlləşdirilmir.

**Maddə 32. Dövlət mədəniyyət təsisatlarının milli və akademik statusu**

Dövlət mədəniyyət təsisatlarına milli obyekt statusu onların işinin həcminə, ölkənin mədəniyyət tarixində və mədəni həyatındakı roluna, yaradıcılıq fəaliyyətinin əhəmiyyətinə, fondlarının zənginliyinə, nadirliyinə, milli dəyərlərin qorunması və təbliği sahəsində nailiyyətlərinə görə müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Milli statusa malik mədəniyyət təsisatlarının fondları və əmlakı milli sərvət hesab olunur və xüsusi əhəmiyyətli obyektlər kimi dövlət tərəfindən qorunur.

Milli mədəniyyətin inkişafında xüsusi xidmətləri olan dövlət mədəniyyət təsisatlarına müvafiq icra hakimiyyətinin qərarı ilə fərqləndirici akademik statusu verilə bilər.

## VI fəsil
## MƏDƏNİYYƏT SƏRVƏTLƏRİ VƏ MİLLİ MƏDƏNİYYƏT ƏMLAKI

**Maddə 33. Mədəniyyət sərvətləri**

Mənəvi və estetik ideallar, normalar və davranış qaydaları, dillər, dialektlər, ləhcələr, milli və etnik ənənələr və adətlər, tarixi toponimlər, folklor, tətbiqi xalq sənətləri, mədəniyyət və incəsənət əsərləri, mədəniyyət fəaliyyətinin elmi tədqiqatının nəticələri və metodları, tarixi və mədəni əhəmiyyəti olan binalar, tikililər, əşyalar, tarix və mədəniyyət baxımından unikal ərazilər və obyektlər mədəniyyət sərvətləridir.

Mədəniyyət sərvətlərinə aşağıdakılar aiddir:

təsviri sənət əsərləri, o cümlədən lövhələr, şəkillər, rəsmlər, qravürlər, estamplar, litoqrafiyalar, naxışlar, heykəltəraşlıq əsərləri, orijinal bədii toplular və montajlar:

kino, xüsusi əhəmiyyətli televiziya, radio, video materialları, fotoəsərlər və fotomateriallar, dizayn işləmələri və memarlıq layihələri;

əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, mədəniyyət və tarix profilli arxivlər və arxiv sənədləri, not yazıları, məktublar, elmi-tarixi yadigarlar, nadir nəşrlər;

tətbiqi-sənət əsərləri-xalılar və xalça məmulatları, qızıl, platin, gümüş, qiymətli daşlar, mis və gildən hazırlanmış əşyalar, keramika məmulatı;

səhnə və ekran əlbisələri, dekorları, butaforiya və rekvizitləri;

qədim nadir kolleksiyalar və otuz ildən çox tarixi olan muzey əhəmiyyətli əşyalar (o cümlədən mebel, musiqi alətləri və s.);

şifahi xalq yaradıcılığı nümunələri;

arxeoloji komplekslər, arxeoloji və numizmatik xarakterli əşyalar;

memarlıq abidələri, tikili nümunələri, xatirə yerləri və məqbərələr;

park və təbii landşaft obyektləri;

flora və fauna, mineralogiya, anatomiya nümunələri və paleontologiya baxımından maraqlı muzey əşyaları.

**Maddə 34. Mədəniyyət sərvətlərinin qeydə alınması**

Mədəniyyət sərvətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısında və mədəniyyət sərvətlərinin mühafizə siyahısında qeydə alınır.

Siyahılara mədəniyyət sərvəti əşyasının, obyektinin mənşəyi, onun mülkiyyətçisi, təsviri, dəyəri və mühafizə dərəcəsi haqqında məlumatlar yazılır və bunların əsasında mədəniyyət sərvətinin mülkiyyətçisinə şəhadətnamə verilir.

Dövlət kitabxanalarının, idarə tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq muzeylərin və arxivlərin fondlarında olan mədəniyyət sərvətlərinin aşkara çıxarılması, uçotu və mühafizəsi ilə həmin təsisatlar məşğul olurlar. Bu təsisatlar mədəniyyət sərvətinin siyahılara daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanlarına məlumat verməlidirlər.

Mədəniyyət sərvətinin qiyməti, mühafizə dərəcəsi və respublikadan kənara çıxarılma imkanı, müvafiq icra hakimiyyəti orqanı tərəfindən ekspertiza yolu ilə müəyyən edilir.

**Maddə 35. Mədəniyyət sərvətlərinin mühafizə dərəcələri**

Mədəniyyət sərvətlərinin mühafizəsinin qabaqlayıcı, konservasiya, bərpa və xüsusi dərəcələri vardır.

Mühafizənin qabaqlayıcı dərəcəsi, təbii-landşaft, arxeologiya və arxitektura obyektlərinin monumental sənət əsərlərinin tarixi əhəmiyyəti və qiyməti müəyyən olunanadək həmin obyektlərə şamil edilir. Müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılmadan bu mədəniyyət sərvətlərinin sökülməsi, məhv edilməsi, parçalanması, yeni quruluşa salınması, başqa yerə köçürülməsi və zahiri görkəminin dəyişdirilməsi qadağandır.

Mühafizənin konservasiya dərəcəsi, istifadədən tamamilə çıxarılmalı və ya müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti altında məhdud dairədə istifadə edilməli olan mədəniyyət sərvətlərinə aid edilir. Həmin mühafizə dərəcəsi əlyazmalara, nadir arxiv sənədlərinə, nadir kitablara, qoruqlara və sair mədəniyyət sərvətlərinə şamil olunur.

Mühafizənin bərpa dərəcəsi, ilkin mədəniyyət təyinatına qaytarılması üçün bərpa işlərinə ehtiyacı olan mədəniyyət sərvətlərinə şamil edilir. Mühafizənin bərpa dərəcəsi tətbiq olunana qədər obyekt barədə konservasiya dərəcəsi müəyyən edilə bilər.

Xüsusi mühafizə dərəcəsi Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil olan milli mədəniyyət əmlakı obyektlərinə şamil edilir.

Mühafizə dərəcəsi olan mədəniyyət sərvətləri mülkiyyətçisinin və ya istifadəçisinin müvafiq icra hakimiyyəti orqanları ilə münasibətləri mühafizə müqaviləsi ilə müəyyən olunur. Mühafizə dərəcəsi olmayan mədəniyyət sərvətlərindən sərbəst istifadə edilir.

Mədəniyyət sərvətlərinin mühafizə dərəcələri müəllifin sağlığında və vəfatından sonrakı otuz il ərzində onun əsərlərinə şamil edilir.

**Maddə 36. Mədəniyyət sərvətlərindən istifadə rejimi**

Mədəniyyət sərvətlərindən onların tarixi və bədii təyinatı ilə bir araya sığmayan tərzdə istifadə edilməsi qadağandır.

Tarix, arxeologiya, şəhərsalma, arxitektura və monumental sənət abidələrinin, təbii-landşaft obyektlərinin mühafizəsini təmin etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən mühafizə zonaları müəyyən edilir. Mühafizə zonaları haqqında normativ hüquqi aktlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilir. Şəhərlərin və digər yaşayış məntəqələrinin baş planlarının layihələri, tikinti planlaşdırma və yenidən-qurma layihələri, eləcə də mədəniyyət obyektlərinin başqa yerə köçürülməsi layihələri müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılmalıdır.

Arxeoloji qazıntılar aparılması və arxeoloji abidələrin axtarılması, mədəniyyət sərvətlərinə aid olan təmir, bərpa və konservasiya işləri qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. Aparılan işlər haqqında ayda bir dəfə müvafiq icra hakimiyyəti orqanlarına hesabat verilir.

Mədəniyyət sərvətlərindən istifadədə müvafiq yönümlü mədəniyyət təsisatının üstünlük hüququ vardır.

Dini qurumlara məxsus olan və mədəniyyət sərvəti sayılan əşyalardan onların mədəniyyət təyinatı nəzərə alınmaqla istifadə edilir.

Mədəniyyət sərvətlərinin mülkiyyətçisinin və ya istifadəçisinin, dini təyinatlı mədəniyyət sərvətlərinin isə müvafiq dini qurumun razılığı olmadan surətləri çıxarıla, habelə onlardan turizm, ekskursiya və reklam məqsədilə istifadə edilə bilməz.

Mədəniyyət səryətlərinin lazımi vəziyyətdə saxlanılması və onların mühafizəsi ilə bağlı vəzifələr bu sərvətlərin mülkiyyətçilərinin və ya istifadəçilərinin üzərinə düşür. Subyektin mədəniyyət sərvətlərini saxlamağa imkanı olmadıqda, mülkiyyətçinin arzusu ilə müvafiq icra hakimiyyəti orqanı mədəniyyət sərvətini onu saxlamağa imkanı olan subyektə satılmasını təşkil edir və ya saxlanma xərclərini dövlət hesabına götürür.

Qeyri-dövlət mülkiyyətində olan xüsusi əhəmiyyətli mədəniyyət sərvətləri satılarsa, onları birinci növbədə almaq hüququ qanunvericiliklə müəyyən edilmiş həddə və qaydada dövlətə mənsubdur.

Torpaqdan və su altından, binalardan, tikililərdən, təbii obyektlərdən tapılmış, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müsadirə edilmiş, habelə vərəsəsiz və sahibsiz mədəniyyət sərvətləri qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət mülkiyyətinə daxil edilir.

**Maddə 37. Mədəniyyət sərvətlərinin mühafizə sıyahısı**

Ən əhəmiyyətli mədəniyyət sərvətlərini qorumaq məqsədilə müvafiq icra hakimiyyəti orqanları müəyyən ərazinin (şəhərin, rayonun) mədəniyyət sərvətlərinin mühafizə siyahısını aparırlar.

Mədəniyyət sərvətləri həmin siyahıya mülkiyyətçinin, istifadəçinin ərizələri, kitabxanaların, muzeylərin, arxivlərin məlumatları əsasında müvafiq icra hakimiyyəti orqanları tərəfindən daxil edilir. Mühafizə siyahısında mədəniyyət sərvətlərinin qeydiyyatı bu Qanunun 34-cü maddəsinin tələblərinə uyğun aparılır.

Mülkiyyətçiyə və ya istifadəçiyə bir ay ərzində mədəniyyət sərvətinin siyahıya daxil edildiyi barədə şəhadətnamə və ya onun sərbəst istifadəsinə icazə verilir. Belə şəhadətnamə və ya

müvafiq icazə olmadan mədəniyyət sərvətləri ilə əlaqədar əqdlər bağlanmasma yol verilmir.

Milli mədəniyyət əmlakı sayılan mədəniyyət sərvətinə aid sənədlər baxılmaq üçün müvafiq icra hakimiyyəti orqanlarına verildikdən, onların bu Qanunun 38-ci maddəsi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilməsi məsələsinə iki ay ərzində baxılmalıdır.

**Maddə 38. Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısı**

Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına bu Qanunun 33-cü maddəsində nəzərdə tutulan milli və bəşəri əhəmiyyəti olan nadir mədəniyyət sərvətləri daxil edilir. Xilas edilməsi üçün təcili tədbirlərə ehtiyacı olan milli mədəniyyət əmlakı obyektlərinin uçotu ayrıca aparılır. Obyektlərin milli mədəniyyət əmlakına aid edilməsi məsələsini müvafiq icra hakimiyyəti orqanı həll edir.

Müvafiq icra hakimiyyəti orqanları milli mədəniyyət əmlakı obyektlərinin qorunmasına nəzarət edirlər.

Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş obyektlər mülki dövriyyədən çıxarılır və müvafiq icra hakimiyyəti orqanının icazəsi olmadan onları ləğv etmək, başqa yerə köçürmək, surətini çıxarmaq və ya bərpa etmək olmaz.

**Maddə 39. Mədəniyyət sərvətlərinin ixrac rejimi**

Mədəniyyət sərvətləri xüsusi rejim əsasında, verilmiş mühafizə dərəcəsinə müvafiq surətdə ixrac edilir. İxracın mümkünlüyü müvafiq icra hakimiyyəti orqanının verdiyi mühafizə şəhadətnaməsi ilə müəyyən edilir.

Mühafizə dərəcəsi verilməmiş mədəniyyət sərvətləri sərbəst ixrac edilə bilər.

Müvəqqəti sərgi, qastrol səfərləri, bərpa işləri, prezentasiya, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi halları istisna olmaqla milli mədəniyyət əmlakı olan sərvətlərin Azərbaycan Respublikasının hüdudlarından kənara aparılması qadağandır.

Bu sərvətlərin Azərbaycan Respublikasının hüdudlarından kənarda olması müddəti, bir qayda olaraq, il ərzində altı aydan çox olmamalıdır.

Dövlətə məxsus milli mədəniyyət sərvətlərindən istifadə nəticəsində əldə edilən vəsaitlər milli mədəniyyət sərvətlərinin qorunmasına və saxlanmasına sərf edilir.

## VII fəsil
## MƏDƏNİYYƏT SAHƏSİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ

**Maddə 40. Maliyyələşdirmə mənbələri**

Mədəniyyət təsisatları mülkiyyət formasından asılı olaraq dövlət büdcəsindən, yerli büdcələrdən, xüsusi mülkiyyətçinin vəsaitləri, habelə özlərinin fəaliyyətindən əldə edilmiş gəlirlər və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmamış digər mənbələr hesabına maliyyələşdirilirlər.

Dövlət büdcəsindən dövlət mədəniyyət sisteminin maliyyələşdirilməsi üçün ayrılan vəsaitin miqdarı əvvəlki il üçün ayrılmış vəsaitin miqdarından az olmamalıdır.

Mədəniyyət təsisatları istənilən hüquqi və fiziki şəxsdən, beynəlxalq təşkilatlardan hədiyyələr, ianələr və digər maliyyə yardımı almaq hüququna malikdirlər.

**Maddə 41. Mədəniyyəti maliyyələşdirmə fondları**

Mədəniyyət sahəsinin maliyyələşdirilməsinə əlavə vəsait cəlb etmək üçün müvafiq icra hakimiyyəti orqanı milli mədəniyyət fondu yaradır.

Həmin məqsədlə yerli özünüidarə orqanları, ictimai birliklər, hüquqi və fiziki şəxslər mədəniyyətin maliyyələşdirilməsi fondlarını yarada bilərlər. Bu fondların təşkili və fəaliyyəti Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 42. Mədəniyyət sahəsində vəsaitin xərclənməsi**

Mədəniyyətin qorunmasına, saxlanılmasına və inkişafına yönəldilən vəsait:

mədəniyyət təsisatlarının;

mədəniyyət sahəsində beynəlxalq və milli dövlət proqramlarının;
mədəniyyət sahəsində dövlət sifarişlərinin;
mədəniyyət sahəsində sığorta işinin təşkilinin;
mədəniyyət sərvətlərinin alınması, saxlanması və mühafizəsinin;
mədəniyyət sahəsində əmək veteranlarına, mədəniyyət xadimlərinə və yaradıcı gənclərə təqaüdlər, mükafatlar verilməsinin və fərdi köməklik göstərilməsinin;
mədəniyyət təyinatlı obyektlərin layihələşdirilməsi və tikilməsinin;
mədəniyyət sahəsində fəaliyyətin maddi-texniki təminatının maliyyələşdirilməsi üçün istifadə olunur.

Mədəniyyət təsisatları onlara ayrılan vəsaitin təyinat üzrə xərclənməsində sərbəstdirlər.

**Maddə 43. Mədəniyyət sahəsinin maddi-texniki təminatı**

Mədəniyyət və yaradıcılıq fəaliyyəti ilə məşğul olan subyektlərin və mədəniyyət təsisatlarının fəaliyyət göstərməsi üçün zəruri olan avadanlığın, texnikanın, texnologiyanın alınması, müəyyən edilmiş qaydada tikinti işlərinin aparılması üçün müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanları şərait yaratmalıdırlar.

Müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanları mədəniyyət və yaradıcılıq fəaliyyəti üçün zəruri olan studiyaların, emalatxanaların, laboratoriyaların yaradılması üçün mədəniyyət və yaradıcılıq fəaliyyəti ilə məşğul olan subyektlərə və mədəniyyət təsisatlarına yardım göstərməlidirlər.

## VIII fəsil
## MƏDƏNİYYƏT İŞÇİLƏRİ VƏ ONLARIN SOSİAL MÜDAFİƏSİ

**Maddə 44. Mədəniyyət işçiləri**

Peşəkar yaradıcılıq fəaliyyətilə məşğul olan və ya mədəniyyət təsisatında işləyənlər mədəniyyət işçisidirlər.

**Maddə 45. Peşəkar yaradıcı işçinin hüquqları**

Peşəkar yaradıcı işçinin aşağıdakı hüquqları vardır:

yaradıcılıq sirrinin mühafizə olunması;

təxəllüsdən istifadə etmək;

fəaliyyətinin nəticələrini nümayiş etdirmək və digər kütləvi formalarda təqdim etmək;

yaradıcılıq ittifaqları yaratmaq və onların fəaliyyətində iştirak etmək;

özünün yaradıcılıq fəaliyyətinin nəticələrindən istifadəyə görə haqq almaq;

mədəniyyəti maliyyələşdirmə fondlarından istifadə etmək.

**Maddə 46. Mədəniyyət işçilərinin yaradıcılıq ittifaqları**

Mədəniyyət fəaliyyətinin ayrı-ayrı növləri üzrə mədəniyyət işçilərini birləşdirməklə peşə ünsiyyəti yaratmaq, mədəniyyət təsisatları və mədəniyyət xadimləri ilə əlaqə yaratmaq, onların mənafelərini müdafiə etmək üçün Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada mədəniyyət işçilərinin yaradıcılıq ittifaqları yaradıla bilər.

**Maddə 47. Mədəniyyət işçilərinin sosial müdafiəsi**

Dövlət mədəniyyət işçilərinin sosial müdafiəsinə təminat verir.

Peşəkar yaradıcı işçilər yaradıcılıq fəaliyyətinin həyata keçirildiyi fərdi emalatxanaların, studiyaların, laboratoriyaların kirayə, kommunal və telefondan istifadə xərclərini vətəndaşlar üçün nəzərdə tutulmuş miqdarda ödəyirlər.

Milli obyekt statusu almış mədəniyyət təsisatlarının işçilərinin əmək haqları digər oxşar dövlət mədəniyyət təsisatlarının işçilərinə nisbətən daha yüksək ödənilir.

Müvafiq icra hakimiyyəti orqanının qərarı ilə zərərli iş şəraitində işləyən mədəniyyət işçilərinin əmək haqlarına müvafiq əlavələr müəyyən edilir.

Mədəniyyətin inkişafında yüksək xidmətləri olan pensiyaya çıxmış mədəniyyət işçilərinin sosial təminatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

## IX fəsil
## MƏDƏNİYYƏT SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN HÜQUQİ ƏSASLARI

**Maddə 48. Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq**

Müvafiq icra hakimiyyəti orqanları, mədəniyyət təsisatları, mədəniyyət işçilərinin həmkarlar ittifaqları, yaradıcılıq ittifaqları Azərbaycan Respublikasın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada başqa dövlətlərin hüquqi və fiziki şəxsləri ilə, beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində əməkdaşlığı həyata keçirə bilərlər.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikası ərazisində beynəlxalq mədəniyyət fondlarının və təşkilatlarının filialları və nümayəndəlikləri yaradıla bilər. Hər bir mədəniyyət təsisatının müvafiq beynəlxalq təşkilatlara daxil olmaq, habelə öz sıralarına əcnəbi üzvlər cəlb etmək hüququ vardır.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olunmaqla mədəniyyət sahəsində beynəlxalq əlaqələrin hər hansı şəkildə məhdudlaşdırılmasına yol verilmir.

**Maddə 49. Mədəniyyət sahəsində beynəlxalq mübadilə**

Azərbaycan Respublikası mədəniyyət sahəsində beynəlxalq mübadilənin inkişafına, milli mədəniyyətin xaricdə yayılmasına, o cümlədən peşəkar yaradıcı işçilərin və kollektivlərin, mütəxəssislərin və tələbələrin qarşılıqlı səfərlərinə köməklik göstərir, mədəniyyət sərvətlərinin və mədəniyyət fəaliyyəti nəticələrinin, habelə mədəniyyətin müxtəlif sahələrində iş təcrübəsinin mübadiləsinə yardım edir.

**Maddə 50. Mədəniyyət sərvətlərinin mühafizəsi sahəsində əməkdaşlıq**

Azərbaycan Respublikası mədəniyyət sərvətlərinin mühafizəsinə dair beynəlxalq əməkdaşlığı inkişaf etdirir, milli mədəniyyət sərvətlərinin mühafizəsi rejiminin Azərbaycan xalqının xaricdə olan nadir mədəniyyət

sərvətlərinə şamil edilməsi və onların qaytarılması üçün mümkün olan bütün tədbirlərdən istifadə edir.

**Maddə 51. Xaricdə yaşayan azərbaycanlılarla mədəni əlaqələr**

Müvafiq icra hakimiyyəti orqanları xaricdə yaşayan azərbaycanlılarla mədəni əlaqələr yaradır və inkişaf etdirir, o cümlədən onların mədəniyyət və informasiya mərkəzlərinin, fondlarının, təsisatlarının məqsədyönlü fəaliyyətinə köməklik göstərir, bu qurumların Azərbaycan Respublikasında nəşr olunan kitabları əldə etmələri, qəzet və jurnallara abunəçi olmaları üçün şərait yaradır.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 1998-ci il

*(Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu/Xalq qəzeti.-1998.-18 aprel.)*

## 5.6. İNFORMASİYA, İNFORMASİYALAŞDIRMA VƏ İNFORMASİYANIN MÜHAFİZƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Qanunun təsir dairəsi**

Bu qanun mformasiyanın yaranması, yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması əsasında informasiya ehtiyatlarının formalaşdırılması, informasiya sistemləri, texnologiyaları, onların təminat vasitələrinin yaradılması və onlardan istifadə olunması, informasiyanın mühafizəsi ilə əlaqədar olaraq yaranan münasibətləri tənzimləyir və informasiya proseslərində iştirak edən subyektlərin hüquqlarını müəyyən edir.

Bu qanun "Kütləvi informasiya vasitələri haqqında" və "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənən münasibətlərə şamil edilmir.

**Maddə 2. Əsas anlayışlar**

Qanunda aşağıdakı anlayışlar işlədilmişdir:

İnformasiya-təqdimat formasından asılı olmayaraq şəxslər, əşya, fakt, hadisə və proseslər haqqında məlumatlar;

sənədləşdirilmiş informasiya (sənəd)-maddi daşıyıcıda qeyd olunmuş və identikləşdirilməsinə imkan verən rekvizitlərə malik informasiya;

kütləvi informasiya-əldə olunması, işlənməsi, verilməsi və ya istifadəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırılmayan və ümumi istifadə üçün təyin olunmuş sənədləşdirilmiş informasiya;

konfidensial informasiya- əldə olunması, işlənməsi, verilməsi və ya istifadəsi Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhdudlaşdırılan sənədləşdirilmiş informasiya;

informasiya prosesləri-informasiyanın yaradılması, yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması;

informasiya texnologiyaları-informasiya prosesləri zamanı, o cümlədən hesablama və rabitə texnikasının tətbiqi ilə istifadə edilən üsul və vasitələr sistemi;

informasiya sistemi-informasiya texnologiyaları və sənədlərinin təşkilatı və texniki qaydada, o cümlədən hesablama texnikasından istifadə edilməklə, nizamlanmış məcmusu;

informasiya ehtiyatları-informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləri;

informasiya sistemləri və texnologiyalarının təminat vasitələri-informasiya sistemlərinin və texnologiyalarının yaradılması zamanı hazırlanan və onların istismarını təmin edən proqram, texniki, lindvistik, hüquqi, təşkilati vasitələr;

informasiya sistemləri, texnologiyaları, ehtiyatları və onların təminat vasitələrinin mülkiyyətçisi-göstərilən obyektlər üzərində tam sahiblik istifadə, sərəncam vermə hüququnu həyata keçirən subyekt;

informasiya sistemləri, texnologiyaları, ehtiyatları və onların təminat vasitələrinin sahibkarı-göstərilən obyektlər üzərində qanunla müəyyən olunmuş qaydada sahiblik və istifadə hüququnu həyata keçirən subyekt;

informasiyanın istifadəçisi-özü üçün zəruri informasiyanın alınması məqsədilə bilavasitə informasiya sisteminə və ya vasitəçiyə müraciət edən və ondan ancaq istifadə hüququna malik subyekt;

informasiya məhsulları-istifadəçilərin tələblərinə əsasən yaradılmış və onlarm tələbatlarının ödənilməsi üçün təyin olunmuş və ya tətbiq edilən sənədləşdirilmiş, informasiya, informasiya sistemləri, texnologiyaları və onların təminat vasitələri;

informasiya xidmətləri-istifadəçilərin informasiya məhsulları ilə təmin edilməsi üzrə subyektlərin (mülkiyyətçilər, sahibkarlar və ya vasitəçilərin) fəaliyyəti;

informasiyalaşdırma-informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasmda dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı

olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsinin optimal şəraitinin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki proses.

**Maddə 3. İnformasiyalaşdırma sahəsində dövlət siyasəti**

İnformasiyalaşdırma sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

milli informasiya fəzasının formalaşdırılması;

informasiyalaşdırma üzrə fəaliyyətin başlıca istiqamətlərinin təyini və meydana çıxan münasibətlərin tənzimlənməsi;

informasiya ehtiyatları, sistemləri, texnologiyaları və onların təminat vasi-tələri üzərində mülkiyyətin bütün formalarının inkişafina, informasiya məh-sullan və xidmətləri bazarının formalaşmasına yardım edilməsi;

dövlət informasiya ehtiyatlarının formalaşdırılması və mühafizəsi üçün zəruri olan şəraitin yaradılması;

ərazi informasiya şəbəkələrinin yaradılması, onların beynəlxalq informasiya şəbəkələri ilə uzlaşması, qarşıhqh əlaqəsinin təmin edilməsi üçün lazımi təşkilati, hüquqi, texniki siyasətin təyin edilməsi;

dövlət informasiya ehtiyatları əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların müvafiq informasiya ilə təmin olunması üçün şərait yaradılması;

informasiya fəzasında milli təhlükəsizliyin təmin edilməsi;

informasiya məhsulları və xidmətləri bazarında informasiya münasibətlərinin subyektləri, o cümlədən xarici subyektlər tərəfindən inhisar fəaliyyəti və haqsız rəqabətin qarşısının alınması və yol verilməməsi;

informasiyalaşdırma mühitində dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların hüquqlarının təmin olunması;

informasiyalaşdırma mühitində elmi-texniki və istehsal siyasətinin formalaşdırılması və həyata keçirilməsi;

informasiyalaşdırma layihələri və proqramlarının dəstəklənməsi, onların işlənməsi və həyata keçirilməsi üçün investisiyala-

rın cəlb olunması sisteminin və stimullaşdırma mexanizminin yaradılması;

informasiya prosesləri, informasiyalaşdırma və informasiyanın mühafizəsi sahəsində hüquqi bazanın inkişaf etdirilməsi.

## II fəsil
## İNFORMASİYA EHTİYATLARI

### Maddə 4. İnformasiya ehtiyatlarının hüquqi rejimi

İnformasiya ehtiyatları fiziki, hüquqi şəxslərin və dövlətin münasibət obyektləridir. Onlar Azərbaycan Respublikasının informasiya ehtiyatları hesab olunur və digər ehtiyatlar kimi qanunla qorunur.

İnformasiya ehtiyatlarının hüquqi rejimi aşağıdakı normalarla müəyyən edilir:

informasiyanın sənədləşdirilməsi qaydaları;

sənəd və sənəd massivləri üzərində mülkiyyət hüququ;

işləməyə buraxılmaq növünə görə informasiyanın kateqoriyaları;

informasiyanın mühafizə olunmasının hüquqi qaydaları.

### Maddə 5. İnformasiyanın sənədləşdirilməsi

İnformasiyanın sənədləşdirilməsi onun informasiya ehtiyatlarına daxil edilməsinin mütləq şərtidir. İnformasiyanın sənədləşdirilməsi Azərbaycan Respublikasının təhlükəsizliyi, kargüzarlıq, sənəd və sənəd massivlərinin standartlaşdırılması məsələlərinin təşkilinə cavabdeh olan müvafiq icra hakimiyyəti orqanlarının müəyyən etdiyi qaydalar əsasında həyata keçirilir.

Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə informasiya sistemlərindən, o cümlədən avtomatlaşdırılmış sistemlərdən alınmış sənəd vəzifəli şəxs tərəfindən imzalandıqdan sonra hüquqi qüvvəyə malik olur.

İnformasiya və telekommunikasiya sistemlərində dövr edən sənəd elektron imzası vasitəsilə də təsdiq edilə bilər.

Elektron imzası avtomatlaşdırılmış informasiya sistemində onun identikləşdirilməsi və istifadə olunma qaydasının gözlənilməsini təmin edən proqram-texniki vasitələr olduqda Azərbaycan Respublikasının

qanunvericiliyinə uyğun olaraq həyata keçirilir və hüquqi qüvvəyə malik olur.

**Maddə 6. İnformasiya ehtiyatları, sistemləri, texnologiyaları və onların təminat vasitələri üzərində mülkiyyət hüququ**

İnformasiya ehtiyatları, sistemləri, texnologiyaları və onların təminat vasitələri üzərində mülkiyyətin Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş bütün formalarına yol verilir.

Fiziki və hüquqi şəxslər onların vəsaitləri hesabına yaradılmış, qanuni yolla əldə edilmiş, yaxud bağışlama, vərəsəlik qaydasında toplanmış informasiya ehtiyatlarının, informasiya sistemlərinin, texnologiyalarının və onların təminat vasitələrinin mülkiyyətçisidirlər.

Azərbaycan Respublikasının büdcə vəsaitləri və dövlət idarə, müəssisə və təşkilatlarının vəsaitləri hesabına yaradılan, əldə edilən, toplanan informasiya ehtiyatları, sistemləri, texnologiyaları və onların təminat vasitələri dövlət mülkiyyətidir.

İnformasiya ehtiyatları, sistemləri, texnologiyaları və onların təminat vasitələri üzərində mülkiyyət hüququnun həyata keçirilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Sənədləşdirilmiş informasiyanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada icra hakimiyyəti orqanlarına və müvafiq təşkilatlara təqdim edən subyektlər bu sənədlərə mülkiyyət və onlardakı informasiyadan istifadə etmək hüquqlarını itirmirlər. Bu sənədlərə dövlət və onları təqdim etmiş subyektlər birgə sahibkarlıq hüququna malikdirlər.

İnformasiya məhsulu və xidmətinin qiymətləri Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq icra hakimiyyəti orqanları tərəfindən və ya bağlanmış müqavilələrlə müəyyən edilir.

İnformasiya proseslərində iştirak edən, informasiya məhsulu və xidmətlərini azad realizə edən bütün fiziki və hüquqi şəxslər ümumi informasiya bazarının iştirakçıları sayılırlar.

İnformasiya istifadəçiləri informasiya məhsul və xidmətlərinin mülkiyyətçiləri, sahibkarları, vasitəçilərini, informasiya növünü və işlənmə üsulunu, informasiya məhsulları və xidmətlərinin nomenklaturasını, Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, azad seçmək hüququna malikdirlər.

İnformasiyanın işlənmə vasitələri üzərində mülkiyyəti hüquqi informasiya ehtiyatları üzərində mülkiyyət hüququ yaratmır.

İşlənmə vasitələrinin birgə istifadə olunması halında ilkin sənədlər sahibkara məxsus olur, törəmə məhsulun məxsusluğu isə müqavilə ilə müəyyən olunur. İnformasiya ehtiyatlarının mülkiyyətçisi onun yaratdığı informasiyanın keyfiyyətinə görə məsuliyyət daşıyır.

Dövlət sirri təşkil edən informasiya ehtiyatları ilə işləmə qaydaları və mülkiyyət münasibətləri "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanununa və digər qanunvericilik aktlarına əsasən tənzimlənir.

**Maddə 7. Dövlət informasiya ehtiyatları**

Dövlət informasiya ehtiyatlarının formalaşdırılmasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar, vətəndaşlar iştirak edə bilərlər.

Dövlət hakimiyyət orqanları onların sərəncamında olan dövlət informasiya ehtiyatlarını formalaşdırır və səlahiyyətləri daxilində onlardan istifadəni təmin edirlər.

Dövlət hakimiyyət orqanları və təşkilatlarının dövlət informasiya ehtiyatlarının formalaşdırılması sahəsindəki fəaliyyəti dövlət büdcəsindən, xüsusi vəsaitlərdən və digər fondlardan maliyyələşdirilir.

Dövlət informasiya ehtiyatlarının formalaşdırılması və xidmətlərin göstərilməsi sahəsində ixtisaslaşan təşkilatların fəaliyyəti xüsusi razılıq əsasında həyata keçirilir.

**Maddə 8. Dövlət informasiya ehtiyatlarının formalaşdırılması üçün sənədləşdirilmiş informasiyanın təqdim olunması**

İnformasiya ehtiyatlarının formalaşdırılması və işlənməsinə cavabdeh olan orqan və təşkilatların siyahısı, eləcə də dövlət

hakimiyyəti və yerli özünüidarə orqanları, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar, vətəndaşlar tərəfindən sənədləşdirilmiş informasiyanın təqdim olunma qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Dövlət sirri təşkil edən və konfidensial informasiyanın formalaşdırılma və işlənmə qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 9. Milli informasiya ehtiyatları**

Dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar, vətəndaşların informasiya ehtiyatları və ya onların müəyyən hissələri Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən milli informasiya ehtiyatları elan edilə bilər və milli sərvət kimi mühafizə edilməlidir.

**Maddə 10. Daxilolma növünə görə informasiya ehtiyatları**

Daxilolma növünə görə informasiya ehtiyatları açıq və məhdudlaşdırılmış ola bilər. Azərbaycan Respublikasının qanunvericiliyi və müvafiq icra hakimiyyəti orqanlarının qərarları ilə daxilolma növünə görə məhdudlaşdırılmış sənədləşdirilmiş informasiya istisna olmaqla dövlət informasiya ehtiyatları istifadə üçün açıqdır.

Məhdudlaşdırılmış daxilolma növlü informasiya ehtiyatları hüquqi rejiminə görə dövlət sirli və konfidensial ola bilər.

Məlumatların dövlət sirrinə aid edilməsi, istifadəsi qaydaları və mühafizəsi "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir.

Dövlət sirrinə aid edilməyən, lakin vətəndaşların, idarə, müəssisə və təşkilatların qanuni marağının qorunması məqsədi ilə məxfiliyi təmin edilməli olan informasiya konfidensial xarakter daşıyır. Konfidensial informasiyanın toplanmasına, işlənməsinə, istifadəsinə və yayılmasına yalnız Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş hallarda yol verilə bilər.

## III fəsil
## İNFORMASİYA EHTİYATLARINDAN İSTİFADƏ OLUNMASI

**Maddə 11. İnformasiya ehtiyatları ilə işləməyə buraxılma hüququ**

Azərbaycan Respublikasının qanunvericiliyi və müvafiq icra hakimiyyəti orqanlarının qərarları ilə müraciət növünə görə məhdudlaşdırılmış sənədləşdirilmiş informasiya istisna olmaqla dövlət informasiya ehtiyatları ilə işləməyə buraxılmaqda istifadəçilər bərabər hüquqlara malikdirlər və məlumatlardan istifadə edilməsinin zəruriliyini informasiya ehtiyatlarının mülkiyyətçisi və ya sahibkarı qarşısında əsaslandırmağa məcbur deyillər.

İstifadəçilər tərəfindən qanuni əsaslarla dövlət informasiya ehtiyatlarından əldə olunmuş informasiyadan kommersiya məqsədləri üçün törəmə informasiya məhsulunun yaradılmasına yalnız alınma mənbəyinə istinad edilməklə istifadə olunmasına icazə verilir. Bu halda istifadəçiyə məxsus olan mənfəət dövlət informasiya ehtiyatlarından alınmış informasiyadan deyil, törəmə informasiya məhsulunun yaradılması nəticəsində olur.

İstifadəçilərə informasiya ilə işləməyə buraxılmanın qaydası, bu qanunun tələblərinə əməl edilməklə müvafiq icra hakimiyyəti orqanı və mülkiyyətçi tərəfindən müəyyən edilir. Bu qaydalar və göstərilən xidmətlər haqqında məlumatların verilməsi üçün haqq alınmır.

İnformasiya ehtiyatlarından istifadə edənlərə haqqı ödənilmədən və ya xidmətlərə çəkilən xərcləri qismən ödəməklə təqdim olunan informasiya xidmətlərinin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. Göstərilmiş xidmətlərə çəkilmiş xərclərdəki fərqin kompensasiyası dövlət büdcəsindən, xüsusi vəsaitlərdən və digər mənbələrdən ödənilir.

**Maddə 12. Fiziki və hüquqi şəxslərin özləri barəsində informasiyaya buraxılmaq hüququ**

Fiziki və hüquqi şəxslər barəsində sənədləşdirilmiş informasiyanın siyahısı və onların informasiya sistemlərində istifadə

edilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Fiziki və hüquqi şəxslər özləri barəsindəki sənədləşdirilmiş informasiyaya, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallar istisna edilməklə, maneəsiz olaraq buraxılmaq, bu informasiyada dəqiqləşdirmələr aparılmasını tələb etmək, informasiyadan kimlərin və hansı məqsədlə istifadə etdiyini bilmək hüququ vardır.

**Maddə 13. İnformasiya ehtiyatları mülkiyyətçisi və ya sahibkarının məsuliyyəti**

İnformasiya ehtiyatlarından istifadə qaydalarının pozulmasına, istifadəçilərin hüquqlarının əsassız olaraq məhdudlaşdırılmasına görə mülkiyyətçi və ya sahibkar, habelə vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyırlar.

## IV fəsil
## İNFORMASİYALAŞDIRMA, İNFORMASİYA SİSTEMLƏRİ, TEXNOLOGİYALARIVƏ ONLARIN TƏMİNAT VASİTƏLƏRİ

**Maddə 14. İnformasiya sistemləri, texnologiyaları və onların təminat vasitələrinin yaradılması və istehsalı**

Dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar, vətəndaşların informasiya sistemləri, texnologiyaları və onların təminat vasitələrinin yaradılması və istehsalında bərabər hüquqları vardır.

Dövlət informasiya sistemlərinin, texnologiyalarının və onların təminat vasitələrinin yaradılması və istehsalı sahəsində elmi və təcrübi-layihə işlərinin aparılmasına şərait yaradır.

İnformasiyalaşdırmanın aparıcı istiqamətlərinin müəyyən edilməsi, onun inkişafı üçün müvafiq tədbirlərin görülməsi, dövlət informasiya sistemlərinin yaradılması müvafiq icra hakimiyyəti orqanları tərəfindən

müəyyən edilir və görülən işlər dövlət büdcəsi, xüsusi vəsaitlər və digər mənbələrdən maliyyələşdirilir.

**Maddə 15. İnformasiya sistemləri, texnologiyaları və onların təminat vasitələrinə müəlliflik hüququ**

İnformasiya sistemləri, texnologiyaları və onların təminat vasitələrinə* müəlliflik hüququ və onun müdafiəsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 16. İnformasiya sistemləri, texnologiyaları və onların təminat vasitələrinin sertifikasiyası, yaradılması və istifadəsi sahəsində xüsusi qaydalar**

Vətəndaşların və təşkilatların informasiya təminatı üçün nəzərdə tutulan informasiya sistemləri, verilənlər bazası və verilənlər bankı, konfidensial informasiyanın işlənməsini həyata keçirən dövlət orqanları, idarə, müəssisə və təşkilatların informasiya sistemləri, habelə bu sistemlərin mühafizə vasitələri müəyyənləşdirilmiş cqaydada sertifikasiyalaşdırılmalıdır.

İnformasiya mühafizə vasitələrinin layihələşdirilməsi və istehsalı sahəsində fəaliyyət xüsusi razılıq əsasında həyata keçirilir.

## V fəsil
## İNFORMASİYANIN MÜHAFİZƏSİ

**Maddə 17. İnformasiya ehtiyatları və prosesləri sahəsində mühafizənin məqsədləri**

İnformasiyanın mühafizəsinin məqsədləri aşağıdakılardan ibarətdir:

informasiyanın məhvinin, itməsinin, saxtalaşdırılmasının qarşısının alınması;

dövlətin, ictimaiyyətin, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi;

informassiyanın məhvi, modifikasiyası, surətinin çıxarılması, təcrid edilməsi ilə bağlı sanksiyalaşdırılmamış hərəkətlərin qarşısının alınması;

dövlət sirri təşkil edən və konfidensial informasiyanın məxfiliyinin qorunması;

informasiya proseslərində və informasiya sistemlərinin, texnologiyalarının və onların təminat vasitələrinin işlənməsi, istehsah, tətbiqi zamanı fiziki və hüquqi şəxslərin hüquqlarının təmin olunması.

**Maddə 18. İnformasiyanın mühafizəsinin təşkili**

Barəsində qanunsuz əməliyyatlar və davranış nəticəsində mülkiyyətçiyə, sahibkara, istifadəçiyə və ya başqa şəxslərə ziyan vurula bilən hər hansı sənədləşdirilmiş informasiya mühafizə olunmalıdır.

İnformasiyanın mühafizə rejimi, onun məxfilik dərəcəsi və daxilolma növündən asılı olaraq "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunu ilə, bu qanunla, digər normativ-hüquqi aktlarla, habelə mülkiyyətçi tərəfindən müəyyən edilir.

İnformasiya ehtiyatlarının mülkiyyətçisi və ya Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq informasiya mühafizəsi üçün məsul struktur bölmələr informasiya mühafizəsi tələblərinə əməl edilməsinə nəzarət etmək, bu tələblər pozulduqda isə informasiya ilə işləməyi qadağan etmək və ya dayandırmaq hüququna malikdirlər.

Sənədləşdirilmiş informasiyanın mülkiyyətçisi və ya sahibkarı informasiya sistemlərindəki ona məxsus informasiyanın mühafizəsinin norma və tələblərinə riayət olunmasını müəyyənləşdirmək üçün müvafiq orqanlara müraciət edə bilərlər. Bu orqanlar informasiyanın özünün və yoxlamanın nəticələrinin məxfiliyi şərtlərinə əməl etməlidirlər.

**Maddə 19. İnformasiyanın mühafizəsi sahəsində subyektlərin hüquq və vəzifələri**

Sənədlərin, sənəd massivlərinin, informasiya sistemlərinin mülkiyyətçisi və ya müvafiq icra hakimiyyəti orqanları informasiyanın istifadəçiyə təqdim edilməsinin qaydalarını bu qanuna uyğun olaraq müəyyən edir və istifadəçilərin sənədlərlə işləməyə buraxılmasını təmin edirlər.

Sertifikatlaşdırılmamış informasiya sistem və vasitələrdən istifadə olunması və xidmətlərin göstərilməsi ilə bağlı məsuliyyəti bu sistem və vasitələrin mülkiyyətçisi və ya sahibkarı, belə sistemlərdən əldə olunan informasiyadan istifadə üçün isə məsuliyyəti istifadəçi daşıyır.

**Maddə 20. İnformasiyalaşdırma mühitində subyektlərin hüquqlarının müdafiəsi**

İnformasiyanın istifadəçisi informasiya mülkiyyətçisi və ya sahibkarının hüquqlarına riayət edilməməsinə görə məsuliyyət daşıyır.

İnformasiya məhsulları və xidmətlərinin mülkiyyətçiləri ilə istifadəçilər arasında münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydalarla, müqavilələrlə rəsmiləşdirilir. Onlar arasında yaranan mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş qaydada məhkəmə vasitəsilə həll edilir.

İnformasiyanı korlamaqla və ya dəyişdirməklə onun sahibinə ziyan vuran fiziki və hüquqi şəxslər hərəkətlərinə görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

İnformasiya ehtiyatlarının formalaşdırılması, istifadə olunması, işlənməsi, informasiya sistemləri, texnologiyaları və onların təminat vasitələrinin istehsalı və tətbiqi sahəsində fiziki və hüquqi şəxslərin hüquqlarının müdafiəsi qanun pozuntularının qırşısının alınması, pozulmuş hüquqların bərpa edilməsi, dəymiş ziyanın ödənilməsi məqsədini daşıyır. Bu hüquqların müdafiəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq orqanlar tərəfindən həyata keçirilir.

İstifadəçinin açıq informasiya ilə işləməsinə məhdudiyyətlər qoyulması və ya buraxılmaması, bilərəkdən yanlış informasiya verilməsi və Azərbaycan Respublikasının qanunvericiliyi və ya bağlanmış müqavilələrin şərtləri yerinə yetirilmədiyi hallarda istifadəçi məhkəməyə şikayət etmək və bu hərəkətlər nəticəsində dəymiş ziyanın ödənilməsini tələb etmək hüququna malikdir.

Vətəndaşların informasiya ilə işləmək hüququnun əsassız olaraq

məhdudlaşdırılmasında təqsiri olan vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

## VI fəsil
## İNFORMASİYA SAHƏSİNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Maddə 21. İnformasiya sahəsində beynəlxalq fəaliyyət**

İnformasiya sahəsində dövlətlərarası əməkdaşlıq Azərbaycan Respublikasının imzaladığı müqavilələrə uyğun olaraq həyata keçirilir.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində bu qanunda nəzərə alınmış qaydalardan fərqlər müəyyən olunduqda beynəlxalq müqavilələrin müddəaları tətbiq olunur.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 3 aprel 1998-ci il**

*(İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu//Azərbaycan.-1998-ci il.- 23 iyun.)*

## 5.7. MƏMMƏDƏMİN RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİ MÜƏLLİMLƏRİNİN TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Məmmədəmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə universitetin aşağıdakı müəllimləri elm və təhsil sahələrində xidmətlərinə görə təltif edilsin:

**“Şöhrət” ordeni ilə**

Xələfov Abuzər Alı oğlu

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 fevral 2000-ci il

**(Məmmədəmin Rəsulzadə adına Bakı Dövlət Universiteti müəllimlərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanından çıxarış // Azərbaycan.-2000.-12 fevral)**

## 5.8. A.A.XƏLƏFOVA "ƏMƏKDAR ELM XADİMİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda kitabxanaşünaslıq elminin inkişaf etdirilməsindəki xidmətlərinə görə Abuzər Alı oğlu Xələfova "Əməkdar elm xadimi" fəxri adı verilsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 dekabr 2001-ci il**

*(A.A.Xələfova "Əməkdar elm xadimi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı // Azərbaycan.-2001 .-25 dekabr.)*

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XVII cildlər.- B.: Azər-nəşr, 1997-2006.
2. Əliyev H.Ə. Müstəqillik yollarında / Bur. məs.: F. Abdullazadə: Çoxcildli.-B.: Azərbaycan, 1997.
3. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı / Tərt. edənlər: A.A.Xələfov, S.A.Sadıqova; Red. və ön sözün müəllifi A.M. Məhərrəmov.-B.: Bakı Universiteti Nəşriyyatı, 2003.-434 s.
4. Гейдар Алиев: Библиографический справочник / Составители: А.А.Халафов, С.А.Садыгова; Ред. И автор выступ. А.М.Магеррамов. –Б.:Издательство Бакинского Университета, 2003. – 446 с.
5. Heydar Aliyev: Biblioqrafik refernce book / Compled by: A.A.Khalafov, S.A.Sadıqova; Editor and preface A.M.Maharamov.- B.: Baku University Press, 2003.-455 p.
6. Abbasbəyli A. Azərbaycanın gələcəyi naminə / Red.: R.Mustafayev, V. Abdullayev; Rəyçi: Q.Əliyev, Q. Məmmədov (Heydər Əliyev haqqında).-B.: Azərnəşr, 2001.- 96 s.
7. Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyevin sülh strategiyası / Elmi red.: M.Cəlilov.-B.: Elm, 1999.- 160 s.
8. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında
Elmi red.:A. Abbasbəyli.-B: Azərbaycan, 2000.- 480 s.
9. Abdullazadə F. Heydər Əliyev: Siyasi portret.-B.: XXI əsr Yeni Nəşrlər Evi, 1998.- 114 s.
10. Ağsaqqal sözü / Budaqovun ümumi redaktəsi ilə (Heydər Əliyev haqqında).-B.:Oğuz eli, 1998.- 168 s.
11. Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (aprel-iyun 1997-ci il).-B.: Azərbaycan, 1997.-203 s.
12. Azərbaycanda mədəniyyət siyasəti. - Bakı, 2003.
13. Azərbaycan mədəniyyəti və incəsənəti. I kitab.- Bakı, 2005.

14. Bayramov Q. Heydər Əliyev və Azərbaycan tarix elmi.-B., 2004.- 262 s.
**15**. Библиотеки Азербайджана: как и какое будущее? Оклад подготовленный Евгением Кузьминым.- Проект «Stage» Council of Europe. – Страсбург, 2004.
16. Cəfərov N. Azərbaycanşünaslığa giriş/Elmi red: H.İmanov.- B.: AzAtAM, 2002.- 600.
17. Cultural policy in Azerbaijan. — Baku, 2003.
18. Əhmədov Q. Birinci şəxs: Prezidentin portret cizgiləri: Kit.l / Bur. məs: Q. Əliyev; Red.: B.Bayramov.-B.: Dünya, 1997.-208 s.
19. Əsrə bərabər otuz il / Tərt ed.: N.Arifqızı; Əhməd Elbrus. II tamamlanmış nəşr.-B.: Qorqud.2000.- 465 s.
20. Əsrin müqaviləsi / Bur.məs.: R. Mehdiyev; Tərt ed.: H. Orucova.- B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1996.-110 s.
21. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır / Tərt ed.: N. İbrahimov, İ. Şükürov.-B.: Azərbaycan, 1994.- 190 s.
22. Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili / Red.: B.Nəbiyev.- B.: Elm. 1998.- 196 s.
23. Heydər Əliyev iqtisadi idarəetmə məktəbi / Bur. məs.: Q.M. Əliyev; Elmi red.: A.A. Nadirov, M.M.Sadıqov.-B.: Əbilov və Zeynalov qardaşları, 2001.- 180 s.
24. Heydər Əliyev işığı-İpək yolu. / Red.: Hidayət.-B.: Çaşıoğlu, 2000.- 242 s.
25. Heydər Əliyev mədəni irsinin keşiyində: 2 cilddə: C.l. Azərbaycan Respublikası Prezidentinin Katibliyi.-B., 2001.-438 s.
26. Heydər Əliyev mədəni irsinin keşiyində: 2 cilddə: C.2. Azərbaycan Respublikası Prezidentinin Katibliyi.-B., 2001.- 547 s.
27. Heydər Əliyev Azərbaycan ədəbiyyatı / Red.: B.Nəbiyev.-B.: Elm, 1998. -178 s.
28. Heydər Əliyev Azərbaycan incəsənəti / Red.: B.Nəbiyev, R.Əfəndiyev.- B,: Elm, 2000.-124 s.

29. Heydər Əliyev və Azərbaycan rabitəsi / Tərt ecLM.İsmayılov; Red.: X.Abbasov.- B.: “Azərmarka” şirkəti, 2002.-136 s.
30. Heydər Əliyev və Şərq: 6 cilddə: C.l. / İdeyanın və ön sözün müəllifi V.Quliyev; Müəl. Tərt ed.: Q.Allahverdiyev, V.Sultanzadə; Red.: M.Qurbanlı.-B.: Tural-ƏNPM, 2002.- 382 s.
31. Heydər Əliyev neft strategiyası: Azərbaycan müstəqilliyi və rifahı naminə: 2 hissədə hissə 1./ Azərbaycan Respublikası Prezidentinin Katibliyi.-B., 2001.- 491 s.
32. Həsənov Ə.M. Azərbaycan xarici siyasəti. Avropa dövlətləri və ABŞ (1991-1996) / Ön sözün müəl və rəyçi: Y Mahmudlu: Red.: Ə.Mehdiyev.-B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1998.-315 s.
33. Hidayət. Sözün vaxtı: Şəxsiyyət, zaman, sənət.-B.: Şərq-Qərb, 1999.-676 s.
34. Hüseynova İ. Dövlətçilik naminə (Heydər Əliyev haqqında).-B.: Bakı Universiteti Nəşriyyatı. 2001.- 288 s.
35. Xələfov A.A. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin formalaşmasında Heydər Əliyev irsinin rolu // Azərbaycan .-2001.- 10 oktyabr.
36. Xələfov A.A. Azərbaycan müstəqilliyinə və milli ideologiyasına qiymətli töhfə: Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin əsərlərinin nəşri haqqında: Tezis // Qafqaz : Tarix, müasirlik və geosiyasi perspektivlər.-B.: Elm, 1998.- s.5-7; Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası.-1998.-N°l.-s.l28-139,Azərbaycan.-1998.-10 fevral.
37. Xələfov A.A. Azərbaycan Respublikası prezidenti cənab Heydər Əliyevə // Azərbaycan Yolları.-2002.-7 may.
38. Xələfov A.A. Azərbaycan Respublikası prezidenti İlham Əliyevə, // Azad Azərbaycan .-2004.- 18 yanvar.
39. Xələfov A.A. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bəzi yekunları və təkmilləşdirilməsi məsələləri // Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri (Elmi əsərlərin tematik məcmuəsi).-B.: ADU, 1986.- s.3-24.
40. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi (Ən qədim dövrlərdən XX əsrə qədər): Dərslik: II hissə I hissə.- B.: BDU, 2004.- 328 s.

41. Xələfov A.A. Azərbaycanın müstəqilliyinə və milli ideologiyasına qiymətli töhfə: Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin əsərlərinin nəşri haqqında // Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası.-B., 1998.- JN°1. s. 128-138.
42. Xələfov A.A. 2003-cü ilin "Heydər Əliyev ili" elan olunması tarixi zərurətdir // Azad Azərbaycan .- 2002.- 29 dekabr.
43. Xələfov A.A. İnkişaf etmiş sosializm cəmiyyəti şəraitində Azərbaycanda kütləvi kitabxanaların inkişafı (1960-1965-ci illər) // İnkişaf etmiş sosializm şəraitində Azərbaycanda əhaliyə kitabxana xidmətinin təşkili: (Elmi əsərlərin tematik məcmuəsi).-B.: ADU, 1983,-s. 3-32.
44. Xələfov A.A. İnkişaf etmiş sosializm cəmiyyətində Azərbaycanda kitabxana işi // Müasir mərhələdə Azərbaycanda kitabxana işi mərhələləri: (Elmi əsərlərin tematik məcmuəsi).-B.: ADU, 1981.-s.3-21.
45. Xələfov A.A. Heydər Əliyev əsərlərinin nəşri və təbliği // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal.-B.: BDU.-2002.- W° 2 .-s. 5-16.
46. Xələfov A.A. Heydər Əliyev əsərlərinin nəşri və təbliği məsələləri // Azad Azərbaycan 2003.- 4 may.
47. Xələfov A.A. Heydər Əliyev məktəbinin layiqli yetirməsi // Azad Azərbaycan 2003.- 10 oktyabr.
48. Xələfov A.A. Heydər Əliyevin əməlləri əbədidir // Dahi.- 2004.- 7 avqust.
49. Xələfov A.A. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda kitabxana işinin inkişafı (1970-1980-cı illər) // Azərbaycan Xalq Cümhuriyyəti 80 illiyinə həsr olunmuş elmi konfransın materialları. C. 2. Humanitar və sosial siyasi elmlər ser. B.: BDU, 1998.- s. 222-223.
50. Xələfov A.A. Xalqımızın milli iftixarı. / Qərbi Azərbaycan .- 2003.- 10 may.
51. Xələfov A.A. Kitabxana işinin inkişaf etmiş sosializmin tələbləri səviyyəsinə // Azərbaycan kommunisti.- 1985.-JMsİO.- s. 79-85.

52. Xələfov A.A. Kİtabxanaçılar adından təşəkkür // Azad Azərbaycan .- 2003.-13 iyun.

53. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. 3 hissədə. I-II hissə.-B.: BDU, 2001.- 400 s.

54. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. 3 hissədə. III hissə.-B.: BDU, 2003.- 314 s.

55. Xələfov A.A. Mən fəxr edirəm ki, Bakı Dövlət Uni-versitetinin məzunuyam // Respublika.- 2002.- 24 fevral.

56. Xələfov A.A. Milli dövlətçiliyimiz naminə (Heydər Əliyevə həsr olunmuş kitabın nəşri ilə əlaqədar) // Azərbaycan .-1995.- 17 may.

57. Xələfov A.A. Sosializm cəmiyyətini təkmilləşdirmək və tədricən kommunizmə keçməsi illərində Azərbaycanda kitabxana işi: (1959-1965-ci illər) //Azərbaycan Dövlət Universitetinin elmi əsərləri: Kitabxanaşünaslıq və biblioqrafiya ser.-B., 1974.-X2l.-s.8-16.

58. Xələfov A.A. Sosializmin təkmilləşməsi illərində Azərbaycanda kənd əhalisinə kitabxana xidmətinin təşkili: (1970-1986-ci illər) // Sosializm təkmilləşməsi illərində Azərbaycanda kənd əhalisinə kitabxana xidmətinin təşkili: (1970-1986-ci illər) (Elmi əsərlərin tematik məcmuəsi).-B., 1988.- s.3-20.

59. Xələfov A.A. Sovet Azərbaycanın kitabxana işinin inkişafı // Azərbaycan Dövlət Universitetinin elmi əsərləri: Kitabxanaşünaslıq və biblioqrafiya ser.-B., 1977.-N°2.- s.3-6.

60. Xələfov A.A. Sovet Azərbaycanın kitabxana işinin nailiyyətləri // Azərbaycanda kitabxana işinin inkişaf mərhələləri, müasir vəziyyəti // Elmi əsərlərin mövzu toplusu.-B .: BUN, 1991.-s.3-20.

61. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili.- B.: Təhsil, 1997.-288 s.

62. Караев А.М.,Исмаилов В.И.. Социализация молодежи в коммуникативном пространстве современной культуры.- Баку, 2005.

63. Культурная политика в Азербайджане,- Баку, 2003.

64. Qafarov T.B. Azərbaycan Respublikası: Əsrə bərabər 10 il (1991-2001). B.: Tural.-Ə.NPM, 2001.- 325 s.

65. Qaralov Z. Hər dövrün bir kitabı var / Tərt. Ed. İ. Akifqızı, Z.Qaralova.-B.: Çaşıoğlu, 1999.-108 s.

66. Qasımlı İ., İldırım İ. Heydər Əliyev biblioqrafiyası: Kit 1. (Heydər Əliyevin 75 illiyinə həsr olunmuşdur).- B.: Dünya, 1998.- 152 s.

67. Quliyeva X. Heydər Əliyev və mənəvi -estetik dəyərlər / Red. Və ön söz müəl.: V Həbiboğlu.- B.: Azərnəşr, 2002.-176 s.

68. Qurtuluş / Tərt ed.: A. Babayev, H.Babayev: Məs. Red.: M. Ələsgərov (Azərbaycan Respublikası prezidenti zati-aliləri Heydər Əliyevin anadan olmasının 75 illiyinə həsr edilmişdir) Azərbaycan Respublikası Milli Məclisinin nəşri.- B.: Azərbaycan, 1998.-463 s.

69. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti / Elmi red.: Ə.M. Həsənov.- B.: Təhsil, 2002.- 328 s.

70. Maqsudov F. Heydər Əliyev və Azərbaycan elmi.-B.: Elm, 1998.

71. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqrım gerçəklikləri / Məs. Red.: F. Abdullazadə (Prezident Heydər Əliyevin fəaliyyətindən bəhs edir).-B.: Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsi, 2000.-204 s.

72. Məhərrəmov A. Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu. / Elmi məsləhətçi və red.: C. Əliyev.-B.: Bakı Universiteti Nəşriyyatı, 2001.- 229 s.

73. MaMe,najiHeBa C. KyjıtTypa H nejıOBeK. -BaKy, 2005.

74. Məmmədəliyeva S. Qloballaşma dövründə mədəniyyətin fəlsəfi aspektləri. - Bakı, 2006.

75. Məmmədova L. Azərbaycan kitabxanaları: modernləşmə yolları axtarışında. - Bakı, 2003.

76. MaMejjOBa JI. EHÖJIHOTCKH A3ep6aHjj)KaHa: noucK nyTefi MOJjepHH3auHH. - BaKy, 2003.

77. Məmmədova S. Zaman, şəxsiyyət və cəmiyyət / Red.: F.Əhmədov; Rəyçi F. Qasımzadə.-B.: Ozan, 1998.-168 s.

78. Məhərrəmov M. Heydər Əliyev və Bakı Dövlət Universiteti: I nəşr.-B., 1997.- 140 s.

79. Mirələmov H. Amalın işığında: Publisistik düşüncələr, portret cizgiləri, müsahibələr / Red.: Ə. Xələfli.-B.: Azərnəşr, 2002.-271 s.

80. Mirzəyev R. Heydər Əliyev və müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası.-B.: Göytürk, 1999.- 160 s.

81. Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan/ Red.: S. Xəlilov.- B.: Göytürk, 1998.-335 s.

82. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: Müstəqilliyə aparan yollar / Red.: A.Həsənov.-B.: Azərbaycan Respublikası "Kitab" Cəmiyyəti, 1998.- 254 s.

83. Səfərov S. 10 il müstəqillik və iqtisadiyyat / Red.: A. Abdullayev.- B.: Azərnəşr, 2001.- 328 s.

84. Səfərov S. İ. Heydər Əliyev müstəqilliyin iqtisadi siyasət strategiyası haqqında / Dövlət idarəçiliyi: sosial-iqtisadi aspektlər.-B.: Azərbaycan Respublikası prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyası, 2002.

## MÜNDƏRİCAT

Ön söz…………………………………………………………………......5

**I fəsil**
Azərbaycanda kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi (XX əsrin 70-80-ci illəri)…………………………………...16

**II fəsil**
Heydər Əliyev və müstəqillik illərində Azərbaycanda kitabxana işi………………………………………………………........56
2.1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kitabxana şəbəkəsi müstəqillik illərində…………………………………….90
2.2. M.F. Axundov adına Milli Kitabxanası müstəqillik illərində…………………………………………………........96
2.3. F.Köçərli adına Respublika Uşaq Kitabxanası müstəqillik illərində…………………………………………………......108
2.4. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası müstəqillik illərində………………………………………………….....112
2.5. Respublika Təhsil Nazirliyinin kitabxana şəbəkəsi müstəqillik illərində………………………………………………….....115
2.6. Respublika Elmi Pedaqoji Kitabxanası müstəqillik illərində…….......119
2.7. Ali məktəb kitabxanaları müstəqillik illərində 169…………………......123
2.8. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası müstəqillik illərində………………………………………………….....126
2.9. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində……………………………….136
2.10. Respublika Elmi Texniki Kitabxanası müstəqillik illərində………....149
2.11. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kitabxanası müstəqillik illərində…………………………………….161
2.12. Azərbaycan Respublikası Milli Məclisinin Kitabxanası……………..170
2.13. Müstəqillik illərində kitabxana işi sahəsində dövlət siyasəti……………………………………………………………….179

**Son söz əvəzi**........................................................................................193

**Əlavələr**..........................................................................198
1. Heydər Əlirza oğlu Əliyev haqqında qısa bioqrafik məlumat..........................................................................198
2. Təltiflər......................................................................201
2.1. Heydər Əliyevin təltif olunduğu SSRİ-nin orden və Medalları..........................................................................201
2.2 Heydər Əliyevin təltif olunduğu beynəlxalq orden və medalları..........................................................................203
2.3. Heydər Əliyevin təltif olunduğu fəxri elmi adlar..........................204
2.4. Heydər Əliyevin təltif olunduğu fəxri adlar və Mükafatlar..........................................................................205

3. Heydər Əliyevin kəlamlarından..........................................209

4. Dünyanın görkəmli siyasətçiləri, elm və mədəniyyət xadimləri Heydər Əliyev haqqında..........................................................218
5. Heydər Əliyevin kitabxana işinə dair çıxışları, imzaladığı qanunlar, fərmanlarvə sərəncamlar..............................................239

5.1. M.F. Axundov adına Dövlət Kitabxanasında "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabın təqdimat-sərgisində çıxış. 3 iyun 1995-ci il.........................................239
5.2. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu..........................................................................245
5.3. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı..............................................258
5.4. "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramının" təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu..................................................260
5.5. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu..........................................................................264

5.6. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu………………287
5.7. Məmmədəmin Rəsulzadə adına Bakı Dövlət Universiteti müəllimlərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı…………………………....300
5.8. A.A.Xələfova "Əməkdar elm xadimi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı………………………………………………………...301

**İstifadə edilmiş ədəbiyyat**…………………………………………........302

Rəssamı
**Fuad Fərəcov**

Yığım üzrə operator
**İlhamə Kərimova**

Kompüter tərtibatı
**Məhəbbət Orucov**

Tayms" qarnitur. Formatı 60x90 1/16.
Ofset çapı. Şərti çap vərəqi 19.5
Tirajı 500. Müqavilə qiyməti ilə.